


***Bismillahir rəhmanir rəhim***

**_İRAN İSLAM RESPUBLİKASININ BAKIDAKI MƏDƏNİYYƏT MƏRKƏZİ_**

*«Fiqh Təlimi», Bakı, «Qələm»-2005*

*Hazırlayan: Dürdanə Cəfərli*
*Mehriban Soltanova*

*Məsləhətçi: Məmməd Baqir Saivər*

*Kitab Azərbaycan Respublikasının Dini Qurumlarla iş üzrə Dövlət Komitəsində 10 may 2005-ci il tarixində qeydiyyata alınmışdır.*

*Qeydiyyat nömrəsi: DK-242 d*

*İİK-nin Bakıdakı Mədəniyyət Mərkəzi – 2005*

*Kitab Qələm Nəşriyyatı MMC-nin Poliqrafiya müəssisəsində hazır depozitivlərdən çap olunmuşdur.*

## ***Müqəddimə***

وَمَا كَانَ الْمُؤْمِنُونَ لِيَنفِرُوا كَافَّةً فَلَوْلَا نَفَرَ مِن كُلِّ فِرْقَةٍ مِّنْهُمْ طَائِفَةٌ لِّيَتَفَقَّهُوا فِي
الدِّينِ وَلِيُنذِرُوا قَوْمَهُمْ إِذَا رَجَعُوا إِلَيْهِمْ لَعَلَّهُمْ يَحْذَرُونَ

***"Möminlərin hamısı birdən (cihada, döyüşə) çıxmamalıdır. Niyə hər tayfadan bir dəstə səfər etmir ki, (din elmlərini) dərindən öyrənsinlər və qayıtdıqda öz qövmlərini (Allahın əzabı ilə) qorxutsunlar. Bəlkə onlar çəkinsinlər!"***

(Tövbə surəsi, ayə122)

*Bəşərin dünya və axirətdəki səadəti, sağlam etiqad, İslam dininin göstərişlərinə əməl edib onu gündəlik (fərdi və ictimai) həyatda tətbiq etmək ilə bağlı olduğuna görə dinin cəmiyyətdəki zəruriliyi inkar olunmazdır.*

*Biz müsəlmanların fərdi və ictimai həyatı ilə bağlı bütün dini göstərişlər birinci növbədə heç vaxt təhrifə uğramayan müqəddəs Qurani-Kərimdən, ondan sonra mötəbər mənbəmiz Peyğəmbərin (s) və məsum İmamların sünnəsindən qaynaqlanır.*

*Uzun əsrlər boyu böyük şəxsiyyətlər, əzəmətli alimlər çox dəyərli ömürlərini şəriət məsələlərini qeyd etdiyimiz bu əsas mənbələrdən əldə edib onu düzgün şəkildə insanlara çatdırmağa həsr etmişlər. Onlar "fiqh" adlanan bu elmi sahədə cild-cild kitablar yazıb və bu elmi başqalarına tədris edərək böyük alimlər yetişdirmişlər.*

*Hər dövrdə olduğu kimi, bu gün də müsəlmanların şəriət məsələlərini öyrənməsinə böyük ehtiyac vardır.*

*Sizə təqdim etdiyimiz bu kitab fiqhi məsələləri müsəlmanlara, xüsusilə tələbələrə, daha asan və yadda qalan şəkildə öyrədilməsi məqsədilə yazılmışdır. Kitabın yazılma üslubu və tərtibində əsasən hörmətli ustad Muhəmməd Huseyn Fəllahzadənin "Amuzeşi fiqh" və Seyyid Muhəmməd Həsən Bəni Haşimi Xomeyninin tərtib etdiyi "Tovzihul-Məsaile məraci" kitabından istifadə edilmişdir.*

*"Fiqh təlimi." kitabı üç müasir müctəhidin Həzrəti Ayətullahul-Uzma Seyyid Əli Huseyni Xameneinin, Həzrəti Ayətullahul-Uzma Hacı Şeyx Muhəmməd Fazil Lənkəraninin, Həzrəti Ayətullahul-Uzma Seyyid Əli Sistaninin fətvaları əsasında yazılmışdır. Kitabın mətni Ayətullahul-Uzma Lənkərani və Ayətullahul-Uzma Sistaninin fətvaları əsasında tərtib edilmiş,*

*fətvalar arasındakı fərq isə xüsusi nişanələrdən istifadə edilərək səhifənin aşağı hissəsində qeyd olunmuşdur. Ayətullahul-Uzma Xameneinin fətvaları isə "Bir neçə şəri suala cavab" başlığı altında ayrıca bir bölmə kimi verilmişdir.*

*Ümid edirik ki, bu kitab fiqh elminin öyrənilməsində siz oxuculara faydalı olacaqdır. Hamınıza Quran və Əhli-Beyt (ə) yolunun həqiqətlərini öyrənib əməl etməkdə müvəffəqiyyət arzulayırıq!*

## ŞİƏ FƏQİHLƏRİ

| | Fəqihin adı | Ləqəb | Doğulduğu yer | Vəfat tarixi | Ən məşhur kitabı |
|---|---|---|---|---|---|
| | Əli ibn Babəvey | Səduqe Əvvəl | Qum | 329 | əl-Fiqhur-Rəzəvi |
| | Həsən ibn Əli ibn Əqil | İbn Əqil Ommani | Omman | 329 | əl-Mutə-məs-siku bihəbli Ali Rəsul |
| | Muhəmməd ibn Əli ibn Babəvey | Şeyx Səduq | Qum | 381 | əl-Muqni, Mən lə yəh-zəruhul Fəqih |
| | Muhəmməd ibn Əhməd ibn Cuneyd İskafi | İbn Cuneyd | İskaf | 381 | Təhzibuş- -Şiə li əh-kamiş- -Şəriə |
| | Muhəmməd ibn Muhəmməd ibn Nöman | Şeyx Mufid | Bağdad | 413 | Muqniə |
| | Əli İbn Huseyn İbn Musa | Seyyid Murtəza | Bağdad | 436 | əl-İntisar |
| | Əbu Cəfər Muhəmməd ibn Həsən Tusi | Şeyxut- -Taifə, Şeyx Tusi | Tus | 460 | Təhzibul Əhkam, İstibsar, Məbsut |
| | Şeyx Əbül Qasim Əbdül Əziz ibn Bərrac | İbn Bərrac | Misr | 481 | Muhəzzəb |
| | Şeyx Əbu Saleh, Təqi ibn Nəcmud-din ibn Ubey-dullah | Hələbi | Hələb | 447 | əl-Kafi |

| | Fəqihin adı | Ləqəb | Doğul-duğu yer | Və-fat tari-xi | Ən məşhur kitabı |
|---|---|---|---|---|---|
| 0 | Həmzə ibn Əbdül Əziz Deyləmi | Səllar Dilmi | Təbəris-tan | 463 | Mərasim |
| 1 | Həmzə ibn Əli ibn Zöhrə | Əbdül--Məkarim ibn Zöhrə | Hələb | 585 | əl-Ğunyə |
| 2 | Muhəmməd ibn Əli ibn Həmzə | İbn Həmzə | Tus | 585 | əl-Vəsilə |
| 3 | Muhəmməd ibn İdris Hilli | İbn İdris | Hillə | 598 | Sərair |
| 4 | Cəfər ibn Həsən ibn Yəhya ibn Səid | Mühəqqiq Hilli | Hillə | 676 | Şərae, əl-MüxtəsəruNafi |
| 5 | Həsən ibn Yusif ibn Əli ibn Mütəhhər | Əllamə Hilli | Hillə | 726 | Qəvaid, Təzkirətul-Füqaha, Müxtəlif, Muntəha |
| 6 | Muhəmməd ibn Həsən ibn Yusif | Fəxrul--Muhəqqiqin | Hillə | 771 | İzahul--Fəvaid |
| 7 | Şəmsuddin Muhəmməd ibn Məkki | Şəhidi Əvvəl | Livan | 786 | Lümə, Bəyan, Durus, Zikra |
| 8 | Miqdad ibn Əbdullah ibn Səyuri Hilli | Fazil Miqdad · | Hillə | 826 | Kənzul İrfan Tənqihul Rayi |
| 9 | Əbul Əbbas Əhməd ibn Fəhd Hilli | İbn Fəhd | Hillə | 841 | ət-Təhrir, əl-Muhəzzəbbul Bari fişərhi Muxtəsəri-Nafi |
| 0 | Əli ibn Muhəmməd ibn Hilal Cəzairi | Şeyxul İslam | Cəzair | 937 | Dürrül Fərid |
| 1 | Əli ibn Hüseyn ibn Əbdül Əla | Mühəqqiqi Sani, | Kərək Livan | 940 | Cəmiul Məqasid, |

| | Fəqihin adı | Ləqəb | Doğul-duğu yer | Və-fat tari-xi | Ən məşhur kitabı |
|---|---|---|---|---|---|
| | Kərəki | Mühəqqiqi Kərəki | | | Şərhul İrşad |
| 2 | Zeynuddin Əli ibn Əhməd Amuli | Şəhidi Sani | Livan | 966 | Şərhul Lümə, Məsalikul Əfham |
| 3 | Möhsin ibn Mürtəza | Feyz Kaşani | Kaşan | 988 | Məfatihuş Şəraye |
| 4 | Əhməd ibn Muhəmməd Ərdəbili | Müqəddəs Ərdəbili, Mühəqqiq Ərdəbili | Ərdəbil | 993 | Məcmuul Faidə vəl Burhan |
| 5 | Şeyx Bəhayiddin Muhəmməd Amuli | Şeyx Bəhayi | Livan | 1030 | Cəmei Əbbasi, Həb-lul Mətin fi əhkamid-din |
| 6 | Molla Muhəmməd Baqir Səbzəvari | Mühəqqiq Səbzəvari | Səbzə-var | 1090 | Kifayətul Fiqh |
| 7 | Huseyn ibn Cəmaliddin Muhəmməd Xansari | Mühəqqiq Xansari | Xansar | 1098 | Məşariquş-Şumus fi Şər-hid-Durus |
| 8 | Muhəmməd Baqir ibn Muhəmməd Bəhbəhani | Vəhid Bəhbəhani | Bəhbə-Han | 1118 | Şərhu Məfatihuş- -Şərayi |
| 9 | Muhəmməd ibn Huseyn ibn Cəmaliddin Xansari | Ağayi Camal Xansari | Xansar | 1121 | Haşiyeye Şərhe Lümə |
| 0 | Muhəmməd ibn Huseyn ibn Muhəm-məd İsfəhani | Fazil Hindi | İsfəhan | 1137 | Kəşfül Ləsan |
| 1 | Şeyx Yusif Bəhrani | Sahibi Hədaiq | Bəhreyn | 1186 | əl-Hədaiqun-Nazirə |
| 2 | Seyyid Muhəmməd Məhdi Bəhrul--Ülum | Bəhrul--Ülum | Kərbəla | 1212 | Mənzu-meye Fiqhiyə, Məsabih |
| 3 | Şeyx Cəfər Kaşiful Ğita | Kaşiful Ğita | Nəcəf | 1228 | Kaşiful--Ğita |

| | Fəqihin adı | Ləqəb | Doğul-duğu yer | Və-fat tari-xi | Ən məşhur kitabı |
|---|---|---|---|---|---|
| 4 | Şeyx Muhəmməd Həsən Nəcəfi | Sahibi Cəvahir | Nəcəf | 1266 | Cəvahiru l Kəlam |
| 5 | Muhəmməd Məhdi ibn Əbizər Nəraqi | Nəraqiye Əvvəl | Nəcəf | 1209 | Mutəmə duŞiə |
| 6 | Əbül Qasim İbn Muhəmməd Həsən Gilani | Mirzayi Qumi | Gilan | 1231 | Camiuş-Şəttat |
| 7 | Əhməd ibn Muhəmməd ibn Nəraqi | Nəraqiyi Dovvom | Nəraq Kaşan | 1244 | Mustənə-duş-Şiə |
| 8 | Şeyx Murtəza Ənsari | Şeyxul Əzəm | Dezful | 1281 | Məkasib, Təharət |
| 9 | Seyyid Muhəmməd Cəvad Amuli | Sahibul Miftahul-Kəramə | Nəcəf | 1269 | Miftahul-Kəramə |
| 0 | Hacı Mirzə Muhəmməd Həsən Şirazi | Mirzayi Şirazi (Əvvəl) | Şiraz | 1312 | Haşiye bər Nicatul İbad |
| 1 | Seyyid Muhəmməd Kazim Təbətəbai | Fəqihe Yəzdi | Yəzd | 1328 | Urvə, Haşiyeye Məkasib |
| 2 | Molla Muhəmməd Kazim Xorasani | Axund Xorasani | Məşhəd | 1329 | Haşiyeye Məkasib |
| 3 | Mirzə Muhəmməd Təqi Şirazi | Mirzaye Dovvom | Şiraz | 1338 | Haşiye bər Məkasib, Səlatul-Cümə |
| 4 | Mirzə Fəthullah ibn Muhəmməd Nəmazi Şirazi | Şeyxuş-Şəriə İsfəhani | İsfəhan | 1339 | İfazətul Qədir |
| 5 | Mirzə Muhəmməd Huseyn Nəini | Mirzə Nəini | Nəyin | 1355 | Vəsilətun Nicat, Tənzihul Miləl və Tənbihul Ümmə |

| | Fəqihin adı | Ləqəb | Doğul-duğu yer | Vəfat tarixi | Ən məşhur kitabı |
|---|---|---|---|---|---|
| 6 | Şeyx Əbdül Kərim Hairi Yəzdi | Hacı Şeyx Muəssis | Mibud | 1355 | Dürərul-Fəvaid |
| 7 | Seyyid Əbul Həsən İsfəhani | Mühəqqiq İsfəhani | İsfəhan | 1365 | Vəsilətun-Nicat |
| 8 | Seyyid Huseyn Təbətəbai Burucerdi | Ayətullah Burucerdi | Buru-cerd | 1380 | Munəcizzatu Məriz |
| 9 | Seyyid Mohsin Həkim | Ayətullah Həkim | Livan | 1390 | Munhəcus Salihin, Mustəmsə-kul Urvətul Vusqa |
| 0 | Seyyid Əbul Qasim Musəvi Xoye | Ayətullah Xoye | Xoy | 1415 | Munhəcus Salihin, Mustənə-dul Urvə |
| 1 | Seyyid Ruhullah Musəvi Xomeyni | İmam Xomeyni | Xomeyn | 1409 | Təhrirul Vəsilə, Kitabul Biə |

Qeyd etməliyik ki, şiə fəqihləri yuxarıdakı cədvəldə göstərilənlərlə bitmir. Müasir dövrdə də böyük fəqihlər yaşayır və İslam fiqhini müsəlmanlara çatdırırlar.

# 1-CI DƏRS

فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا فِطْرَةَ اللَّهِ الَّتِي فَطَرَ النَّاسَ عَلَيْهَا لَا تَبْدِيلَ لِخَلْقِ اللَّهِ
ذَلِكَ الدِّينُ الْقَيِّمُ وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ

"Xalis və doğru olan dinə üz tut. Bu ilahi fitrətdir. Allah insanları onun əsasında yaratmışdır. Allahın yaradılışında heç bir dəyişkənlik yoxdur. Möhkəm din budur, lakin insanların əksəriyyəti (bunu) bilmirlər."

(Rum surəsi, ayə 30)

Islam dini sonuncu və ən kamil din olduğu üçün onun bütün qayda-qanunları insan fitrəti ilə uyğundur və həyatın müxtəlif sahələrində insana nicat yolunu göstərir.

Bəşərin səadəti istər bu dünyada, istərsə də axirətdə gündəlik həyatın müxtəlif sahələrində (həm fərdi və həm də ictimai cəhətdən) islami qayda-qanunlara əməl etməklə birbaşa bağlıdır.

Islam dini əsasən üç mühüm sahəyə ayrılır:

**İslam dininin sahələri**
- **Üsuliddin**
- **Firuiddin**
- **Əxlaq**

– "Üsuliddin" adlanan əqidə sahəsi insanın fikir və əqidəsinin islah olunması üçün nəzərdə tutulub. Islamın bu sahəsində təqlid etmək olmaz. Bu sahə bir-başa əqidə məsələləri ilə bağlıdır və buna görə hər bir müsəlman həmin məsələlərdə yəqinlik əldə etməlidir. Yəqinlik isə dəlil-sübutla əldə edilməlidir.

– "Firuiddin" və ya "Əhkam" əməli göstərişlər sahəsidir. Insan Allaha itaət etmək məqsədilə bir sıra işlərə əməl etməli və bir sıra əməllərdən çəkinməlidir.

– "Əxlaq" adlanan psixoloji və rəftar sahəsi isə insanın ruhunun və rəftarının islahından bəhs edir: o, insanda ədalət, şücaət, səxavət və s. kimi yaxşı və gözəl xüsusiyyətləri gücləndirməyin, paxıllıq, xəsislik kimi pis xüsusiyyətləri aradan qaldırmağın yollarını göstərir.

Əhkamın növləri

Islamda insanın hər bir əməlinin xüsusi hökmü var. Bu hökmlər aşağıdakılardan ibarətdir:

**Əhkam**

| Əhkam | | |
|---|---|---|
| | **1. Vacib** | Elə əməllərə deyilir ki, onları yerinə yetirmək lazımdır, tərk etməyin isə əzabı vardır.Məsələn: namaz, oruc |
| | **2. Haram** | Elə əməllərə deyilir ki, onları tərk etmək lazımdır, tərk etməməyin isə əzabı vardır. Məsələn: spirtli içki içmək, yalan danışmaq. |
| | **3. Müstəhəb** | Elə əməllərə deyilir ki, onları yerinə yetirməyin savabı vardır, tərk etməyin isə əzabı yoxdur. Məsələn: sədəqə vermək, gecə namazı qılmaq. |
| | **4. Məkruh** | Elə əməllərə deyilir ki, onları tərk etməyin savabı vardır, yerinə yetirməyin isə əzabı yoxdur. Məsələn: qaynar vəziyyətdə qida qəbul etmək, yeməyi üfürərək yemək. |
| | **5. Mübah** | Elə əməllərə deyilir ki, onları tərk etmək və ya yerinə yetirmək eynidir. Yəni nə əzabı, nə də savabı vardır. Məsələn: yol getmək, oturmaq və s. |

### *HÖKMLƏRI ƏLDƏ ETMƏYIN YOLLARI*

Müxtəlif elm sahələrində bir sıra insanlar cəmiyyətin ehtiyacını ödəmək üçün həmin sahəni dərindən öyrənir, kamil mütəxəssisə çevrilir, insanların qarşılaşdığı çətin suallara cavab verir və onların ehtiyaclarını ödəyir.

Əhkam sahəsi də eynilə bu cürdür; bu və ya digər cəmiyyətdə dini, Islami hazırlığa malik müəyyən insanlar bu mühüm və məsuliyyətli işə bütün ömürlərini sərf edərək elə bir elmi məqama gəlib çatırlar ki, şəriət hökmlərini Islam dininin əsası olan Quran və hədislərdən əldə edə bilir, hökm və fətva vermək hüququ qazanırlar.

Belə şəxslərə "müctəhid" və ya "fəqih" deyilir. Təbii ki, şəriət məsələlərində belə elmi məqama sahib olmayan şəxslər başqa elm sahələrində olduğu kimi,bu sahənin mütəxəssisi olan müctəhidlərə müraciət etməli, onların göstərişinə uyğun əməl etməlidirlər. Insanın şəriət hökmlərində adətən üzləşdiyi məsələləri öyrənməsi zəruridir.

Beləliklə, dini məsələlər baxımından insanlar 3 qrupa bölünürlər:

İnsan
- *Müctəhid*
- *Möhtat*
- *Müqəllid*

*MÖHTAT.*

Fiqh elmində ehtiyata əməl edən şəxsə möhtat deyilir. Belə ki, ehtiyat edən şəxs əhkama elə əməl etməlidir ki, öz vəzifəsinə əməl etdiyinə yəqinlik hasil etsin.

Məsələn, əgər müctəhidlərin bəzisi bir əməlin haram olduğunu, başqa bir hissəsi isə həmin əməlin haram olmadığını deyirlərsə, o əməli tərk etsin və ya müctəhidlərdən bir hissəsi bir əməlin vacib olduğunu, başqa müctəhidlər isə müstəhəb olduğunu deyirlərsə, onu yerinə yetirsin. Ehtiyat edən şəxs ehtiyat edilə bilən halları seçə bilməlidir. Aydındır ki, belə halları seçmək çox çətin məsələdir. Bunun üçün şəriət məsələlərini kifayət qədər dərindən bilmək lazımdır.

Ictihad dərəcəsinə çatmayan və ehtiyata əməl etməyin yolunu da bilməyən şəxslərin şəriət məsələlərində müctəhidə təqlid etmələri vacibdir.

*TƏQLID.*

Təqlid – şəriət məsələlərində müctəhidin göstərişlərinə əməl etmək deməkdir. Yəni təqlid edən şəxsin öz işlərini müctəhidin fətvasına uyğun yerinə yetirməsidir. Təqlid edən şəxsə müqəllid deyilir. Beləliklə, məlum olur ki, şəriət məsələlərində müsəlmanların əksəriyyətinin vəzifəsi təqlid etməkdir. Başqalarının təqlid etdiyi müctəhidin özünə isə "mərcəye – təqlid" deyilir. Təqlid olunan müctəhid gərək aşağıdakı sifətlərə malik olsun[1]:

Müctəhid
- ***Kişi***
- ***Baliğ (yəni həddi-büluğa çatmış)***
- ***Aqil***
- ***12 imam şiəsi***
- ***Halalzadə***
- ***Diri***
- ***Adil***

Ehtiyati vacibə görə, mərcəye-təqlid dünya malına həris olmamalı və başqa müctəhidlərdən ələm olmalıdır.[2]

---

[1] Sistani. T.m, məs.2 Lənkərani. T.m, məs.3;

[2] Lənkərani. T.m, məs.3

1–Ələm– Allahın hökmlərini dərk etməkdə öz zəmanəsinin müctəhidlərindən daha elmli olan müctəhidə deyilir.

2– Təqlidə təzə başlayan şəxslər diri müctəhidə təqlid etməlidirlər. Belə şəxslər dünyadan getmiş müctəhidin fətvasına əməl edə bilməzlər.1

3– Vəfat edən müctəhid elmi cəhətdən diri müctəhid ilə bərabər səviyyədə olsa, dünyadan getmiş müctəhidə təqliddə qalmaq caizdir. Amma əgər o ikisindən (vəfat edən və diri müctəhid) biri ələm olsa, ələmə təqlid etmək lazımdır.2

4– Dünyadan getmiş müctəhidə təqlid edən şəxs həmin müctəhidin fətva vermədiyi məsələlərdə, həmçinin, yeni məsələlərdə diri müctəhidə təqlid etməlidir.3

Bir neçə şəri suala cavab:

Sual: Gündəlik qarşıya çıxan şəri məsələləri öyrənməyən şəxs günahkardırmı?

Cavab: Əgər bu şəri məsələləri öyrənməmək vacib bir əməlin tərk olunmasına, yaxud haram bir işə düşməyə səbəb olarsa, onda o günahkardır.4

Sual: Bəzi adamlardan kimə təqlid etdikləri soruşulduqda, onların bu barədə geniş məlumatı olmadığına görə "bilmirik", yaxud "filan müctəhidə təqlid edirik" - deyirlər, halbuki o müctəhidin risaləsinə müraciət etməyi, yaxud o risaləyə əməl etməyi özlərinə vacib hesab etmirlər. Bu halda onların əməllərinin hökmü necədir?

Cavab: Əgər onların əməlləri ehtiyata, yaxud həqiqi hökmə, yaxud da müraciət olunası müctəhidin fətvası ilə uyğun olsa, onda onların əməlləri səhih hökmündədir.5

Sual: Ehtiyata əməl etmək yaxşıdır, yoxsa təqlid etmək?

Cavab: Ehtiyata əməl etmək onun yerlərini tapmağa və keyfiyyətini bilməyə bağlı olduğu üçün, həm də bu iş hamıya müyəssər olmadığına görə, bundan da əlavə, bu iş çox vaxt tələb etdiyi üçün, yaxşı olar ki, lazımi şərtlərə malik bir müctəhidə təqlid edilsin.6

[?] Suallar

1- "Üsuliddin" ilə "firuiddin"-in fərqi nədir?

2- Əhkam neçə qismdir? Hər birinə bir misal yazın.

3- "Müctəhid", "möhtat" və "müqəllid" kimlərə deyilir?

4- Təqlidin tərifini yazın və "mərcəye-təqlid"-in sifətlərini bəyan edin.

5- Ələm kimə deyilir?

---

1 Imam Xomeyni. T.m, məs.13
2 Sistani. T.m, məs.9; Lənkərani. T.m, məs.10
3 Imam Xomeyni. "Istiftaat", c.1, s.12
4 Xamenei. "Əcvibətül istiftaat", sual 6
5 Xamenei. "Əcvibətül istiftaat", sual 7
6 Xamenei. "Əcvibətül istiftaat", sual 2

# 2-CI DƏRS

## ICTIHAD VƏ TƏQLID

### ƏLƏM MÜCTƏHIDI TANIMAĞIN YOLLARI[1] *

1- İnsanın özü bir şəxsin ələm olmasına yəqinlik və ya xatircəmlik tapsın. Məsələn, özü bu sahədə mütəxəssis olub ələm müctəhidi tanıya bilsin.
2- Ələm müctəhidi başqalarından seçə bilən iki adil və alim şəxs hər hansı bir müctəhidin ələm olmasını təsdiq etsinlər; bu şərtlə ki, başqa iki alim və adil şəxs onların dediklərinin əksini söyləməsinlər.*
3- Bir müctəhidin ələm olması camaat arasında o qədər məşhur olsun ki, insan üçün yəqinlik, yaxud xatircəmlik hasil olsun.

### MÜCTƏHIDIN FƏTVASINI ƏLDƏ ETMƏYIN YOLLARI:[2]

1- Müctəhidin özündən eşitməklə.
2- İki nəfər ədalətli şəxsdən eşitməklə; Bir nəfər adil şəxsin xəbər verməsi yalnız onun sözündən xatircəmlik hasil olduğu halda kifayət edər.
3- Fətvanı etibarlı risalədən əldə etməklə

Müctəhidin nəzərləri aşağıdakılardan ibarətdir:

[1] Lənkərani. T.m, məs.5
*Sistani: Bir kəsin müctəhid, ya ələm olması müctəhid və ələmi başqalarından seçə bilən və sözünə etimad olunacaq bir şəxsin təsdiq etməsi ilə də sübuta yetər. T.m, məs.3
[2] Sistani. T.m, məs.5; Lənkərani. T.m, məs.7

| | |
|---|---|
| ***Hökm*** | Müctəhidin müəyyən bir mövzuda nəzərinə deyilir. Məsələn: müctəhid hökm verir ki, "sabah şəvval ayının 1-dir və Fitr bayramı günüdür." |
| ***Fəmva*** | Müctəhidin hökmü ümumi şəkildə bəyan etməsidir. Məsələn: müctəhid hökm verir ki, "vacib orucu olan şəxsin müstəhəb orucu batildir." |
| ***Ehtiyati – vacib*** | Ehtiyati-vacibdən əvvəl və ya sonra fətva olmur. Məsələn: ehtiyat budur ki, "Təsbihati – Ərbəə"- 3 dəfə deyilsin. Belə ehtiyata – ehtiyati – vacib deyilir. Müqəllid bu məsələdə ya həmin ehtiyata əməl etməlidir və ya həmin məsələdə başqa diri müctəhidin nəzərinə müraciət etməlidir. |
| ***Ehtiyati– müstəhəb*** | Ehtiyati-müstəhəbdən əvvəl və ya sonra fətva olur. Məsələn: "Nəcis qabı kürr suyunda bir dəfə yusan pak olar, amma 3 dəfə yumaq ehtiyata əsasəndir." Müqəllid ya həmin fətvaya, ya da həmin ehtiyata əməl etməlidir. Bu məsələdə başqa müctəhidə müraciət edə bilməz. |

1– Əgər müctəhidin fətvası dəyişsə, müqəllid də yeni fətvaya əməl etməlidir[1].

2– Əgər mükəlləf bir şəxs öz ibadətlərini müəyyən bir müddət təqlidsiz yerinə yetirərsə*, həmin ibadətlər təqlid etməli olduğu müctəhidin fətvaları ilə uyğun olarsa, səhihdir.[2]

/3

Ibadətlərini təqlidsiz yerinə yetirmiş şəxsin vəzifələri

---

[1] Imam Xomeyni "Urvətul vusqa", c.1, s.12, məs.31

*Sistani: ... sonradan bir müctəhidə təqlid edərsə, əgər o müctəhid onun təqlidsiz yerinə yetirdiyi əməllərin düzlüyünə hökm verərsə, əməlləri səhihdir. T.m, məs.14

[2] Lənkərani. T.m, məs.13

[3] Lənkərani.T.m, məs.13.

## *MÜKƏLLƏF*

Mükəlləf – yəni şəri vəzifəsi olan şəxs;

Əhkama əməl etməsi vacib olan şəxsə mükəlləf deyilir. Mükəlləfin iki şərti vardır: aqil və baliğ olmaq.

Aqil – yəni əqli cəhətdən sağlam olan insan.

Baliğ – yəni həddi-buluğa yetişmiş insan.

Həddi – buluğun əlamətləri .1

1. Qarının altında və övrətin üstündə qalın tüklərin bitməsi.
2. Məninin xaric olması (bütün hallarda).
3. Qəməri tarix ilə kişilərdə 15 yaşın, qadınlarda isə 9 yaşın tamam olması.

Qeyd: Yuxarıda deyilən 3 əlamətdən yalnız birinin olmağı ilə də insan həddi-buluğa çatmış sayılır.

Qeyd: Insanın həddi-buluğ yaşı mütləq qəməri tarix ilə hesablanmalıdır. Çünki, qəməri tarixinin hər ili şəmsi tarixinin hər ilindən 10 gün 18 saat azdır. Beləliklə də, şəmsi tarixindən 97 gün 22 saat azaltmaqla qəməri tarixlə qızın 9 yaşı alınır. Şəmsi tarixindən 163 gün 6 saat azaltmaqla qəməri tarixilə oğlanın 15 yaşı alınır.2

Bir neçə şəri suala cavab:

Sual: Hansı hallarda müqəllid öz təqlid etdiyi müctəhidi dəyişib, başqa müctəhidə təqlid edə bilər?

Cavab: Başqa müctəhid hal-hazırda təqlid etdiyi müctəhiddən ələm, yaxud ona bərabər səviyyədə olarsa, onda təqlidini dəyişə bilər.3

Sual: Ələm müctəhidin fətvaları dövrə uyğun olmasa, yaxud o fətvalara əməl etmək çətin olsa, bu halda ələm olmayan başqa müctəhidin təqlidinə keçmək olarmı?

Cavab: Təqlid edilməsi vacib olan ələm müctəhidin fətvalarının sırf şəkildə zamanla uyğun gəlməməsi, yaxud sırf şəkildə onun fətvalarına əməl etməyin çətin olması gümanı ilə başqa müctəhidin təqlidinə keçmək olmaz.4

---

[1] Sistani. T.m, məs.2260; Lənkərani. T.m, məs.2314

[2] Lənkərani. "Istiftaat", sual 35

[3] Xamenei. "Əcvibətül istiftaat", sual 47

[4] Xamenei "Əcvibətül istiftaat", sual 48

Sual: Eyni bir məsələdə bir dəfə dünyadan getmiş müctəhidin, başqa bir dəfə isə diri və ələm müctəhidin fətvasına əməl etmək olarmı? Belə ki, bu iki müctəhidin həmin məsələdə nəzərləri müxtəlifdir.

Cavab: Dünyadan getmiş müctəhidin təqlidində qalmaq olar. Amma dünyadan getmiş müctəhiddən diri müctəhidə təqlidi dəyişdikdən sonra yenidən əvvəlki müctəhidə təqlid etmək olmaz.1

[?] Suallar

1- Müctəhid və ələmi tanımağın neçə yolu vardır?

2- Müctəhidin fətvasını hansı yollarla əldə etmək olar?

3- Insanın təqlidsiz yerinə yetirdiyi əməllər hansı şərtlə düzgündür?

4- Müctəhidin nəzəri neçə növdür və hansılardır?

5- "Ehtiyati – müstəhəb" və "ehtiyati – vacib"-in fərqini deyin. "Tovzihul məsail" kitabına müraciət edərək "ehtiyati – vacib" və "ehtiyati – müstəhəb"-ə aid iki misal yazın.

6- Mükəlləf kimə deyilir və hansı şərtləri vardır?

[1] Xamenei "Əcvibətül istiftaat", sual 41

# 3-CÜ DƏRS

## TƏHARƏT (1)

Təharət bəhsinə başlamazdan əvvəl qeyd etmək lazımdır ki, Islamda təharət (yəni paklıq) və təmizlik bir-birindən fərqlənir. Islam həm paklığın, həm də təmizliyin tərəfdarıdır. Amma hər hansı bir əşya təmiz olduğu halda, Islamın nöqteyi-nəzərindən pak olmaya da bilər.

Paklıq və təharətə düzgün riayət etmək üçün birinci növbədə nəcasəti tanımalıyıq.

Islamda ümumi bir qanun vardır:

> Dünyada 11 şey və bunlara toxunmaqla nəcis olanlardan başqa hər bir şey pakdır.

Nəcasətin növləri aşağıdakılardır:[1]*

•

**Nəcasət**

- 1. Bövl (sidik)
  2. Ğait ⇒ İnsanın və əti haram, qanı sıçrayıcı olan hər bir heyvanın. Məsələn: siçan, pişik
- 3. Məni
  4. Qan
  5. Murdar ⇒ İnsanın və sıçrayıcı qanı olan heyvanın. Məsələn: qoyun
- 6. İt
  7. Donuz ⇒ Quruda yaşayan növləri (suda yaşayan növləri nəcis deyil)
- 8. Şərab
- 9. Pivə
- 10. Kafir
- 11. Nəcis yeyən dəvənin təri*

**Bövl və ğaiti nəcisdir**

- İnsanın
- Heyvanın – Qanı sıçrayıcı• və əti haram olsa

1– Insanın və əti haram, sıçrayıcı qanı olan bütün heyvanların bövl və ğaiti nəcisdir.[2]

2– Əti halal, sıçrayıcı qanı olan heyvanların bövl və ğaiti pakdır. Məsələn: inək və qoyunun. Həmçinin sıçrayıcı qanı olmayan heyvanların da bövl və ğaiti pakdır. Məsələn: ilan və balığın.[3]

3– Əti məkruh olan heyvanların bövl və ğaiti pakdır. Məsələn: at və ulağın.[1]

### *QANIN HÖKMLƏRI*

1– Insanın və sıçrayıcı qanı olan bütün heyvanların qanı nəcisdir.[1]

---

[1] Sistani. T.m, məs.84; Lənkərani. T.m, məs.86

* Sistani: Ehtiyati – vacibə əsasən, nəcasət yeməyə adət etmiş bütün heyvanların təri bu hökmdədir.

• Heyvanlar iki qrupa bölünürlər; bəzilərinin qanı sıçrayışlıdır, yəni əgər onların damarı kəsilsə, qan təzyiq və sıçrayışla axar. Bəzi heyvanların qanı isə sıçrayışlı deyildir, yəni əgər onların damarı kəsilsə, qan təzyiqlə axmaz.

[2] Sistani. T.m, məs.85; Lənkərani. T.m, məs.87

[3] Imam Xomeyni. "Urvətul vusqa", c.1, səh.55

2– Qanı sıçrayişla axmayan heyvanın qanı pakdır. Məsələn: ağcaqanad və balığın.2

3– Insanın dişinin dibindən çıxan qan ağız suyuna qarışması nəticəsində aradan gedərsə pakdır, bu halda onu udmağın eybi yoxdur.2

Aşağıdakı hallar pak hökmündədir:3
4

**Pak hökmündə olanlar**

1- Qırmızı rəngli bir şeyin qan olmağı məlum olmadıqda.[4]
2- Qanın insandan və ya sıçrayıcı qanı olmayan heyvandan olmağı məlum deyilsə, məsələn: insan bədənində qan görür, bilmir ki, öz qanıdır, ya da ağcaqanadın qanıdır.[4]
3- Hər hansı bir heyvanın qanının sıçrayıcı olub-olmadığını bilmədikdə.[5]
4- Yaradan çıxan şeyin qan, yaxud çirk olduğunu bilmədikdə (əgər yaranın üstü nəcis olmazsa).[5]
5- Bədəni qaşımaq nəticəsində bədəndən çıxan suyun qan olub-olmadığını bilmədikdə.[5]

### *MURDAR.*

Sıçrayıcı qanı olan heyvan özü ölərsə, yaxud Islam şəriətinin qoyduğu qaydadan qeyri bir yolla kəsilsə, həmin heyvan "murdar" adlanar.56

---

1 Sistani. T.m, məs.97; Lənkərani. T.m, məs.99
2 Sistani. T.m, məs.101; Lənkərani. T.m, məs.104
3 Sistani. T.m, məs.123; Lənkərani. T.m, məs.126
4 Imam Xomeyni. T.m, məs.104; "Urvətul vusqa", c.1, "fin-nəcasət", səh.64
5 Sistani. T.m, məs.106; Lənkərani. T.m, məs.108
6 Sistani. T.m, məs.89; Lənkərani. T.m, məs.91

**1. Murdar heyvan**

- 1-İt və donuz ⇨ Bunların bütün üzvləri nəcisdir.[1]
- 2-İt və donuzdan başqa heyvanlar
  - **1-**Qanı sıçrayıcıdır
    - **1.**Ruhu olan üzvləri nəcisdir. Məsələn: ət və dərisi.[2]
    - **2.** Ruhsuz üzvləri pakdır. Məsələn: tük və dırnağı.[3]
  - **2-** Qanı sıçrayıcı deyilsə ⇨ Bütün üzvləri pakdır. Məsələn balıq.[2]

1– Dünyadan təzə getmiş və bədəni soyumamış şəxsin (ruhsuz hissələrindən başqa, məsələn: dırnaq və diş) bütün bədəni nəcisdir.2

Aşağıdakı hallarda meyyitin bədəni pak hökmündədir:

**1–** Döyüş meydanında dünyasını dəyişən şəhid
**2–**Üç qüslü verilmiş meyyit

2– Döyüş meydanında yaralanıb, arxa cəbhədə dünyasını dəyişən şəhid və ya düşmənin terroru nəticəsində şəhid olan şəxslərin bədəni yuxarıda deyilən hökmə aid deyil.3

3– Sağ ikən insanın və ya sıçrayan qanı olan heyvanın bədənindən ayrılmış üzv, əgər ruhu olmayan hissədən olarsa, pakdır. Əgər ruhu olan hissədən olarsa, nəcisdir. Məsələn: sağ insanın kəsilmiş qolu nəcis, amma kəsilmiş saçı və dırnağı pakdır.4

### *DƏRILƏRDƏN HAZIRLANMIŞ ƏŞYALARIN HÖKMÜ*

1– It və donuzdan başqa bütün heyvanların (hətta qeyri-şəri yol ilə kəsilmiş olsa belə) ruhsuz hissələrindən hazırlanmış əşyalar pakdır. Məsələn xalis yundan hazırlanmış paltar.5

2– Şəri yol ilə kəsilməmiş sıçrayan qanı olan heyvanların ruhu olan hissələrindən hazırlanmış əşyalar nəcisdir.6

3– Bir şeyin xalis dəri olub-olmadığı məlum deyilsə, pak hökmündədir.1

---

1 Sistani. T.m, məs.90; Lənkərani. T.m, məs.92
2 Imam Xomeyni "Ürvətül vusqa", c.1, səh.58
3 Imam Xomeyni "Istiftaat", c.1, səh.83
4 Sistani. T.m, məs.91; Lənkərani. T.m, məs.93
5 Sistani. T.m, məs.90; Lənkərani. T.m, məs.92
6 Sistani. T.m, məs.89; Lənkərani. T.m, məs.91

4– Əgər bir əşyanın sıçrayan qanı olan heyvanın üzvlərindən və yaxud sıçrayan qanı olmayan heyvanın üzvlərindən hazırlandığı məlum olmazsa, pak hökmündədir. Məsələn: kəmərin ilan dərisindən və yaxud başqa bir heyvanın dərisindən hazırlandığı məlum olmazsa pakdır.5

5– Bir əşyanın sıçrayan qanı olan heyvanın dərisindən hazırlandığı məlum olarsa, amma həmin heyvanın şəri qayda ilə kəsilib-kəsilmədiyi məlum deyilsə, aşağıdakı hallardan biri olar:2

| | | | |
|---|---|---|---|
| Müsəlmandan alınıb | –İstehsal edən ölkə müsəlman ölkəsidir | ⇨ | pakdır |
| | –İstehsal edən ölkə müsəlman ölkəsi deyil | ⇨ | nəcisdir |
| | –Hansı ölkədə istehsal olunduğu məlum deyil | ⇨ | pakdır |
| Müsəlman olmayan bir şəxsdən alınıb | –İstehsal edən ölkə müsəlman ölkəsidir | ⇨ | pakdır |
| | –İstehsal edən ölkə müsəlman ölkəsi deyil | ⇨ | nəcisdir |
| | –Hansı ölkədə istehsal olunduğu məlum deyil | ⇨ | nəcisdir |

Bir neçə şəri suala cavab:

Sual: Paltarda olan qan yuyulduqdan sonra bəzən onun izi paltarda qalır. Qanın bu açıq rəngli izi və ləkəsi nəcisdirmi?

Cavab: Qanın özü yox, yalnız onun rəngi qalsa və yumaqla da aradan getməsə, pakdır.3

Sual: Yumurtada olan kiçik qan hissəciyinin hökmü nədir?

Cavab: Pak hökmündədir. Lakin yeyilməsi haramdır.4

Sual: Bəzi vaxtlar əl, dodaq və ya ayaqlardan ayrılan dəri hissələri pakdır, yoxsa nəcis?

Cavab: Əlin, dodağın və ayaqların, yaxud bədənin başqa yerlərinin dərisindən öz – özlüyündə qopan hissələr pak hökmündədir.5

---

1 Imam Xomeyni. "Ürvətul – vusqa", c.1, səh.62

2 Imam Xomeyni. "Ürvətul – vusqa", c.1, "kitabus-səlat", səh.558, 559 və "fin nəcasət" səh.60

3 Xamenei. "Əcvibətül istiftaat", sual 281

4 Xamenei. "Əcvibətül istiftaat", sual 282

5 Xamenei. "Əcvibətül istiftaat", sual 285

Sual: Şəri üsulla kəsilməmiş heyvan dərisindən hazırlanan ayaqqabılardan istifadə etdikdə dəstəmazdan əvvəl ayaqları yumaq vacibdirmi? Bəziləri deyirlər ki, ayaq ayaqqabının içində tərləsə ayaqları yumaq vacibdir. Halbuki görürük ki, ayaq hər növ ayaqqabının içində az, yaxud çox tərləyir. Bu məsələdə Sizin rəyiniz nədir?

Cavab: Əgər qeyd olunan ayaqqabının içində ayağın tərləməsi məlum olsa, namaz üçün ayaqları paklamaq vacibdir.[1]

[?] Suallar

1- Nəcasət neçə növdür və hansılardır?

2- Hansı heyvanların bövl, ğait və qanı nəcisdir?

3- Aşağıdakı heyvanların qanı hansı hökmdədir: sərçə, qoyun, ağcaqanad, qurbağa.

4- Aşağıdakı heyvanların murdarı pakdır, ya nəcisdir: toyuq, qaz, siçan, ilan, hamam böcəyi, kərtənkələ.

5- Murdar olmuş qoyunun yunundan istifadə etmək olarmı?

6- Qeyri – müsəlman ölkələrdən gətirilmiş dərilər müsəlman ölkəsində istehsal olunarsa, həmin dəri ayaqqabı və çantaların hökmü necədir?

---

[1] Xamenei. "Əcvibətül istiftaat", sual 296

# 4-CÜ DƏRS

## *TƏHARƏT (2)*

### *ŞƏRAB*

*1**23***4

1– Şərab[*] və insanı məst edən hər bir şey əgər öz-özlüyündə, zatən maye olsa, nəcisdir.[1]

2– Əgər üzüm və ya onun suyu təbii halda və yaxud bişirməklə qaynasa, nəcis deyil,[**] amma yeyilməsi haramdır.[2]

3– Xurma, kişmiş və onların suyu qaynadıldıqda pakdır, yeyilməsi də halaldır.[3]

4– Qapı, stol, stul və s. kimi şeylərin rənglənməsində işlənən texniki spirtin, məstedici şeylərdən hazırlanması və zatən maye (axıcı) olması məlum olmasa, pakdır.[***4]

### *KAFIR*

Insan aşağıdakı hallarda kafir sayılır:

❋Allahı inkar edən şəxs

❋Allaha şərik qoşan şəxs

❋Həzrət Məhəmmədin (s) peyğəmbərliyini inkar edən şəxs

❋Dinin* zəruri məsələlərini (müsəlmanların Islam dininin bir hissəsi saydıqları şeyləri, məsələn: namaz, oruc və s.) inkar edən şəxs; o şeyin

---

[*] Sistani: Şərab nəcisdir. Ehtiyati müstəhəbə əsasən, insanı məst edən hər bir şey əgər öz-özlüyündə, zatən maye olsa, nəcisdir. T.m, məs.112

[1] Lənkərani. T.m, məs.115

[**] Sistani: ... amma qaynanmış üzüm suyu haramdır, ehtiyati vacibə əsasən qaynanmış üzüm də haramdır. T.m, məs.114

[2] Lənkərani. T.m, məs.117

[3] Sistani. T.m, məs.115; Lənkərani. T.m, məs.118

[***] Sistani: Qapı, stol, stul və s. kimi şeylərin rənglənməsində işlənən texniki spirtin hər bir növü pakdır. T.m, məs.113

[4] Lənkərani. T.m, məs.116

[*] Sistani: Dinin zəruri hökmlərindən birini (məsələn: namaz və oruc kimi, müsəlmanların dinin bir hissəsi saydıqları hökmləri) inkar etsə, belə ki, onun inkarı nübuvvətin inkarına qayıtsa, hətta nəticə etibarı ilə nübuvvətin inkarına qayıtsa belə, həmin şəxs nəcisdir. T.m, məs.107

dinin zəruri məsələlərindən olduğunu bilsə və onu inkar etmək nübuvvətin inkarına qayıtsa, həmin şəxs nəcisdir.1

❋Nasibi nəcisdir.2

– Yəhudi** və xristian kimi əhli kitab olan şəxslər pakdırlar.3

### *Kafirin hökmləri*

456

**Kafirin hökmləri**

1- Kafirin bütün bədəni, hətta saçı, dırnağı və bədəninin rütubəti nəcisdir.[4]

2- Həddi-buluğa çatmamış uşağın ata-anası, nənə-babası kafir olarsa, həmin uşaq nəcisdir. Əgər onlardan biri müsəlman olarsa, həmin uşaq pakdır.[5]

3- Əgər bir nəfərin müsəlman və ya kafir olması məlum deyilsə, keçmişdə də onun müsəlman və ya kafir olması məlum olmasa, pakdır. Amma müsəlmanlara aid olan başqa hökmlər ona aid deyil. Məsələn: müsəlman qadınla evlənə bilməz, müsəlman qəbristanlığında dəfn oluna bilməz.[6]

### *Pivə*

Arpa suyu nəcisdir,* amma həkimin göstərişi ilə arpadan çəkilən su (ona "mauş - şəir" deyilir) pakdır7.

Nəcasət yeyən dəvənin təri

Nəcasət yeyən dəvənin təri nəcisdir, amma başqa heyvanlar nəcis yeyərsə, onların tərindən çəkinmək lazım deyil.**8

Nəcasətin sübut olma yolları

---

[1] Lənkərani. T.m, məs.109

[2] Sistani. T.m, məs.111; Lənkərani. T.m, məs.113

** Sistani: Həzrət Məhəmməd (s)-ın peyğəmbərliyini qəbul etməyən kitab əhli (yəhudi, xristian və məcusilər) məşhur nəzərə əsasən nəcisdirlər. Onlara pak olma ehtimalı da verilir. Hər halda onlardan çəkinmək daha yaxşıdır. T.m, məs.107

[3] Lənkərani. T.m, məs.114

[4] Sistani. T.m, məs.108; Lənkərani. T.m, məs.110

[5] Sistani. T.m, məs.109; Lənkərani. T.m, məs.111

[6] Sistani. T.m, məs.110; Lənkərani. T.m, məs.112

* Sistani: Arpadan alınan pivə haramdır, amma onun nəcis olması ehtimalı var... T.m, məs.116

[7] Lənkərani. T.m, məs.119

** Sistani: Ehtiyati-vacibə əsasən, başqa heyvanlar da, nəcasət yeməyə adət etsələr, onların da təri nəcisdir. T.m, məs.117

[8] Lənkərani. T.m, məs.124

Hər hansı bir şeyin nəcis olması 3 yol ilə sübuta yetər:1***2

1- İnsanın özü bir şeyin nəcis olduğunu yəqin etsin. Amma bir şeyin nəcis olmasını güman etsə, ondan çəkinməsi lazım deyil. Məsələn: yeməkxana xörəkləri.

2- Bir şəxs öz ixtiyarında olan bir şeyin nəcis olduğunu söyləyərsə, məsələn: həyat yoldaşı bir qabın nəcis olduğunu desə.

3- İki adil şəxs bir şeyin nəcis olduğunu söyləyərsə.*** Həmçinin bir nəfər adil şəxs də hər hansı bir şeyin nəcis olmasını desə, ehtiyati vacibə əsasən o şeydən çəkinmək lazımdır.

***İnsan bir şeyin nəcis olmasına şəkk edərsə***[4]

1– İnsan nəcis bir şeyin pak olub-olmamasına şəkk edərsə ⇨ nəcisdir

2– İnsan pak bir şeyin nəcis olub-olmadığına şəkk edərsə ⇨ pakdır

Pak şeyin nəcis olma yolu3

***Pak bir şey nəcisə dəyərsə***[1]

1– Hər ikisi, ya onlardan biri rütubətli olarsa, belə ki, birinin yaşlığı digərinə keçərsə, pak şey nəcis olar.

2– Əgər yaşlıq birindən o birinə keçməyəcək dərəcədə az olarsa, pak şey nəcis olmaz.

Aşağıdakı hallar pak hökmündədir:

❋ Pak və nəcis əşyanın rütubətli olub-olmadığını bilmədikdə.4

❋ Pak və nəcis əşyanın birinin digərinə toxunduğunu bilmədikdə.5

❋ Rütubətinin birindən digərinə keçdiyini bilmədikdə.3

Nəcasətin hökmləri 6*78

---

[1] Lənkərani. T.m, məs.125

*** Sistani: Bu şərtlə ki, nəcasətin səbəbini də desin. Məsələn: həmin şeyin qan, yaxud bövllə nəcis olduğunu söyləsin. T.m, məs.122

[2] Sistani.T.m, məs124; Lənkərani. T.m, məs.127

[3] Sistani. T.m, məs.126; Lənkərani. T.m, məs.129

[4] Sistani. T.m, məs.127; Lənkərani. T.m, məs.130

[5] Imam Xomeyni. T.m, məs.126 və "Urvətul vusqa", I c. səh.59

[6] Sistani. T.m, məs.142; Lənkərani. T.m, məs.145

* Sistani: ... həmin şəxslərin onun sözünə etina edəcəklərinə ehtimal verirsə, deməlidir. Amma əgər etina etməyəcəklərini bilirsə, söyləməsi lazım deyil. T.m, məs.146

[7] Lənkərani. T.m, məs.149

[8] Sistani. T.m, məs.144; Lənkərani. T.m, məs.147

1– Nəcis bir şeyi yeyib, ya içmək haramdır. Həmçinin onu başqasına yedizdirmək də haramdır. Əgər uşaq özü nəcis xörəyi və sair qida məhsullarını yesə, yaxud nəcis əl ilə yeməyi murdarlayıb sonra yesə, onun qarşısını almaq lazım deyil.[4]
2– Əgər ev sahibi yemək əsnasında yeməyin nəcis olduğunu başa düşsə, qonaqlara deməlidir. Amma əgər qonaqlardan biri yeməyin nəcis olduğunu bilərsə, özü yeməməlidir, başqalarına isə xəbər verməsi lazım deyil.[*5]
3– Əgər bir kəs başqa bir şəxsin nəcis yeməsini və ya nəcis paltarla namaz qılmasını görsə, ona xəbər verməyi lazım deyil.[6]

Bir neçə şəri suala cavab:

Sual: Üzümün və xurmanın suyu odda qaynasa və üçdə iki hissəsi azalmasa, amma məstedici də olmasa, bunun hökmü nədir?

Cavab: Nəcis deyildir, lakin içilməsi haramdır.1

Sual: Satışda mövcud olan spirtsiz içkiləri, həmçinin ölkə daxilində hazırlanan spirtsiz içkiləri içməyin hökmü nədir? Halbuki, deyilənlərə görə, o içkilərin xammalı xaricdən gətirilir və onların içində spirt olması ehtimalı var.

Cavab: Bunlar pak və halal hökmündədirlər, amma mükəlləfin özündə o içkilərin özü-özlüyündə maye olan məstedici spirtlə qarışdırılmasına yəqinliyi olsa, bu halda nəcis və haramdır. 2

Sual: Bəzi fəqihlər kitab əhlini nəcis, bəziləri isə pak hesab edirlər. Bu barədə Sizin rəyiniz nədir?

Cavab: Kitab əhlinin zati nəcasətliyi qeyri-məlumdur. Biz isə onların zatən pak olmalarına hökm edirik. 3

Sual: Deyirlər ki, kafirin əli ilə tikilən evlər nəcis olur və onda namaz qılmaq məkruhdur. Bu söz düzdürmü?

Cavab: Qeyd olunan evdə namaz qılmaq məkruh deyildir.4

[?] Suallar

1- Üzüm suyu nə vaxt nəcis hökmündədir?

2- Kafir kimlərə deyilir?

3- Təzə dünyaya gəlmiş uşaq hansı halda kafir hökmündədir?

4- Bir şeyin nəcis olması hansı yollarla sübut olunar?

5- Insan paltarının nəcis olub-olmadığına şəkk edərsə, hökmü necədir?

6- Əgər bir şəxs rütubətli ayağını nəcis olmuş xalçanın üzərinə qoymuş olsa, amma ayağının rütubətinin xalçaya keçib-keçmədiyini bilməsə, nəcisdirmi?

---

1 Xamenei. "Əcvibətül istiftaat", sual 313
2 Xamenei. "Əcvibətül istiftaat", sual 319
3 Xamenei. "Əcvibətül istiftaat", sual 325
4 Xamenei. "Əcvibətül istiftaat", sual 335

# 5-CI DƏRS

## *MÜTTƏHIRAT (paklayıcılar)*

### *PAKLAYICILAR 10-DUR:* *[1]

**Müttəhirat**

- ***1-Su***
- ***2- Yer***
- ***3-Günəş***
- ***4- İstihalə***
- ***5- İntiqal***
- ***6- İslam***
- ***7- Təbəiyyət***
- ***8-Nəcasətin eyninin aradan qalxması***
- ***9- Nəcasət yeyən heyvanın istibrası***
- ***10- Müsəlmanın qaib olması***

### *SULAR*

Su bir çox şeyləri pak edir və suyun müxtəlif növləri vardır. Onları tanımaq bizə şəri məsələləri daha yaxından öyrənməkdə kömək edəcək.

Suların növləri:[2]

***Suların növləri***

- 1- Muzaf (qarışıq)
  - Ya nədənsə alınır. Məsələn: alma suyu, qarpız suyu.
  - Ya başqa bir şeylə qarışır. Məsələn: şərbət
- 2- Mütləq
  - 1- Quyu suyu
  - 2-Axar su
  - 3-Yağış suyu
  - 4- Rakid suyu
    - Kürr (çox)
    - Qəlil (az)

---

* Sistani: paklayıcılar on ikidir.: ... 11 – Inqilab, 12 – Başı kəsilən heyvandan bir miqdar qanın axması.

[1] Sistani. T.m, məs.149; Lənkərani. T.m, məs.152

[2] Sistani. T.m, məs.15; Lənkərani. T.m, məs.18

### *MUZAF SU.*

Muzaf su ya nədənsə alınır və yaxud başqa bir şeylə qarışmaq nəticəsində əldə olunur. Belə ki, ona bir daha su deyilmir.1

Muzaf suyun hökmləri.

1– Muzaf su nəcis şeyi pak etmir.1

2– Muzaf su ilə qüsl və dəstəmaz batildir.2

3– Zərrə qədər nəcasət muzaf suya düşərsə, muzaf su tamamilə nəcis olar, hətta nəcasətin iyini, dadını, rəngini almasa belə.2

4– Əgər nəcis olmuş muzaf su ona bir daha muzaf su deyilməyəcək dərəcədə kürr, yaxud axar su ilə qarışarsa pak olar.3

### *MÜTLƏQ SU*

Muzaf olmayan suya mütləq su deyilir.4

| | |
|---|---|
| ***Su*** | 1– Əvvəlcə mütləq olan suyun muzaf olub-olmaması məlum deyilsə, mütləq su hökmündədir. Nəcis şeyi pak edər, onunla qüsl və dəstəmaz da düzgündür.[1]<br>2– Əvvəlcə muzaf olan suyun mütləq olub-olmaması məlum deyilsə, muzaf su hökmündədir. Nəcis şeyi pak etməz, onunla qüsl və dəstəmaz da batildir.[1] |

### *RAKID SU*

Yerdən qaynamayan və səmadan yağmayan suya rakid su deyilir. Rakid suyun miqdarı əgər çox olarsa, ona "kürr su", az olarsa "qəlil su" deyilir.

### *KÜRR SUYUN MIQDARI56*

| | |
|---|---|
| ***Kürr suyun miqdarı*** | ***Həcmi:*** En, uzunluq və dərinliyinin hər biri 3 qarış yarım olan qabı dolduran su miqdarına kürr suyunun miqdarı deyilir.[2]<br>***Çəkisi:*** Təqribən 386 kq[3] |

Kürr suyun hökmləri:* 7

1 Sistani. T.m, məs.47; Lənkərani. T.m, məs.50
2 Sistani. T.m, məs.48; Lənkərani. T.m, məs.51
3 Sistani. T.m, məs.49; Lənkərani. T.m, məs.52
4 Sistani. T.m, məs.50; Lənkərani. T.m, məs.53
5 Sistani. T.m, məs.16; Lənkərani. T.m, məs.19
6 Lənkərani. T.m, məs.19
* Nəcasətin eyni – öz-özlüyündə nəcis olan nəcasətə deyilir (qeyd olunan 12 nəcis)
7 Sistani. T.m, məs.17; Lənkərani. T.m, məs.20

Əgər nəcasətin eyni* (məsələn, qan və ya bövl) kürr suyuna düşərsə[4]
- 1- Nəcasət suyun iyini, ya dadını və ya rəngini dəyişsə - nəcis olar.
- 2- Heç birini dəyişməsə - pakdır.

1

**Su**
- 1– Əvvəlcə kürr ölçüsündə olan suyun bu ölçüdən azalıb-azalmamasına insan şəkk etsə, kürr hökmündədir.[1]
- 2– Əvvəlcə kürr ölçüsündən az olan suyun kürr ölçüsünə çatıb-çatmamasına insan şəkk etsə, qəlil su hökmündədir. Yəni nəcis şeyi pak etməz. Ona nəcasət dəydikdə tamamilə nəcis olar.[1]

Suyun kürr olması 2 yol ilə sübuta yetir:2

- **1-** İnsanın özü üçün yəqinlik, yaxud xatircəmlik hasil olsun.
- **2-** İki nəfər adil kişi xəbər versin.

Qeyd: Əgər kürr suyun iyi, dadı, rəngi nəcis olmayan bir şey vasitəsilə dəyişərsə, pak hökmündədir. 3

1– Qəlil sudan başqa mütləq suyun bütün növləri nəcasətin iyini, ya rəngini və ya dadını götürməyincə, pakdır. Əgər nəcasətə dəyməyin vasitəsilə nəcasətin iyini, ya dadını və ya rəngini götürərsə, nəcis olar. 4

2– Evlərə borularla gələn sular kürr mənbəyindən gələrsə, kürr su hökmündədir. 5

### *YAĞIŞ SUYUNUN BƏZI XÜSUSIYYƏTLƏRI*

1– Üzərində nəcasətin eyni olmayan nəcasətə bulaşmış şeyin üzərinə yağış bir dəfə yağsa, yağış dəyən yerlər pak olar.6

2– Nəcis olmuş yer və torpağa yağış yağsa, həmin yer pak olar. 7

3– Yağış suyu bir yerdə toplansa, hətta kürrdən az olsa belə, yağış yağan müddətdə nəcis bir şeyi onda yusalar, pak olar və həmin su özü də nəcis olmaz. Yalnız nəcasətin iyini, ya rəngini və ya dadını aldığı halda nəcis olar. 8

---

[1] Sistani. T.m, məs.26; Lənkərani. T.m, məs.23
[2] Sistani. T.m, məs.24; Lənkərani. T.m, məs.27
[3] Sistani. T.m, məs.18; Lənkərani. T.m, məs.21
[4] Imam Xomeyni. "Təhrirul-vəsilə", c.1, səh.13
[5] Lənkərani. T.m, məs.38; Sistani. T.m, məs.35
[6] Sistani. T.m, məs.37; Lənkərani. T.m, məs.40
[7] Sistani. T.m, məs.40; Lənkərani. T.m, məs.43
[8] Sistani. T.m, məs.42; Lənkərani. T.m, məs.45

## *QƏLIL (AZ) SU*

Yerdən qaynamayan kürr miqdarından az olan suya qəlil su deyilir.1
Qəlil suyun hökmləri 2345

1- Qəlil su nəcis şeyin üzərinə tökülsə və yaxud nəcis bir şey ona dəysə, nəcis olar.[3]
2- Əgər yuxarıdan su təzyiqlə nəcis şeyin üzərinə tökülsə, suyun nəcisə dəyən miqdarı nəcis olar. Yuxarıda olan hissəsi isə pakdır.[3]
3- Əgər qəlil su aşağıdan yuxarı təzyiqlə qalxarsa, məsələn, fəvvarə kimi, nəcasət yuxarı qalxdıqda suyun aşağı hissəsi nəcis olmaz. Nəcasət aşağı hissəsinə yetişdikdə yuxarısı da nəcis olar.[4]
4- Eyni – nəcasəti aradan qaldırmaq üçün nəcisin üzərinə tökülən qəlil sudan ayrılan hissələr nəcisdir.[5]

*Su*
1– Əvvəlcədən pak olan suyun sonradan nəcis olub-olmaması məlum deyilsə, pak hökmündədir.[6]
2– Əvvəlcədən nəcis olan suyun sonradan pak olub-olmaması məlum deyilsə, nəcis hökmündədir.[6]

Bir neçə şəri suala cavab:

Sual: Bəzi vaxtlar suya elə bir maddə qatırlar ki, onu süd rəngli edir. Bu su muzaf sudurmu? Bu su ilə olan dəstəmazın, təharətin hökmü nədir?

Cavab: Bu su, muzaf su hökmündə deyil.6

Sual: Kürr və axar su ilə olan təharətin (paklanmanın) fərqi nədir?

Cavab: Bu barədə onların heç bir fərqi yoxdur. 7

Sual: Özü-özlüyündə bulaşıq olan su ilə (məsələn: dənizin duzlu suyu kimi) qüsl və dəstəmaz almağın hökmü nədir?

Cavab: Təkcə suyun duzlu olması suyun mütləq olmasına mane deyil. Mütləq su üçün şəri meyyar ürfdür. Yəni camaat arasında həmin suyun mütləq sulardan hesab edilməsi əsas götürülür. 8

---

[1] Sistani. T.m, məs.25; Lənkərani. T.m, məs.28
[2] Sistani. T.m, məs.26; Lənkərani. T.m, məs.29
[3] Lənkərani. T.m, məs.29
[4] Sistani. T.m, məs.27; Lənkərani. T.m, məs.30
[5] Sistani. T.m, məs.55; Lənkərani. T.m, məs.58
[6] Xamenei. "Əcvibətül istiftaat", sual 79
[7] Xamenei. "Əcvibətül istiftaat", sual 80
[8] Xamenei. "Əcvibətül istiftaat", sual 76

[?] Suallar

1- Sular neçə növdür? Hər birini izah edin.

2- Mütləq və muzaf suyun fərqi nədədir?

3- Bir şəxs suyun kürr olub-olmadığını necə təyin edə bilər?

4- Qəlil suyun bir hissəsinin pak, digər hissəsinin nəcis olması hansı halda mümkündür?

5- Aşağıdakı suların hər birinin mütləq və ya muzaf olduğunu deyin və növünü təyin edin:

Gülab – kanal suyu – qarın əriməsi nəticəsində vedrəyə yığılan su – stəkanda olan çay – çeşmə suyu – palçıqlı su – yemiş suyu.

# 6-CI DƏRS

## TƏXƏLLININ HÖKMLƏRI

### (Ayaq yoluna getməyin hökmləri)

1– Insanın təxəlli halında və başqa bütün hallarda öz övrətini mükəlləf şəxslərdən, hətta ana və bacı kimi məhrəm olan şəxslərdən belə, həmçinin yaxşı ilə pisi başa düşən uşaqlardan və dəlidən örtməsi vacibdir. Amma ər-arvadın övrətini bir-birindən örtməsi vacib deyil.1

2–Təxəlli* halında bədənin ön tərəfi (yəni qarın və sinə) üzü və ya arxası qibləyə olmamalıdır2.

3– Ehtiyati vacibə görə, **təxəlli halında uşaq üzü və ya arxası qibləyə oturulmamalıdır. Amma uşaq özü oturarsa, qarşısını almaq vacib deyil.3

Təxəlli halında vacib, haram, müstəhəb və məkruh olanlar aşağıdakılardır:

- ***Vacib:*** övrətin başqalarından, hətta dəlidən və yaxşı-pisi başa düşən uşaqdan örtülməsi[1]
- ***Haram:*** üzü qibləyə, ya arxası qibləyə olmaq[2]
- ***Müstəhəb[3]:***
  - Heç kəsin onu görə bilmədiyi yerdə təxəlli etmək
  - Ayaq yoluna girərkən sol ayaqla girmək
  - Ayaq yolundan çıxarkən sağ ayaqla çıxmaq
  - Təxəlli vaxtı başı örtmək
  - Bədənin ağırlığını sol ayağın üzərinə salmaq
- ***Məkruh[4]:***
  - Ayaq yolunda çox qalmaq
  - Günəş, ya ay ilə üzbəüz oturmaq
  - Üzü küləyə dayanmaq
  - Danışmaq (zərurət və zikr etmək halından başqa)
  - Sağ əllə yuyunmaq
  - Təxəlli halında yemək və içmək

---

[1]Sistani. T.m, məs.57 Lənkərani. T.m, məs.60;

*Sistani: Ehtiyati vacibə əsasən təxəlli halında bədənin qabaq hissəsi (qarın və sinə) üzü, yaxud arxası qibləyə olmamalıdır. T.m, məs.59

[2] Lənkərani. T.m, məs.62

** Sistani: Ehtiyati müstəhəbə əsasən ...

[3] Sistani. T.m, məs.63; Lənkərani. T.m, məs.66

[1,2,3,4]Təxəlli etməyin haram olduğu yerlər aşağıdakılardır:[5]

1– Sahibi icazə verməyən bağlı küçələrdə (dalanlarda).
2– Sahibinin icazəsi olmayan mülkdə.
3– Bir dəstə xüsusi adamlar üçün vəqf olunan yerlərdə. Məsələn: bəzi mədrəsələrdə.

Aşağıdakı hallarda ğaitin məxrəci (çıxdığı yer) yalnız su ilə paklanar:[6]

1– Ğait ilə birlikdə başqa bir nəcis də bayıra çıxarsa, məsələn ğaitlə birlikdə qan gələrsə.
2–Bayırdan hər hansı bir nəcasət ğaitin məxrəcinə dəyərsə.
3–Ğaitin məxrəcinin kənar hissələri adi qaydadan artıq nəcasətə bulaşmış olarsa, məsələn: ishal halında.

***BÖVL VƏ ĞAITIN MƏXRƏCININ PAKLANMASI:***

1– Bövlün məxrəci sudan başqa şeylə (daş, kəsək, parça və s.) paklanmaz:[7]

2– Bövlün məxrəcini paklamaq üçün, bövl aradan qaldırılandan sonra bir dəfə su ilə yuyulsa, kifayətdir.* Amma ehtiyati müstəhəbə əsasən iki dəfə yuyulmalıdır.[8]

3– Ğaitin məxrəci su ilə yuyulduqda, orada ğaitin zərrələri qalmamalıdır. Amma rənginin və iyinin qalmasının maneəsi yoxdur. Əgər 1-ci dəfə yuyulanda ğaitin zərrələri orada qalmasa, 2-ci dəfə yuyulması lazım deyil.[9]

4–**Əgər ğaitin məxrəcini daş, kəsək və bu kimi şeylərlə təmizləsələr, pak olmasının təəmmül – məhəlli• olmasına baxmayaraq, belə halda namaz qılmağın maneəsi yoxdur.[10]

---

[1] Sistani. T.m, məs.57; Lənkərani. T.m, məs.60
[2] Sistani. T.m, məs.59; Lənkərani. T.m, məs.62
[3] Sistani. T.m, məs.79; Lənkərani. T.m, məs.81
[4] Sistani. T.m, məs.80; Lənkərani. T.m, məs.82;
[5] Sistani. T.m, məs.64; Lənkərani. T.m, məs.67
[6] Sistani. T.m, məs.65; Lənkərani. T.m, məs.68
[7] Sistani. T.m, məs.66; Lənkərani. T.m, məs.69

*Sistani: Bövl aradan qaldırılandan sonra kürr və axar su ilə bövlün məxrəcini bir dəfə yumaq kifayətdir. Amma az su ilə iki dəfə yumaq ehtiyati müstəhəbə əsasəndir, üç dəfə yumaq daha yaxşıdır. T.m, məsələ: 66

[8] Lənkərani. T.m, məs.69
[9] Sistani. T.m, məs.67; Lənkərani. T.m, məs.70;

**Sistani: Ğaitin məxrəci quru və pak olan daş, kəsək, bez parçası və buna bənzər şeylərlə paklana bilər. T.m, məsələ: 68

•Ehtiyat olunmalıdır (Müqəllid belə məsələlərdə başqa müctəhidə müraciət edə bilər)

[10] Lənkərani. T.m, məs.71

5– Istibra – kişilərin bövldən sonra (bövl kanalını tam təmizləmək üçün) yerinə yetirdiyi müstəhəb əməldir.1

6– Əgər insan bövldən sonra istibra etsə və sonradan ondan su xaric olsa, bunun bövl, yaxud başqa pak bir su olmağına şəkk etsə, pakdır2. ("Istibra" haqqında məlumat üçün "Tovzihul məsail" kitabına müraciət edilsin.)

Su 4 şərtlə nəcis şeyi pak edər:3

1- Mütləq olmalı
2-Pak olmalı
3- Nəcis bir şeyi yuyan vaxt su muzaf olmamalı, su nəcasətin iyini, ya rəngini və ya dadını götürməməlidir.
4- Nəcis şeyi suya çəkəndən sonra, onda nəcasətin eyni qalmamalıdır.

*NƏCIS ŞEYIN PAKLANMASI: *4 **5*

- 1- Qab
  - 1.Kürr su ilə: 1 dəfə*3
  - 2.Qəlil su ilə: 3 dəfə
  - ⇨ Şərabla nəcis olmuş qablardan, it və ya donuzun maye halında olan bir şeyi yediyi qablardan başqa
- 6*7 2-Qabdan başqa şeylər
  - 1. Bövllə nəcis olmuşsa
    - 1- Kürr su ilə: bir dəfə**4
    - 2- Qəlil su ilə: iki dəfə***5
  - 2. Bövldən başqa bir şeylə nəcis olmuşsa
    - 1- Kürr su ilə: bir dəfə
    - 2- Qəlil su ilə: bir dəfə****6

[1] Sistani. T.m, məs.73; Lənkərani. T.m, məs.75
[2] Sistani. T.m, məs.74; Lənkərani. T.m, məs.76
[3] Sistani. T.m, məs.150; Lənkərani. T.m, məs.153
* Sistani: Nəcis qabı kürr su ilə pak edərkən ehtiyati-vacibə əsasən üç dəfə yuyulmalıdır. T.m, məs.151
[4] Lənkərani. T.m, məs.154
** Sistani: Bövl ilə nəcis olmuş paltar və bədən isə kürr su ilə 2 dəfə yuyulmalıdır. T.m, məs.160
[5] Lənkərani. T.m, məs.161
*** Sitani: Libas və bədəndən başqa bütün şeylər bövllə nəcis olarsa, üzərinə bir dəfə qəlil su tökülərsə, su ondan ayrıldıqdan sonra üzərində bövl qalmazsa, pak olar. T.m, məs.161
[6] Lənkərani. T.m, məs.162
**** Sistani: Bövldən başqa bir şeylə nəcis olmuş şeyləri qəlil su ilə pak edərkən, nəcasətin eyni aradan qaldırıldıqdan sonra bir dəfə yumaq lazımdır. T.m, məs.163
[7] Lənkərani. T.m, məs.164

| | Nəcis əşya | Qəlil su ilə | Kürr ya axar su ilə | Izahat |
|---|---|---|---|---|
| 1. | Itin yaladığı və ya içində maye halında olan bir şey yediyi qab*[1] | Ehtiyati vacibə görə 2 dəfə | Ehtiyati vacibə görə 2 dəfə | Suya çəkməzdən əvvəl torpaqlanmalıdır |
| 2. | Donuzun maye halında olan bir şey yediyi qab[2] | 7 dəfə | Ehtiyati vacibə görə 7 dəfə** | Bu cür qabı torpaqlamaq ehtiyati - müstəhəbdir |
| 3. | Şərabla nəcis olmuş qab[3] | 3 dəfə yuyulsun, yaxşı olar ki, 7 dəfə yuyulsun | 1 dəfə*** | Torpaqlamaq lazım deyil |

Bir neçə qeyd.

Nəcis əşyanı pak edərkən gərək əvvəlcə nəcasətin eyni aradan qaldırılsın, sonra isə yuxarıdakı cədvəldə göstərilən qayda ilə suya çəkilsin.

1– Xalça, paltar və bu kimi suyu özündə saxlayan və sıxılması mümkün olan əşyaları qəlil su ilə suya çəkərkən,hər dəfə su töküldükdən sonra sıxılmalıdır ki, daxilindəki su çıxsın və ya hər hansı vasitə ilə onun suyunu çıxartmaq lazımdır.****[4]

---

* Sistani: Itin su və ya buna bənzər axıcı bir şey yediyi qab, əvvəl pak bir torpaqla paklanmalı və sonra qəlil, kürr və ya axar suda iki dəfə yuyulmalıdır. Yenə itin yaladığı qabda əgər bir şey qalmışdırsa, yumaqdan qabaq torpaqla sürtülməlidir. T.m, məs.151

[1] Lənkərani. T.m, məs.154

[2] Lənkərani. T.m, məs.156

**Sistani: Donuzun maye halında olan bir şeyi yediyi qabı kürr və axar su ilə 7 dəfə yumaq lazımdır. T.m, məs.153

[3] Lənkərani. T.m, məs.157

***Sistani: Ehtiyati vacibə əsasən şərabla nəcis olan qab kürr və axar su ilə 3 dəfə yuyulmalıdır. T.m, məs.151

****Sistani: Kürr və axar suda nəcis olmuş xalça və libas kimi şeyləri pak edərkən, daxilindəki suyu çıxartmaq lazım deyil. Amma qəlil su ilə yuyulduqda sıxmaq lazımdır. T.m, məs.160 və 163.

[4] Lənkərani. T.m, məs.162

2– Kürr və axar suda da ehtiyati vacibə görə nəcis xalça, palaz-paltar və sairənin daxilindəki su çıxarılmalıdır.*1

Nəcis əşyanı paklamaq məsələlərində axar su və quyu suyu kürr suyunun hökmündədir. Yəni kürr suyu barəsində deyilən hökmlər bu sulara da aiddir.

### *NƏCIS QABIN PAKLANMASI.*

Nəcis qab iki cür paklanar:**23

- **Kürr su ilə: 1 dəfə kürr suyuna salıb çıxartmaqla.[2]
- Qəlil su ilə:[3]
  - ✻– 3 dəfə doldurulub – boşaltmaqla
  - ✻– və ya 3 dəfə bir qədər daxilinə su töküb, hər dəfə elə çalxalamaq lazımdır ki, qabın nəcis olan yerlərinə su çatsın. Sonra isə hər dəfə o suyu boşaltmaq lazımdır.

Bir neçə şəri suala cavab:

Sual: Paklama əsnasında nəcis olmuş paltarın rəngi suyun rəngini dəyişdirir. Bu halda o paltar necə paklanmalıdır?

Cavab: Paltarın rənginin suda yayılması suyun muzaf olmasına gətirib çıxarmazsa, onda o paltar üzərinə suyun tökülməsi ilə pak olar.4

Sual: Bir nəfər cənabət qüsulu almaq üçün suyu qaba tökür. Qüsl əsnasında bədənindən qabın içinə su tökülür. Bu halda qabdakı su paklığında qalırmı? O su ilə qüsulu tamamlamaqda bir maniə varmı?

Cavab: Əgər bədənin pak yerindən qaba su düşsə, qabdakı su pakdır və bu su ilə qüslu tamamlamaqda heç bir maneə yoxdur.5

Sual: Küçələrdəki çuxurlarda yığışan sular pakdır, yoxsa nəcis?

Cavab: Bu sular pak hökmündədir.6

[?] Suallar

1- Su hansı şərtlərlə nəcis şeyi pak edər?

2- Qan ilə nəcis olmuş paltarı az su ilə necə pak etmək olar?

3- Şərabla nəcis olmuş qabın pak edilməsi qaydasını deyin?

---

* Sistani: Kürr və axar suda nəcis olmuş xalça və libas kimi şeyləri pak edərkən, daxilindəki suyu çıxartmaq lazım deyil. Amma qəlil su ilə yuyulduqda sıxmaq lazımdır. T.m, məs.160, 163

[1] Lənkərani. T.m, məs.161

** Sistani: Ehtiyati-vacibə əsasən, nəcis olmuş qabı kürr suyuna 3 dəfə salıb çıxartmaqla pak olar. T.m, məs.151

[2] Lənkərani. T.m, məs.154

[3] Sistani. Tm, məs.156; Lənkərani. T.m, məs.159

[4] Xamenei. "Əcvibətül istiftaat", sual 87

[5] Xamenei. "Əcvibətül istiftaat", sual 88

[6] Xamenei. "Əcvibətül istiftaat", sual 307

4- Nəcis olmuş xalçanın həm kürr, həm də qəlil su ilə pak olma qaydasını deyin.

5- Təxəllinin müstəhəb və məkruhlarından üçünü yazın.

# 7-CI DƏRS

## *NƏCIS YERIN PAKLANMASI*

1*23

**1-Kürr su ilə**

Əvvəlcə nəcasəti aradan qaldırmaq lazımdır, sonra isə həmin yerə kürr, yaxud axar suyu elə çatdırmaq lazımdır ki, nəcis olmuş yerin hər tərəfinə su çatmış olsun.[1]

**2- Qəlil su ilə**

1– Üstündə su axa bilməyən (yəni suyu canına çəkən) yer qəlil su ilə pak olmaz* Amma üstü çınqıllı, qumlu olan torpaq, su onun üstünə töküləndə ondan ayrılıb quma batdığına görə, qəlil su ilə pak olur. Amma qumların altı nəcis qalır.[2]

2– Daş və ya kərpiclə döşənmiş olan və ya suyun batmadığı bərk yer qəlil su ilə pak olur. Bu halda onun üstünə axıncaya qədər su tökülməlidir. Amma həmin suyun yığıldığı yer nəcisdir.[3]

1– Qəlil su ilə yeri pak edərkən axan su həmin yerdən axıb gedərsə, yaxud bir çalaya yığılarsa, bu halda suyun axdığı hər yer pak olar. Amma o suyun yığıldığı çala nəcis qalır. Onun pak olması üçün orada yığılan suyu bir qabla kənara atmaq lazımdır.4

---

[1] Sistani. T.m, məs.160; Lənkərani. T.m, məs.161

* Sistani: Suyu canına çəkən üstü çınqıllı, ya qumlu olan torpaq kimi yerlər qəlil su ilə də pak olar. T.m, məs: 180

[2] Lənkərani. T.m, məs.181

[3] Sistani. T.m, məs.181; Lənkərani. T.m, məs.182;

[4] Lənkərani: ... həmin çala isə torpaqla doldurulmalıdır. T.m, məs.182

*NƏCIS SUYUN PAKLANMASI1*

**Nəcis suyun paklanması**

- •Nəcis olmuş qəlil suyun paklanması — Nəcis olmuş qəlil su kürr, ya quyu və ya yağış suyu ilə qarışmaq nəticəsində paklanar. Amma əgər nəcasətin iyi, rəngi, dadı olarsa, gərək nəcisin iyi, dadı, rəngi də aradan getsin.[1]
- • Nəcis olmuş kürr, axar və quyu suyunun paklanması — Nəcis olmuş kürr, axar və quyu suyunun paklanması üçün onlar kürr, ya axar, ya quyu və yaxud yağış suyuna elə qarışmalıdırlar ki, nəcasətin rəngi, iyi, dadı aradan getsin.[1]

*YER*

1– Yer 3 şərtlə nəcis olmuş ayağın və ayaqqabının altını pak edər:2

- • Yer pak olsun,
- • Yer quru* olsun,
- • Yol getmək və yaxud ayağı yerə sürtmək vasitəsilə nəcasət aradan getmiş olsun.

2– Nəcis olmuş ayaq və ayaqqabının altını paklamaq üçün yaxşı olar ki, on beş addım yol gedilsin.3

***Yer***[2]
- •Ya torpaq olmalıdır
- •Ya daş olmalıdır
- •Ya kərpic və ya bu kimi şeylərdən olmalıdır olmalıdır

Aşağıdakı hallarda nəcis ayaq və ayaqqabının altı pak olmaz:2

- • *Xalçada*
- • *Həsirdə*
- • *Otluqda və*

4– Aşağıdakı hallarda nəcis ayaq və ayaqqabının pak olması şübhəlidir:4

- • Asfaltda
- • Taxta döşəmədə

---

[1] Imam Xomeyni. "Urvətul vusqa", c.1, səh.43 və "Təhrirul vəsilə", c.1, səh.14
[2] Sistani. T.m, məs.184; Lənkərani. T.m, məs.185
* Sistani: Ehtiyati-vacibə görə yer gərək quru olsun. T.m, məs.184
[3] Sistani. T.m, məs.186; Lənkərani. T.m, məs.187
[4] Sistani. T.m, məs.185; Lənkərani. T.m, məs.186

5– Ayaq və ayaqqabının altı yol getməkdən başqa hər hansı bir vasitə ilə nəcis olarsa,yol getməklə pak olma ehtimalı çox azdır.1

### *GÜNƏŞ*

Günəş bunları pak edər:2*

- 1- Yeri
- 2- Tikilini
- 3- Evin bir hissəsi hesab olunan qapı-pəncərəni*
- 4- Evin bir hissəsi hesab olunan mıxı*
- 5- Nəcis olmuş həsiri
- 6- Ağac və otları*

Günəş aşağıdakı şərtlərlə pak edər:3

1- Nəcis olmuş şey yaş olsun: belə ki, ona bir əşya toxunduqda yaşlığı həmin əşyaya da keçsin.

2- Əgər onda nəcasətin eyni olarsa, günəş düşməzdən əvvəl onu aradan qaldırmaq lazımdır.

3- Heç bir şey günəşin düşməsinin qarşısını almasın. Məsələn: əgər günəş nəcis şeyə pərdə vasitəsilə düşüb həmin şeyi qurudarsa, o nəcis şey pak olmaz.

4- Günəş özü təklikdə nəcis şeyi qurutsun. Məsələn: əgər nəcis bir şey həm günəş, həm də külək vasitəsilə quruyarsa, həmin nəcis pak olmaz. Amma əgər külək az miqdarda olarsa, eybi yoxdur.

5- Günəş tikilinin nəcis olmuş hissəsini bir dəfəyə qurutsun. Məsələn: əgər üzünü bu gün, daxilinin nəcis olmuş hissəsini isə sabah qurudarsa, yalnız üzü pak olar.

1– Əgər yer və bu kimi şeylər nəcis olsa, amma rütubətli olmazsa, onun üzərinə bir qədər su və yaxud hər hansı mayeni tökməklə yaş etmək olar və bu halda günəşin düşməyi ilə pak olar.4

2– Qum, daş, torpaq, gil yerin bir hissəsi hesab olduğu vaxta qədər günəş vasitəsilə pak olar. Amma yerdən ayrıldıqdan sonra günəş vasitəsilə pak olmaz.5

### *ISTIHALƏ.*

1– Əgər nəcis bir şeyin cinsi (zatı) dəyişib başqa pak bir şeyə çevrilərsə, pak olar. Belə dəyişikliyə istihalə deyilər.6

Aşağıdakı misallarda göstərilənlər istihalə vasitəsilə pak olar:1

---

[1] Sistani. T.m, məs.184; Lənkərani. T.m, məs.185

[2] Sistani. T.m, məs.192; Lənkərani. T.m, məs.193-194

* Sistani: Qapı, pəncərə, ağac və otların günəş vasitəsi ilə pak olması şübhəlidir. T.m, məs.193

[3] Sistani. T.m, məs.192; Lənkərani. T.m, məs.193

Lənkərani: 6-cı şərt: Günəşin düşdüyü yerin, yaxud binanın üzü ilə daxili arasında hava və yaxud başqa pak bir şey fasilə salmasın. T.m, məs.193

[4] Sistani. T.m, məs.192; Lənkərani. T.m, məs.193

[5] Imam Xomeyni. "Təhrirul vəsilə", c.1, səh.130

[6] Sistani. T.m, məs.196; Lənkərani. T.m, məs.197

❋ Nəcis olmuş toxum bitkiyə çevrilərsə;
❋ Nəcis taxta yanıb kül olarsa;
❋ Hər hansı nəcis bir şey yanıb tüstüyə çevrilərsə;
❋ Şərab sirkəyə çevrilərsə;

2– Əgər nəcis bir şeyin tərkibi dəyişməzsə, yalnız forması dəyişərsə, pak olmaz:2

❋ Nəcis buğda una, ya çörəyə çevrilərsə;
❋ Nəcis üzüm sirkəyə çevrilərsə;

3–Nəcis bir şeyin istihalə olub-olmadığı məlum deyilsə, nəcisdir. 3

Bir neçə şəri suala cavab:

Sual: Asfalt və s. ilə döşənmiş küçələr pakedici sayılırmı? Asfaltın üstündə getməklə ayağımızın altı pak olurmu?

Cavab: Asfalt, qır kimi şeylərlə döşənmiş yer ayaqların altını, yaxud (ayaqqabı kimi) ayağı qoruyan şeyləri pak etmir.4

Sual: Heyvanlardan çıxarılan nəcis piy kimyəvi parçalanmadan sonra (belə ki, bu parçalanmadan sonra yeni xassələrə malik olan maddəyə çevrilir)yenə də nəcis sayılırmı, yoxsa onda istihalə hökmü vardır?

Cavab: Nəcis maddələrin, yaxud heyvanların haram hissələrindən alınan maddələrin pak və halal olması üçün, onlar üzərində təkcə onlara təzə xassələr verən kimyəvi əməliyyat aparmaq kifayət deyildir.5

Sual: Bəzən meyyiti taxtadan düzəldilmiş taxtın üzərində yuyub qüsl verirlər. Meyyitin bədəninin də zahirinin nəcis olması ehtimalı var. Bu halda meyyit pak olanda onunla birlikdə taxt da pak olurmu? Halbuki taxtın birinci dəfə tökülən suyun canına çəkməsini bilirik.

Cavab: Taxt meyyitin pak olması ilə pak olur və ayrıca pak etməyə də ehtiyac yoxdur.6

[?] Suallar

1- Əgər evin divarının bir hissəsi nəcis olarsa, onu necə pak etmək olar?

2-. Əgər ayaqqabının altı rütubətli və nəcis olan yer vasitəsilə bulaşarsa, həmin rütubətli yerin pak olan hissəsi ilə insan 15 addım gedərsə, ayaqqabının altı pak olarmı?

3- Günəş hansı şərtlərlə pak edər?

4- Kolundan ayrılmış buğda nəcis olarsa, günəş onu pak edərmi?

---

[1] Imam Xomeyni. "Təhrirul vəsilə", c.1, səh.131
[2] Sistani. T.m, məs.196 və 201; Lənkərani. T.m, məs.197 və 202
[3] Sistani. T.m, məs.198; Lənkərani. T.m, məs.199
[4] Xamenei. "Əcvibətül istiftaat", sual 85
[5] Xamenei. "Əcvibətül istiftaat ", sual 90
[6] Xamenei. "Əcvibətül istiftaat ", sual 93

# 8-CI DƏRS

## *Intiqal*

Insanın, yaxud sıçrayıcı qanı olan heyvanın qanı, sıçrayıcı qanı olmayan heyvanın (məsələn həşəratın) bədəninə gedib (sorulub) o heyvanın qanı hesab olunsa, pak olur. Buna intiqal deyilir. Deməli, zəlinin insandan çəkdiyi qana "zəli qanı" deyil, "insan qanıdır" deyildiyinə görə nəcisdir.1

Həmçinin insan və ya heyvan bədəninin bir hissəsi başqa bir diri və eyni-nəcis olmayan heyvanın və ya insanın bədəninə köçürülərsə və onun bədəninin bir hissəsi hesab olunarsa, pakdır. Məsələn, aşağıdakı hallar kimi;2

❋ Insan bədəninin qanı ağcaqanad və ya milçəyin bədəninə keçərsə;

❋ Heyvan bədəninin bir hissəsini ayırıb insan bədəninə köçürərlərsə (məsələn: heyvanın gözünü);

❋ Bədənin ətinin bir hissəsi kəsilib bədənin başqa bir yerinə köçürülərsə, pak olar.

### *ISLAM*

1– Əgər kafir "şəhadəteyn" (kəlmeyi-şəhadət) deyərsə, müsəlman olar və müsəlman olmağı ilə də onun bütün bədəni, hətta təri və ağzının suyu da pak olar. "Şəhadəteyn" aşağıdakı iki cümlədən ibarətdir:3

اَشْهَدُ اَنْ لاَ اِلَهَ اِلاَّاللهُ اَشْهَدُ اَنَّ مُحَمَّدًا رَسُولُ اللهِ

2– Əgər kafir "şəhadəteyn" deyərsə və insan onun qəlbən müsəlman olub-olmadığını bilməsə, pakdır.4

3– Kafir müsəlman olduğu zaman nəcasətin eyni onun bədənində olsa, onun təmizlənməli yerini suya çəkməlidir.5

4– Bir şəxs kafir olduğu vaxt paltarı rütubətlə bədəninə dəymiş olsa və həmin paltar müsəlman olduğu vaxtda bədənində olmasa, nəcisdir. Hətta əgər bədənində olsa, ondan çəkinməlidir.* 47

### *TƏBƏIYYƏT*

1–Təbəiyyət – nəcis şeyin, başqa bir nəcis şeyin pak olması vasitəsilə paklanmasına deyilir.58

---

[1] Sistani. T.m, məs.210; Lənkərani. T.m, məs.207

[2] Imam Xomeyni. "Təhrirul vəsilə", c.1, səh. 131

[3] Sistani. T.m, məs.212; Lənkərani. T.m, məs.209

[4] Sistani. T.m, məs.214; Lənkərani. T.m, məs.211

[5] Sistani. T.m, məs.212; Lənkərani. T.m, məs.209

* Sistani: Şəxs kafir olduğu vaxt paltarı rütübətlə bədəninə dəymiş olsa və həmin paltar müsəlman olduğu vaxt istər bədənində olsun,istər olmasın, ehtiyati – vacibə əsasən, həmin paltardan çəkinmək lazımdır. T.m, məs:213

[4] Lənkərani. T.m, məs.210

[5] Sistani. T.m, məs.215; Lənkərani. T.m, məs.212

2–Aşağıdakı misallarda nəcis olan şeylər təbəiyyət vasitəsilə pak olur:

❋ Əgər şərab sirkəyə çevrilərsə, onun qabı da şərab qaynayanda çatdığı yerə qədər pak olar.61

❋ Qüsl tamam olduqda meyyitin qoyulduğu taxta, qüsl verən şəxsin əlləri, meyyitin üzərinə salınan parça (long) pak olar.132

❋ Hər hansı bir nəcis əşyanı suya çəkərkən, suya çəkən şəxsin əlləri də nəcis şeyin paklanmağı ilə pak olar. Yenidən əlləri suya çəkməyə ehtiyac yoxdur.23

### *EYNI – NƏCASƏTIN ARADAN QALXMASI*

Iki halda əgər eyni-nəcis, yaxud nəcisə bulaşmış yerin nəcasəti aradan qalxarsa, həmin yer pak olar, suya çəkməyə ehtiyac yoxdur.3
4

1- ***Heyvanın bədəni:*** Məsələn, dimdiyini nəcasətə vurmuş toyuğun dimdiyində olan nəcasət aradan gedərsə, pak olar.
2- ***İnsanın bədəninin daxili:*** Məsələn, ağızın, burunun və ya qulağın içi. Əgər dişi fırçalayan vaxt dişin dibindən qan gələrsə və ağız suyu ilə qarışıb aradan gedərsə, ağızın içini suya çəkməyə ehtiyac yoxdur.

### *NƏCASƏT YEYƏN HEYVANIN ISTIBRASI. 5*

1– Insan nəcasətini yeməyə adət edən heyvanın bövl və ğaiti nəcisdir. Onların pak olması üçün heyvan istibra olunmalıdır. Yəni bir daha "nəcasət yeyən" deyilməyəcəyi müddətə qədər onun nəcasət yeməsinin qarşısı alınmalı və ona pak yem verilməlidir:
Dəvə* — 40 gün, inək — 20 gün, qoyun —10 gün,
qaz-ördək — 5 gün, ev toyuğu — 3 gün

### *MÜSƏLMANIN QAIB OLMASI*

1– Əgər bir müsəlmanın paltarı, bədəni və yaxud ixtiyarında olan qab-qacaq, xalça və s. nəcis olsa və o müsəlman qaib olsa, (müsəlmanla əlaqə saxlamaq mümkün olmazsa) həmin şəxsin o şeyləri suya çəkməsinə ehtimal verilsə, ondan çəkinmək lazım deyildir. 6

Aşağıdakı hallar pak hökmündədir: 7

❋ Insan nəcis olan şeyin pak olmasına yəqinlik hasil etdikdə;

❋ Iki adil şəxs nəcis olmuş şeyin pak olmasını xəbər verdikdə;

---

[6] Sistani. T.m, məs.216; Lənkərani. T.m, məs.213
[1] Sistani. T.m, məs.218; Lənkərani. T.m, məs.214
[2] Sistani. T.m, məs.219; Lənkərani. T.m, məs.215
[3] Sistani. T.m, məs.222; Lənkərani. T.m, məs.218
[5] Sistani. T.m, məs.226; Lənkərani. T.m, məs.222
*Sistani: Yuxarıda göstərilən müddətlər ehtiyati-müstəhəbə əsasəndir
[6] Sistani. T.m, məs.227; Lənkərani. T.m, məs.223
[7] Sistani. T.m, məs.228; Lənkərani. T.m, məs.224

❋ Nəcis şey ixtiyarında olan şəxs "o şey pak olub"-desə; (məsələn: ana qabın pak edildiyini desə)

❋ Hər hansı müsəlman nəcis şeyi suya çəkmiş olsa, hətta əgər düz, səhih suya çəkməsi məlum olmasa belə;

Bir neçə şəri suala cavab:

Sual: Bir nəfər yemək satır, bədənində keçici rütubət olan halda o yeməyə əl vurur, lakin dini məlum deyil. Onun hansı dində olmasını soruşmaq vacibdirmi, yoxsa pak olması əsas götürülür? Həmçinin məlumdur ki, Islam dövlətindən deyil, bu ölkəyə işləmək üçün gəlmişdir.

Cavab: Onun dini barədə soruşmaq vacib deyil: onun barəsində bədəni rütubətli olan halda toxunduğu şeylərin paklığının əsas olması hökmü icra olunur. 1

Sual: Təharət və nəcasətə dair olan məsələlərə (yemək, içmək və s.) çox da riayət etməyən şəxslərə ailəvi qonaq getməyin hökmü nədir?

Cavab: Təharət və nəcasət mövzularında nə qədər ki, bir şeyin nəcis olmasına yəqinlik hasil olmayıb, paklığa hökm olunur.2

Sual: Xahiş edirəm ki, aşağıdakı məsələlərdə (qusmanın pak və ya nəcis sayılma cəhətindən) şəri hökmü bəyan edəsiniz:

1. Südəmər uşaqlarınkı;
2. Həm süd əmən, həm də çörək yeyən uşaqlarınkı;
3. Həddi – buluğa çatan insanınkı.

Cavab: Hər üç halda pakdır.3

Sual: Haram yolla cünub olan şəxsin, həmçinin nəcis yeyən heyvanın tərinin hökmü nədir?

Cavab: Nəcasət yeyən dəvənin təri nəcisdir. Amma yerdə qalan heyvanlardan nəcasət yeyənlərin, həmçinin haram yolla cünub olan şəxslərin təri pakdır. Lakin vacib ehtiyata əsasən haram yolla cünub olan şəxsdən çıxan tərin dəydiyi paltarla namaz qılmaq tərk olunmalıdır.4

[?] Suallar

1- Müsəlman olub-olmadığı məlum olmayan şəxsin hökmü necədir?

2- Hansı hallarda eyni-nəcasətin aradan qalxmağı ilə nəcis şey pak olar?

3- Intiqala iki misal yazın.

4- Nəcis su qaynayarkən onun buxarı pakdırmı?

5- Müsəlman şəxs kafirlə əl ilə görüşərsə, əli nəcis olarmı?

---

1 Xamenei. "Əcvibətül istiftaat", sual 311
2 Xamenei. "Əcvibətül istiftaat", sual 308
3 Xamenei. "Əcvibətül istiftaat", sual 309
4 Xamenei. "Əcvibətül istiftaat", sual 283

# 9-CU DƏRS

## *DƏSTƏMAZ*

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِذَا قُمْتُمْ إِلَى الصَّلاةِ فاغْسِلُواْ وُجُوهَكُمْ وَأَيْدِيَكُمْ إِلَى
الْمَرَافِقِ وَامْسَحُواْ بِرُؤُوسِكُمْ وَأَرْجُلَكُمْ إِلَى الْكَعْبَينِ وَإِن كُنتُمْ جُنُبًا فَاطَّهَّرُواْ وَإِن
كُنتُم مَّرْضَى أَوْ عَلَى سَفَرٍ أَوْ جَاء أَحَدٌ مَّنكُم مِّنَ الْغَائِطِ أَوْ لاَمَسْتُمُ النِّسَاء فَلَمْ تَجِدُواْ
مَاء فَتَيَمَّمُواْ صَعِيدًا طَيِّبًا فَامْسَحُواْ بِوُجُوهِكُمْ وَأَيْدِيكُم مِّنْهُ مَا يُرِيدُ اللّهُ لِيَجْعَلَ عَلَيْكُم
مِّنْ حَرَجٍ وَلَـكِن يُرِيدُ لِيُطَهَّرَكُمْ وَلِيُتِمَّ نِعْمَتَهُ عَلَيْكُمْ لَعَلَّكُمْ تَشْكُرُونَ

"Ey Iman gətirənlər! Namaz qılmağa durduğunuz zaman üzünüzü və əllərinizi dirsəkləriniz də daxil olmaqla yuyun, başınıza və ayaqlarınıza topuğa (ayağın üstündəki dik yerə) qədər məsh çəkin! Əgər cünub olsanız, özünüzü paklayın (qüsl edin). Xəstələndiyiniz, səfərdə olduğunuz və ayaq yoluna getdiyiniz və ya qadınlarla yaxınlıq etdiyiniz zaman su tapmasanız, pak torpağa təyəmmüm edin. Üzünüzə və əllərinizə də onunla məsh çəkin. Allah sizin çətinliyə düşmənizi istəməz, lakin o sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq (artırmaq) istər ki, bəlkə şükr edəsiniz!"

(Maidə surəsi, ayə 6)

Namaz qılan şəxs namazdan əvvəl dəstəmaz almalıdır. Bəzi hallarda isə "qüsl" etməyi də lazımdır. Əgər dəstəmaz ala bilməsə və ya "qüsl" edə bilməsə, bunların əvəzinə "təyəmmüm" etməlidir. Hər birinin izahı gələcək dərslərdə veriləcək.

**Dəstəmaz işləri**

- **1-*Yumaq***
  - **1- *üz*** — ***Uzunu:*** alının yuxarısındakı tük bitən yerdən çənənin axırına qədər; ***Eni:*** orta barmaqla baş barmağın arası qədər
  - **2- *sağ qol*** / **3- *sol qol*** — Dirsəkdən barmaqların ucuna qədər
- **2- *Məsh***
  - **1-*baş*** ⇨ Başın ön tərəfi, alının üst hissəsi
  - **2-*sağ ayaq*** / **3-*sol ayaq*** — Ayaqların üzərinə barmaqların ucundan ayağın qabarıq hissəsinə qədər

## *DƏSTƏMAZIN IŞLƏRININ IZAHI*

### *YUMAQ*

Dəstəmazda yuyulması lazım olan miqdar yuxarıda göstərilən qədərdir. Amma bu miqdarın tam yuyulduğuna yəqinlik etmək üçün onun ətrafını bir qədər artıq yumaq lazımdır.[1]

1– Ehtiyati-vacibə əsasən üz və əllər yuxarıdan aşağıya doğru yuyulmalıdır. Əgər aşağıdan yuxarıya doğru yuyularsa, dəstəmaz batil olar.[2]

2– Dəstəmaz almazdan əvvəl biləyə qədər əllərini yuyan şəxs, dəstəmaz alarkən qolları dirsəkdən barmaqların ucuna qədər yumalıdır. Əgər qolları yalnız dirsəkdən biləyə qədər yuyarsa, dəstəmaz batildir.[3]

3–Dəstəmaz üzvlərini yumaq:
- ***1 dəfə:*** vacib
- ***2 dəfə:*** caiz
- ***3 dəfə:*** haram

---

[1] Sistani. T.m, məs.243; Lənkərani. T.m, məs.239
[2] Sistani. T.m, məs.249; Lənkərani. T.m, məs.245
[3] Sistani. T.m, məs.253; Lənkərani. T.m, məs.249

4– Yumaqda məqsəd su tökmək deyil, məqsəd tamam yumaqdır: yəni bir dəfə kamil surətdə dəstəmaz niyyəti ilə bütün üzü və ya əli yuyarsa, II dəfə də həmin üzvü kamil surətdə yenə də yuyarsa, III dəfə haram olar. Beləliklə əgər bir neçə dəfə su töksən, amma su dəstəmaz üzvünün hər tərəfinə çatmasa, bir dəfə hesab olunmaz. Və əgər bir dəfə su tökməklə və ya bir dəfə suya salmaqla dəstəmaz üzvünün hər tərəfinə su çatarsa, bir dəfə yumaq hesab olunar.1

### *BAŞIN MƏSHI.2*

Məsh yeri: Başın 1/4 hissəsi olan alının yuxarısındakı tərəf məsh yeridir.

Məshin vacib miqdarı: Hər nə qədər olsa, kifayətdir.

Məshin müstəhəb miqdarı: Üç barmaq enində bir barmaq uzununda.

1– Sol əl ilə məsh etmək olar.3*

2– Məshin başın dərisinə çəkilməsi vacib deyil: başın qabaq tərəfindən olan tüklərə çəkilsə də səhihdir. Amma əgər bir kəsin başının qabaq tərəfinin tükləri çox uzun olsa (məsələn: darananda alının bir hissəsinə tökülsə, yaxud başın başqa bir yerinə çatsa) tüklərin dibinə məsh çəkilməlidir. Yaxud başının tüklərini ortadan aralamalı və dəriyə məsh edilməlidir.4

3– Başın başqa yerlərinin tükünə məsh etmək düzgün deyil. Hətta həmin tüklər məsh yerinə yığılsa və ora məsh çəkilsə, dəstəmaz batildir.1

4– Başın məshinin sağ əllə, yaxud yuxarıdan aşağıya olması vacib deyil.5

### *AYAĞIN MƏSHI*

1- Məsh yeri: ayağın üzəri

2- Məshin vacib miqdarı: uzunu; barmaqların birinin ucundan ayağın qabarıq yerinə qədər,*

3- Eni: hər nə qədər olsa, kifayətdir.(Hətta bir barmaq ölçüsündə olsa belə)6

4- Müstəhəb miqdarı: bütün ayağın üzəri.

5- Sağ ayaq sol ayaqdan əvvəl məsh edilməlidir. Amma sağ ayağın sağ əllə, sol ayağın sol əllə məsh çəkilməsi vacib deyil.7

Başın və ayağın məshində müştərək məsələlər.

1– Başın və ya ayağın məshində əli onların üzərinə çəkmək lazımdır; əgər əl saxlanıb baş və yaxud ayaq hərəkət etdirilsə, dəstəmaz batildir.

---

[1] Sistani. T.m, məs.254; Lənkərani. T.m, məs.250

[2] Sistani. T.m, məs.256; Lənkərani. T.m, məs.252

[3] Sistani. T.m, məs.255; Lənkərani. T.m, məs.251

* Başqa müctəhidlər: - Ehtiyati-vacibə görə,sağ əllə məsh çəkilməlidir.

[4] Sistani. T.m, məs.257; Lənkərani. T.m, məs.253

[5] Sistani. T.m, məs.255; Lənkərani. T.m, məs.251

* Sistani: ... barmaqların birinin ucundan oynağa kimi məsh edilməlidir. T.m, məs.258

[6] Lənkərani. T.m, məs.254

[7] Sistani. T.m, məs.259; Lənkərani. T.m, məs.255

Amma əllə məsh çəkəndə baş və yaxud ayaq azacıq hərəkət etsə, eybi yoxdur.1

2– Məsh çəkilən yer quru olmalıdır. Əgər yaş olsa, gərək əvvəlcə ora qurudulsun. Amma məsh yerinin yaşlığı əlin rütubətinə mane olmayacaq qədər az olsa, eybi yoxdur.2

3 – Əlin yaşlığı o qədər olmalıdır ki, başda və ayaqlarda yaşlığı hiss olunsun.2

4– Əgər məsh üçün əldə su qalmasa, onu başqa su ilə islatmaq olmaz.* Dəstəmazın başqa üzvlərindən rütubət götürüb onunla məsh edilməlidir.3

5– Əgər əlin rütubəti yalnız başın məshinə çatarsa,** əldə olan həmin rütbətlə başa məsh çəkilməli və ayaqların məshi üçün dəstəmazın başqa üzvlərindən rütubət götürülməlidir.4

6– Əl ilə başın və yaxud ayaqların arasında papaq, corab və s. kimi maneə olmamalıdır. Hətta çox nazik olsa və rütubət ayağa çatsa belə, dəstəmaz batil olar.5

7– Məsh yeri pak olmalıdır. Əgər ayağın üstü nəcis olsa və məsh üçün onu suya çəkmək mümkün olmasa, təyəmmüm edilməlidir.6

### *IRTIMASI DƏSTƏMAZ.*

1– Irtimasi dəstəmazda insan üzünü, qollarını dəstəmaz almaq niyyəti ilə suya batırmalıdır.*7

2– Irtimasi dəstəmazda da üz və qollar yuxarıdan aşağıya doğru yuyulmalıdır. Beləliklə, irtimasi dəstəmaz bu qayda ilə alınır:

- Əgər bir şəxs üzü və əlləri suya batırdığı vaxt dəstəmaz niyyəti etsə, üzünü alın tərəfdən, qollarını isə dirsək tərəfdən suya batırmalıdır.**8

3– Əgər dəstəmaz üzvlərindən bəzilərini irtimasi, bəzilərini isə qeyri-irtimasi yolla yerinə yetirsə, eybi yoxdur.9

Bir neçə şəri suala cavab:

---

[1] Sistani. T.m, məs.261; Lənkərani. T.m, məs.257

[2] Sistani. T.m, məs.262; Lənkərani. T.m, məs.258

*Sistani: ... Saqqalının yaşlığından götürüb onunla məsh edilməlidir. Saqqaldan başqa yerdən yaş götürmək və onunla məsh etməyin maneəsi var. T.m, məs.263

[3] Sistani. T.m, məs.263; Lənkərani. T.m, məs.259

**Sistani: ... ehtiyati-vacibə əsasən başa həmin yaşlıqla məsh çəkməli, ayaqların məshi üçün isə saqqalın yaşlığından götürülməlidir. T.m, məs.264

[4] Lənkərani. T.m, məs.260

[5] Sistani. T.m, məs.265; Lənkərani. T.m, məs.261

[1] Sistani. T.m, məs.266; Lənkərani. T.m, məs.262

* Lənkərani: ... yaxud onları suya batırıb sonra dəstəmaz niyyəti ilə çölə çıxartsın. T.m, məs.263

[2] Sistani. T.m, məs.268

** Lənkərani: ... Əgər sudan çıxartdığı vaxt dəstəmaz niyyəti etsə, üzünü alın, qollarını isə dirsək tərəfdən sudan çıxartmalıdır. T.m, məs.264

[8] Sistani. T.m, məs.268

[9] Sistani. T.m, məs.269; Lənkərani. T.m, məs.265

Sual: Camaatın çoxu deyir ki, dəstəmaz alanda üzə iki ovuc su atmaq lazımdır, üçüncü ovuc isə dəstəmazı batil edir. Bu söz düzdürmü?

Cavab: Üzə iki ovuc, yaxud daha artıq su atmağın eybi yoxdur. Amma üzün, əllərin iki dəfədən artıq yuyulması düzgün deyildir.[1]

Sual: Dəstəmazın düz olmasında suyun qolun bütün nöqtələrində axması şərtdirmi, yoxsa elə rütubətli əli çəkmək kifayətdir?

Cavab: Yuyulmaq dedikdə əsas şərt suyun bütün dəstəmaz üzvlərinə çatdırılmasıdır. Hətta suyun bütün üzvlərə çatdırılması əllə çəkilməklə də olsa belə. Amma təkcə rütubətli əlin çəkilməsi kifayət deyil.[2]

Sual: Dəstəmaz alarkən başa sol əllə məsh çəkmək olarmı? Həmçinin başa aşağıdan yuxarıya məsh çəkməyə icazə verilirmi?

Cavab: Başa sol əllə məsh çəkməyin eybi yoxdur, hərçənd ehtiyati-müstəhəb sağ əllə çəkməkdir; həmçinin ehtiyati-müstəhəb başa yuxarıdan aşağı məsh çəkməkdir, amma aşağıdan yuxarıya doğru çəkmək də kifayətdir.[3]

Sual: Ayaqların üstündə olan bəzi damlalar məsh etməyə mane olarmı?

Cavab: Məsh olunan yerdəki su damcılarını qurutmaq vacibdir, belə ki, məsh edən əlin təsiri məsh olunanda ayaqda görünsün, amma əksinə olmasın.[4]

Sual: Əgər məsələn, sağ əl kökündən kəsilmiş olsa, sağ ayağa məsh çəkmək boynumuzdan düşürmü?

Cavab: Xeyr, düşmür, bu halda sağ ayağa sol əllə məsh çəkmək lazımdır.[5]

[?] Suallar

1- Həm en, həm də uzunluq cəhətindən üzün yuyulma miqdarını göstərin.

2- Başın və ayağın məshinin miqdarı nə qədərdir?

3- Əgər əlin rütubəti yalnız başın məshinə çatarsa, dəstəmaz alan şəxsin vəzifəsi nədir?

4- "Dəstəmaz üzvlərini III dəfə yumaq haramdır"- dedikdə, nə nəzərdə tutulur?

5- Əgər məsh yeri nəcis olsa və onu pak etmək mümkün olmasa, namaz qılan şəxsin vəzifəsi nədir?

6- Dəniz suyu ilə irtimasi dəstəmaz almaq istəyən şəxsin necə dəstəmaz alacağını deyin.

[1] Xamenei. "Əcvibətül istiftaat", sual 106
[2] Xamenei. "Əcvibətül istiftaat", sual 129
[3] Xamenei. "Əcvibətül istiftaat", sual 130
[4] Xamenei. "Əcvibətül istiftaat", sual 138
[5] Xamenei. "Əcvibətül istiftaat", sual 139

# 10-CU DƏRS

## *Dəstəmazın şərtləri*

Dəstəmaz almağın şərtləri aşağıdakılardır:1*

**Dəstəmazın şərtləri**

- **1- Dəstəmaz suyunun və qabının şərtləri**
  - 1- Dəstəmaz suyu pak olsun (nəcis olmasın)
  - 2- Dəstəmaz suyu mübah olsun (qəsbi olmasın, yəni öz malı olsun və ya başqasınındırsa, icazəli olsun)
  - 3- Dəstəmaz suyu mütləq olsun (muzaf olmasın)
  - 4- Dəstəmaz suyunun qabı mübah olsun*
  - 5- Dəstəmaz suyunun* qabı qızıl və gümüş olmasın
- **2- Dəstəmaz üzvlərinin şərtləri**
  - 1- Pak olsun
  - 2- Suyun dəstəmaz üzvlərinə yetişməsinə maneə olmasın
- **3- Dəstəmaz almağın şərtləri**
  - 1-Tərtibə riayət etmək (Dəstəmaz əməllərində göstərildiyi kimi ardıcıl dəstəmaz almaq)
  - 2- Muvalata riayət etmək (Dəstəmaz əməlləri arasında fasilə olmasın)
  - 3- Özü şəxsən yerinə yetirsin (Başqa birindən kömək almasın)
  - 4- Namaz və dəstəmaz üçün kifayət qədər vaxt olsun
- **4- Dəstəmaz alanın**
  - 1- Suyun istifadəsinin ona zərəri olmasın
  - 2- Dəstəmazı "qəsdi-qürbət"-lə olsun (riyakarlıqla olmasın)

### *DƏSTƏMAZ SUYUNUN VƏ QABININ ŞƏRTLƏRİ:*

1– Nəcis və muzaf su ilə dəstəmaz batildir (istər suyun nəcis və ya muzaf olduğunu bilsin, istər bilməsin və ya unutmuş olsun). Əgər belə halda namaz qılarsa, həmin namazı düzgün dəstəmazla yenidən qılmalıdır.2

---

[1] Sistani. T.m, məs.271 – 304-ə qədər; Lənkərani. T.m, məs.267– 300-ə qədər

* Bu iki şərt Ayətullah Sistaninin risaləsində qeyd olunmayıb

[2] Sistani. T.m, məs.271; Lənkərani. T.m, məs.267

2– Dəstəmaz suyu mübah olmalıdır.1

Aşağıdakı hallarda dəstəmaz batildir:

❋ Sahibi razı olmadığı su ilə dəstəmaz almaq (onun razı olmadığı məlumdursa).

❋ Sahibi razı olub-olmadığı məlum olmayan su ilə dəstəmaz almaq.

❋ Xüsusi şəxslərə vəqf olunan su ilə dəstəmaz almaq. Məsələn: bəzi mədrəsələrin hovuzları, bəzi mehmanxanaların dəstəmazxanaları kimi.

❋ Əgər dəstəmaz suyu qəsbi qabda olarsa, onunla dəstəmaz batildir. 2

### *DƏSTƏMAZ ÜZVLƏRININ ŞƏRTLƏRI.*

1– Dətəmaz üzvləri yuyulan və məsh edilən vaxt pak olmalıdır.

2– Əgər dəstəmaz əsnasında yuyulmuş və ya məsh olunmuş yer nəcis olsa, dəstəmaz düzgündür. Məsələn: qolu yuyarkən üz nəcis olarsa, dəstəmazı düzgündür. 3

3– Dəstəmaz üzvlərindən başqa bədənin hər hansı üzvü nəcis olarsa, belə halda dəstəmaz almaq düzgündür. Amma bövl və ğaitin məxrəci paklanmayıbsa, yaxşı olar ki, bövl və ğaitin məxrəci pak edilsin, sonra dəstəmaz alınsın. 4

4– Əgər təbaşir və bu kimi şeylər suyun dəriyə çatmasına mane olmazsa, dəstəmaz üzvlərində qalmağının eybi yoxdur. Amma əgər suyun dəstəmaz üzvlərinə çatmasına mane olarsa və ya mane olduğuna şəkk edilərsə, bu halda onlar aradan qaldırılmalıdır.5

5– Qələmin izi, rəng ləkələri və bu kimi şeylər dərinin üzərini tutub, suyun dəriyə çatmasına mane olmazsa eybi yoxdur.6

### *DƏSTƏMAZ ALMAĞIN ŞƏRTLƏRI*

#### *TƏRTIB*

Dəstəmaz işləri aşağıdakı ardıcıllıqla yerinə yetirilməlidir:

❋ Üzü yumaq;

❋ Sağ qolu yumaq;

❋ Sol qolu yumaq;

❋ Başın məshi;

❋ Sağ ayağın məshi;

❋ Sol ayağın məshi;*

---

[1] Sistani. T.m, məs.273; Lənkərani. T.m, məs.269

[2] Lənkərani. T.m, məs.275

[3] Sistani. T.m, məs.282; Lənkərani. T.m, məs.278

[4] Sistani. T.m, məs.283; Lənkərani. T.m, məs.279

[5] Sistani. T.m, məs.300; Lənkərani. T.m, məs.296

[6] Imam Xomeyni. "Istiftaat " c.1, səh.36,37

* Lənkərani: Ehtiyati-vacibə əsasən, sağ ayaq sol ayaqdan əvvəl məsh edilsin.

Sistani: Ehtiyati-müstəhəbə əsasən,sağ ayaq sol ayaqla eyni vaxtda məsh edilməsin və sol ayaq sağ ayaqdan sonra məsh edilsin.

– Əgər dəstəmaz əməlləri bu ardıcıllıqla yerinə yetirilməzsə,dəstəmaz batildir.

### *MUVALAT.*

1– Muvalat – dəstəmaz işlərinin bir-birinin ardınca, fasiləsiz olaraq yerinə yetirilməsinə deyilir.

2– *Əgər dəstəmaz işləri arasında çox fasilə verilsə, belə ki, bir yeri yuyub və yaxud məsh etdikdə, ondan əvvəlki yerin və ya məshin rütubəti qurusa, dəstəmaz batildir.1

3– Əgər dəstəmazın işləri fasiləsiz yerinə yetirilərsə, amma havanın kəskin istisi, yaxud bədənin kəskin hərarəti səbəbilə rütubət quruyarsa, dəstəmaz düzgündür.2

4– Dəstəmaz əsnasında yol getməyin eybi yoxdur. Deməli, bir kəs üzü və əlləri yuduqdan sonra bir neçə addım gedib, sonra başa və ayaqlara məsh etsə, dəstəmazı düzgündür.3

### *BAŞQALARINDAN KÖMƏK ALMAMAQ*

1– Üzün, qolların yuyulmasını başa və ayaqlara məsh çəkilməsini insanın özü yerinə yetirməlidir. Başqası onun yerinə dəstəmaz alsa, yaxud dəstəmaz almaqda ona kömək etsə, dəstəmazı batildir.

2– Əgər başqa bir şəxs dəstəmaz üçün dəstəmaz alanın əllərinə su töksə, dəstəmaz alan şəxs özü dəstəmaz üzvlərini yusa, dəstəmaz batil deyil. Bu cür kömək etmək məkruhdur.4

3– Əgər bir şəxs özü dəstəmaz ala bilmirsə, gərək köməkçi tutsun və ona dəstəmaz aldırsın. Kömək edən şəxs muzd istəsə, ödəyə biləcəyi** təqdirdə verməlidir.5

4– Dəstəmaz işlərində başqasından kömək alan şəxs özü və tutduğu köməkçi hər ikisi dəstəmaz niyyəti etməli* və köməkçi onun öz əli ilə məsh çəkməlidir. Əgər bunu edə bilməsə, köməkçisi onun əlini tutub məsh yerlərinə çəkməlidir. Bu da mümkün olmasa, köməkçi onun əlinin rütubətindən götürüb başına və ayaqlarına məsh etməlidir. 6

---

*Sistani: Dəstəmaz əməlləri arasında camaatın nəzərində ardıcıl sayılmayacaq qədər fasilə verilərsə, dəstəmaz batil olar. Əgər yumaq və ya məsh etmək istədiyi bir yerdən əvvəl yuduğu və ya məsh etdiyi yerlərin hamısının nəmliyi qurumuş olarsa, dəstəmaz batildir. Amma əgər yalnız yumaq və ya məsh etmək istədiyi yerdən əvvəlki yerin nəmliyi quruyarsa, ondan əvvəlki yerlər isə qurumamış olarsa, məsələn, sol qolunu yumaq istədiyi zaman sağ qolunun nəmliyi quruyarsa və üzünün nəmliyi qalarsa, dəstəmaz səhihdir. T.m, məs.289

[1] Lənkərani. T.m, məs.285

[2] Sistani. T.m, məs.290; Lənkərani. T.m, məs.286

[3] Sistani. T.m, məs.291; Lənkərani. T.m, məs.287

[4] Imam Xomeyni. "Urvətul vusqa" I c., səh.167

** Sistani: ... və malına zərər verməyəcəyi təqdirdə ödəməlidir.

[5] Sistani. T.m, məs.292; Lənkərani. T.m, məs.288

*Sistani: ... ehtiyati-vacibə görə hər ikisi dəstəmaz niyyəti etməli ...

[6] Sistani. T.m, məs.292; Lənkərani. T.m, məs.288

5– Dəstəmaz işlərində başqasından kömək alan şəxs dəstəmazın bəzi işlərini təklikdə yerinə yetirə bilirsə, onlar üçün kömək almamalıdır. 1

### DƏSTƏMAZ ALANIN ŞƏRTLƏRİ.

1– Əgər bir şəxs dəstəmaz alarkən xəstələnəcəyini bilsə və ya xəstələnəcəyindən qorxsa, dəstəmaz alma-
malıdır.2

2– Əgər üzə və əllərə dəstəmazın düzgün olduğu az miqdarda suyun dəyməsinin zərəri olmasa, amma ondan
artıq istifadə etməyin zərəri olsa, az miqdar su ilə dəstəmaz alınmalıdır. 3

### DƏSTƏMAZ QÜRBƏT-QƏSDİ İLƏ ALINMALIDIR.

1– Insan dəstəmazı qürbət qəsdi ilə, yəni Allah Taalanın əmrini yerinə yetirmək üçün almalıdır. Amma sərinlənmək, yaxud başqa məqsədlə dəstəmaz alsa, batildir.

2– Dəstəmaz niyyətini dildə demək və ya qəlbdən keçirmək vacib deyil. Amma dəstəmaz aldığı müddətdə bilməlidir ki, dəstəmaz alır. Belə ki, ondan "nə edirsən?"–soruşulduqda, "dəstəmaz alıram"–deyə bilsin. 4

3– Dəstəmazda qəsdi-qürbət kifayətdir və dəstəmazın vacib, ya müstəhəb olduğunu niyyət etmək lazım deyil. 5

4– Namaz və dəstəmaz üçün kifayət qədər vaxt olmalıdır.

5– Əgər vaxt çox dar olsa, belə ki, dəstəmaz alacağı halda namazın hamısı, yaxud bir hissəsi öz vaxtından sonraya (qəzaya) qalacaqsa, onda təyəmmüm etməlidir. Amma dəstəmaz və ya təyəmmümün hər biri üçün eyni qədər vaxt olarsa, dəstəmaz almalıdır.6

Bir neçə şəri suala cavab:

Sual: Bədənin təbii halda tükdə, yaxud dəridə ifraz etdiyi yağlılıqlar suyun keçməsinin qarşısını alırmı?

Cavab: Əgər bədənin yağlılığı o qədər çox olsa ki, mükəlləf bu yağlılığı suyun dəriyə, yaxud tüklərə çatmasına maniə hesab etsə, bu halda maniə hesab olunar. Əgər belə olmasa, maneə sayılmaz.7

Sual: Bəzi qadınlar iddia edirlər ki, dırnaqların üstündə olan rəngin, lakın dəstəmaza maniəsi yoxdur və həmçinin deyirlər ki, şəffaf və çox nazik corabın üstündən məsh çəkmək olar. Bu barədə sizin rəyiniz nədir?

Cavab: Əgər rəng, lak suyun dırnaqlara çatmasına mane olsa, dəstəmaz batildir. Corab da nə qədər şəffaf olsa da belə, üstündən məsh çəkmək düzgün deyildir.8

---

[1] Sistani. T.m, məs.293; Lənkərani. T.m, məs.289
[2] Sistani. T.m, məs.294; Lənkərani. T.m, məs.290
[3] Sistani. T.m, məs.295; Lənkərani. T.m, məs.291
[4] Sistani. T.m, məs.288; Lənkərani. T.m, məs.284
[5] Imam Xomeyni. "Təhrirul vəsilə" c.1, səh.29
[6] Sistani. T.m, məs.286; Lənkərani. T.m, məs.282
[7] Xamenei. "Əcvibətül istiftaat", sual.107
[8] Xamenei. "Əcvibətül istiftaat", sual.117

Sual: Dəstəmaz üzvlərindən biri üz yuyulduqdan sonra, lakin dəstəmaz qurtarmazdan əvvəl nəcis olsa, onun hökmü nədir?

Cavab: Bu nəcis olma dəstəmazın düzlüyünə zərər yetirməz. Amma namaz qılmaq üçün təharət düzgün olsun deyə, o üzvü paklamaq vacibdir.1

Sual: Qadınların başlarını, qaşlarını rəngləmək üçün istifadə etdikləri süni rəng dəstəmaz və qüslə maneçilik törədirmi?

Cavab: Bu rənglərdə suyun tüklərə yetişməsinin qarşısını ala biləcək bir maddə olmazsa və təkcə rəng olsa, bu halda qüslləri və dəstəmazları düzdür.2

[?] Suallar

1- Əgər insan evin önündə olan su kranından dəstəmaz almaq istəsə, amma onun sahibinin razı olub-olmadığını bilməsə, vəzifəsi nədir?

2- Nar soyarkən narın əldə qalan ləkəsi dəstəmaza mane ola bilərmi? Nə üçün?

3- Muvalat ilə tərtibin fərqini söyləyin.

4- Dəstəmaz alarkən əvvəlcə sol ayağa, sonra sağ ayağa məsh çəkən şəxsin dəstəmazı düzgündür-
mü? Nə üçün?

5- Xəstə olduğuna görə əlini yuxarı qaldırıb məsh çəkə bilməyən şəxs, dəstəmazın bütün başqa işlərini yerinə yetirə bildiyi halda vəzifəsi nədir?

[1] Xamenei. "Əcvibətül istiftaat", sual.137
[2] Xamenei. "Əcvibətül istiftaat", sual.144

# 11-CI DƏRS

## *CƏBIRƏ DƏSTƏMAZI*

Cəbirə: Yara və sınıq yerin bağlandığı şey və yaranın üstünə qoyulan dərman cəbirə adlanır.

1 – Dəstəmaz üzvlərində yara və sınıqlıq olan şəxs adi qayda ilə dəstəmaz almalıdır. Məsələn aşağıdakı hallar kimi;1

❋ Yaranın üstü açıqdır və suyun ona zərəri yoxdur.

❋ Yara bağlıdır, amma yaranı açmaq mümkündür və suyun ona zərəri yoxdur.

2– Əgər yara üzdə və ya əllərdə olarsa, onun üstü açıq və suyun ona zərəri olsa, yaranın ətrafını yumaq, sonra yaş əlin onların üstünə çəkilməsinin zərəri olmasa, ehtiyata görə yaş əllə onun üstünə çəkmək, sonra pak bir parçanı yaranın üstünə qoyub, yaş əllə o parçanın da üstünə çəkmək lazımdır.2

3– Əgər yara, yaxud sınıqlıq başın qabaq tərəfində, yaxud ayağın üstündə olsa və onların üstü də açıq olsa, belə halda ona məsh edilməsi mümkün olmazsa*, pak bir parçanı onun üstünə qoyub, parçanın üstünə dəstəmazın yaşlığı ilə məsh çəkilməlidir. Əgər parça qoyulması mümkün olmazsa, məsh lazım deyil, amma dəstəmazdan sonra təyəmmüm də edilməlidir.3

### *CƏBIRƏ DƏSTƏMAZININ HÖKMLƏRI4 **L*

1-Yaranın üstü açıqdır:

[1] Sistani. T.m., məs.330; Lənkərani. T.m, məs.326

[2] Sistani. T.m, məs.331;Lənkərani. T.m, məs.327

*Sistani: ... təyəmmüm etməlidir. Ehtiyati-müstəhəb budur ki, dəstəmaz da alsın, pak bir parçanı onun üstünə qoyub, parçanın üstünə dəstəmazın yaşlığı ilə məsh də çəksin.

[3] Sistani. T.m., məs.332; Lənkərani. T.m, məs.328

[4] Sistani. T.m, məs.330-335; Lənkərani. T.m, məs.326-331

* Sistani: Sınıqlıq üzdə və qollardadırsa, yaranın üstü açıq və suyun ona zərəri vardırsa, təyəmmüm edilməlidir. T.m, məs.331

** Sistani: Yaranın üstü açıq, suyun ona zərəri vardırsa və yara başda və ayaqların üzərindədirsə,təyəmmüm edilməlidir və ehtiyati müstəhəbə görə pak bir parçanı onun üstünə qoyub, parçanın üstünə dəstəmazın yaşlığı ilə məsh çəkilməlidir. T.m., məs. 332

- 1–Suyun ona zərəri yoxdur ⇒ adi qaydada dəstəmaz almalıdır.
- 2– Suyun ona zərəri vardır
  - 1-Yara, çiban və yaxud sınıqlıq* qollarda olarsa ⇒ Yaranın ətrafı yuyulmalı, yaş əli onun üstünə çəkilməyin zərəri olmasa, ehtiyata görə yaş əli onun üstünə çəkməlidir. Sonra pak bir parçanı onun üstünə qoyub əlin yaşlığını parçanın üzərinə çəkməlidir.
  - 2-Yara, çiban və yaxud sınıqlıq başın qabaq tərəfində və ya ayaqların üzərindədirsə və onu məsh etmək müm- kün deyil**
    - 1–üzərinə parça qoymaq mümkündür ⇒ Pak bir parçanı onun üstünə qoyub, parçanın üstünə dəstəmazın yaşlığı ilə məsh çəkilməlidir.
    - 2– üzərinə parça qoymaq mümkün deyil ⇒ **Məsh lazım deyil, amma dəstəmazdan sonra təyəmmüm də etməlidir.

2-Yaranın üstü bağlıdır:

---

*Sistani: Su yuxarıdan aşağıya doğru yaraya çatdırılmalıdır. T.m. məs.335
** Sistani: Təyəmmüm etməlidir. T.m., məs. 335

***1–Açmaq mümkündür***

- 1– Əziyyəti və zərəri yoxdursa ⇨ Gərək açıb adi qaydada dəstəmaz alsın
- 2–Üzdə və əllərdədir, suyun ona zərəri vardır ⇨ yaş əli ona çəkməyin zərəri yoxdursa, yaş əli yaraya çəkməlidir

***2– Açmaq mümkün deyil***

- 1– Cəbirə pakdır, suyu yaraya çatdırmaq mümkündür və əziyyəti də yoxdursa ⇨ ·su yaraya çatdırılmalıdır
- 2– Cəbirə nəcisdir
  - 1– suya çəkmək və suyu yaranın üstünə çatdır-maq mümkün o-larsa və əziyyətli olmasa. ⇨ yaranı suya çəkmək və dəstəmaz alanda suyu yaraya çatdırmaq lazımdır
  - 2–suyun yaraya zərəri olsa, yaxud suyu yaranın üstünə çatdırmaq mümkün olmasa və ya yara nəcis olsa və suya çəkilməsi mümkün olmasa ⇨ **Yaranın ətraf hissələri dəstəmazda deyildiyi kimi yuyulmalıdır. Əgər cəbirə pak olsa, onun üstü məsh edilməlidir. Amma nəcis olsa, yaxud onun üstünə yaş əllə çəkmək mümkün olmasa (məsələn, dərman ələ yapışırsa) pak bir parçanı cəbirənin bir hissəsi hesab olunduğu şəkildə onun üstünə qoyub, yaş əllə onun üstünə çəkmək lazımdır. Əgər bu da mümkün olmasa, ehtiyati-vacib budur ki, dəstəmaz alıb təyəmmüm də etsин.

Bir neçə məsələ:

1– Əgər bir şəxs vəzifəsinin təyəmmüm, yaxud cəbirə dəstəmazı olduğunu bilmirsə, ehtiyati-vacibə görə, hər ikisini yerinə yetirməlidir.1

2– Əgər bir kəsin əlinin içində və barmaqlarında cəbirə olsa, dəstəmaz alan zaman yaş əllə onun üstünə çəkibsə*, başına və ayaqlarına da həmin rütubətlə məsh çəkə bilər, başqa dəstəmaz üzvlərindən də rütubət götürə bilər. 2

3– Cəbirə qüsulu cəbirə dəstəmazı kimidir.** Amma ehtiyati-vacibə əsasən onu irtimasi deyil, tərtiblə yerinə yetirmək lazımdır. 3

4– Insanın cəbirə dəstəmazı ilə qıldığı namazları düzgündür və üzrü aradan qaldırılsa, sonrakı namazlar üçün dəstəmaz almamalıdır.4

**Cəbirənin miqdarı və cəbirə alanın vəzifələri**

1. Əgər cəbirə dəstəmaz üzvlərinin hamısını tutmuş olsa,*** təyəmmüm edilməlidir.[5]

2. Əgər cəbirə üzün, yaxud əllərdən birinin hər yerini örtmüş olsa, yenə də cəbirənin hökmləri tətbiq olunacaq və cəbirə dəstəmazı kifayətdir.[6]

3. Əgər cəbirə yaranın ətrafını adi qaydadan artıq tutsa və onu götürmək mümkün olmasa,**** bu halda cəbirə göstərişlərinə əməl etməli, ehtiyata əsasən təyəmmüm də almalıdır. Əgər cəbirəni götürmək mümkün olsa, götürülməlidir. Deməli yara üzdə və əllərdə olarsa, onun ətrafını yumalıdır, başda və ayaqlarda olarsa, onun ətrafına məsh çəməli, yara olan yerdə isə cəbirə göstərişlərinə əməl etməlidir.[7]

## *DƏSTƏMAZDA ŞƏKK1*

5* **

---

[1] Sistani. T.m, məs.349;Lənkərani. T.m, məs.345

* Sistani: ...başına və ayaqlarına da həmin rütubətlə məsh çəkməlidir. T.m, məs.338

[2] Lənkərani. T.m, məs.334

**Sistani: Meyyit qüsulundan başqa qüsullarda cəbirə qüsulu cəbirə dəstəmazı kimidir. T.m, məs.345

[3] Lənkərani. T.m, məs.341

[4] Sistani. T.m, məs. 350; Lənkərani. T.m, məs.346

*** Sistani: ehtiyati-vacibə əsasən,təyəmmüm etməli və cəbirə dəstəmazı da almalıdır. T.m, məs.336

[5] Lənkərani. T.m, məs.333

[6] Sistani. T.m, məs. 336; Lənkərani. T.m, məs.332

**** Sistani: ... təyəmmüm etməlidir. Əgər cəbirə təyəmmüm üzvlərində olarsa, həm cəbirə dəstəmazı alınmalı, həm də təyəmmüm edilməlidir.... T.m, məs.341

[7] Lənkərani. T.m, məs.337

[5] Sistani. T.m, məs.304-311; Lənkərani. T.m, məs.300-306

*Sistani: Ehtiyati-vacibə əsasən dəstəmaz almalı və namazı yenidən qılmalıdır. T.m, məs.311

**Sistani: Qıldı□ı namazlar düzgündür, sonrakı namazlar üçün dəstəmaz almalıdır. T.m, məs.308

- **1-Dəstəmazı alıb-almamasına şəkk edərsə**
  - 1-Ümumiyyətlə dəstəmaz alıb-almamağına şəkk edərsə
    - 1-Namazdan əvvəl ⇒ Dəstəmaz
    - 2- Namaz Əsnasında ⇒ Namaz batildir, dəstəmaz alıb namaz qılmalıdır*
    - 3- Namazdan sonra ⇒ Namaz səhihdir, amma sonrakı namazlar üçün dəstəmaz alınmalıdır
  - 2-Dəstəmazın işlərindən birini yerinə yetirib-yetirmədiyinə Шякк едярся
    - 1–dəstəmaz əsnasında ⇒ Şəkk etdiyi işi yerinə yetirməlidir. Məsələn: başına məsh çəkib-çəkmədiyinə şəkk edərsə, məsh çəkməlidir.
    - 2–dəstəmazdan sonra ⇒ Dəstəmaz düzgündür. (şəkkinə etina etməsin)

- **2- Dəstəmazı düzgün alıb-almamasına şəkk edərsя**
  - 1- Dəstəmazda
    - 1- Dəstəmazın batil olub-olmamağına şəkk edərsə ⇒ Şəkkinə etina etməsin və niyyəti buna qoymalıdır ki, dəstəmazı qalır.
    - 2-Dəstəmaz aldığını və ondan hədəs baş verdiyini (məsələn: bövl etməsini bilsə), amma bunlardan hansının qabaq, hansının sonra olduğunu bilməsə
      - •Namazdan əvvəl ⇒ Dəstəmaz almalıdır
      - •Namaz əsnasında ⇒ Namazı pozub dəstəma
      - •Namazdan sonra** ⇒ Dəstəmaz alıb yenidən namaz qılmalıdır
  - 2- Dəstəmaz işlərini doğru yerinə yetirib-yetirmədiyinə şəkk edərsə
    - 1- Dəstəmaz əsnasında şəkk etsə ki, əvvəlki işi doğru edib, ya yox;
    - 2-Dəstəmaz aldıqdan sonra onun hər hansı bir işinin doğru edib- etməməsinə şəkk etsə;
    - 3-Dəstəmaz aldıqdan sonra dəstəmaz üzvlərində maneənin olub-olmamasına şəkk etsə;
    
    ⇒ Dəstəmaz səhihdir

Bir neçə şəri suala cavab:

Sual: Əgər insanın dəstəmaz üzvlərində əl, üz, baş və ayaqda həmişə hətta dəstəmaz alanda yaranın üstünə cəbirə (parça) qoysa belə, qanaxma verən bir yara olsa, necə dəstəmaz almalıdır?

Cavab: O şəxsə vacibdir ki, yaranın üstünə aralarından qan keçməyən bir cəbirə (neylon kimi) qoysun.1

Sual: Dəstəmaz alması camaat arasında adət olan dəstəmaz vaxtından çox vaxt aparan şəxs (vəsvas) dəstəmaz üzvlərinin yuyulmasını yəqin etmək üçün nə etməlidir?

Cavab: Vəsvəsədən çəkinməsi vacibdir. Şeytanı mə'yus etmək üçün onun vəsvəsəsinə e'tina etməməli, şər'i cəhətdən vacib olan qədər yumaqla kifayətlənməlidir. (sair şəxslər kimi).2

Sual: Lütfən kişilərlə qadınların dəstəmazları arasındakı fərqi buyurun.

Cavab: Dəstəmazın işləri, alınma tərzi və keyfiyyətində kişilərlə qadınlar arasında heç bir fərq yoxdur, amma müstəhəbdir ki, kişilər qollarını yuyanda qolun arxasından, dirsəkdən, qadınlar isə içəri tərəfdən (dirsəyin bükülən yerindən) başlasınlar. 3

[?] Suallar

1- Əgər cəbirə bir əli tamamilə örtərsə və onu açmaq da mümkün olmazsa, həmin şəxs necə dəstəmaz almalıdır?

2- Ayağın baş barmağını və onun yanındakı iki barmağı da cəbirə örtmüş olarsa, necə məsh olunmalıdır?

3- Hər iki ayaq və alın sarğı ilə bağlanıbsa, dəstəmaz alan nə etməlidir?

4- Namaz qılan şəxs namaz əsnasında dəstəmaz alıb-almadığına şəkk edərsə, nə etməlidir?

5- Dəstəmaz alıb qutardıqdan sonra sağ əli düzgün yuyub-yumadığına şəkk edən şəxs nə etməlidir?

[1] Xamenei. "Əcvibətül-istiftaat", sual 141
[2] Xamenei. "Əcvibətül-istiftaat", sual 147
[3] Xamenei. "Əcvibətül-istiftaat", sual 150

# 12-CI DƏRS

## *DƏSTƏMAZIN HÖKMLƏRI*

Altı şey üçün dəstəmaz almaq vacibdir:1

1- Meyyit namazından başqa sair vacibi namazlar üçün;
2-Unudulmuş təşəhhüd və səcdə üçün (əgər onlar ilə qıldığı namaz arasında hədəs (bövl kimi) baş vermiş olarsa);
3- Allah evinin (Kəbənin) vacibi təvafı üçün;
4- Dəstəmaz alması üçün Allah ilə əhd bağlasa, and içsə və ya nəzir etsə;
5- Əgər bədənin hər hansı yerini Quranın yazılarına vurmağı nəzir etmişsə;
6- Nəcis olmuş Quranı suya çəkmək üçün, amma dəstəmaz almaq müddətindəki fasilədə Qurana ehtiramsızlıq olarsa, dəstəmaz almadan Quranı suya çəkmək lazımdır.

Bir necə məsələ:

1– Dəstəmazı olmayan şəxs bədəninin hər hansı bir hissəsini aşağıdakı yazılara vurmamalıdır:

❋ Quranın xəttinə, amma tərcüməsinə eybi yoxdur.2
❋ *Allahın adına, hər hansı bir dildə yazılmış olsa

2–Aşağıdakı işlər üçün dəstəmaz almaq müstəhəbdir:3

❋ Meyyit namazı;
❋ Məscidə və imamların hərəminə getmək üçün;
❋ Qəbristan əhlinin ziyarəti üçün;
❋ Quran oxumaq üçün;
❋ Quranı üstündə gəzdirmək üçün;
❋ Quranın cildini və ya haşiyəsini məsh etmək üçün;
❋ Yatmaq üçün;

Dəstəmazı yeddi şey batil edər:4

---

[1] Sistani. T.m, məs. 322; Lənkərani. T.m, məs.318
[2] Sistani. T.m, məs.323; Lənkərani. T.m, məs.319
* Sistani: Dəstəmazı olmayan şəxsin hansı dildə yazıldığından asılı olmayaraq, Allah-Təalanın adına və xüsusi sifətlərini bildirən sözlərə toxunması ehtiyati-vacibə əsasən haramdır. T.m, məs.325; Lənkərani: Yaxşı olar ki,... T.m, məs.321
[3] Sistani. T.m, məs.328; Lənkərani. T.m, məs.324
[4] Sistani. T.m, məs.329; Lənkərani. T.m, məs.325

1- Bövl;
2- Ğait;
3- Ğaitin məxrəcindən xaric olan mədə və bağırsağın yeli;
4- Gözün görmədiyi qulağın eşitmədiyi yuxu (amma əgər göz görməsə, amma qulaq eşitsə, dəstəmaz batil olmaz);
5- Əqli aradan aparan şeylər (dəlilik, məstlik, huşdan getmə kimi);
6- Qadının istihazəsi (sonradan deyiləcək);
7- Qüsl alması lazım olan işlər (cənabət kimi)*

Bir neçə məsələ:

1– Dəstəmaz alarkən dəstəmaz suyunun axıb ümumi nəcis tullantılarının yığıldığı yerə getməsi dəstəmazı batil etməz.

2– Əgər bir şəxs dəstəmaz əsnasında namәhrəmə baxarsa, ya yalan danışarsa və ya qeybət edərsə, günah etmiş olar, amma bu iş dəstəmazını pozmaz.

## *Qüsl*

Vacibi qüsllər yeddidir:

***Vacib qüsllərin növləri***

- 1- Kişilər və qadınlar arasında müştərək olan qüsllər
  - 1-Cənabət
  - 2- Məshi meyyit
  - 3- Meyyit
  - 4- Nəzir, and içmə və sair səbəblə vacib olan qüsllər
- 2-Qadınlara məxsus olan qüsllər
  - 1- Heyz
  - 2- İstihazə
  - 3- Nifas

### *Cənabət qüsulu1*

***1-Cənabətin səbəbləri[1]***

- 1- Məninin bayıra çıxması
  - İstər az olsun, istərsə də çox;
  - İstər yuxuda olsun, istərsə də oyaq olan vaxt;
- 2-Cima (cinsi əlaqə)
  - İstər halal, istərsə də haram yol ilə olsun;
  - İstər məni gəlsə, istərsə də gəlməsə;

2– Əgər məni öz yerindən hərəkət etsə, amma çölə gəlməsə, yaxud məninin çölə gəlib-gəlməməsində şəkk etsə, qüsl vacib deyil.2

---

* Sistani: Cənabət qüsulu. Ehtiyati-müstəhəbə əsasən, qüsl alması lazım olan işlərin hamısı. T.m, məs.329

[1]Sistani. T.m, məs.351; Lənkərani. T.m, məs.347

[2] Sistani. T.m, məs.358; Lənkərani. T.m, məs.353

3– Insandan bir rütubət xaric olduqda, onun bövl, məni və ya başqa bir şey olduğunu bilməsə, əgər aşağıdakı hallar baş verərsə, məni hökmündədir:1

- Şəhvətlə bayıra gəlsə;
- Sıçrayışla bayıra gəlsə;
- Gələndən sonra bədən süstləşsə;

4– Əgər bu üç əlamətdən heç biri, yaxud bəzisi olmasa, məni hökmündə deyil. Amma xəstə şəxslərdə* təkcə bir nişanənin olması, yəni şəhvətlə gəlməsi kifayətdir.2

Cünuba haram olan işlər

Cünub şəxsə beş şey haramdır:3 ** ***

1- Bədəninin hər hansı bir yerini Quranın yazısına, yaxud Allahın mübarək adına vurmaq; Peyğəmbərlərin (s) və İmamların** (ə) adları da ehtiyati-vacibə görə, Allahın adının hökmündədir.
2- Məscidül-Hərama və Peyğəmbərin (s) məscidinə getmək; hətta əgər bir qapısından daxil olub digərindən çıxmaqla olsa belə;
3- Başqa məscidlərdə dayanmaq; amma bir qapısından daxil olub, başqa qapısından çıxsa, eybi yoxdur. Ehtiyati-vacib budur ki, İmamların (ə) hərəmində də dayanmasın.
4- Məscidə bir şey qoymaq.***
5- Vacibi səcdəsi olan surələri oxumaq;

Vacib səcdəsi olan surələr bunlardır:

- 32 -ci surə ⇨ ***Səcdə*** (ayə15)
- 41-ci surə ⇨ ***Fussilət*** (ayə 37)
- 53-cü surə ⇨ ***Nəcm*** (axırıncı ayə)
- 96-cı surə ⇨ ***Ələq*** (axırıncı ayə)

Bir neçə şəri suala cavab:

Sual: Cənabət qüsulunda suyun bədəndə axması şərtdirmi?

Cavab: Şərt budur ki, bədənin yuyulması "qüsl" niyyəti ilə olsun; suyun bədəndə axması isə şərt deyildir.4

Sual: Cənabət qüslü alan şəxsdən qüsl əsnasında yalnız dəstəmazı batil edən işlərdən biri baş verərsə, qüslü əvvəldən başlamalıdır, yoxsa elə həmin qüslü tamamlayıb dəstəmaz almalıdır?

---

1 Sistani. T.m, məs.352; Lənkərani. T.m, məs.348

- Xamenei. "Əcvibətül-istiftaat", sual 189

* Lənkərani. Qadın və xəstə şəxslərdə... T.m, m.348

2 Sistani. T.m, məs.352

3 Sistani. T.m, məs.361; Lənkərani. T.m, məs.356

**Sistani: Peyğəmbərlərin (s), Imamların (ə) və Həzrəti Zəhranın (s.ə) da adlarına toxundurmaması daha yaxşıdır. T.m, məs.361

***Sistani: Məsciddən bir şey götürmək haramdır və məscidə bir şey qoymaq ehtiyati vacibə görə haramdır.

4 Xamenei. "Əcvibətül-istiftaat", sual 203

Cavab: Bu halda qüslü əvvəldən başlamaq vacib deyil. Dəstəmaz almaq lazımdır. 1

Sual: Heyz halında cənabət qüslü düzdürmü, bu qüsl cünub olan qadının vəzifəsini boynundan götürərmi?

Cavab: Fərz olunan halda qüslün düzlüyü şübhəlidir.2

[?] Suallar

1- Hansı işlər üçün dəstəmaz alınması vacibdir?

2- Quranın ingiliscə tərcüməsinə, həmçinin orada yazılan "Allah" kəlməsinin tərcüməsinə dəstəmazsız toxunmağın hökmünü deyin.

3- Ağız boşluğu vasitəsilə mədədən gələn yel dəstəmazı pozarmı?

[1] Xamenei. "Əcvibətül-istiftaat", sual 199

[2] Xamenei. "Əcvibətül-istiftaat", sual 187

# 13-CÜ DƏRS

## QÜSL ETMƏYIN QAYDASI

Qüsl edərkən, istər qüsl cənabət qüslü kimi vacib qüsllərdən olsun, istərsə də cümə qüslü kimi müstəhəb qüllərdən olsun, bütün bədən, baş və boyun yuyulmalıdır.

Qüsl etməyin qaydası bütün qüsllər üçün eynidir, yalnız niyyətləri fərqlidir.* 1 2

**Qüsl etməyin qaydası**

- **1-*Tərtibi***
  - Baş və boyun, sonra bədənin sağ tərəfi, daha sonra isə bədənin sol tərəfi yuyulmalıdır.*[1]
- **2-İrtimasi**[2]
  - Qüsl niyyəti ilə bir dəfəyə suya girsə və bədən bütövlüklə suyun altında olarsa;
  - Yaxud qüsl niyyəti ilə tədrici olaraq suya girsə və su bütün bədənini əhatə edərsə;

Bir neçə məsələ:

1– Dəstəmazın düzgün olması üçün qeyd olunan bütün şərtlər (suyun pak olması, qəsbi olmaması və s.) qüslün də düzgün olmasında şərtdir. Amma qüsldə bədəni yuxarıdan aşağıya yumaq vacib deyil. Həmçinin, tərtibi qüsldə hər hissəni yuduqdan sonra növbəti hissəni dərhal yumaq vacib deyil.3

2– Boynunda bir neçə vacibi qüsl olan bir kəs həm onların hamısını niyyət edərək bir qüsl ala bilər, həm də onların hər biri üçün ayrılıqda qüsl ala bilər. 4

3– Cənabət qüslü alan bir kəs namaz üçün dəstəmaz almamalıdır. 5

4– Qüsl alanda "vacib (və yaxud müstəhəb) niyyəti ilə qüsl alıram" – deyə niyyət etməsi lazım deyil. Əgər yalnız qürbət, yəni Allah-Təalanın fərmanını yerinə yetirmək məqsədi ilə qüsl etsə, kifayətdir. 6

5– Irtimasi qüsldə bədənin hər yeri pak olmalıdır.Amma tərtibi qüsldə bədənin hamısının pak olması lazım deyil. Belə ki, əgər bədənin

---

* Sistani: Ehtiyati-lazıma əsasən qüsl niyyəti ilə əvvəl baş və boyun, daha sonra bədən yuyulmalıdır. T.m, məs.367

1 Lənkərani. T.m, məs.362; Xamenei. "Əcvibətul-istiftaat", sual 207

2 Sistani. T.m, məs.373, 374; Lənkərani. T.m, məs.368

3 Sistani. T.m, məs.386; Lənkərani. T.m, məs.381

4 Sistani. T.m, məs.395; Lənkərani. T.m, məs.390

5 Sistani. T.m, məs.397; Lənkərani. T.m, məs.392

6 Sistani. T.m, məs.364; Lənkərani. T.m, məs.359

hamısı nəcis olsa və hər hissəni qüsl etməmişdən qabaq suya çəksə, kifayətdir.* 1

6– Cəbirə qüsulu cəbirə dəstəmazı kimidir.** Amma ehtiyati-vacibə əsasən onu irtimasi deyil, tərtiblə yerinə yetirmək lazımdır.2

7– Vacib oruc tutan, yaxud Həcc və ya ümrə üçün ehram bağlayan bir kəs irtimasi qüsl edə bilməz. Amma əgər unutqanlıq üzündən irtimasi qüsl etsə, düzgündür. 3

8– Aşağıdakı hallarda qüsl batildir:

❋ Tərtibi qüsldə əgər bir kəs qəsdən, yaxud unutqanlıq və ya məsələni bilməməzlik üzündən tərtibə riayət etməsə, qüslü batildir. 4

❋ Əgər irtimasi qüsldən sonra bədəninin bir hissəsinə suyun çatmadığını başa düşsə, istər onun müəyyən şəkildə hansı yer olduğunu bilsin, istərsə də bilməsin, yenidən qüsl etməlidir. 5

❋ Əgər qüsldə bir yer iynənin ucu qədər yuyulmamış qalsa, qüslü batildir. Amma bədənin görünməyən yerlərini (qulağın, burunun içi kimi) yumaq vacib deyil. 6

❋ Suyun bədənə çatmasına mane olan şeylər aradan qaldırılmalıdır. Əgər aradan qaldırılmasına yəqin etmədən qüsl etsə, qüslü batildir. 7 8 * 9 10 ** ***

---

* Sistani: Irtimasi və tərtibi qüsldən əvvəl bədənin hər tərəfinin pak olması vacib deyil. Belə ki, qüsl niyyəti ilə suya baş vurduqda və ya bədənə su tökdükdə bədən paklanarsa, qüsl düzgündür. Bu şərtlə ki, qüsl tökülən su paklığını itirməsin. (Məsələn:kürr suyu olsun.) T.m, məs.378

1 Lənkərani. T.m, məs.373

** Sistani: Meyyit qüslündən başqa bütün qüsllər cəbirə qüslü, cəbirə dəstəmazı kimidir. Amma... T.m, məs.345

2 Lənkərani. T.m, məs.341

3 Sistani. T.m, məs.377; Lənkərani. T.m, məs.372

4 Sistani. T.m, məs.367; Lənkərani. T.m, məs.362

5 Sistani. T.m, məs.375; Lənkərani. T.m, məs.370

6 Sistani. T.m, məs.380; Lənkərani. T.m, məs.375

7 Sistani. T.m, məs.383; Lənkərani. T.m, məs.378

8 Lənkərani. T.m, məs.370; Sistani. T.m, məs.375

*Sistani: Başı yenidən yumaq lazım deyil, bədənin yuyulmadığına ehtimal verdiyi yeri yumalıdır. T.m, məs.370

9 Lənkərani. T.m, məs.365

10 Lənkərani. T.m, məs.366

**Sistani: ... Ehtiyati müstəhəbə görə ... T.m, məs.371

***Sistani: ... Ehtiyati vacibə əsasən həmin miqdarı yuduqdan sonra bədəni də yumalıdır. T.m, məs.371

***Əgər qüsldən sonra bədəninin bir hissəsinin yuyulmadığını başa düşsə***

- 1- İrtimasi qüsldə[4] ⇒ Yenidən qüsl etməlidir, istər su dəyməyən yeri bilsin, istər bilməsin;
- 2- Tərtibi qüsldə
  - 1– Su dəyməyən yeri bilmir[*] ⇒ Yenidən qüsl etməlidir[5]
  - 2– Su dəyməyən yeri bilir[6]
    - • Sol tərəfdə olarsa ⇒ Həmin miqdarı yumaq kifayətdir
    - • Sağ tərəfdə olarsa ⇒ Həmin miqdarı yuduqdan sonra[**] yenidən sol tərəfi yumalıdır
    - • Baş və boyunda olarsa ⇒ Həmin miqdarı yuduqdan sonra[***] yenidən bədənin sağ tərəfini və daha sonra sol tərəfini yumalıdır

Qüsldə şəkk[1] ***

- ***1. Qüsl etməyə şəkk;*** (Qüsl edib-etməməsinə şəkk etsə) ⇨ Yenidən qüsl etməlidir
- ***2.Qüslü düzgün edib-etməməyə şəkk***
  - 1-Qüsl tamam olduqdan sonra şəkk ⇨ Yenidən qüsl etməsi lazım deyil
  - 2- Qüsl əsnasında şəkk etsə*
    - 1- Bədənin sol tərəfinin yuyulmasına şəkk etsə ⇨ Həmin miqdarı yumaq kifayətdir
    - 2-Bədənin sağ tərəfinin yuyulmasına şəkk etsə
      - 1– Sol tərəfi yumağa başlayandan sonra şəkk etsə ⇨ Şəkkinə etina etməməlidir
      - 2– Sol tərəfi yumağa başlamazdan əvvəl şəkk etsə ⇨ Həmin hissə yuyulduqdan sonra sol tərəf yuyulmalıdır
    - 3-Boyun və başı yuyarkən şəkk etsə
      - 1– Sağ tərəfi yumağa başlayandan sonra şəkk etsə ⇨ Şəkkinə etina etməməlidir
      - 2– Sağ tərəfi yumağa başlamazdan əvvəl şəkk etsə ⇨ Həmin hissə yuyulduqdan sonra sağ tərəfi
- **3- Əgər qüsl edən vaxt, bədənində suyun bədənə çatmasına mane olan bir şeyin olub-olmamasında şəkk etsə** ⇨ bu halda onun şəkkinin mənşəyi əql olsa, axtarış aparmalıdır ki, orada

---

[1] Sistani. T.m, məs.372, 384, 391; Lənkərani. T.m, məs.367, 378, 386

*Sistani: Əgər qüsl qurtarmamışdan qabaq bədənin sağ və ya sol tərəfindən bir hissəsinin yuyulub-yuyulmamasında şəkk etsə, həmin hissəni yumalıdır. Amma baş və boyunun bir hissəsinin yuyulub-yuyulmamasına şəkk etsə, ehtiyati-vacibə görə, həmin hissə yuyulduqdan sonra sağ və sol tərəf də yuyulmalıdır. T.m, məs.372

**Sistani: Əgər qüsl edən vaxt, bədənində suyun bədənə çatmasına mane olan bir şeyin olub-olmamasında şəkk etsə, maneənin olmamasına xatircəmlik əldə edənə qədər axtarış aparmalıdır. T.m, məs.384

Bir neçə şəri suala cavab:

Sual: Vacib, yaxud müstəhəb qüsl alan zaman üzü qibləyə dayanmaq vacibdirmi?

Cavab: Qüsl alanda üzü qibləyə doğru dayanmaq vacib deyil.[1]

Sual: Qüsl edəndə qadının saçlarının ucunu yuması vacibdirmi? Həmçinin, qüsl edəndə su başın dərisinin hər yerinə yetişsə, amma saçların hər yerinə çatmasa, qüsl batil olurmu? Halbuki suyun başdakı dərinin hər yerinə çatmasını bilirik.

Cavab: Vacib ehtiyata əsasən saçların hər yerini yuması vacibdir.[2]

Sual: Cənabətdən başqa qüsllər də dəstəmaz almamağa kifayət edirmi?

Cavab: Vacib ehtiyata əsasən kifayət etmir.[3]

[?] Suallar

1- Irtimasi qüslü neçə cür yerinə yetirmək olar? Hər birini izah edin.

2-Qüslün düzgün olması şərtləri hansılardır?

3- Ayağının birində cəbirə olan şəxsin necə qüsl edəcəyini deyin.

4- Əgər bir şəxs məsələni bilməməzlik üzündən qüsl edərkən əvvəlcə bədəni, sonra isə baş və boyunu yuyarsa, həmin qüslün hökmünü deyin.

5- Qüsl bitdikdən sonra bədənin sol tərəfindəki barmaqlardan ikisinin quru qaldığını başa düşsə, vəzifəsi nədir?

6-Qüsl bitdikdən sonra qüslü düzgün edib-etməməsinə şəkk etsə, vəzifəsi nədir?

---

[1] Xamenei. "Əcvibətül-istiftaat", sual 197

[2] Xamenei. "Əcvibətül-istiftaat", sual 208

[3] Xamenei. "Əcvibətül-istiftaat", sual 202

# 14-CÜ DƏRS

## *Qadınlara məxsus qüsllər*

Vacib qüsllərdən üçü, yəni heyz, istihazə və nifas yalnız qız və qadınlara aiddir. Bu qüsllərin səbəbi bətndən gələn qandır və hər bir qüslün özünə məxsus əhkamı vardır ki, bu dərsdə onlardan bəhs edəcəyik.

### *HEYZ QÜSULU. (ADƏT)*

Heyz, əksərən, hər ayda bir neçə gün müddətində qadınların bətnindən xaric olan bir qandır. Qadın heyz gördükdə haiz adlanır.

Heyz qanının əlamətləri

Heyz qanı əksər hallarda aşağıdakı əlamətlərlə olur. 1

- Qaraya çalan qırmızı rəngdə
- Qəliz
- İsti
- Təzyiqlə və azacıq yandırıcı halda

### *HEYZ QANININ ŞƏRTLƏRİ*

Heyz qanının bir necə şərti vardır. Əgər o şərtlərdən biri olmazsa, həmin qan heyz deyildir.

***Heyz qanının şərtləri***

- Həddi-büluğ
- Yaisəlikdən əvvəl
- Üç gündən az olmasın
- On gündən çox olmasın
- Üç gün ardıcıl gəlsin
- Üç gün davamlı gəlsin
- İki heyz qanı arasında ən azı on gün fasilə olsun.

Həddi büluğ ⇨ Qızın həddi büluğdan əvvəl, yəni (qəməri təqvimi ilə) 9 yaşı tamam olmamışdan əvvəl, gördüyü qan heyz qanı deyildir.2

---

[1] Sistani. T.m, məs.440; Lənkərani. T.m, məs.435
[2] Sistani. T.m, məs.442; Lənkərani. T.m, məs.437

Yaisəlik yaşından əvvəl ⇨ *Seyyidə olan qadınlar altmış, seyyidə olmayan qadınlar isə əlli yaşları (qəməri təqvimi ilə) tamam olduqdan sonra yaisə olurlar, yəni heyz qanından kəsilirlər.1

1– Qadının yaisə olduqdan sonra gördüyü qan, heyz qanı deyildir.2

Üç gündən az və on gündən çox olmamalıdır ⇨ Heyzin müddəti üç gündən az, on gündən çox olmur, əgər üç gündən azacıq az olsa, heyz deyildir.3

Üç gün ardıcıl gəlməlidir ⇨ Heyz qanı üç gün ardıcıl gəlməlidir. Deməli əgər misal üçün, iki gün qan görüb bir gün paklansa və yenidən bir gün qan görsə, heyz deyildir.4

Üç gün davamlı gəlməlidir ⇨ Heyz başlayarkən qanın bayıra gəlməsi şərtdir. Tamam üç gün ərzində qanın çölə gəlməsi lazım deyil, hətta əgər övrətinin daxilində də qan olsa, kifayətdir. Bu üç gün ərzində də qan olsa, kifayətdir. Bu üç gün ərzində bir qədər müxtəsər olaraq pak olsa, belə ki, onun pak olma müddəti çox az olub nəzərə çarpmasa və nəticədə "Üç gün onun övrətində qan vardır" deyilsə, yenə də heyzdir. 5

1– Birinci və dördüncü gecədə qan görməsi lazım deyil. Amma ikinci və üçüncü gecələrdə qan dayanmamalıdır. Deməli, əgər birinci günün sübh azanından üçüncü günün qürubuna qədər ardıcıl olaraq qan gəlsə; yaxud birinci günün ortalarında başlayıb dördüncü günün həmin vaxtında dayansa və ikinci və üçüncü günün gecələrində heç dayanmasa heyzdir.6

Qeyd: "Heyz günləri arasında ardıcıllıq"- dedikdə, heyz qanı gələn günlərin bir-birinin ardınca, fasiləsiz olması nəzərdə tutulur. "Heyz qanının üç gün davamlı olması"-dedikdə isə qanın üç gün ərzində kəsilməməsi nəzərdə tutulur. Amma qanın qısa müddətdə kəsilməsinin eybi yoxdur.

Iki heyz qanı arasında ən azı on gün fasilə olmalıdır ⇨ Əgər birinci heyz qanından on gün keçməmişdirsə, qadının yenidən gördüyü qan heyz qanı deyildir.7

Qeyd: Hamilə və uşağa süd verən qadının heyz görməsi mümkündür.8

1– Bir aydan məqsəd ayın əvvəlindən axırına qədər deyil, qanın görünməyə başlamasından otuz gün keçənə qədərdir.9

---

* Sistani: Qadınların altmış yaşından sonra gördükləri qan heyz hökmündə deyildir. T.m, məs.441

[1] Lənkərani. T.m, məs.436

[2] Lənkərani. T.m, məs.437

[3] Sistani. T.m,məs.446; Lənkərani. T.m, məs.441

[4] Sistani. T.m,məs.447; Lənkərani. T.m, məs.442

[5] Sistani. T.m,məs.448; Lənkərani. T.m, məs.443

[6] Sistani. T.m,məs.449; Lənkərani. T.m, məs.444

[7] Imam Xomeyni. "Təhrirul vəsilə", I cild, səh. 44

[8] Sistani. T.m,məs.443; Lənkərani. T.m, məs.438

[9] Sistani. T.m,məs.508; Lənkərani. T.m, məs.502

2– Adət üzrə ayda bir dəfə qan görən qadın, əgər bir ayda iki dəfə qan görsə və onda heyzin əlamətləri olsa, onda arada pak olduğu günlərin sayı on gündən az olmasa, hər ikisini heyz hesab etməlidir.1

3– Əgər üç gün, yaxud üç gündən artıq heyzin əlamətləri olan qan görüb, sonra on gün, yaxud daha artıq istihazənin əlamətləri olan qan görsə və yenidən üç gün heyz əlamətləri olan qan görsə, (heyzin əlamətləri olan) birinci və axırıncı qanları heyz hesab etməlidir.2

4– Əgər qadın on gün tamam olmamışdan qabaq, yaxud on gün tamam olan vaxt qandan pak olsa, hamısı heyzdir; yox əgər on gündən keçsə, bu halda öz adəti müddətini heyz, qalanlarını isə istihazə hesab edib adət günlərindən sonra yerinə yetirmədiyi ibadətləri qəza etməlidir.3

---

[1] Sistani. T.m,məs.509; Lənkərani. T.m, məs.503

[2] Sistani. T.m,məs.510; Lənkərani. T.m, məs.504

[3] Lənkərani. T.m, məs.506

1 * 2

**Əgər qadın on gündən qabaq pak olsa**[2]

- 1–Batinində qan olmadığını bilsə ⇨ Qüsl etməlidir
- 2–On gün tamam olmamışdan qabaq yenidən qan görəcəyini güman etsə belə ⇨ Qüsl etməlidir
- 3–On gün tamam olmamışdan qabaq yenidən qan görəcəyinə yəqinliyi olsa* ⇨ Qüsl etməməlidir, namaz qıla bilməz və haizin hökmlərinə əməl etməlidir

**Əgər qadın on gündən qabaq pak olsa və batinində qan olduğuna ehtimal versə, bir miqdar pambığı daxilinə qoymalı, bir az gözləyib sonra çıxartmalıdır**[3]

- 1-pambıq pakdırsa ⇨ Qüsl edib ibadətlərini yerinə yetirməlidir
- 2–Pambıq pak deyilsə (bulaşıbs), hətta əgər sarı rəngli suya
  - 1– Əgər heyz adəti yoxdursa(müztərib ə,nasiyə, mübtədiə) və ya adəti on gündürsə ⇨ Gözləməlidir, on gündən tez pak olsa, qüsl etməlidir
  - 2– Əgər (onuncu günün tamam olduğu vaxt) pak olsa, yaxud qanı on gündən keçsə ⇨ On günün tamamında qüsl etməlidir
  - 3– Əgər adəti on gündən azdırsa, on günü tamam olmamışdan qabaq, yaxud on günün tamamında pak olacağını bilsə ⇨ Qüsl etməlidir

[?] Suallar

1- "Yaisə qadın" hansı qadınlara deyilir və yaisəlik hansı yaşdan başlanır?

---

[1] Sistani. T.m,məs.511; Lənkərani. T.m, məs.505

* Sistani: ... ehtiyata əsasən qüsl edib, ibadətlərini yerinə yetirməli, heyz qadına haram olan işləri də tərk etməlidir.

[2] Sistani. T.m,məs.512; Lənkərani. T.m, məs.506

2- "Heyz günləri arasında ardıcıllıq" və "Heyz qanının üç gün davamlı olması" dedikdə nə nəzərdə tutulur?

3- Əgər qadın on gündən qabaq pak olarsa, hər üç halda vəzifəsini deyin.

4- Adət üzrə ayda bir dəfə qan görən qadın, əgər bir ayda iki dəfə qan görərsə, gördüyü qanların hökmü nədir?

# 15-CI DƏRS

## *HAIZ QADINLARIN NÖVLƏRI1*

**Haiz qadınların növləri**

- 1-Adəti yoxdur
  - 1- nasiyə
  - 2- müztəribə
  - 3- mübtədiə
- 2-Adəti vardır
  - 1- Vaxtı müəyyəndir (vəqtiyyə)
  - 2- Ədədi müəyyəndir (ədədiyyə)
  - 3-Vaxtı və ədədi müəyyəndir (vəqtiyyə və ədədiyyə)

**Haiz qadınların növləri[1]**

| | |
|---|---|
| 1- ***Vəqtiyyə və ədədiyyə adət sahibi olan qadın*** ⇒ | İki ay eyni vaxtda heyz görüb və hər iki ayda heyz olduğu günlərin sayı bir-birinə bərabər olan qadına deyilir |
| 2- ***Vəqtiyyə adət sahibi olan qadın*** ⇒ | Hər iki ayın eyni günlərində heyz qanı görüb, amma bu aylarda heyz gördüyü günlərin sayı bir-birinə bərabər olmayan qadına deyilir |
| 3- ***Ədədiyyə adət sahibi olan qadın*** ⇒ | iki ayda qan gördüyü günlərin sayı bərabər olub, amma qan gördüyü günlərin vaxtı eyni olmayan qadına deyilir |
| 4- ***Müztəribə*** ⇒ | Bir neçə ayda qan görüb, amma müəyyən bir adəti olmayan, yaxud adəti pozulub təzə bir adət tapmayan qadına deyilir |
| 5- ***Mübtədiə*** ⇒ | İlk dəfə heyz qanı görən qadına deyilir |
| 6- ***Nasiyə*** ⇒ | Öz adətini unutmuş qadına deyilir |

[1] Sistani. T.m, məs.484; Lənkərani.T.m,məs.478

1– Heyzdə adətinin müəyyən vaxtı olan qadın (vəqtiyyə və ədədiyyə adət sahibi və vəqtiyyə adət sahibi) əgər adət dövründə, yaxud "heyz irəliyə atmışdır."* – deyiləcək şəkildə iki-üç gün vaxtından qabaq qan görsə, (hətta o qanda heyz əlamətləri olmasa belə) haiz qadın üçün deyilən hökmlərə əməl etməlidir. Əgər sonra heyz olmadığını başa düşsə (məs: üç gün tamam olmamış pak olsa), bu müddətdə yerinə yetirmədiyi ibadətlərin qəzasını etməlidir.1 2 3

| | | | |
|---|---|---|---|
| ***Vəqtiyyə və ədədiyyə adəti olan qadın əgər adətindən bir neçə gün qabaq, adətinin bütün günlərində və adətdən bir neçə gün sonra qan görərsə***[2] | ***1-Gələn qan üst-üstə 10 gündən çox olmazsa*** | ⟹ | Hamısı heyzdir |
| | ***2-Gələn qan üst-üstə 10 gündən çox olarsa*** | ⟹ | Yalnız adət günlərində gördüyü qan heyz, ondan əvvəl və sonra gördüyü qan isə istihazədir |

2– Vəqtiyyə və ədədiyyə adəti olan qadın əgər on gündən artıq qan görsə, adəti günlərində gördüyü qan (hətta heyzin əlamətləri onda olmasa da) heyzdir; və adəti günlərindən sonra gördüyü qan (hətta heyz əlamətləri də onda olsa) istihazədir.3

Vəqtiyyə adəti olan qadın4

---

* Lənkərani:... "heyz irəliyə atmışdır" və ya "təxirə düşmüşdür"- deyiləcək şəkildə iki-üç gün əvvəl, ya sonra qan görsə, hətta bu qanda heyzin əlamətləri olmasa da, haiz qadın üçün deyilən hökmlərə əməl etməlidir...

[1] Sistani. T.m,məs.486; Lənkərani. T.m, məs.480

[2] Sistani. T.m,məs.487; Lənkərani. T.m, məs.481

[3] Sistani. T.m,məs.492; Lənkərani. T.m, məs.486

[4] Lənkərani. T.m, məs.489, 491

* Sistani: ...bəzi qohumlarının adət günlərinin miqdarını aşağıdakı iki şərtlə özü üçün heyz hesab etməlidir (istər ata, istərsə də ana tərəfdən, istər diri, istərsə də dünyadan getmiş qohum olsun);

1. Həmin qadının adət miqdarının öz adət miqdarı ilə zidd olduğunu bilməsə, məs: özü cavan və səhhəti qüvvətli olduğu halda adətini özü üçün heyz hesab etdiyi qadının yaisə yaşına yaxın olması kimi (adətən bu yaşda adət miqdarı az olur və ya əksinə)

2. Həmin qadının adət miqdarının birinci şərtdə olduğu kimi başqa qohumlarının adət miqdarı ilə fərqli olduğunu bilməsə, amma

***Vəqtiyyə adəti olan qadın əgər 10 gündən artıq qan görərsə***[1]

- 1-***Qanı əlamətlərlə təyin edə bilərsə*** ⇨ Heyz əlamətləri olan günləri heyz, qalanını isə istihazə hesab etməlidir
- 2- ***Qanı əlamətlərlə təyin edə bilməzsə****
  - 1–Əgər qohumların (istər ata, istərsə də ana tərəfdən olsun, istər diri, istərsə də dünyadan getmiş olsun) hamısının adət günlərinin miqdarı eyni olarsa ⇨ Qohumların adət günlərinin miqdarını özü üçün heyz hesab etməlidir**
  - 2– Əgər qohumları olmasa və ya qohumlarının adət günlərinin sayı bir-biri ilə eyni olmasa ⇨ Bu halda hər ayda qan gördüyü günlərdən üç, yaxud altı, yaxud da yeddisini heyz, qalanlarını istihazə hesab etməlidir. Sonrakı aylarda da həmin miqdarı heyz hesab etməlidir

---

bu fərq hesab olunacaq dərəcədə az olarsa, eybi yoxdur. T.m. məsələ:495

–Vəqtiyyə adəti olan qadın 10 gündən çox qan görərsə və onu yuxarıda deyilən qayda ilə təyin edə bilməsə, üç gündən on günə qədər öz heyz günlərinin sayına uyğun olan miqdarı heyz qəbul etmək ixtiyarına malikdir. Əlbəttə heyz hesab etdiyi günlərin sayının adət vaxtı ilə uyğun olması labüddür. T.m, məs.497

** Lənkərani:...Bu şərtlə ki, qohumlarının hamısının adət günlərinin sayı bir-biri ilə eyni olsun. Əgər onların bəzilərinin adəti məsələn, beş gün, bəzilərinin isə yeddi gün olarsa, onların adət günlərinin sayını özü üçün heyz götürə bilməz. Yalnız adəti fərqlənən qohumların sayları başqa qohumlarının müqabilində gözə çarpmayacaq dərəcədə az olarsa, bu halda onların əksəriyyətinin adətini özü üçün heyz götürməlidir. T.m, məs. 489

**Ədədiyyə adəti olan qadın əgər 10 gündən artıq qan görərsə[1]**

- ***1-Əgər gördüyü qanın hamısı eyni olarsa****
  - ⇨ Ehtiyati-vacibə görə qan gördüyü gündən etibarən adət günlərinə qədər heyz, qalan günləri
- ***2-Əgər gördüyü qanın hamısı eyni cür olmasa, bir neçə gün heyz, qalan günlərdə isə istihazə əlaməti olarsa***
  - 1- Əgər heyz əlamətləri olan günlərin sayı adət günlərinin sayı ilə eyni olarsa ⇨ Həmin günləri heyz, qalanını isə istihazə hesab etməlidir
  - 2- Əgər heyz əlamətləri olan günlərin sayı adət günlərinin sayından çox olarsa ⇨ Adət günlərinin miqdarını heyz, qalanını isə istihazə hesab etməlidir
  - 3-Əgər heyz əlamətləri olan günlərin sayı adət günlərinin sayından az olarsa ⇨ Həmin günləri sonrakı bir neçə günə əlavə edib (birlikdə heyz günlərinin sayı qədərində) heyz, yerdə qalanını isə istihazə hesab etməlidir

Müztəribə olan qadın2***

---

1 Sistani. T.m, məs.499; Lənkərani. T.m, məs.493

* Sistani: Qan gördüyü gündən etibarən adət günlərinə qədər heyz, qalan günləri isə istihazə hesab etməlidir. T.m, məs.499

2 Lənkərani. T.m, məs.494, 495

*Sistani: ... heyz əlaməti olan günlər üç gündən az, on gündən çox olmazsa, onu bütövlükdə heyz, qalanını istihazə qərar verməlidir. Üç gündən az, on gündən çox olarsa, aşağıdakı məsələdə deyiləcək miqdarda heyzin hökmünə əməl etməlidir. T.m, məs.501

***Müztəribə olan qadın əgər 10 gündən artıq qan görərsə***[1]

- 1– Əgər gördüyü qanın hamısı eyni cür olmasa, bir neçə gün heyz, qalan günlərdə isə istihazə əlaməti olarsa* ⟹ Heyz əlaməti olan günləri heyz, istihazə əlaməti olan günləri istihazə qərar verməlidir
- 2– Əgər gördüyü qanın hamısı eyni cür olarsa,** bu meyyarların ikisi birlikdə əsas götürülməlidir
  - 1–Qohumların adəti
    - 1- Qohumlarının adəti yeddi gündən az olarsa
      - Məsələn beş gün olarsa, bu beş günü heyz hesab etməlidir. Ehtiyati-vacibə görə qohumlarının adət günlərinin yeddi gün ilə olan fərqi (yəni 2 gün) haizə haram olan işləri tərk etməli, istihazə əməllərini yerinə yetirməlidir
    - 2- Qohumlarının adəti yeddi gündən çox olarsa
      - Məsələn doqquz gün olarsa, yeddi gün heyz hesab edilməlidir. Ehtiyati-vacibə görə yeddi gün ilə onun qohumlarının adət günləri arasında olan fərqi (yəni 2 gün) istihazə əməllərini yetinə yetirməli, haizə haram olan əməlləri tərk etməlidir.
    - 3- Qohumlarının adəti yeddi gündürsə
      - Yeddi günü heyz, yerdə qalan günləri isə istihazə hesab etməlidir.
  - 2-Yeddi gün

---

**Sistani: ... belə ki, onların hamısında heyz əlaməti və yaxud istihazə əlaməti olarsa, ehtiyati vacibə görə vəqtiyyə adəti olan qadının on gündən artıq qan gördüyü və qanı əlamətlərlə təyin edə bilmədiyi halın hökmündə deyildiyi kimi qohumlarının bəzilərinin adət günlərini özü üçün heyz hesab etməlidir. Bu da mümkün olmadığı surətdə 495 və 497-ci məsələdə deyildiyi kimi üç ilə on gün arasında bir neçə günü heyz hesab etməlidir. T.m, məs.500

**Mübtədiə olan qadın əgər 10 gündən artıq qan görərsə**[1]

- 1–Əgər gördüyü qanın hamısı eyni cür olarsa[*] ⇨ Öz qohumlarının adətlərini (vəqtiyyədə deyildiyi kimi) heyz, qalanlarını isə istihazə hesab etməlidir
- 2- Əgər gördüyü qanın hamısı eyni cür olmasa, bir neçə gün heyz, qalan günlərdə isə istihazə əlaməti olarsa
  - 1-Heyz əlaməti olan qan üç gündən az və ya on gündən çox olmasa[**] ⇨ Heyz əlamətləri olan qan heyz və heyz əlamətləri olmayan qan isə istihazədir
  - 2– Heyz əlaməti olan qan üç gündən az[***] və ya on gündən çox olarsa ⇨ Heyzin əlamətləri olan qanın əvvəlini heyzin əvvəli hesab etməli, heyz günlərinin sayında isə öz qohumlarına müraciət edib, qalanlarını isə istihazə hesab etməlidir

---

[1] Lənkərani. T.m, məs.496–498

[*] Sistani: 495-ci məsələdə deyilən 2 şərtlə qohumlarından birinin adət günlərinin miqdarını özü üçün heyz, qalanını isə istihazə hesab etməlidir. Bu da mümkün olmasa 497-ci məsələdə qeyd olunduğu kimi 3 günlə 10 gün arasında bir neçə günü özü üçün heyz hesab etməlidir. T.m, məs.502

[**] Sistani: ...hamısı heyzdir. T.m, məs.503

[***] Sistani: Heyz əlaməti olan qan üç gündən az olarsa, həmin qanı heyz hesab etməlidir, onun sayını isə 501-ci məsələdə göstərildiyi kimi təyin etməlidir. T.m, məs.504

***Nasiyə olan qadın əgər 10 gündən artıq qan görərsə*** [1]

- ***1-Qanı əlamətlərlə təyin etmək mümkündürsə*** ⇨ Heyz əlamətləri olduğu günləri on günə qədər heyz, qalanlarını isə istihazə hesab etməlidir
- ***2-Qanı əlamətlərlə təyin edə bilməsə*** ⇨ Ehtiyati-vacibə görə ilk yeddi günü heyz, qalanını isə istihazə hesab etməlidir

[?] Suallar

1- Öz adət günlərinin sayını və vaxtını unudan qadının vəzifəsi nədir?

2- Vəqtiyyə adət sahibi olan qadın on gündən çox qan görərsə, vəzifəsi nədir?

3- "Müztəribə" hansı qadınlara deyilir?

---

* Sistani: Nasiyə qadın bir neçə növdür;

Ədədiyyə adət sahibi olub adətinin miqdarını unudan qadının gördüyü qan

- – Üç gündən az on gündən çox olmazsa ⇨ Hamısı heyz hesab edilməlidir
- – On gündən çox olarsa ⇨ Müztəribə qadının hökmünə əməl etməlidir. Ancaq elə bir miqdar götürməlidir ki, bu miqdar öz heyz günlərinin sayından az və ya çox olmasın.

T.m, məs.505;

[1] Lənkərani. T.m, məs.499;

# 16-CI DƏRS

## *HAIZ QADINA HARAM OLAN IŞLƏR*

1 * ** *** 2 ****

| | |
|---|---|
| ***Haiz qadına haram olan işlər*** [1] | 1- Dəstəmaz, qüsl, yaxud təyəmmüm ilə yerinə yetirilməli olan ibadətlər,* amma dəstəmaz, qüsl və təyəmmüm lazım olmadığı ibadətləri (meyyit namazı kimi) yerinə yetirməsinin eybi yoxdur.<br>2-Cünub şəxsə haram olan işlər (cənabətin hökmlərində deyilib).<br>3-Fərcə (cinsiyyət üzvünə) cima etmək; həm kişi, həm də qadın üçün (hətta əgər dəllək kəsən yerə qədər daxil olsa və məni gəlməsə də) haramdır. Hətta ehtiyati-vacibə görə dəllək kəsən yerdən az da daxil edilməməlidir.** Haiz qadına (razı olduğu halda) arxadan yaxınlıq etməvin kəskin kərahəti var. |

| | | |
|---|---|---|
| ***Əgər qadının heyz günləri üç yerə bölünsə və kişi öz qadını ilə*** ***qabaq tərəfdən cima etsə, ehtiyati-vacibə görə fəqirə kəffarə verməlidir.*** [2] | Birinci hissədə ⇨ | *18 noxud**** qızıl* |
| | *İkinci hissədə* ⇨ | 9 noxud**** qızıl |
| | *Üçüncü hissədə* ⇨ | 4noxud****yarım qızıl |

1– Məsələn: altı gün heyz görən qadının əri birinci və ikinci gecədə (yaxud onun gündüzündə) onunla yaxınlıq etsə, on səkkiz noxud,• üçüncü və dördüncü gecədə (yaxud onun gündüzündə) yaxınlıq etsə,

---

[1] Sistani. T.m, məs.456; Lənkərani. T.m, məs.451

*Sistani: ... əgər haiz qadın bu əməlləri səhih əməllər niyyəti ilə yerinə yetirsə, caiz deyil...

**Sistani: ... ehtiyata əsasən istər heyz halında, istərsə də başqa vaxtlarda qadının razılığı olmadan onunla arxadan yaxınlıq etmək caiz deyil.

***Sistani: ... öz qadını ilə heyz halında cima etsə, istiğfar etməlidir, ehtiyati-müstəhəbə əsasən kəffarə də verməlidir. T.m, məs.458

[2] Sistani. T.m, məs.460; Lənkərani. T.m, məs.453

**** Sistani: ... sikkəli qızıl

•Bir misqal 4,64 qramdır, 24 noxud bir misqaldır. Deməli, bir noxud misqalın 1/24-i qədərdir.

doqquz noxud, beşinci və altıncı günün gecələrində (yaxud gündüzlərində) yaxınlıq etsə, dörd noxud yarım qızıl kəffarə verməlidir.

2– Əgər kişi heyzin həm birinci, həm ikinci, həm də üçüncü hissəsində öz qadını ilə yaxınqlıq etsə, hər üç kəffarəni verməlidir ki, bu da 31,5 noxud qızıla bərabərdir.1

3– Əgər kişi yaxınlıq halında qadının heyz olmasını başa düşsə, dərhal ondan ayrılmalıdır. Əgər ayrılmasa, ehtiyati-vacibə görə,* kəffarə verməlidir.2

4– Qadına heyz halında təlaq vermək (təlaq kitablarında deyildiyi kimi) batildir.3

5– Əgər qadın "heyzəm", yaxud "heyzdən pak olmuşam" – desə,** onun sözü qəbul edilməlidir.4

6– Əgər qadın namaz əsnasında heyz olsa, namazı batildir.5

7– Əgər qadın namaz əsnasında heyz olub-olmamasında şəkk etsə, namazı səhihdir. Amma namazdan sonra, namaz əsnasında heyz olduğunu başa düşsə, qıldığı namaz batildir.6

8– Qadın heyzdən pak olandan sonra qüsul etməmiş olsa da təlaq vermək səhihdir, əri də onunla yaxınlıq edə bilər.* Amma ehtiyati-müstəhəbə görə qüsuldan qabaq onunla yaxınlıq etməməlidir.7

9 – Qadının heyz halında qılmadığı gündəlik namazların qəzası yoxdur. Amma vacibi orucların** qəzasını tutmalıdır.8

10– Əgər namazın vaxtı daxil olsa və namazı təxirə salarsa, heyz olacağını bilsə, dərhal namazını qılmalıdır.9

11 – Əgər qadın namazın axır vaxtında paklansa və qüsl, dəstəmaz və namazın sair müqəddimati işlərini görüb (paltar hazırlamaq, yaxud onu suya çəkmək) və bir rəkət və daha artıq namaz qılmaq üçün vaxtı olsa, namazı qılmalıdır. Əgər qılmasa, qəzasını yerinə yetirməlidir.10

12– Namaz vaxtında heyzli qadının qanını təmizləməsi, pambığı və dəsmalı dəyişməsi, dəstəmaz alması, (əgər dəstəmaz ala bilmirsə,

---

[1] Sistani. T.m, məs.462; Lənkərani. T.m, məs.456

* Sistani: ... ehtiyati-müstəhəbə görə...

[2] Sistani. T.m, məs.464; Lənkərani. T.m, məs.459

[3] Sistani. T.m, məs.468; Lənkərani. T.m, məs.462

**Sistani: ... yalan danışmaqla ittiham edilmirsə, sözü qəbul edilməlidir. Əks təqdirdə sözünün qəbul edilməsi işkallıdır. T.m, məs.469

[4] Lənkərani. T.m, məs.463

[5] Sistani. T.m, məs.470; Lənkərani. T.m, məs.464

[6] Sistani. T.m, məs.471; Lənkərani. T.m, məs.465

*Sistani:...Amma ehtiyati vacibə əsasən qadın övrətinin daxilini yuduqdan sonra onunla cima edilməlidir. T.m, məs.473

[7] Lənkərani. T.m, məs.467

**Sistani: Amma Ramazan ayının oruclarının qəzasını tutmalıdır. Həmçinin heyz olduğu üçün tuta bilmədiyi vaxtı müəyyən olan nəzir oruclarının qəzasını ehtiyati-vacibə əsasən tutmalıdır.

[8] Sistani. T.m, məs.475; Lənkərani. T.m, məs.469

[9] Sistani. T.m, məs.475; Lənkərani. T.m, məs.470

[10] Sistani. T.m, məs.478; Lənkərani. T.m, məs.472

təyəmmüm etsin) və namaz qıldığı yerdə üzü qibləyə oturub zikr, dua, salavat deməsi müstəhəbdir.1

## *Nifas*

1– Uşağın ilk üzvü ananın bətnindən çıxdığı andan etibarən qadından gələn on gündən qabaq, yaxud on gün tamam olan müddətdə kəsilən qan** "nifas" qanıdır. Nifas halında olan qadına "nəfsa" deyilir.2

2– Uşağın ilk üzvünün çölə gəlməsindən qabaq qadının gördüyü qan nifas deyildir.3

3– Nifas qanı bir anlıqdan artıq gəlməyə bilər. Amma on gündən də artıq ola bilməz.4

4– Haiz qadına haram olan işlər,** "nəfsa" qadına da haramdır.5

5– Nifas halında olan qadına verilən təlaq batil və bu halda yaxınlıq etmək haramdır.6

6– Əgər qadın nifas qanından pak olub batinində qan qalmasına ehtimal versə, bir miqdar pambığı övratinə daxil edib bir az gözləməli, sonra çıxarıb baxmalıdır: əgər pakdırsa, öz ibadətləri üçün qüsul etməlidir.7 8 **

***Əgər qadının nifas qanı on gündən keçsə***[7]

- 1- ***Heyzdə adəti var*** ⇒ Adət günləri qədəri nifas, qalanını isə istihazə hesab etməlidir
- 2- ***Heyzdə adəti yoxdur*** ⇒ On günə qədər nifas, qalanı isə istihazə sayılır***

7– Ehtiyati-müstəhəbə görə adəti olan qadın adətindən sonrakı gündən, adəti olmayan isə doğuşun onuncu günündən on səkkizinci gününə qədər istihazədə deyilən işləri yerinə yetirməli, nifaslı qadına haram olan işləri isə tərk etməlidir. 9

---

[1] Sistani. T.m, məs.482; Lənkərani. T.m, məs.476
*Sistani: ... bu şərtlə ki, doğuş qanı hesab olunsun...
[2] Sistani. T.m, məs.514; Lənkərani. T.m, məs.508
[3] Sistani. T.m, məs.515; Lənkərani. T.m, məs.509
[4] Sistani. T.m, məs.517; Lənkərani. T.m, məs.515
** Sistani: ehtiyati-vacibə əsasən "nəfsa" qadına da haramdır
[5] Sistani. T.m, məs.519; Lənkərani. T.m, məs.513
[6] Sistani. T.m, məs.520; Lənkərani. T.m, məs.514
[7] Sistani. T.m, məs.522; Lənkərani. T.m, məs.516
[8] Sistani. T.m, məs.523; Lənkərani. T.m, məs.517
***Sistani:.. və əgər adətini unudubsa, adət günlərinin miqdarını ehtimal verdiyindən çox götürməlidir.

[9] Sistani. T.m, məs.523; Lənkərani. T.m, məs.517

1 * ** ***

---

[1] Sistani. T.m, məs.525; Lənkərani. T.m, məs.519

*Sistani:.. adət günlərinə düşməzsə, (gözləməsi bir ay çəksə və bu müddət ərzində qan heyz nişanələrini daşısa belə) adət günlərini gözləməlidir. Amma əgər qadın vəqtiyyə adət sahibi olmasa, mümkün olduğu təqdirdə, heyzini onun nişanələri ilə təyin etməlidir. Əgər bu mümkün olmasa məsələn, nifasdan on gün sonra gördüyü qanların hamısı eyni şəkildə olarsa və bir, ya bir neçə ay eyni halda davam edərsə, hər ay öz qohumlarından bəzisinin heyz adətini özünə heyz qəbul etməlidir. Əgər bu mümkün deyilsə, özünə münasib bildiyi bir ədədi heyz olaraq seçməlidir. Bu məsələlərin geniş açıqlanması heyz bəhsində izah olunmuşdur.

** Sistani:.. heyzdə ədədiyyə adəti olmayan qadın... T.m, məs.526

*** Sistani:... ondan sonra gördüyü qan isə heyz olması mümkün olduğu kimi, istihazə də ola bilər. Heyzi təyin etmək üçün əvvəlki məsələdə açıqlanan göstərişə əsasən əməl edilməlidir. T.m, məs.526

**Qadın əgər doğuşdan sonra bir ay, yaxud ondan da artıq müddətdə ardıcıl olaraq qan görərsə**[2]

- ***1-Heyzdə adəti olan qadının***
  - 1-adət günləri miqdarında gördüyü qan ⇒ nifasdır
  - 2-adət günlərindən sonrakı qan ⇒ on günə qədəri adət günlərində olsa belə istihazədir
  - 3-bu on gündən sonra gələn qan isə
    - 1-adət günlərinə düşərsə ⇒ onda heyz əlaməti olsa da, olmasa da, heyzdir
    - 2-adət günlərinə düşməzsə* ⇒ onda heyz əlamətləri olsa da,istihazə hesab etməlidir
- ***2- Heyzdə adəti olmayan qadının*****
  - 1-ilk on günü
    - 1- heyz əlaməti olsa ⇒ heyzdir
    - 2- heyz əlaməti olmasa ⇒ İstihazə hesab etməlidir
  - 2-ikinci on günü ⇒ nifasdır
  - 3- ondan sonra gördüyü qan isə*** ⇒ istihazədir

[?] Suallar

1- Qadının adət günlərində qılmadığı namaz və tutmadığı orucun hökmü nədir?

2- Heyzə haram olan hansı işlər cünuba haram deyil?

3- Əgər qadının nifas qanı on günü keçsə, vəzifəsi nədir?

4- Əgər qadın doğuşdan sonra bir ay, yaxud ondan çox müddətdə ardıcıl qan görərsə, vəzifəsi nədir?

# 17-CI DƏRS

## ISTIHAZƏ

Qadından xaric olan qanlardan biri də istihazə qanıdır. İstihazə qanı görən müddətdə qadına "müstəhazə" deyilr.

İstihazə qanı əksər hallarda aşağıdakı əlamətlərlə olur:

- Sarı rəngdə
- Soyuq
- Təzyiqsiz
- Yandırıcı olmadan
- Qəliz deyil

1– Amma bəzi vaxtlar qara, qırmızı, isti və qəliz olması, təzyiqlə və yandırıcı halda çölə gəlməsi mümkündür.1

İstihazə üç növdür: qəlilə (az), mütəvəssitə (orta), kəsirə (çox)2 * ** ***

İstihazənin növləri[2]

1-***Qəlilə istihazədə**** qan qadının övrətinin daxilinə qoyduğu pambığın bir tərəfindən keçir, amma o biri tərəfinə çıxmır.

2-***Mütəvəssitə istihazədə***** qan qadının övrətinə qoyduğu pambığa hopub o biri tərəfinə çıxır. Amma qadınların, adətən, qanaxmanın qarşısını almaq üçün qoyduqları dəsmala keçmir.

3-***Kəsirə istihazədə****** qan pambıqdan keçib dəsmala çatır.

---

[1] Sistani. T.m, məs.398; Lənkərani. T.m, məs.393

[2] Sistani. T.m, məs.399; Lənkərani. T.m, məs.394

* Sistani: Qəlilə istihazədə qan yalnız qadının istifadə etdiyi pambığın üzünə bulaşır, amma ona hopmur.

** Sistani: Mütəvəssitə istihazədə qan pambığın bir kənarına belə olsa hopur. lakin qadınların adətən qanaxmanın qarşısını almaq üçün qoyduqları dəsmala keçmir.

*** Sistani: Kəsirə istihazədə qan pambığı bürüyərək dəsmala da keçir.

| | |
|---|---|
| ***Qəlilə istihazədə hər namaz üçün əməllər***[1] | • Dəstəmaz almaq<br>• Övrətin zahirinin qan dəyən yerlərini suya çəkmək<br>• Ehtiyati-vacibə* görə pambığı dəyişmək və ya suya çəkmək |

Mütəvəssitə istihazədə hər namaz üçün əməllər2**

| | |
|---|---|
| ***Mütəvəssi-tə istihazə qanı*** | 1-***namazdan əvvəl gələrsə*** ⇨ Qüsl edilməlidir<br>2- ***namaz əsnasında gələrsə*** ⇨ Qüsl edilməlidir<br>3- ***üçün sübh namazından qabaq qüsl etsə,*** sonrakı günün sübhünə qədər hər namaz üçün yalnız qəlilə istihazənin işlərini yerinə yetirməlidir. Amma qəsdən, yaxud unutqanlıq üzündən qüsl etməsə, zöhr və əsr namazları üçün qüsl etməlidir. Əgər onun üçün də qüsl etməsə, məğrib və işa namazlarından qabaq qüsl etməlidir. |

Kəsirə istihazədə hər namaz üçün əməllər3 *

[1] Sistani. T.m, məs.400; Lənkərani. T.m, məs.395

* Sistani: ... ehtiyati-müstəhəbə əsasən...

[2] Lənkərani. T.m, məs.396

** Sistani: Mütəvəssitə istihazədə ehtiyati-lazıma əsasən qadın öz gündəlik namazları üçün bir qüsl etməli və həmçinin əvvəlki məsələdə deyildiyi kimi, qəlilə istihazənin vəzifəsini yerinə yetirməlidir. T.m, məs.401

[3] Sistani. T.m, məs.402; Lənkərani. T.m, məs.397

* Sistani: ... ehtiyati-vacibə əsasən qadın hər namaz üçün pambığı və ya dəsmalı dəyişməli,yaxud suya çəkməlidir. Bütün bunlar qanın ardıcıl olaraq pambıqdan dəsmala yetişdiyi haldadır. Amma qanın pambıqdan dəsmala çatması fasilə ilə olsa,qadın o fasilədə iki namaz, ya da daha artıq namaz qıla bilərsə, ehtiyati-lazıma əsasən nə vaxt qan pambıqdan dəsmala yetişsə, pambıq

| | |
|---|---|
| ***Kəsirə istihazə*** | 1-Sübh namazı üçün bir qüsl, zöhr və əsr namazları üçün başqa bir qüsl, məğrib və işa namazları üçün isə daha bir qüsl edilməlidir. Zöhr ilə əsr namazı və məğrib ilə işa namazları arasında fasilə salınmamalıdır. Əgər fasilə salınsa, hər bir namaz üçün ayrılıqda qüsl verilməlidir.<br>2-Qüsldən əlavə* hər namazda qəlilə istihazənin də əməlləri yerinə yetirilməlidir. |

1– Əgər istihazəli qadın ona vacib olan əməllərdən hər hansı birini tərk etsə, namazı batil olar.1

2– Əgər bir qadın istihazəsinin hansı növdən olduğunu bilməsə, namaz qılmaq istədiyi vaxt** bir miqdar pambığı öz övrətinin daxilinə qoyub bir az gözlədikdən sonra çıxardıb istihazənin hansı növdən olduğunu təyin etməli, sonra həmin növün göstərişlərinə əsasən əməl etməlidir. Amma əgər namaz qıldığı vaxtda istihazəsinin dəyişilməyəcəyini bilsə, vaxt daxil olmamışdan əvvəl də özünü yoxlaya bilər.2

3– Qəlilə istihazəsi olan qadın dəstəmazdan sonra, kəsirə* və mütəvəssitə istihazəsi olan qadın isə qüsl və dəstəmazdan sonra dərhal namaza başlamalıdır. Amma azanı və iqaməni deməyin, namazdan əvvəl olan duaları oxumağın eybi yoxdur. Namazda da qunut və s. kimi müstəhəb işləri yerinə yetirə bilər.3

4 – Əgər müstəhazə qadın namazın vaxtının sona çatmasından əvvəl tamamilə paklanacağını, yaxud namaz qılacağı müddətdə qanın dayanacağını bilsə, bu halda** gözləməli, namazını pak olduğu vaxtda qılmalıdır.4

5– Əgər istihazəsi olan qadın özünə vacib olan qüsulları yerinə yetirsə, məscidə getmək, orada dayanmaq, vacibi səcdəsi olan Surələri oxumaq, əri ilə yaxınlıq etmək və s. kimi işlər hətta namaz üçün vacib

---

və dəsmalı dəyişməli və ya suya çəkməli və qüsl etməlidir. Hər halda kəsirə istihazəsinin qüsulunun dəstəmaz əvəzinə də yetərli olduğu daha mötəbər nəzərdir.

1 Sistani. T.m, məs.432; Lənkərani. T.m, məs.427

** Sistani:..ehtiyata əsasən namaz üçün özünü yoxlamalıdır. Məsələn...

2 Sistani. T.m, məs.410; Lənkərani. T.m, məs.405

* Sistani:..kəsirə istihazəsi olan qadın qüsuldan sonra və ...

3 Sistani. T.m, məs.419; Lənkərani. T.m, məs.414

** Sistani:...bu halda ehtiyati-lazıma əsasən gözləməli...

4 Sistani. T.m, məs.416; Lənkərani. T.m, məs.411

olan sair əməlləri (dəstəmaz almaq, pambığı dəyişmək, dəsmal qoymaq) yerinə yetirməmiş olsa da ona halal olur.1

Qadın məsələləri barəsində bir neçə
şəri suala cavab:

Sual: Mənim anam şərif Nəbəvi (Peyğəmbər) nəslindəndir. Mən də seyyidə sayılırammı və aylıq adətimi (aybaşını) 60 yaşına qədər heyz hesab edə bilərəmmi?

Cavab: Atası Haşimi tayfasından olmayan qadın hərçənd anası seyyidlərdən olsa belə, 50 yaşından sonra qan görsə, bu qan istihazə hökmündədir.2

Sual: Nəzir etdiyi üçün oruc tutan, bu halda heyz görən qadının vəzifəsi nədir?

Cavab: Oruc tutduğu günün bir hissəsində belə heyz görsə, orucu batil olar. Pak olandan sonra da həmin günün orucunun qəzasını tutmalıdır.3

Sual: Oruc tutmaq üçün dava-dərman qəbul etməklə aylıq adətin qarşısını almağın hökmü nədir?

Cavab: Heç bir eybi yoxdur.4

Sual: Qadının hamiləlik dövründə zəif qanaxma baş versə, lakin uşaq doğulmasa, ona qüsl vacibdir, ya yox? Onun nə etməsi vacibdir?

Cavab: Qadının hamiləlik dövründə gördüyü qanda heyzin əlamətləri, yaxud şərtləri olsa, heyzdir, olmasa istihazədir.Və əgər onun istihazəsi kəsirə, yaxud mütəvəssitə olsa, qüsl etməsi vacibdir.5

Sual: Heyz, yaxud nifas halında olan qadınlar Imamların (ə) övladlarının ziyarətgahlarına daxil ola bilərlərmi?

Cavab: Əgər bu iş hörmətsizlik sayılmazsa, olar.6

Sual: Qadınlar yaisəlik dövründən sonra qan görsələr, bu qanın hökmü nədir? Bu halda o qadınların şəri vəzifələri nədir?

Cavab: Istihazə hökmü vardır.7

[?] Suallar———————————————

1- Hansı halda istihazə olan qadına qüsl vacib deyil?

2- Günortadan sonra mütəvəssitə istihazə olan qadın sonrakı namazları üçün nə etməlidir?

3- Istihazənin hər üç növündə müştərək olan əməllər hansılardır?

---

[1] Sistani. T.m, məs.434; Lənkərani. T.m, məs.429
[2] Xamenei. "Əcvibətül-istiftaat", sual 228
[3] Xamenei. "Əcvibətül-istiftaat", sual 229
[4] Xamenei. "Əcvibətül-istiftaat", sual 231
[5] Xamenei. "Əcvibətül-istiftaat", sual 232
[6] Xamenei. "Əcvibətül-istiftaat", sual 234
[7] Xamenei. "Əcvibətül-istiftaat", sual 236

# 18-CI DƏRS

## TƏYƏMMÜM (1)

***Təyəmmüm iki növdür*** — *1-Dəstəmaz əvəzinə*; *2-Qüsl əvəzinə*

Necə təyəmmüm edək:1*2 ** *** ****

***Təyəmmümdə dörd iş vacibdir***[1]:

1- ***Niyyət*** – Təyəmmümün dəstəmaz və ya qüsl əvəzinə olmasını müəyyən etməkdir.*[2]

2- ***İki əlin içini təyəmmüm düzgün olan şeyə vurmaq.*****

3- ***İki əl birlikdə alının hər yerinə həmçinin onun iki tərəfinə*********; tük bitən yerdən qaşlara qədər və burunun üst tərəfinə çəkilməlidir.*** Ehtiyati-vacibə**** görə, əllər qaşların da üstünə çəkilməlidir.

4- ***Sol əlin içi sağ əlin üstünün hər yerinə və sağ əlin içi sol əlin üstünə eyni qayda ilə çəkilməlidir.***

Yeddi halda dəstəmaz və qüsl əvəzinə təyəmmüm etmək lazımdır:

1- Dəstəmaz və ya qüsl etmək üçün lazım olan suyu tapmaq mümkün olmazsa.

2- Əgər bir kəs qocalıq səbəbilə, yaxud oğrudan, yırtıcı heyvandan və s. kimi şeylərdən qorxmaq və yaxud da suyu quyudan çıxartmaq üçün lazımi avadanlığın olmaması səbəbilə su əldə edə bilməsə, təyəmmüm etməlidir.3

3- Əgər bir kəs suyun işlədilməsinin səhhətinə zərər verəcəyindən, yaxud onu istifadə edəcəyi halda hər hansı bir xəstəlik və eybin yaranacağından, yaxud xəstəliyinin uzanacağından, şiddətlənəcəyindən və ya çətinliklə müalicə olunacağından qorxsa, təyəmmüm etməlidir.

---

[1] Sistani. T.m, məs.708; Lənkərani. T.m, məs.699

* Sistani:Niyyət edərkən təyəmmümün dəstəmaz və ya qüsl əvəzinə olduğunu müəyyən etmək lazım deyil. Amma iki təyəmmüm yerinə yetirməli olsa, onların hər birini müəyyən etməlidir. T.m, məs.713

[2] Lənkərani. T.m, məs.704

**Sistani: Iki əlin içini təyəmmümün düzgün olduğu şeyə vurmaq və ya qoymaq. Ehtiyati-vacibə əsasən, hər iki əl eyni vaxtda vurulmalı və ya qoyulmalıdır.

***Sistani: Ehtiyati-lazıma əsasən;...

****Sistani: Ehtiyati-müstəhəbə əsasən;...

[3] Sistani. T.m, məs.672; Lənkərani. T.m, məs.663

Amma əgər isti suyun zərəri olmasa, isti su ilə dəstəmaz və ya qüsl etməlidir.1

4- Əgər insan suyu dəstəmaz və qüsl üçün istifadə edəcəyi halda özü, əyalı, övladları, dostu və ona aid olan şəxslərin (nökər və ya külfət) susuzluqdan öləcəklərindən, yaxud da dözülməsi məşəqqətli olan qədər susayacaqlarından qorxsa, dəstəmaz və qüsl əvəzinə təyəmmüm etməlidir. Özünün, yaxud başqasının malı olan heyvanın susuzluqdan tələf olmasından qorxduğu halda da suyu onlara verib təyəmmüm almalıdır. Həmçinin, əgər canının hifzi vacib olan bir kəs çox susuz olsa və suyu ona verməyəcəyi halda tələf olacaqsa, suyu ona verib təyəmmüm etməlidir.2

5- Bədəni, yaxud paltarı nəcis olan və yalnız qüsl və dəstəmaza çatan qədər suyu olan bir şəxs, dəstəmaz və qüsl aldıqda, bədənini və yaxud paltarını suya çəkmək üçün suyu qalmayacaqsa, bədənini və paltarını suya çəkib təyəmmümlə namaz qılmalıdır. Amma əgər təyəmmüm etmək üçün bir şey tapmasa, o suyu dəstəmaz və qüsl üçün istifadə edib, nəcis bədən və ya paltarla namaz qılmalıdır.3

6- Əgər istifadəsi haram olan su və ya qabdan başqa bir suyu, yaxud qabı olmazsa (məsələn: suyu, yaxud qabı qəsbi olsa və ondan da başqası olmasa), dəstəmaz və ya qüsl yerinə təyəmmüm etməlidir.4

7- Əgər vaxt çox az olsa və dəstəmaz, yaxud qüsl alacağı təqdirdə namazın hamısı, yaxud bir qədəri namazın vaxtından sonra qılınacaqsa (qəza olacaqsa) təyəmmüm etməlidir.5

[?] Suallar———————————————

1- Təyəmmüm neçə növdür?

2- Necə təyəmmüm edildiyini izah edərək göstərin.

3- Hansı halda vaxtın darlığına görə təyəmmüm etmək olar?

4- Bədəni, yaxud paltarı nəcis olan və yalnız qüsl və dəstəmaza çatan qədər suyu olan bir şəxs nə etməlidir?

[1] Sistani. T.m, məs.677; Lənkərani. T.m, məs.668
[2] Sistani. T.m, məs.682; Lənkərani. T.m, məs.673
[3] Sistani. T.m, məs.684; Lənkərani. T.m, məs.675
[4] Sistani. T.m, məs.681; Lənkərani. T.m, məs.676
[5] Sistani. T.m, məs.686; Lənkərani. T.m, məs.677

# 19-CU DƏRS

## *TƏYƏMMÜM (2)*

Su tapmaq üçün axtarış[1]*•

**Su tapmaq üçün axtarış[1]**

- 1-***Abadlıqda*** ⇨ Su tapmaqdan naümid olana qədər
- 2-***Çöldə, biyabanda***
  - 1-Dərə-təpə və yaxud ağaclıq və s. kimi keçilməsi çətin olan yerlərdə ⇨ Hər dörd tərəfə, qədim kamanlardan atılan bir ox uçuşu• məsafəsində axtarış aparılmalıdır*
  - 2-Dərə-təpə olmayan və yaxud keçilməsi çətin olmayan yerlərdə ⇨ İki ox uçuşu məsafəsində axtarış aparılmalıdır

Bir neçə məsələ:

1– Insanın su olmadığına əmin olduğu tərəfdə axtarış aparması lazım deyil.[2]

2– Suyun insana zərəri olmasına yəqinliyin olması şərt deyil, hətta əgər zərəri olduğuna ehtimal da versə və onun ehtimalı, camaatın nəzərində əsaslı ehtimal olsa** və bu ehtimaldan onun üçün qorxu hasil olsa, təyəmmüm etməlidir.[3]

3– Göz ağrısı xəstəliyinə düçar olan və su işlədilməsi zərər olan şəxs təyəmmüm etməlidir.[4]

4– Əgər qəsdən namazı çox təxirə salsa və qüsl, yaxud dəstəmaz üçün vaxt olmasa, günah etmişdir, amma onun təyəmmümlə qıldığı namaz düzgündür. Ehtiyati-müstəhəb budur ki, o namazın qəzasını yenidən qılsın.[5]

5– Dəstəmaz və ya qüsl alacağı təqdirdə namaz üçün vaxt qalıb-qalmayacağında şəkk edən bir kəs təyəmmüm etməlidir.[6]

---

[1] Sistani. T.m, məs.655; Lənkərani. T.m, məs.647

•Bir ox uçuşu təxminən iki yüz addım qədərdir. (Məclisi "mən la yəhzuruhul fəqih" kitabının şərhi)

*Sistani:Ehtiyati-vacibə əsasən...

[2] Sistani. T.m, məs.657; Lənkərani. T.m, məs.649

** Sistanidə məsələnin ardı zikr olunmayıb.

[3] Sistani. T.m, məs.678; Lənkərani. T.m, məs.669

[4] Sistani. T.m, məs.679; Lənkərani. T.m, məs.670

[5] Sistani. T.m, məs.687; Lənkərani. T.m, məs.678

[6] Sistani. T.m, məs.688; Lənkərani. T.m, məs.679

6– Əgər insanın dəstəmaz və ya qüsl alıb müstəhəb əməlləri (iqamə, qunut və s.) yerinə yetirmədən namaz qılmağa vaxtı varsa, qüsl edib, yaxud dəstəmaz alıb namazı onun müstəhəb əməllərini yerinə yetirmədən qılmalıdır. Hətta əgər Surəni oxumaq üçün də vaxt olmasa, qüsl edib dəstəmaz almalı, namazı Surəsiz qılmalıdır.1

Təyəmmümün səhih olduğu şeylər2 *3

***Təyəmmüm etməyin səhih olduğu şeylər***

- 1-Torpaq[4]
- 2- Qum[4]
- 3- Kəsək[4]
- 4- Daş[4] (əgər pak olsa)
  - kəc daş
  - əhəng daş
  - qara mərmər və s. növlərdən olan daşlar
- 5- Bişmiş palçıq (kərpic, kuzə və s.)
- 6- Əgər torpaq, qum, kəsək və daş tapılmasa, palaz-paltar, xalça və s. kimi şeylərin üstündə olan tozlara təyəmmüm edilməlidir. Əgər toz da tapılmasa, palçığa təyəmmüm edilməlidir.[*5]

Bir neçə məsələ:

1– Dəstəmaz və qüsl əvəzinə olan təyəmmüm arasında heç bir fərq yoxdur.Təkcə fərqləri niyyətdədir.4

2– Dəstəmazı batil edən şeylər dəstəmaz əvəzinə olan təyəmmümü də batil edir; habelə, qüslü batil edən şeylər, qüsl əvəzinə olan təyəmmümü də batil edir.5

3– Əgər bir kəs su olmaması, yaxud başqa səbəblərə görə təyəmmüm etsə, üzrü aradan qaldırıldıqdan sonra təyəmmümü batil olur.6

4– Qüsl edə bilməyən bir şəxs qüsl edilməsi vacib olan bir iş görmək istəsə, qüsl əvəzinə təyəmmüm etməlidir. Əgər dəstəmaz ala bilməsə və

---

1 Sistani. T.m, məs.691; Lənkərani. T.m, məs.682

2 Sistani. T.m, məs.692; Lənkərani. T.m, məs.683

*Sistani: Əgər torpaq, qum, kəsək və daş tapılmasa, palçığa təyəmmüm edilməlidir. Əgər palçıq da tapılmasa, palaz-paltar, xalça və s. kimi şeylərin üstündə olan tozlara təyəmmüm edilməlidir. T.m, məs.694

3 Lənkərani. T.m, məs.685

4 Sistani. T.m, məs.709; Lənkərani. T.m, məs.700

5 Sistani. T.m, məs.728; Lənkərani. T.m, məs.719

6 Sistani. T.m, məs.727; Lənkərani. T.m, məs.718

dəstəmazın vacib olduğu hər hansı işi görmək istəsə, dəstəmaz əvəzinə təyəmmüm almalıdır.1

5– Əgər torpağa və quma təyəmmümün batil olduğu şeylər (saman kimi) qarışsa, ona təyəmmüm etmək olmaz. Amma həmin qarışıq çox az olub torpaqda və ya qumda aradan getmiş hesab olunsa, onlara təyəmmüm etmək düzgündür.2

6– Əllərin üstünün hamısına məsh etməsinə əmin olmaq üçün biləkdən bir az yuxarı da məsh etməlidir, amma barmaqların arasına məsh etmək lazım deyil.3

7– Alının və əllərin üstünü, ehtiyati-vacibə görə, yuxarıdan-aşağı məsh etmək, onun işlərini bir-birinin ardınca (fasiləsiz) yerinə yetirmək lazımdır. Əgər onların arasında çox fasilə versə və "təyəmmüm alır" deyilməsə, təyəmmümü batildir.4

8–Insan təyəmmüm üçün əlindəki üzüyü çıxartmalı, alnında, əllərinin üstündə, içində maneə olsa (məs:bir şey yapışmışsa), aradan qaldırmalıdır.5

9– Əgər alında, əllərin üstündə tük olsa, eybi yoxdur. Amma başın tükü alına tökülmüş olsa, onları dala çəkmək lazımdır.6

Bir neçə şəri suala cavab:

Sual: Əgər təyəmmüm etmək düz olan şeylər (torpaq, əhəng, mərmər daşı) divara yapışmış olsa, divarda olduğu halda təyəmmüm etmək düzgündürmü, yoxsa bunlar yer üzərində olmalıdır?

Cavab: Təyəmmümün düzgün olmasında onların yer üzərində olmaları şərt deyildir7.

Sual: Su tapmayan şəxs, yaxud su işlətməyin zərəri olan şəxs qüsl (cənabət qüslü) əvəzinə təyəmmüm etsə, məscidə daxil ola və camaat namazı qıla bilərmi? Onun Qurani-Kərim oxumasının hökmü nədir?

Cavab: Nə qədər ki, təyəmmüm üçün üzrü aradan qalxmayıb və təyəmmümü də batil olmayıb, bu halda təharətlə şərtlənən bütün əməlləri yerinə yetirə bilər8.

Sual: Bir nəfər vaxtın dar olduğuna görə təyəmmüm alaraq namaz qılır. Namazı qurtarandan sonra məlum olur ki, onun dəstəmaz alması üçün vaxt var imiş. Bu halda onun qıldığı namazın hökmü nədir?

Cavab: Həmin namazı yenidən qılması vacibdir9.

[?] Suallar————————————————

1- Dəstəmaz aldığı halda xəstələnəcəyini dəqiq bilməyən şəxs hansı halda dəstəmaz əvəzinə təyəmmüm edə bilər?

2- Təyəmmüm etməyin səhih olduğu şeyləri ardıcıl sayın.

3- Hansı işlər təyəmmümü batil edər?

---

[1] Sistani. T.m, məs.730; Lənkərani. T.m, məs.721
[2] Sistani. T.m, məs.697; Lənkərani. T.m, məs.688
[3] Sistani. T.m, məs.711; Lənkərani. T.m, məs.702
[4] Sistani. T.m, məs.712; Lənkərani. T.m, məs.703
[5] Sistani. T.m, məs.715; Lənkərani. T.m, məs.706
[6] Sistani. T.m, məs.717; Lənkərani. T.m, məs.708
[7] Xamenei. Əcvibətül-istiftaat, sual 215
[8] Xamenei. Əcvibətül-istiftaat, sual 219
[9] Xamenei. Əcvibətül-istiftaat, sual 226

# 20-CI DƏRS

## *NAMAZIN VAXTI*

Namazın vaxtlarının hökmlərini öyrənərkən qeyd etmək lazımdır ki, namaz 2 hissəyə bölünür: müstəhəb və vacib namazlar.

Vacib namazlar da özlüyündə 2 hissəyə ayrılır: Onlardan bəziləri gündəlik yerinə yetirilməsi vacib olan namazlardır. Bəziləri isə xüsusi səbəblərlə vacib olan namazlardır.

Namazlarla daha yaxından tanış olmaq üçün aşağıdakı cədvəllərə diqqət yetirin:1

• *

**Namazın növləri**

- ***1-Vacib***[1]
  - 1-Gündəlik (yəvmiyyə) namazlar
    1. Sübh; – 2 rəkət
    2. Zöhr; – 4 rəkət
    3. Əsr; – 4 rəkət
    4. Məğrib; – 3 rəkət
    5. İşa; – 4 rəkət
  - 2-Məqtəi* namazlar
    1. Ayət;
    2. Meyyit;
    3. Allah evinin vacib təvafı;
    4. Ata və ananın böyük oğula vacib olan qəza namazı;*
    5. İcarə, nəzir, and, əhd və s. kimi şeylərlə vacib olan namazlar
- ***2-Müstəhəb***: – müstəhəb namazlar çoxdur

Gündəlik namazların vaxtları 3 cürdür:

- 1-Məxsus
- 2- Müştərək
- 3-Fəzilət

Gündəlik namazların vaxtları2 *

---

[1] Sistani. T.m, "Vacib namazlar"; Lənkərani. T.m, "Vacib namazlar"

*Məqtəi – xüsusi səbəblərlə vacib olan namazlara deyilir.

* Sistani: Atanın qəza namazı ehtiyata əsasən, böyük oğula vacibdir.

[2] Lənkərani. T.m, məs.: 728,730,736,741

* Sistani: Zöhr və Əsr namazlarının vaxtı zəvaldan (günəş əyiləndən) günəş batana qədərdir. T.m, məs.738

Şam və Işa namazlarının vaxtı üzrü olmayan şəxs üçün gecə yarısına qədərdir, amma üzürlü olan bir şəxs üçün isə (məsələn: unutmaq, yuxuya qalmaq və ya heyzli olmaq və buna bənzər bir səbəbdən namazı gecə yarısına qədər qılmamışdırsa) Şam və Işa namazlarının vaxtı Sübh azanına qədər davam

- **Zöhr**
  - ***Məxsus*** — •Əgər çubuq və bu kimi şeyi düz yerə şaquli şəkildə basdırsalar, günəş çıxanda onun kölgəsi günbatan tərəfə düşür. Günəş yuxarı qalxdıqca onun kölgəsi azalır. Günortadan keçəndə çubuğun kölgəsi günçıxana tərəf keçir. Günəş qüruba yaxınlaşdıqca çubuğun kölgəsi də uzanır. Deməli, çubuğun kölgəsi azaldığı istiqamətdə ən az (minimum) nöqtəyə çatıb, sonra artmağa başladığı vaxt şəri zöhrdür. Şəri zöhrdən, zöhr namazının qılınma müddətinə qədər vaxt zöhr namazının məxsus vaxtıdır.
  - ***Müştərək*** — •Zöhr namazının məxsus vaxtı ilə əsr namazının məxsus vaxtı arasında olan müddət zöhr və əsr namazının müştərək vaxtı hesab olunur.
- **Əsr**
  - ***Məxsus*** — •Məğribə, əsr namazını qılmaq miqdarında qalan vaxt əsr namazının məxsus vaxtıdır.
  - ***Müştərək*** — •Zöhr namazının məxsus vaxtı ilə əsr namazının məxsus vaxtı arasında olan müddət zöhr və əsr namazının müştərək vaxtı hesab olunur.
- **Məğrib**
  - ***Məxsus*** — •Gün batandan sonra şərq tərəfdə görünən qızartı insanın başının üstündən qərbə tərəf keçdikdə məğrib vaxtı hesab olunur. Məğrib vaxtının əvvəlindən üç rəkət namaz qılmaq qədər olan müddət məğrib namazının məxsus vaxtıdır.
  - ***Müştərək*** — •Məğrib namazı ilə işa namazının məxsus vaxtları arasındakı müddət, bu iki namazın müştərək vaxtıdır.

---

edir. Amma hər halda bu namazlar arasında tərtibə riayət etmək lazımdır. T.m, məs.744

*İşa*

*Məx* — •Gecə yarısına İşa namazını qılmaq müddətində qalan vaxt İşa namazının məxsus vaxtıdır.

*Müşt* — •Məğrib namazı ilə İşa namazının məxsus vaxtları arasındakı müddət, bu iki namazın müştərək vaxtıdır.

*Sübh* — •Sübh azanına yaxın günçıxan tərəfdən bir ağartı yuxarı tərəfə hərəkət edir və buna birinci fəcr deyilir. Bu ağlıq üfüqün şərq tərəfində genişlənib yayılsa, buna ikinci fəcr deyilir və bu sübh namazının əvvəl vaxtıdır. Sübh namazının axır vaxtı isə günəş çıxan vaxtdır.

1– Əgər namazın vaxtı çox az olsa və onun bəzi müstəhəblərinin yerinə yetirilməsi vacibatının bəzisinin namaz vaxtı keçdikdən sonra qılınmasına səbəb olsa, o müstəhəblər tərk edilməlidir. Məsələn: əgər qunutu yerinə yetirmək səbəbilə namazın bir qədəri namaz vaxtı qurtardıqdan sonraya düşərsə, qunut tutmamalıdır1.

2– İnsan əsr namazını zöhr namazından sonra, işa namazını da məğrib namazından sonra qılmalıdır. Əgər bilərəkdən əsr namazı zöhr namazından, işa namazı da məğrib namazından əvvəl qılınarsa, namaz batildir.2

3– Əgər bir kəs əsr namazının məxsus vaxtına qədər zöhr namazını qılmasa, onun zöhr namazı qəza olur və o əsr namazını qılmalıdır.3

4– Dörd rəkətli namazların məxsus vaxtları səfərdə olan şəxs üçün iki rəkətli namaz qılmaq miqdarında hesab olunur.4

5– Əgər zöhr namazını qılmazdan əvvəl səhvən əsr namazını başlasa və namaz əsnasında səhvini başa düşsə, niyyəti zöhr namazına döndərməlidir. (yəni niyyət etməlidir ki, bu vaxta qədər qılmış olduğum, hal-hazırda qıldığım və bundan sonra qılacağım hamısı zöhr namazı hesab olunsun). Namazı bitirdikdən sonra əsr namazını qılmalıdır.5

6– Əgər məğrib namazını qılmamışdan əvvəl səhvən işa namazını qılmağa başlasa və namaz əsnasında səhvini başa düşsə, əgər dördüncü rəkətin rükusuna getməmiş olsa, niyyəti məğrib namazına döndərib namazı qurtarmalı, sonra da işa namazını qılmalıdır. Əgər dördüncü rəkətin rükusuna getmiş olsa, işa namazını tamamlayıb sonra məğrib namazını qılmalıdır6*

---

[1] Sistani. T.m, məs.755; Lənkərani. T.m, məs. 747;
[2] Sistani. T.m, məs.763; Lənkərani. T.m, məs.755
[3] Sistani. T.m, məs.738; Lənkərani. T.m, məs.730
[4] Sistani. T.m, məs.758; Lənkərani. T.m, məs.737
[5] Sistani. T.m, məs.739; Lənkərani. T.m, məs.731
[6] Sistani. T.m, məs.746

*Lənkərani: ... Amma işa namazının hamısı məğrib namazının məxsus vaxtında olarsa, namaz batildir. T.m, məs. 738

7– Əgər müəyyən üzrlər səbəbilə** məğrib, yaxud işa namazını gecə yarısına qədər qıla bilməyən şəxs ehtiyati-vacibə görə, namazı sübh azanından qabaq əda və qəza niyyəti etmədən qılmalıdır.[1]

### *NAMAZ VAXTININ HÖKMLƏRI*

1– Əgər namaz bütövlükdə vaxtından əvvəl qılınarsa və ya bilərəkdən namazı vaxtından qabaq qılmağa başlasa, namazı batildir.[2]

2– Əgər insan vaxtın daxil olmasına əmin olsa, yaxud iki adil kişi hiss üzündən vaxtın daxil olmasını xəbər verdikdən sonra namaza başlasa;[3]

- ***Namaz əsnasında***
  - 1- ***Hələ vaxtın daxil olmadığını başa düşsə*** ⇨ Namaz batildir
  - 2- ***Vaxtın indi daxil olduğunu başa düşsə*** ⇨ Namaz səhihdir
- ***Namazdan sonra***
  - 1-***Namazın hamısını vaxtından əvvəl qıldığını başa düşsə*** ⇨ Namaz batildir
  - 2-***Vaxtın namaz əsnasında daxil olduğunu bilsə*** ⇨ Namaz səhihdir

### *GÜNDƏLIK NAMAZLARIN FƏZILƏT VAXTI.[4]•*

Fəzilət vaxtı qılınan namazın savabı daha çoxdur.

- ***Zöhr namazının fəzilət vaxtı*** — •Şəri zöhrün əvvəlindən şaxisin• kölgəsi onun öz ölçüsünə çatana qədər, məsələn: əgər şaxisin ölçüsü 1 metr, şəri zöhr vaxtı isə onun kölgəsi 20 sm olarsa, şaxisin kölgəsi 120 sm-ə çatanda zöhr namazının fəzilət vaxtı sona yetər.
- ***Əsr namazının fəzilət vaxtı*** — •Zöhr namazının məxsus vaxtından sonra başlayır və şaxisin kölgəsi iki öz ölçüsü qədər olanadək davam edir.

---

** Sistani: Əgər ixtiyar üzündən...

[1] Sistani. T.m, məs.748; Lənkərani. T.m, məs.740

[2] Sistani. T.m, məs.752; Lənkərani. T.m, məs.745

[3] Sistani. T.m, məs.752; Lənkərani. T.m, məs.744

[4] Imam Xomeyni. «Təhrirul vəsilə», Ic., səh.137

• Şaxis – şəri zöhr vaxtını təyin etmək üçün şaquli vəziyyətdə yerə batırılan çubuq və bu kimi şeylərdir.

| | |
|---|---|
| ***Məğrib namazının fəzilət vaxtı*** | •Məğrib vaxtından başlayır və qərb tərəfdə olan qızartı aradan gedənə qədər davam edir. |
| ***İşa namazının fəzilət vaxtı*** | •Məğrib namazının fəzilət vaxtı başa çatdıqdan sonra başlayır və gecənin 1/3-nə qədər davam edir. Yəni qərb tərəfdə olan qızartı aradan qalxdıqdan sonra gecənin 1/3 qədər olan müddət işa namazının fəzilət vaxtıdır. |
| ***Sübh namazının fəzilət vaxtı*** | •Sübh azanından hava işıqlanana qədər olan müddət sübh namazının fəzilət vaxtıdır. |

Gecə yarısı*: Günəşin qürubundan sübh azanına qədər olan vaxtı iki yerə böldükdə gecə yarısı alınar və bu vaxt işa namazının axır vaxtıdır. Ehtiyati-vacibə əsasən məğrib, işa və s. namazlarda gecə qürubun əvvəlindən sübh azanına qədər hesab edilməlidir.1

Bir neçə şəri suala cavab:

Sual: İnformasiya vasitələri şəri vaxtlarını bir gün əvvəldən elan edirlər. Bunlara etimad etmək, azanın radio və televiziyadan efirə buraxılmasından sonra vaxtın daxil olduğunu qəbul etmək olarmı?

Cavab: Əsas mükəlləf üçün vaxtın daxil olmasına dair arxayınçılığın hasil olmasıdır.2

Sual: Namazın vaxtı azanın başlanması ilə başlayırmı? Yoxsa azanın qurtarmasını gözləmək, sonra namaza başlamaq lazımdır? Həmçinin oruc tutan şəxsin azanın başlanması ilə eyni zamanda iftarını açması caizdirmi, yoxsa azanın qurtarmasını gözləməlidir?

Cavab: Əgər məlum olsa ki, azan vaxtın daxil olması ilə eyni zamanda verilir, bu halda qurtarmasını gözləmək lazım deyildir.3

Sual: Günəş şüaları təqribən 7 dəqiqə müddətində yerə gəlib çatır. Sübh namazının axır vaxtında günəşin çıxması əsas götürülür, yoxsa şüanın yerə çatması?

Cavab: Əsas günəşin çıxması, namaz qılanın olduğu yerdə görünməsidir.4

---

* Sistani: Üzrü olmayan şəxs üçün işa namazının vaxtı gecə yarıya qədərdir və gecə qürubun əvvəlindən sübh açılana qədər hesab olunur.T., məs.747

1 Lənkərani. T.m, məs.739

2 Xamenei. "Əcvibətül istiftaat", sual 373

3 Xamenei. "Əcvibətül istiftaat", sual 374

4 Xamenei. "Əcvibətül istiftaat", sual 372

[?] Suallar———————————————————

1- Vacib namaz neçə növdür və hansılardır?

2- İşa namazının məxsus və müştərək vaxtlarını deyin.

3- Hansı halda işa namazını məğrib namazından əvvəl qılsan, namaz düzgündür?

4- Əgər insan namaz əsnasında namazın vaxtının indi daxil olduğunu başa düşsə, namazın hökmü nədir?

5- Gecə yarısını necə təyin etmək olar?

# 21-CI DƏRS

## Qiblə

قَدْ نَرَى تَقَلُّبَ وَجْهِكَ فِي السَّمَاءِ فَلَنُوَلِّيَنَّكَ قِبْلَةً تَرْضَاهَا فَوَلِّ وَجْهَكَ شَطْرَ
الْمَسْجِدِ الْحَرَامِ وَحَيْثُ مَا كُنْتُمْ فَوَلُّوا وُجُوهَكُمْ شَطْرَهُ وَإِنَّ الَّذِينَ أُوتُوا الْكِتَابَ
لَيَعْلَمُونَ أَنَّهُ الْحَقُّ مِنْ رَبِّهِمْ وَمَا اللَّهُ بِغَافِلٍ عَمَّا يَعْمَلُونَ

"Biz sənin üzünün göyə tərəf çevrildiyini görürük, ona görə də səni razı olduğun qibləyə tərəf döndərəcəyik. Indi üzünü Məscidül-Hərama tərəf çevir! Harada olsanız üzünüzü oraya döndərin! Kitab verilmiş kəslər bunun öz Rəbbi tərəfindən bir həqiqət olduğunu yaxşı bilirlər. Allah onların əməllərindən xəbərsiz deyil."

(Bəqərə surəsi, ayə 144)

1– Kəbə evi müsəlmanların qibləsidir. Namaz qılan şəxs üzü qibləyə namaz qılmalıdır. Həmçinin meyyiti dəfn edərkən və heyvanın başını kəsərkən üzü qibləyə olmalıdır.1

2– Məkkə şəhərindən uzaqda yaşayan şəxslər üzü qibləyə elə dayanmalıdırlar ki, başqaları ona baxarkən "üzü qibləyə durub" – desinlər.1

Üzü qibləyə dayanma*

| Üzü qibləyə dayanma | |
|---|---|
| **ayaq üstə namaz qılan:** | Elə dayanmalıdır ki,* "üzü qibləyədir" – desinlər. Amma dizlərinin və ayaqlarının ucunun üzü qibləyə olması lazım deyil.[1] |
| **oturan yerdə namaz qılan:**** | Adi qaydada otura bilmirsə və oturanda ayaqlarının altını yerə qoyursa, gərək namaz qılan halda üzü, sinəsi, qarnı üzü qibləyə olsun. Baldırlarının qibləyə olması lazım deyil.[2] |
| **uzanan yerdə namaz qılan:**[3] | 1. Sağ böyrü üstə elə uzanmalıdır ki, bədəninin qabaq tərəfi üzü qibləyə olsun.<br>2. Əgər bu da mümkün olmasa sol böyrü üstə elə uzanmalıdır ki, bədəninin qabaq tərəfi üzü qibləyə olsun.***<br>3. Bu da mümkün olmasa, arxası üstə elə uzanmalıdır ki, ayaqlarının altı qibləyə tərəf olsun. |

---

[1] Sistani. T.m, məs.784; Lənkərani. T.m, məs.776

*Sistani: Sinəsi və qarnı üzü qibləyə doğru olmalıdır. Hətta üzünün də qiblədən çox dönməməsi gərəkdir. Ayaq barmaqlarının da qibləyə tərəf olması ehtiyati-müstəhəbdir. T.m, məs.785

[1] Lənkərani. T.m, məs.777

** Sistani: Sinəsi və qarnı qibləyə tərəf olmalı və hətta üzü də qiblədən çox dönməməlidir. T.m, məs.786

[2] Lənkərani. T.m, məs.778

[3] Sistani. T.m, məs.787; Lənkərani. T.m, məs.779

***Sistani: ...Ehtiyati-lazıma əsasən sağ böyrü üstə uzanması mümkün olduğu təqdirdə, sol böyrü üstə uzanmamalıdır...

### *QIBLƏNI TƏYIN ETMƏYIN YOLLARI*[1] *

1- İnsan özü yəqin etsin, yəni qiblənin tərəfini bilsin;

2- İki adil şəxsin hissi nişanələr üzündən verdiyi şəhadətə əsasən;

3- Elmi qayda vasitəsilə qibləni tanıyan və sözündən xatircəmlik hasil olan şəxsin sözünə əsasən;*

4- Əgər bunlar mümkün olmasa, məscidin mehrabı, müsəlmanların qəbrləri və s. yollarla hasil olan gümana əsasən.

### *QIBLƏNI BILMƏYƏN ŞƏXSIN VƏZIFƏSI.*

1- Əgər insan çalışmasına baxmayaraq qibləni təyin edə bilməsə, hansı tərəfi güman etsə ki, qiblədir, həmin tərəfə də namazını qılmalıdır. Amma heç bir tərəfə güman etməsə,** bu halda namazın vaxtı çoxdursa, dörd tərəfə namaz qılmalıdır; əgər dörd tərəfə namaz qılmağa vaxtı çatmırsa, vaxtın çatacağı tərəflərə namaz qılmalıdır. Məsələn: əgər təkcə bir tərəfə namaz qılmaq qədər vaxt varsa, təkcə bir tərəfə namaz qılınmalıdır.2

2- Bir neçə tərəfə namaz qılmalı olan şəxs, əgər zöhr və əsr, yaxud məğrib və işa namazını qılmaq istəsə, yaxşı olar ki,*** birinci namazı vacib olan hər tərəfə qılıb sonra ikinci namazı başlasın.3

### *NAMAZ QILANIN PALTARI*

Namazda örtünmənin miqdarı: 4*5

---

[1] Sistani. T.m, məs.790; Lənkərani. T.m, məs.782

*Ayətullah Üzma Sistaninin risaləsində bu hissə yoxdur

** Sistani: Bir tərəfə namaz qılsa, kifayətdir. Amma ehtiyati müstəhəb budur ki, əgər namazın vaxtı çoxdursa, dörd tərəfə namaz qılmalıdır.

[2] Sistani. T.m, məs.792; Lənkərani. T.m, məs.786

*** Sistani: ... ehtiyati müstəhəbə əsasən...

[3] Sistani. T.m, məs.794; Lənkərani. T.m, məs.788

[4] Sistani. T.m, məs.796; Lənkərani. T.m, məs.793

*Sistani: Ehtiyati-vacibə əsasən qadın namaz halında özünü özündən də örtməlidir. Məsələn: əgər çadranı özü öz bədənini görəcək şəkildə başına salsa, işkallıdır. Ehtiyati-müstəhəb budur ki, ayaqların altını da örtsün. T.m, məs.797

[5] Sistani. T.m, məs.797; Lənkərani. T.m, məs.794

**Namazda örtünmənin miqdarı**

– **Kişi**: Namaz halında hətta əgər bir kəs onu görmürsə də övrəteynini örtməlidir. Daha yaxşı olar ki, göbəkdən dizlərə qədər də örtsün.[1]

– **Qadın**: Namaz halında aşağıda deyilənlərdən başqa bütün bədənini örtməlidir:*

- Biləyə qədər əllər;
- Topuğa qədər ayaqlar;
- Üzün dəstəmazda yuyulan miqdarı

Amma vacib miqdarın örtünməsinə əmin olmaq üçün üzün ətrafı və biləkdən bir az aşağı hissə də örtülməlidir.[2]

### *Namaz qılanın paltarının şərtləri1 ***

1- Pak olsun;
2-Ehtiyati vacibə görə mübah olsun (qəsbi olmasın);
3- Paltarının hissələri murdardan olmasın;
4- Əti haram olan heyvanlardan olmasın;**
5 – 6- Əgər namaz qılan kişidirsə, paltarı xalis ipəkdən və ya qızıldan toxunmuş olmasın.

### *Namaz qılanın paltarının hökmləri*

1- Namaz qılan şəxsin paltarı, ehtiyati vacibə görə mübah olmalıdır.
* Qəsbi paltarı geyməyin haram olmasını bilən bir kəs qəsdən qəsbi paltarda namaz qılsa, ehtiyati vacibə görə namazı batildir.2

2- Əgər zəkat və ya xumsu verilməmiş** pulun eyni ilə paltar alınsa, bu paltar qəsb hökmündədir.3

3- Əgər murdar olmuş əti halal heyvanın ruhu olmayan hissələri (tükü, yunu və s.) namaz qılanın üstündə olsa, yaxud onlardan hazırlanmış paltarda namaz qılsa, namazı səhihdir.4

4- Əgər paltarının əti halal olan, yaxud haram olan heyvandan hazırlanmasında şəkk etsə, istər Islam ölkəsində istehsal olunanlardan

---

[3] Sistani. T.m, məs.806; Lənkərani. T.m, məs.804

**Sistani: Yırtıcı heyvandan olmasın, ehtiyati vacibə görə əti haram olan heyvandan da olmasın. T.m, məs.806

* Sistani: Namaz qılan şəxsin övrəteynini örtən paltar ehtiyati vacibə görə mübah olmalıdır.

[2] Sistani. T.m, məs.823; Lənkərani. T.m, məs.821

**Sistani: Əgər xumsu verilməmiş ...

[3] Sistani. T.m, məs.828; Lənkərani. T.m, məs.827

[4] Sistani. T.m, məs.831; Lənkərani. T.m, məs.830

olsun, istərsə də qeyri-islami ölkədə, onunla namaz qılmağın maneəsi yoxdur.1

5- Qızıldan toxunmuş paltar geymək kişilərə haramdır və onunla namaz qılsalar batildir. Amma qadınlar üçün namaz və s. hallarda eybi yoxdur.2

6- Qızıl zinətlərdən istifadə etmək (məsələn: ələ qızıl üzük, saat taxmaq) kişilər üçün haramdır və onlarla namaz qılmaq batildir.3

7- Əgər bir kişi üzük və ya paltarının qızıldan hazırlandığını bilməsə, onunla namaz qılsa, namazı səhihdir.4

***BƏDƏN VƏ PALTARIN PAK OLMASININ HÖKMLƏRİ***

| Bədən və paltar məsələlərinin izahı | |
|---|---|
| 1- Əgər bir şəxs qəsdən* nəcis paltar və ya bədənlə namaz qılsa | Namaz batildir5 |
| 2- Nəcis paltar və nəcis bədənlə qılınan namazın batil olmasını bilməyən bir kəs nəcis paltar və nəcis bədənlə namaz qılsa** | Namaz batildir6 |
| 3- Əgər nəcis şeyin nəcis olmasını; məsələn: kafirin tərinin nəcis olmasını bilməsə, bu tərin dəydiyi bədən, yaxud paltarla namaz qılsa*** | Namaz batildir7 |
| 4- Əgər paltar və ya bədənin nəcis olmasını unutsa və namaz əsnasında, yaxud ondan sonra yadına düşsə**** | Namaz batildir8 |
| 5- Əgər namazdan əvvəl bədən və ya paltarının nəcis olmasını bilməyib namazdan sonra nəcis olduğunu anlasa***** | Namaz səhihdir9 |
| 6- Öz paltar və ya bədəninin pak olmasında şəkk edən bir kəs****** namazdan sonra bədən və ya paltarının nəcis olmasını başa düşsə, | Namaz səhihdir 10 |

---

[1] Sistani. T.m, məs.835; Lənkərani. T.m, məs.834

[2] Sistani. T.m, məs.839; Lənkərani. T.m, məs.839

[3] Sistani. T.m, məs.840; Lənkərani. T.m, məs.840

[4] Sistani. T.m, məs.841; Lənkərani. T.m, məs.841

* Sistani: ... ixtiyari olaraq...

[5] Sistani. T.m, məs.807; Lənkərani. T.m, məs.805

** Sistani: ... və onun bilməməsi şəri məsələləri öyrənməkdə səhlənkarlıq göstərməsi üzündən olsa, ehtiyati vacibə görə namazı yenidən qılmalıdır. T.m, məs.808

[6] Lənkərani. T.m, məs.806

*** Sistani: ... belə ki, səhlənkarlıq göstərdiyinə görə bu məsələləri bilməsə, ehtiyati vacibə görə bu namazı yenidən qılmalıdır. T.m, məs.807

[7] Lənkərani. T.m, məs.807

****Sistani: ... belə ki, onun unutmağı etinasızlıq və səhlənkarlıq etdiyinə görə olubsa, ehtiyati vacibə görə namazı yenidən qılmalıdır. T.m, məs.811

[8] Lənkərani. T.m, məs.809

*****Sistani: ... nəcis olmadığına əmin olub namazdan sonra nəcis olduğunu anlayarsa, namazı düzgündür. T.m, məs.810

[9] Lənkərani. T.m, məs.808

****** Sistani: ...axtarış aparıb bir şey tapa bilməsə...

[10] Sistani. T.m, məs.815; Lənkərani. T.m, məs.813

1 •

| | |
|---|---|
| ***Üç halda namaz qılanın paltar və ya bədəni nəcis olsa, namazı səhihdir***[1] | 1- Bədənində olan yara, ya çiban vasitəsilə paltarı və ya bədə-ni qana bulaşarsa;<br><br>2- Bədən və ya paltar bir dirhəmdən• az qana bulaşmış olarsa;<br><br>3- Nəcis paltar və ya bədənlə namaz qılmağa məcbur olarsa. |

Bir neçə məsələ:

1– Əgər bədən, yaxud paltar qanlı olmasa, amma qana dəymək səbəbilə nəcis olsa, hətta nəcis olan miqdar dirhəmdən az olsa da onunla namaz qılmaq olmaz.22

2– Əgər heyz qanı iynənin ucu qədər namaz qılanın bədən və ya paltarında olsa, onun namazı batildir. Ehtiyati vacibə görə istihazə və nifas qanı da namaz qılanın bədən və ya paltarında olmamalıdır. Amma başqa qanlar (insanın və yaxud əti halal olan heyvanın qanı) paltarın və ya bədənin bir neçə yerində olub, üst-üstə dirhəmdən az olsa, onunla namaz qılmağın eybi yoxdur.33

*ÜMUMI QANUN*

| |
|---|
| Bədən və paltarın pak olması meyyit namazından başqa, bütün namazlarda şərtdir. |

Bir neçə şəri suala cavab.

Sual: Qiblə göstərənə güvənmək olarmı?

Cavab: Mükəlləf üçün qiblənin cəhəti barədə yəqinlik hasil olsa, qiblə göstərənə, şaxisə güvənmək düzdür və ona uyğun olaraq əməl etmək vacibdir. Əks təqdirdə qiblənin tərəfini təyin etmək üçün

---

[1] Sistani. T.m, məs.856; Lənkərani. T.m, məs.860

• Dirhəm – təqribən şəhadət barmağının ucu qədərdir.

[2] Sistani. T.m, məs.867; Lənkərani. T.m, məs.871

[3] Sistani. T.m, məs.863; Lənkərani. T.m, məs.867

məscidlərin mehrablarına, yaxud müsəlmanların qəbirlərinə güvənməyin heç bir eybi yoxdur1.

Sual: Nəcis olduğuna dair şübhələndiyim paltarda qıldığım namazlar batildirmi?

Cavab: Nəcis olub-olmamasına şübhə edilən paltar pak hökmündədir və o paltarla qılınan namazlar da düzdür2.

Sual: Almaniyadan dəri qayış almışam. Onunla namaz qılmağın şəri cəhətdən eybi varmı? O qayışın təbii,yaxud süni dəridən, həmçinin şəri üsullarla kəsilmiş heyvan dərisindən olub-olmamasında şəkk edirəm. O qayışla qıldığım namazın hökmü nədir?

Cavab: Əgər qayışın təbii, yaxud süni olmasında şəkk edirsənsə, bu halda onunla namaz qılmağının heç bir eybi yoxdur. Amma əgər təbii dəridən olduğunu yəqin etdikdən sonra şəriət yolu ilə kəsilmiş heyvan dərisindən olub-olmamasında şəkk etsən, meytə hökmündədir, amma keçmişdə onunla qıldığın namazlar düzdür3.

Sual: Içərisində spirt olan ətirlə ətirlənən paltarla namaz qılmaq düzdürmü?

Cavab: Nə qədər ki, o ətirin nəcis olması məlum deyil, namaz qılmağın eybi yoxdur4.

Sual: Namaz qılanın paltarında pişiyin tükü, yaxud ağzının suyu olsa, namaz batil olarmı?

Cavab: Bəli, bu namazın batil olmasına səbəb olar5.

[?] Suallar

1- Namaz qılanın paltarının şərtləri hansılardır?

2- Əgər bir şəxs namazdan sonra paltarının nəcis olduğunu başa düşsə, onun namazının hökmü necədir?

3- Hansı halda namaz qılan paltarının nəcis olduğunu bildiyi halda həmin paltarla namaz qıla bilər?

4- Murdar olmuş heyvanın yunundan hazırlanmış paltarla namaz qılmağın hökmü necədir?

5- Əgər insan paltarın əti halal və ya haram heyvandan hazırlandığını bilməsə, həmin paltar ilə namaz qıla bilərmi?

1 Xamenei. "Əcvibətül istiftaat", sual 376
2 Xamenei. "Əcvibətül istiftaat", sual 438
3 Xamenei. "Əcvibətül istiftaat", sual 439
4 Xamenei. "Əcvibətül istiftaat", sual 446
5 Xamenei. "Əcvibətül istiftaat", sual 451

# 22-CI DƏRS

## NAMAZ QILANIN MƏKANI

***Namaz qılanın məkanının şərtləri***

1- Mübah olsun (qəsbi olmasın);

2-. Hərəkətsiz olsun;

3- Namazın vacibatını yerinə yetirmək olsun;

4- Namaz qılanın yeri nəcis olmasın;

5- Namaz qılanın alnının yeri dizlərindən dörd bağlı barmaq qədər uca, yaxud alçaq olmasın.

### *NAMAZ QILANIN MƏKANININ HÖKMLƏRI:*

1–Namaz qılanın məkanının şərtlərindən biri namaz qıldığı yerin mübah olmasıdır. Beləliklə aşağıdakı hallarda namaz batildir:

❋ Sahibinin icazəsi olmayan mülkdə namaz qılınsa, namaz* batildir.1

❋ Mənfəəti başqasına məxsus olan yerdə, mənfəət sahibinin icazəsi olmadan qılınan namaz batildir. Məsələn: icarə olunmuş evdə ev sahibi, yaxud başqa bir şəxs namaz qılmaq istəsə, (icarə edən şəxs icazə verməsə) namaz** batildir.2

❋ Şərikli olan mülkdə şərikin payı ayrılmayıbsa onun icazəsi olmadan həmin mülkdə namaz qılmaq olmaz.3***

❋ Xumsu verilməmiş pulun eynilə alınan mülkdə qılınan namaz* batildir.4

2– Əgər qəsbi olmasını bilmədiyi yerdə namaz qılıb namazdan sonra başa düşsə, yaxud qəsbi olduğunu unutsa və namazdan sonra yadına düşsə, namazı səhihdir.5

3– Əgər mülkün sahibi dildə namaz qılmaq icazəsi versə və insan onun qəlbən razı olmadığını bilsə, o mülkdə namaz qılmaq batildir;**

---

*Sistani: ... ehtiyati vacibə əsasən batildir.

1 Sistani. T.m, məs.875; Lənkərani. T.m, məs.878

** Sistani: ... ehtiyati vacibə əsasən batildir.

2 Sistani. T.m, məs.876; Lənkərani. T.m, məs.879

3 Sistani. T.m, məs.881; Lənkərani. T.m, məs.885

***Sistani: ... ehtiyati vacibə əsasən namaz batildir.

*Sistani: ... ehtiyati vacibə əsasən namaz batildir.

4 Sistani. T.m, məs.882; Lənkərani. T.m, məs.886

5 Sistani. T.m, məs.878; Lənkərani. T.m, məs.881

**Sistani: ... caiz deyil...

əgər icazə verməsə və insan onun qəlbən razı olduğunu bilsə, namazı səhihdir.1

4– Namaz qılanın məkanının şərtlərindən biri də yerin hərəkətsiz olmasıdır. Beləliklə də təyyarə, gəmi, qatar, avtomobil və bu kimi şeylər hərəkət halında olarsa, orada qılınan namaz düzgün deyil. Amma çarəsizlik halında orada namaz qılmağa məcbur olarsa (məsələn: əgər namazı təxirə salıb onların dayanmağını gözləsə, namaz qəza olarsa) gərək hərəkətli halda namaz qılsın. Amma bu nəqliyyat vasitələri qiblədən başqa tərəfə hərəkət etsələr, namaz qılan qibləyə tərəf dönməlidir və mümkün olduğu qədər namazın qaydalarına riayət etməlidir.2

5– Tavanı alçaq olan və düz dayanmaq mümkün olmayan yerlərdə, yaxud rüku və səcdə üçün yer olmayan kiçik məkanlarda namaz qılmaq olmaz.3

6– Namaz qılanın yeri nəcis olarsa, o qədər yaş olmamalıdır ki, onun rütubəti bədəninə, yaxud paltarına keçsin. Amma alının qoyulduğu yer hətta quru olsa belə namazı batil edər. Ehtiyati müstəhəb budur ki, namaz qılanın yeri ümumiyyətlə nəcis olmasın.4

7– Namaz qılanın alnının yeri dizlərindən dörd bağlı barmaq qədər uca, yaxud alçaq olmamalıdır.**Ehtiyati vacibə əsasən alının yeri ayaq barmaqlarının ucundan da dörd bağlı barmaq qədər uca, yaxud alçaq olmamalıdır.5

8– Namazda qadın kişidən***arxada dayanmalıdır.6

9– Əgər qadınla kişi arasında divar, pərdə, yaxud bir-birini görmədikləri hər hansı bir şey, yaxud aralarında on zira (təqribən 5 metr) fasilə olsa, namazları səhihdir.7

### *MƏSCIDIN HÖKMLƏRI*

Müqəddəs Islam şəriətində namazın məsciddə qılınmasına çoxlu tövsiyələr olunmuşdur. Namaz üçün məscidlərin ən yaxşısı aşağıdakı tərtiblədir:

---

[1] Sistani. T.m, məs.883; Lənkərani. T.m, məs.887

[2] Sistani. T.m, məs.889; Lənkərani. T.m, məs.893

[3] Sistani. T.m,"Namaz qılanın məkanının 4-cü şərti"; Lənkərani. T.m, məs.897

[4] Sistani. T.m, "Namaz qılanın məkanının 5-ci şərti"; Lənkərani. T.m, məs.900

[*] Sistani: Namaz qılanın alnının yeri dizlərindən və ayaq barmaqlarının ucundan dörd bağlı barmaq qədər uca, yaxud alçaq olmasın. T.m, "Namaz qılanın məkanının 7-ci şərti"

[5] Lənkərani. T.m, məs.905

[**] Sistani : ...ehtiyati vacibə əsasən...

[6] Sistani. T.m, "Namaz qılanın məkanının 6-cı şərti"; Lənkərani. T.m, məs.901

[7] Sistani. T.m, məs.897; Lənkərani. T.m, məs.903

1– Məscidül – Həram;
2–Məscidül – Nəbi (Mədinədəki Peyğəmbərin (s) məscidi);
3– Kufə məscidi;
4– Beytül Müqəddəs məscidi;
5– Hər şəhərin came məscidi;
6– Məhəllə məscidi;
7– Bazar məscidi1

1– *Qadınlar üçün daha yaxşı olar ki, namazı evdə, öz xüsusi otaqlarında qılsınlar. Amma özlərini naməhrəmlərdən tam qoruya bilsələr, yaxşı olar ki, məsciddə namaz qılsınlar. Şəriət hökmlərini, islami məsələləri öyrənmək üçün məscidə getməkdən başqa bir yol yoxdursa, vacibdir ki, məscidə getsinlər.2

2– Imamların (ə) hərəmində namaz qılmaq müstəhəbdir.3

### *NAMAZ QILMAĞIN MƏKRUH OLDUĞU YERLƏR*

Bir neçə yerdə namaz qılmaq məkruhdur, o cümlədən:4

❋ Hamamda;
❋ Şoran (duzlu) torpaqda;
❋ Insanın qabağında;
❋ Açıq qapı ilə üzbəüz;
❋ Böyük yollarda;
❋ Küçə və xiyabanlarda (əgər oradan keçənlərə əziyyət verməsə; əgər əziyyət versə, haramdır);
❋ Odun və çırağın müqabilində;
❋ Mətbəxdə (ümumiyyətlə od yandırılan hər yerdə);
❋ Bövl edilən quyunun, çalaların müqabilində;
❋ Şəkillə üzbəüz;
❋ Ruhu olan şeylərin heykəlinin qarşısında (amma əgər onların üstünə pərdə çəksələr, eybi yoxdur);
❋ Cünub şəxsin olduğu otaqda;
❋ Şəkil olan otaqda (hətta əgər namaz qılanla üzbəüz olmasa da);
❋ Qəbrin müqabilində;
❋ Qəbrin üstündə;
❋ Iki qəbrin arasında;
❋ Qəbristanlıqda.

### *MƏSCIDIN HÖKMLƏRI*

1– Məscidin yerini, tavanını, damını, içəri tərəfdən divarını murdarlamaq haramdır. Hər kəs bunların nəcis olduğunu bilsə, dərhal nəcasəti aradan qaldırmalıdır.5

---

[1] Sistani. T.m, məs.902; Lənkərani. T.m, məs.910

[*] Sistani: Qadınların namazlarını istər məscid olsun və ya başqa bir yer, naməhrəmdən qorunmaq üçün daha uyğun olan bir məkanda qılmaları daha yaxşıdır. T.m, məs.903

[2] Lənkərani. T.m, məs.911

[3] Sistani. T.m, məs.904; Lənkərani. T.m, məs.912

[4] Sistani. T.m, məs.907; Lənkərani. T.m, məs.915

[5] Sistani. T.m, məs.909; Lənkərani. T.m, məs.917

2– Ehtiyati vacibə görə məscid qızılla zinətləndirilməməlidir.[1]

3– Əgər bir məscid xarab olsa da, onu satmaq, yaxud hər hansı bir mülkə qatmaq və üstündən yol salmaq olmaz.[2]

4– Məscidin qapı, pəncərə və s. kimi şeylərini satmaq haramdır.[3]

### *MƏSCIDDƏ AŞAĞIDAKI IŞLƏR MÜSTƏHƏBDIR*

❋ Məscidi təmizləmək;

❋ Məscidin işığını yandırmaq;

❋ Məscidə gedərkən ətirlənmək və ən yaxşı paltarı geyinmək;

❋ Məscidə daxil olanda əvvəl sağ ayaqla daxil olmaq çıxanda isə sol ayaqla çıxmaq;

❋ Hamıdan tez məscidə gedib, hamıdan gec məsciddən çıxmaq;[4]

❋ Məsciddə məscidə ehtiram (təhiyyət) niyyəti ilə iki rəkət namaz qılmaq.[5]

Məsciddə aşağıdakı işlər məkruhdur

❋ Məsciddə yatmaq (çarəsizlik halı istisnadır)

❋ Məsciddə səsi ucaltmaq (azan üçün səsi ucaltmağın eybi yoxdur.);

❋ Dünya işləri barəsində söhbət etmək;[6]

❋ Dəlini məscidə buraxmaq;[7]

❋ Namaz qılanlara əziyyət verəcəyi ehtimal olunan uşağı məscidə buraxmaq1

Bir neçə şəri suala cavab:

Sual: Namaz qıldığınız yer pak olmasa, yalnız səcdə yeri pak olsa, bu halda namazımız düzdürmü?

Cavab: Əgər o yerin nəcasəti paltara, yaxud bədənə keçəcək dərəcədə olmasa və səcdə yeri pak olsa, orada namaz qılmağın heç bir eybi yoxdur. [8]

Sual: Qadınların evdə qıldıqları namaz üstündür, yoxsa məsciddə qıldıqları namaz?

Cavab: Məsciddə qılınan namazın üstünlüyü təkcə kişilərə aid deyildir. [9]

Sual: Ümumi yollarda yeməkxanalar, onların yanlarında isə namaz qılmaq üçün yer vardır. Əgər bir şəxs o yeməkxanalarda yemək yeməsə, orada namaz qılması caizdirmi, yoxsa icazə almaq lazımdır?

Cavab: Əgər namazxananın yeməkxana sahibinin mülkü olduğu və onda namaz qılmaq həmin yeməkxanada yemək yeyənlər üçün nəzərdə tutulduğu ehtimal edilsə, namaz qılmaq üçün icazə almaq vacibdir. [10]

---

1 Sistani. T.m, məs.917; Lənkərani. T.m, məs.926
2 Sistani. T.m, məs.918; Lənkərani. T.m, məs.927
3 Sistani. T.m, məs.919; Lənkərani. T.m, məs.928
4 Sistani. T.m, məs.921; Lənkərani. T.m, məs.930
5 Sistani. T.m, məs.922; Lənkərani. T.m, məs.931
6 Sistani. T.m, məs.923; Lənkərani. T.m, məs.932
7 Sistani. T.m, məs.924; Lənkərani. T.m, məs.933
8 Xamenei. "Əcvibətül istiftaat", sual 389
9 Xamenei. "Əcvibətül istiftaat", sual 402
10 Xamenei. "Əcvibətül istiftaat", sual 394

Sual: Qəsb olunmuş yerdə namazı səccadənin, yaxud taxtın üzərində qılan şəxsin namazı batildirmi, yoxsa düzdür?
Cavab: Səccadənin, taxtın üstündə olsa da belə qəsb olunmuş yerdə qılınan namaz batildir. 1

[?] Suallar

1- Əgər ev sahibi evini icarəyə verdiyi şəxsin razılığı olmadığı halda orada namaz qılarsa, namazının hökmü necə olar?
2- Əgər ev sahibi başqalarından utanaraq dili ilə evində namaz qılmağa icazə versə, amma insan onun qəlbən razı olmadığını bilsə, namazın hökmü necədir?
3- Əgər insan namazın vaxtı keçməmiş təyyarənin yerə enəcəyini bilsə və bu halda təyyarədə namaz qılsa, namazının hökmü necə olar?
4- Nəcis xalçanın üzərində namaz qılmağın hökmü necədir?
5- Məscidin nəcis olduğunu bilən müsəlman şəxsin vəzifəsi nədir?

---

1 Xamenei. "Əcvibətül istiftaat", sual 395

# 23-CÜ DƏRS

## AZAN, IQAMƏ VƏ NAMAZIN VACIBATI

1– Müstəhəbdir ki, namaz qılan şəxs gündəlik namazlardan əvvəl azan və iqamə desin.[1]

2– Azan və iqamə namazın vaxtı daxil olandan sonra deyilməlidir.Əgər namazın vaxtından qabaq deyilsə, batildir.[2]

3– Iqamə azandan sonra deyilməlidir.[3]

4– Azan və iqamənin cümlələri arasında zaman fasiləsi çox olmamalıdır. Əgər onların arasında adi qaydadan artıq fasilə düşsə, yenidən demək lazımdır.[4]

5– Əgər hər hansı camaat namazı üçün azan və iqamə deyilmiş olsa, o camaatla birlikdə namaz qılan bir kəs öz namazı üçün azan və iqamə deməməlidir.[5]

6– Müstəhəbdir ki, azan demək üçün müəyyən olunan şəxs adil, vaxtı təyin edə bilən, səsi uca olsun.[6]

7– Müstəhəbdir ki, uşağın dünyaya gəldiyi ilk gündə, yaxud göbəyi düşməzdən əvvəl sağ qulağına azanı, sol qulağına isə iqaməni desinlər.[7]

*ÜMUMI QANUN*

Heç bir müstəhəb namazın azan və iqaməsi yoxdur.

### *NAMAZIN VACIBATI.*

1– Namaz "Allahu əkbər" (آللهُ اكْبَرُ) deməklə başlayır və salamlarla bitir.

2– Namazın işləri ya vacib, ya da müstəhəbdir.

3– Namazın vacibatı 11-dir. Onlardan bəzisi rükn, bəzisi isə qeyri-rükndür. [8]

---

[1] Sistani. T.m, məs.925; Lənkərani. T.m, məs.935
[2] Sistani. T.m, məs.944; Lənkərani. T.m, məs.954
[3] Sistani. T.m, məs.940; Lənkərani. T.m, məs.950
[4] Sistani. T.m, məs.929; Lənkərani. T.m, məs.939
[5] Sistani. T.m, məs.932; Lənkərani. T.m, məs.942
[6] Sistani. T.m, məs.950; Lənkərani. T.m, məs.960
[7] Sistani. T.m, məs.926; Lənkərani. T.m, məs.936
[8] Sistani. T.m, məs.951; Lənkərani. T.m, məs.964

- ***Namazın vacibatı***[1]
  - ***Rükn***
    1. Niyyət
    2. Qiyam
    3. Təkbirətül - ehram
    4. Rüku
    5. Səcdə
  - ***Qeyri rükn***
    1. Qiraət
    2. Zikr
    3. Təşəhhüd
    4. Salam
    5. Tərtib
    6. Müvalat

### *RÜKN VƏ QEYRI RÜKNÜN FƏRQI.*

Namazın vacibatından bəziləri rükndür. Yəni əgər insan onu yerinə yetirməsə,* istər qəsdən olsun, istərsə də səhvən namazı batil olur. Bəziləri isə rükn deyil. Yəni əgər qəsdən azaldılıb-artırılsa, namazı batil olur, amma səhvən azaldılıb-artırılsa, batil olmaz.1

---

* Lənkərani: ...yaxud namazda artırsa ...
Sistani: Əgər səhv üzündən rükunu, ya bir rəkətdə iki səcdəni artırsa, ehtiyati-lazıma əsasən namaz batil olur. Bundan başqa hallarda əgər artırılarsa, namaz batil olmaz.

## Niyyət1

**Niyyətin növləri**

- **Səhih**
  1- Namaz qılan şəxs namazı "qəsdi-qürbət" ilə qılmalıdır, yəni namazı Allahın fərmanını yerinə yetirmək qəsdi ilə qılmalıdır. Niyyəti dilə gətirmək və yaxud qəlbdən keçirtmək vacib deyil[1].
  2- İnsan namazın əvvəlindən axırına qədər öz niyyətində sabit qalmalıdır.[2]
- **Batil**
  1- Əgər insan namaz əsnasında niyyətdən qafil olsa, belə ki, "nə edirsən?"- deyə soruşsalar, nə deyəcəyini bilməsə, namazı batildir.[2]
  2- Əgər namazın növü müəyyənləşdirilməsə; məsələn: əgər zöhr və əsr namazında "dörd rəkət namaz qılıram" deyə niyyət etsə, amma onların hansını qıldığını müəyyənləşdirməsə, namazı batildir.[3]
  3- Əgər bir şəxs riya etsə, namazı batildir:[4]
  - istər təkcə camaata göstərmək üçün olsun;
  - istər həm Allah üçün, həm də camaata göstərmək üçün olsun;
  - istər namazın hamısını Allaha xatir qılsın, amma camaata göstərmək üçün məxsus yerlərdə (məscid kimi) və ya məxsus vaxtlarda (məsələn: namazın əvvəl vaxtında), yaxud məxsus tərzdə (məsələn: camaatla) qılsın.

---

1 Sistani T.m, məs.952; Lənkərani. T.m, məs.965
2 Sistani. T.m, məs.954; Lənkərani. T.m, məs.967
3 Sistani. T.m, məs.953; Lənkərani. T.m, məs.966
4 Sistani. T.m, məs.955-956; Lənkərani. T.m, məs.968-969

## *Təkbirətül - ehram*

Hər namazın əvvəlində "Allahu əkbər" demək vacib və rükndür. Bu "Allahu əkbər"ə "təkbirətül ehram" deyilir və bununla da namaz başlanır. 1 * 2 **3

***Təkbirətül ehramın səhih olma şərtləri***

1- "Allah" və "əkbər" kəlməsinin hərfləri və bu kəlmələr özləri "Allah" və "əkbər" kəlmələri ardıcıl deyilməlidir.[1]

Təkbirətül ehramın səhih olma

2- Ərəb dilində səhih deyilməlidir.[1]

3- Ehtiyati vacibə əsasən* namazın "təkbirətül-ehramı" ondan əvvəl deyilən hissələrə (məsələn: iqaməyə) birləşdirilməsin.[2]

dan əvvəl deyilən hissələrə

4- **Təkbirətül ehram deyilən vaxt bədən aram olmalıdır.[3]

5- Namaz qılan şəxs təkbirətül ehramı elə deməlidir ki, əgər arada maneə olmasa, özü eşidə bilsin (yəni çox asta deməsin) [4]

> Namazın birinci təkbirini, habelə namaz əsnasındakı sair təkbirləri deyərkən əlləri qulaqların yuxarısına qədər qaldırmaq müstəhəbdir.54

## *Qiyam*

Namazda qiyam deyildikdə namaz halında ayaq üstə dayanmaq nəzərdə tutulur. Qiyam namazın bəzi yerlərində rükndür, onu tərk etmək

---

[1] Sistani. T.m, məs.957; Lənkərani. T.m, məs.970
* Sistani: Ehtiyati müstəhəbə əsasən ...
[2] Lənkərani. T.m, məs.971; Sistani. T.m, məs.958
**Sistani: Vacib namazda ...
[3] Sistani. T.m, məs.960; Lənkərani. T.m, məs.973
[4] Sistani. T.m, məs.961; Lənkərani. T.m, məs.974
[5] Sistani. T.m, məs.964; Lənkərani. T.m, məs.977

namazı batil edər. Namazın bəzi yerlərində isə rükn deyil.1 2 * ** 3 4

***Qiyamın vacibatı***

1- Namaz qılan şəxsin təkbir deyən zaman bədənin aram olduğuna əmin olması üçün təkbiri deməzdən əvvəl və sonra bir az dayanması vacibdir.[1]

2- Namaz qılan şəxs ayaq üstə olarkən bədəni hərəkət etdirməməlidir.[2]

3- Hər hansı bir tərəfə əyilməməlidir.[2] əyilməməlidir.[2]

4- [*]Bir şeyə söykənməməlidir.[2]

5- Ayaq üstə olarkən hər iki ayağın yerdə olması vacibdir.[**3]

6- İki ayaq arasındakı fasilə çox olmasın.[4] olmasın.[4]

– Düz dayana bilən bir kəs ayaqlarını çox aralı qoysa*** və adi ayaq üstə durmaq halında olmasa, namazı batildir.4

Qiyamın hökmləri

1– Namaz vaxtında insan azacıq dala və ya qabağa getmək istəsə, yaxud bədənini sağa-sola hərəkət etdirsə, bu halda (hərəkət halında) heç nə deməməlidir.5

2– Həmd oxuyan zaman əli və barmaqları hərəkət etdirməyin eybi yoxdur. Amma ehtiyati müstəhəbə əsasən, onları da hərəkət etdirməməlidir.6

3– Insan nə qədər ki, otura bilir uzandığı yerdə namaz qılmamalıdır. Əgər düz otura bilmirsə, onda necə otura bilsə, elə də oturmalıdır. Ümumiyyətlə, heç cür otura bilmirsə, qiblənin hökmündə deyildiyi kimi uzanan halda namaz qılsın.7

Bir neçə şəri suala cavab:

Sual: Məscidlərdə və digər mərkəzlərdə sübh azanından əvvəl Quran tilavətini, azandan sonra isə duanı uca səslə səsləndirmək (belə ki, bir neçə km məsafəyə gedib çatsa) caizdirmi?

---

[1] Sistani. T.m, məs.968; Lənkərani. T.m, məs.981

[2] Sistani. T.m, məs.970; Lənkərani. T.m, məs.983

[*]Sistani: Ehtiyata əsasən ...

[**] Sistani: ... ehtiyati vacibdir.

[3] Sistani. T.m, məs.972; Lənkərani. T.m, məs.985

[4] Sistani. T.m, məs.973; Lənkərani. T.m, məs.986

[***] Sistani: ... belə ki, ayaq üstə dayanmaq hesab olunmasa, namaz batildir. Həmçinin ehtiyati lazıma əsasən ayaqlarını çox aralı qoyarsa və adi ayaq üstə durmaq halında olmasa, namaz batildir.

[5] Sistani. T.m, məs.974; Lənkərani. T.m, məs.987

[6] Sistani. T.m, məs.976; Lənkərani. T.m, məs.989

[7] Sistani. T.m, məs.980; Lənkərani. T.m, məs.993

Cavab: Sübh azanının vaxtının daxil olmasını mikrofonla elan etmək üçün adi, normal qaydada azan verməyin heç bir eybi yoxdur, lakin Quran ayələrinin, duanın və s. hər hansı bir vaxtda məsciddən mikrofonla səsləndirilməsi qonşuların əziyyətə düşməsinə səbəb olarsa, şəri cəhətdən yaxşı deyil, düzgün də sayılmır. Və əsas etibarı ilə Quran və dua səsləndirməklə başqalarına əziyyət etmək düzgün deyildir. 1

Sual: Kişi öz namazında qadının verdiyi azanla kifayətlənə bilərmi?

Cavab: Əgər kişi qadının dediyi azanın bütün hissələrini eşitsə, onunla kifayətlənə bilər. 2

[?] Suallar

1- Rükn və qeyri-rüknün fərqi nədir?

2- Azan və iqamənin fərqini deyin.

3-. Aşağıdakıların rükn, ya qeyri-rükn olduğunu təyin edin:

Həmd Surə, birinci rəkətin birinci səcdəsi, axırıncı rəkətin rükusu, salam, təkbirətül ehram, muvalat, səcdələr.

4- Əgər bir şəxs namazın niyyətini dilinə gətirsə, namazı batil olarmı?

5- Əgər zöhr və yaxud əsr namazında dörd rəkətli namazı qılmağı niyyət etsə, amma hansı namaz olduğunu müəyyən etməsə, namazın hökmü necədir?

---

[1]Xamenei. "Əcvibətül istiftaat", sual 465

[2]Xamenei. "Əcvibətül istiftaat", sual 466

# 24-CÜ DƏRS

## *Qiraət*

1– Gündəlik vacibi namazların birinci və ikinci rəkətində əvvəlcə Həmd, sonra isə bir Surə bütöv* oxunmalıdır.1

2– Namazın üçüncü və dördüncü rəkətlərində ya təkcə Həmd deyilməlidir, ya da üç dəfə təsbihati-ərbəə deyilməlidir.

سُبحَانَ اللهِ وَالحَمدُللهِ وَ لاَ الَهَ الاّاللهُ وَاللهُ اَكبَر

Ehtiyati vacibə əsasən təsbihati-ərbəə üç dəfə deyilməlidir**. Həmçinin bir rəkətdə Həmdi, o biri rəkətdə isə təsbihatı demək olar. Hər iki rəkətdə təsbihat demək daha yaxşı olar.2

3– Əgər qəsdən Surə Həmddən qabaq oxunsa, namazı batildir. Əgər səhvən Həmddən qabaq oxunsa və Surə oxuyanda yadına düşsə, onu yarımçıq kəsib Həmdi oxuduqdan sonra yenidən Surəni oxumalıdır.3

4– Əgər Həmdi və Surəni, yaxud onlardan birini unutsa və rükuda yadına düşsə, namazı səhihdir.4

5– Əgər insan müəyyən qədər əyilibsə, amma rükuya çatmamışdan qabaq Həmd və Surəni və yaxud onlardan birini demədiyini bilsə, yenidən qalxıb deməlidir.5

6– Əgər Həmddən sonra "Qul huvəllah", yaxud "Qul ya əyyuhəl kafirun" surəsini oxumağa başlasa, onu kəsib başqa surə oxuya bilməz.6

7– Əgər namazda "Qul huvəllah", yaxud "Qul ya əyyuhəl kafirun" Surəsindən savayı başqa surə oxusa, yarıya çatmamışdan onu kəsib ayrı bir Surə oxuya bilər.7

8– Əgər bir kəs Həmd və Surənin kəlmələrindən birini bilməsə, yaxud onu qəsdən deməsə və ya bir hərfin yerinə başqa hərf desə (məsələn: "zad" hərfinin yerinə "za" desə), yaxud fəthə və kəsrə ilə oxunmamalı yerdə fəthə və kəsrə desə, yaxud da təşdidini deməsə, namazı batildir.8

9– Kişi və qadının namazın üçüncü və dördüncü rəkətlərində Həmdi, yaxud təsbihati-ərbəəni asta oxumaları vacibdir.*1

---

* Sistani: ... ehtiyati vacibə əsasən bir Surə bütöv oxunmalıdır.

1 Lənkərani. T.m, məs.999
Sistani. T.m, məs.987

**Sistani: Namazın üçüncü və dördüncü rəkətlərində ya təkcə Həmd deyilməlidir, ya da bir dəfə təsbihati-ərbəə deyilməlidir. Yaxşı olar ki, təsbihati-ərbəə üç dəfə deyilsin ...

2 Sistani. T.m, məs.1014; Lənkərani. T.m, məs.1026

3 Sistani. T.m, məs.989; Lənkərani. T.m, məs.1001

4 Sistani. T.m, məs.990; Lənkərani. T.m, məs.1002

5 Sistani. T.m, məs.991; Lənkərani. T.m, məs.1003

6 Sistani. T.m, məs.997; Lənkərani. T.m, məs.1009

7 Sistani. T.m, məs.999; Lənkərani. T.m, məs.1011

8 Sistani. T.m, məs.1009; Lənkərani. T.m, məs.1021

*Sistani: Kişi və qadın vacib ehtiyata əsasən ...

Namazın birinci və ikinci rəkətində Həmd və Surənin oxunma hökmü aşağıdakı cədvəldə göstərilmişdir.

| Namaz | Namaz qılan | Hökm |
|---|---|---|
| Zöhr və əsr | Kişi və qadın | Astadan oxumalıdır**2 |
| Sübh, işa, məğrib | Kişi | Ucadan oxumalıdır**5 |
| | Qadın | Əgər naməhrəm onun səsini eşitməsə, həm ucadan, həm də astadan oxuya bilər, amma əgər naməhrəm onun səsini eşitsə,*** ehtiyati-vacibə görə, astadan oxumalıdır.3 |

1– Əgər namazı ucadan qılmalı olduğu yerdə qəsdən asta və ya asta qılmalı olduğu yerdə qəsdən ucadan qılsa* namazı batildir. Amma unutqanlıq, yaxud məsələni bilməməzlik üzündən olsa, səhihdir.4

2– Əgər Hamd və Surəni oxuduğu vaxt səhv etdiyini başa düşsə (məsələn:ucadan oxunması lazım olan yerdə astadan oxusa), oxuduğu miqdarı yenidən oxuması lazım deyil.1

3– Vaxtın az olduğu hallarda təsbihatı bir dəfə demək lazımdır.5

### *Həmd və Surə ilə Təsbihati-Ərbəənin Yerini Dəyişmək*

1– Birinci və ikinci rəkətdə axırıncı iki rəkət olduğu güman edilsə və Həmdin yerinə təsbihati-ərbəə oxunsa,

Əgər rükudan əvvəl yadına düşsə, Həmd və Surəni oxumalıdır.

Əgər rükuda yadına düşsə, namazı səhihdir.6

2– Üçüncü, yaxud dördüncü rəkətdə birinci, yaxud ikinci rəkət olduğunu güman edərək Həmdi oxusa, istər rükudan əvvəl, istərsə də rükudan sonra yadına düşsə, namazı səhihdir.7

3– Əgər üçüncü və ya dördüncü rəkətin rükusunda, yaxud rükuya gedən halda Həmd, yaxud təsbihatı oxuyub-oxumamasında şəkk etsə, öz şəkkinə etina etməməlidir.8

---

[1] Sistani. T.m, məs.1016; Lənkərani. T.m, məs.1028

[**] Sistani: vacib ehtiyata əsasən ...

[2] Sistani. T.m, məs.1001; Lənkərani. T.m, məs.1013

[***] Sistani: ... səsi naməhrəmə çatdırmağın haram olduğu hallardan biri olarsa, astadan oxumalıdır.

[3] Sistani. T.m, məs.1003; Lənkərani. T.m, məs.1015

[*] Sistani: ... ehtiyata əsasən namaz batildir ...

[4] Sistani. T.m, məs.1004; Lənkərani. T.m, məs.1016

[5] Sistani. T.m, məs.1015; Lənkərani. T.m, məs.1027

[6] Sistani. T.m, məs.1019; Lənkərani. T.m, məs.1031

[7] Sistani. T.m, məs.1020; Lənkərani. T.m, məs.1032

[8] Sistani. T.m, məs.1024; Lənkərani. T.m, məs.1036

## RÜKU

Namaz qılan şəxs hər rəkətdə qiraətdən sonra əllərini** dizinə qoya biləcək həddə əyilməlidir. Bu əmələ rüku deyilir.1

*

**Rükunun vacibatı**

- ***Yuxarıda deyilən miqdarda əyilmək***
- ***Zikr***
- ***Rükunun** zikrini deyərkən bədənin aram olması***
- ***Rükudan sonra qalxıb dayanmaq***
- ***Rükudan sonra bədənin aram olması***

### RÜKUNUN ZIKRI

***Insan rükuda hər zikri desə, kifayətdir. Amma ehtiyati-vacibə görə rükunun zikri üç dəfə "Subhənəllah", yaxud bir dəfə "Subhənə Rəbbiyəl əzimi və bihəmdih"dən az olmamalıdır.2

### BƏDƏNIN RÜKUDA ARAM OLMASI

1–Rükuda vacibi zikr deyilən vaxt bədən aram olmalıdır****3

2– Əgər rüku həddinə qədər əyilməzdən qabaq***** rükunun zikrini desə, namazı batildir.4

3– Əgər vacibi zikr qurtarmazdan əvvəl qəsdən başını rükudan qaldırsa, namazı batildir; amma əgər səhvən qaldırsa və rüku halından çıxmamışdan qabaq zikri axıra qədər demədiyi yadına düşsə, rükunun zikrini bədəni aram olduqdan sonra yenidən deməlidir. Əgər rüku halından çıxandan sonra yadına düşsə, namazı səhihdir.4

---

* Sistani: ... barmaqlarının ucunu dizinə qoya biləcək həddə əyilməlidir...

[1] Sistani. T.m, məs.1031; Lənkərani. T.m, məs.1043

**Sistani: Rükuda bədənin aram olması

*** Sistani: Adi vəziyyətdə rükuda üç dəfə "Subhənəllah" və ya bir dəfə "Subhənə Rəbbiyəl əzimi və bihəmdih" demək daha yaxşıdır. Fətvaya əsasən bu ölçüdə olan hər bir zikri demək kifayətdir. Amma vaxtın darlığı və çarəsizlik halında bir dəfə "Subhənallah" demək kifayətdir. T.m, məs.1037

[2] Lənkərani. T.m, məs.1049

****Sistani: Rüku halında namaz qılanın bədəni aram olmalıdır. T.m, məs. 1039

[3] Lənkərani. T.m, məs.1051

***** Sistani: ... qəsdən rükunun zikrini desə...

[4] Sistani. T.m, məs.1041; Lənkərani. T.m, məs.1053

[4] Sistani. T.m, məs.1042; Lənkərani. T.m, məs.1054

### *RÜKUDAN SONRA QALXIB DAYANMAQ VƏ BƏDƏNIN ARAM OLMASI*

Rükunun zikri tamam olduqdan sonra qalxıb düz dayanmaq, bədən aram olduqdan sonra səcdəyə getmək lazımdır. Əgər qəsdən ayağa qalxıb bədəni aram olmamışdan qabaq səcdəyə getsə, namazı batildir.[1]

### *RÜKUNU UNUTMAQ*

1– Əgər namaz qılan şəxs rükunu unutsa və səcdəyə çatmamışdan əvvəl yadına düşsə, ayağa qalxıb sonra rükuya getməlidir.[2]

2– Qadınların rükuda əllərini dizlərindən bir az yuxarıya qoymaları və dizlərini dala verməmələri müstəhəbdir.[3]

Səcdələr

Namaz qılan şəxs vacib və müstəhəb namazların hər rəkətində rükudan sonra iki səcdə etməlidir.[4]

Səcdənin vacibatı

- ***Səcdə halında yeddi üzvü yerə qoymaq***
- ***Zikr***
- ***Səcdənin zikrini deyərkən bədənin aram olması***
- ***İki səcdə arasında başı qaldırıb oturmaq və bədənin aramlığı***
- ***Zikr deyilən vaxt yeddi üzvün yerdə olmağı***
- ***Səcdə yerlərinin bərabər olmağı (yuxarı və aşağı olmamağı)***
- ***Alını səcdə səhih olan şeyə qoymaq***
- ***Alının qoyulduğu yerin pak olması***
- ***İki səcdə arasında muvalat***
- ***Səcdənin zikrinin ərəbcə olmağına, onun tərtibinə və muvalatına diqqət yetirmək***

Səcdədə* hər hansı bir zikr deyilsə, kifayətdir. Bu şərtlə ki, onun miqdarı üç dəfə "subhənəllah" və ya bir dəfə "subhənə Rəbbiyəl əla və bihəmdih"–dən az olmasın.[5]

### *BƏDƏNIN ARAMLIĞI*

1–**Səcdədə vacib zikr deyilən vaxt bədən aram olmalıdır.[1]

---

[1] Sistani. T.m, məs.1049; Lənkərani. T.m, məs.1061

[2] Sistani. T.m, məs.1050; Lənkərani. T.m, məs.1062

[3] Sistani. T.m, məs.1053; Lənkərani. T.m, məs.1065

[4] Sistani. T.m, məs.1054; Lənkərani. T.m, məs.1066

* Sistani: Fətva budur ki, səcdədə hər hansı bir zikr deyilsə, kifayətdir. Amma ehtiyati-lazıma əsasən onun miqdarı...

[5] Sistani. T.m, məs.1058; Lənkərani. T.m, məs.1070

2– Əgər alnı yerə çatmazdan və bədən aramlaşmamışdan qabaq qəsdən səcdənin zikrini desə, yaxud zikr tamam olmamışdan qabaq qəsdən başını səcdədən qaldırsa, namazı batildir.2

***BAŞI SƏCDƏDƏN QALDIRMAQ***

1– Birinci səcdənin zikri qurtarandan sonra qalxıb oturmaq, bədən aram olduqdan sonra yenidən səcdəyə getmək lazımdır3.

2– Əgər səcdənin zikri tamam olmamışdan qabaq səhvən alnını yerdən qaldırsa, yenidən yerə qoymamalıdır və bunu bir səcdə hesab etməlidir. Amma əgər başqa səcdə üzvlərini səhvən yerdən qaldırsa, yenidən yerə qoyub zikri deməlidir.4

Yeddi üzvün yerdə olmağı

1– Səcdənin zikrini dediyi vaxt əgər yeddi səcdə üzvündən birini qəsdən yerdən qaldırsa, namazı batildir. Amma zikr demədiyi vaxt alından başqa, digər üzvləri yerdən qaldırıb yenidən qoysa, eybi yoxdur5.

2– Səcdədə**ehtiyati-vacibə görə ayağın iki baş barmağının ucu yerə qoyulmalıdır. Əgər başqa barmaqlar, yaxud ayağın üstü yerə qoyulsa və ya dırnağın uzun olması səbəbilə barmağın başı yerə dəyməsə, namaz batildir6.

3– Səcdədə əllərin içi yerə qoyulmalıdır. Amma çarəsizlik halında əllərin üstünü yerə qoymağın eybi yoxdur.7

***SƏCDƏ YERLƏRININ BƏRABƏR OLMAĞI***

Namaz qılanın alnının yeri dizlərinin və (ayaq) barmaqlarının**qoyulduğu yerdən dörd bağlı barmaq ölçüsündən aşağı və ya yuxarı olmamalıdır.8

Alnı səcdə səhih olan şeyə qoymaq

1– Səcdə yerə, habelə yerdən göyərib yeyilməli olmayan şeylərə (çubuq, ağacın yarpağı və s.) edilməlidir. Yeyilən və geyilən şeylərə səcdə etmək səhih deyildir.9

2– Alın ilə səcdə edilən şeyin arasında maneə olmamalıdır. Deməli, möhür çox çirkli olsa və alının özü möhürə dəyməsə, səcdə batildir. Amma, misal üçün, möhürün rəngi dəyişmiş olsa, eybi yoxdur.1

---

** Sistani: Səcdələrdə bədən aram olmalıdır. T.m, məs. 1059

1 Lənkərani. T.m, məs.1071

2 Sistani. T.m, məs.1060; Lənkərani. T.m, məs.1072

3 Sistani. T.m, məs.1065; Lənkərani. T.m, məs.1077

4 Sistani. T.m, məs.1064; Lənkərani. T.m, məs.1076

5 Sistani. T.m, məs.1063; Lənkərani. T.m, məs.1075

* Sistani: Səcdədə ayağın iki baş barmağı yerə qoyulmalıdır. Baş barmağın ucunu yerə qoymaq lazım deyil. Belə ki, onun zahirini və ya batinini yerə qoymaq kifayət edər. Əgər başqa barmaqlar, yaxud ayağın üstü yerə qoyulsa, yaxud dırnağın uzun olması səbəbilə baş barmaq yerə dəyməsə, namaz batildir. T.m, məs.1071

6 Lənkərani. T.m, məs.1083

7 Sistani. T.m, məs.1070; Lənkərani. T.m, məs.1082

* Sistani: ... barmaqlarının ucundan dörd bağlı barmaq ölçüsündən ...

8 Sistani. T.m, məs.1066; Lənkərani. T.m, məs.1078

9 Sistani. T.m, məs.1085; Lənkərani. T.m, məs.1097

Bir neçə şəri suala cavab:

Sual: Sübh namazının qəzasını qılmaq istədikdə uca səslə oxunmalıdır, yoxsa alçaq səslə?

Cavab: Sübh, axşam və xiftən namazlarının həm ədasında, həm də qəzasında Həmd-Surəni uca səslə oxumaq hər halda – hətta gündüz qəza edilsə də belə – vacibdir. 2

Sual: Namazda kəlmələri ürəkdən keçirtmək (dildə tələffüz etmədən) qiraət sayılırmı?

Cavab: Buna qiraət deyilməz. Namazda qiraət deyiləcək tərzdən başqa cür tələffüz olunsa, kifayət deyildir. 3

Sual: Lallıq xəstəliyinə tutulan adam hiss üzvləri sağlam olan, lakin danışmaq qabiliyyətini itirdiyi halda namazı işarə ilə qılsa, namazı düzdürmü?

Cavab: Qeyd olunan halda o şəxsin namazı düz və kifayətdir. 4

Sual: Namazın kəlmələrini valideynlərimdən öyrəndiyim qaydada tələffüz edirdim. Sonralar məktəbdə əvvəllər səhv dediyimi başa düşdüm. Indi isə mənə namazları təzədən qılmağım vacibdirmi? Yoxsa elə bu tərzdə qıldığım namazlar düzdür?

Cavab: Qeyd olunan halda keçmişdəki namazların hamısı düz hökmündədir, nə təzədən qılınması, nə də qəzası lazımdır. 5

Sual: Bir nəfərin 35 – 40 yaşı var. Uşaqlıqdan valideynləri ona namaz öyrətməmişlər. Bu şəxsin də savadı yoxdur, buna baxmayaraq namazı düzgün şəkildə öyrənməyə səy etmişdir. Lakin namazın kəlmələrini, zikrlərini düzgün şəkildə tələffüz edə bilmir. Hətta bəzi kəlmələri ümumiyyətlə deyə bilmir. Onun namazı düzdürmü?

Cavab: Bacardığı qədər desə, namazı düzdür. 6

Sual: "Bihövlillahi və quvvətihi əqumu və əqud" zikrini bədən hərəkət edən halda demək düzgündürmü? Həmçinin, bu zikri qiyam halında da demək düzdürmü?

Cavab: Bunun eybi yoxdur. Bu zikrin qaydası sonrakı rəkət üçün ayağa duranda deməkdən ibarətdir. 7

[?] Suallar

1- Əgər bir şəxs unudaraq Həmddən əvvəl Surəni oxusa və Surəni oxuyarkən səhv etdiyi yadına düşsə, nə etməlidir?

2- Hansı halda namazın Həmd Surəsi astadan və hansı halda ucadan oxunmalıdır?

3- Rükunun vacibatı hansılardır?

4- Əgər bir şəxs rükunu unutsa və səcdə etməmişdən əvvəl yadına düşsə, nə etməlidir?

---

[1] Sistani. T.m, məs.1069; Lənkərani. T.m, məs.1081
[2] Xamenei. "Əcvibətül istiftaat", sual 469
[3] Xamenei. "Əcvibətül istiftaat", sual 478
[4] Xamenei. "Əcvibətül istiftaat", sual 488
[5] Xamenei. "Əcvibətül istiftaat", sual 487
[6] Xamenei. "Əcvibətül istiftaat", sual 486
[7] Xamenei. "Əcvibətül istiftaat", sual 495

5- Səcdənin vacibatı hansılardır?

6- Hansı halda namaz qılan başladığı Surəni yarımçıq qoyub, başqa bir Surə oxuya bilər?

# 25-CI DƏRS

## *SƏCDƏ ETMƏYIN SƏHIH OLDUĞU ŞEYLƏR*

1 2 3 4 5

**Səcdə etməyin səhih olduğu şeylər**

1- Səcdə yerə, habelə yerdən göyərib yeyilməli olmayan şeylərə (çubuq, ağacın yarpağı və s.) edilməlidir.[1]

2- Yerdən göyərən və heyvanların yemi olan (ot, saman kimi) şeylərə səcdə etmək səhihdir.[2]

3- Yeyilməyən güllərə səcdə etmək səhihdir.[3]

4- Əhəng daşına.[4]

5- Gəc daşına.[4]

6- Bişmiş gəcə.[4]

7- Bişmiş əhəngə.[4]

8- Kərpicə.[4]

9- Palçıq kuzəyə və bu kimi şeylərə.[4]

10- Əgər kağızı səcdənin səhih olduğu şeydən (məsələn: saman, yaxud ağacdan) hazırlasalar, ona səcdə etmək olar. Pambıqdan hazırlanan kağıza da səcdə etməyin eybi yoxdur.[5]

---

[1] Sistani. T.m, məs.1085; Lənkərani. T.m, məs.1097

[2] Sistani. T.m, məs.1087; Lənkərani. T.m, məs.1099

[3] Sistani. T.m, məs.1088; Lənkərani. T.m, məs.1100

[4] Sistani. T.m, məs.1090; Lənkərani. T.m, məs.1102

[5] Sistani. T.m, məs.1091; Lənkərani. T.m, məs.1103

1 * ** 2 *** **** 3

**Səcdə səhih olmayan şeylər**

1- Yeyilən şeylər[1]
2- Geyilən şeylər[1]
3- Qızıl, gümüş[*], əqiq, firuzə və s. kimi mədəndən çıxarılan faydalı qazıntılar[1]
4- Təzə halda olan üzüm yarpağına səcdə etmək[**2]
5- Bəzi məntəqələrdə yeyilməsinə adət olan, bəzi məntəqələrdə isə adət olmayan bitkilər[***3]
6- [****]Yetişməmiş meyvə[3]

Adi qaydada səcdə edə bilməyən şəxsin vəzifəsi

1– Alnını yerə çatdıra bilməyən bir kəs bacardığı qədər əyilib möhürü, yaxud səcdənin səhih olduğu başqa bir şeyi uca bir yerə qoymalı, alnını da onun üstünə elə qoymalıdır ki, "səcdə edir" desinlər. Amma əllərin içini, dizləri, ayaqların barmaqlarını adi qaydada yerə qoymalıdır. *****4

2– Ümumiyyətlə əyilə bilməyən bir kəs yerə oturub başı ilə işarə etməlidir. Əgər bunu da edə bilməsə gözləri ilə işarə etməlidir.1

---

[1] Lənkərani. T.m, məs.1097

[*] Sistani: Qızıl, gümüş və s. kimi yerin bir hissəsi hesab olunmayan şeylərə səcdə səhih deyil. T.m, məs.1085

[**] Sistani: Üzüm yarpağına təzə və yeyilməsi adi olan vaxtda səcdə etmək. T.m, məs.1086

[2] Lənkərani. T.m, məs.1098

[***]Sistani: ... əgər həmin məntəqədə də yeyilməli hesab olunarsa.

[****]Sistani: Ehtiyati vacibə əsasən ...

[3] Sistani. T.m,məs.1089; Lənkərani. T.m, məs.1101

[*****]Lənkərani: Ehtiyata əsasən hər iki halda mümkün olarsa, möhürü qaldırıb alnına qoymalıdır.

[4] Sistani. T.m, məs.1077; Lənkərani. T.m, məs.1089

**Səcdəni çoxaltmaq, ya azaltmaq**

- – ***Qəsdən*** ⇨ namaz batildir.[2]
- ***Səhvən***
  - – Bir rəkətdə iki səcdə: namaz batildir.[*3]
  - – Bir səcdə
    - Artırılsa ⇨ namaz səhihdir.
    - Azaldılsa
      - –Sonrakı rəkətin rükusuna çatmamışdan qabaq yadına düşsə, qayıdıb yerinə yetirməlidir[** 4]
      - –Əgər rükuda, yaxud rükudan sonra əvvəlki rəkətdə bir səc-dəni unutduğu yadına düşsə, namazın salamından sonra səcdəni qəza etməlidir.[***5]

---

[1] Lənkərani. T.m, məs.1090; Sistani. T.m, məs.1079

[2] Lənkərani. T.m, məs.1067–1068; Sistani. T.m, məs. 1055–1056

[*] Sistani: Əgər bir kəs vacib namazın bir rəkətində iki səcdəni tərk etsə namaz batildir. Həmçinin ehtiyati lazıma əsasən əgər bir rəkətdə iki səcdə unutqanlıq üzündən artırmış olsa, namaz batildir.

[3] Lənkərani. T.m, məs.1067

[**] Sistani: ... ehtiyati müstəhəbə əsasən yersiz ayağa durduğu üçün iki səcdeyi səhv etməlidir. T.m, məs.1253

[4] Lənkərani. T.m, məs.1266

[***] Lənkərani: ... sonra iki səcdeyi səhv də yerinə yetirməlidir. T.m, məs.1267

[5] Sistani. T.m, məs.1254

*QURANIN VACIB SƏCDƏSI.*

Quranın dörd Surəsində vacibi səcdə vardır. Insan bu Surələrdən birinin səcdə ayəsini oxuduğu və ya eşitdiyi zaman dərhal səcdəyə getməlidir.1

| | |
|---|---|
| **Vacib səcdəsi olan surələr** | – *32-ci surə ⇨ Səcdə, ayə 15* |
| | – *41-ci surə ⇨Fussilət, ayə 37* |
| | – *53-cü surə ⇨ Nəcm, axırıncı ayə* |
| | – *96-cı surə ⇨ Ələq, axırıncı ayə* |

1– Əgər insan səcdə etməyi unudarsa, yadına düşdüyü vaxt səcdə etməsi vacibdir.1

2– Ehtiyati – vacibə görə Quranın vacibi səcdələrində yeyilən və geyilən şeylərə səcdə etmək olmaz.*2

3– Əgər Quranın vacibi səcdələrində alın səcdə niyyəti ilə yerə qoyulsa – hətta zikr deyilməsə də, kifayətdir. Amma zikri demək müstəhəbdir.3

### *TƏŞƏHHÜD*

Bütün vacibi namazların ikinci rəkətində, bundan əlavə məğrib namazının üçüncü, zöhr, əsr və işa namazlarının dördüncü rəkətində ikinci səcdədən sonra oturub bədənin aram olduğu halda təşəhhüd oxunmalıdır.4

*

---

[1] Sistani. T.m, məs.1102; Lənkərani. T.m, məs.1114

*Sistani: Ehtiyati vacibə əsasən Quranın vacib səcdəsində alın möhürə, yaxud səcdə səhih olan şeyə qoyulmalıdır. T.m, məs.1107

[2] Lənkərani. T.m, məs.1118

[3] Sistani. T.m, məs.1108; Lənkərani. T.m, məs.1120

[4] Sistani. T.m, məs.1109; Lənkərani. T.m, məs.1122

* Sistani: ...Ehtiyati müstəhəbə əsasən yersiz ayağa durduğu üçün iki səcdeyi səhv etməlidir. T.m, məs.1253

**Sistani: ...salamdan sonra təşəhhüdü qəza etməyi ehtiyati müstəhəbdir... T.m, məs.1111

[1] Lənkərani. T.m, məs. 1124

| Əgər bir kəs namazda təşəhhüdü unudub ayağa qalxsa | | |
|---|---|---|
| | ***Rükudan əvvəl yadına düşsə*** | Oturub təşəhhüdü deməli, yenidən ayağa durub namazı davam etdirməlidir.* |
| | ***Rükuda və ya rükudan sonra yadına düşsə*** | Namazı qurtarmalı, salamdan sonra təşəhhüdü qəza etməli** və unudulmuş təşəhhüd üçün iki səcdeyi-səhv etməlidir.[1] |

### *NAMAZIN SALAMI*

1–Namazın axırıncı rəkətindən sonra namazın salamı verilməli və namaz qurtarmalıdır.

2– Namazın axırıncı rəkətinin təşəhhüdündən sonra oturan və bədən aram olduğu halda aşağıdakı cümləni demək müstəhəbdir.

اَلسَّلاَمُ عَلَيْكَ اَيُّهَا النَّبِيُّ وَ رَحْمَةُاللهِ وَ بَرَكَاتُهُ

Ondan sonra gərək***

اَلسَّلاَمُ عَلَيْكُم وَ رَحْمَةُاللهِ وَ بَرَكَاتُهُ

yaxud

اَلسَّلاَمُ عَلَيْنَا وَ عَلي عِبَادِاللهِالصَّلحِينَ

desin. Amma əgər bu salamı desə, ehtiyati-vacib budur ki, ondan sonra****

اَلسَّلاَمُ عَلَيْكُم وَ رَحْمَةُاللهِ وَ بَرَكَاتُهُ

desin.2

Imam camaatın və furada namaz qılan şəxsin namazın axırıncı salamını deyərkən, qiblədən dönməmək şərtilə, gözünün ucu ilə sağ tərəfə işarə etməsi müstəhəbdir.1

### *TƏRTIB*

1– Əgər insan, namazın tərtibini qəsdən pozsa, (məsələn, Surəni Həmddən qabaq oxusa, yaxud səcdəni rükudan qabaq etsə) namazı batildir.2

---

*** Sistani: Ondan sonra gərək "Əssəlamu əleykum" deyilsin və ehtiyati müstəhəb budur ki, "və rəhmətullahi və bərəkətuh" ona əlavə olunsun.

****Sistani: ... ondan sonra "Əssəlamu ələykum" desin.

[2] Sistani. T.m, məs.1114; Lənkərani. T.m, məs.1127

[1]Imam Xomeyni. "Urvətul vusqa", "Təslim" fəsli, məsələ 6.

[2] Sistani. T.m, məs.1117; Lənkərani. T.m, məs.1130

2– Əgər namazın rüknündən birini unudub sonrakı rüknü yerinə yetirsə, (məsələn, rükunu yerinə yetirməmişdən əvvəl iki səcdə etsə) namazı batildir.*1

3– Əgər rükn olmayan bir şeyi unudub sonrakı rüknü yerinə yetirsə, (məsələn Həmdi unudub rükuya getmiş olsa) namazı səhihdir.**2

### *MUVALAT.*

1– Insan namazı muvalat ilə qılmalıdır, yəni namazın hissələrini (rüku, səcdə, təşəhhüd kimi) bir-birinin ardınca, fasiləsiz yerinə yetirməlidir. Namazın sözlərini də adi qaydada bir-birinin ardınca, fasiləsiz deməlidir. Əgər bunların arasında müəyyən qədər fasilə olsa və "namaz qılır" – deyilməsə*** namazı batildir.3

2– Əgər namazda hərflərin, yaxud kəlmələrin arasında səhvən fasilə versə və bu fasilə namazın formasını poza biləcək qədər olmasa, əgər sonrakı rüknə başlayıbsa, o hərf və kəlmələri adi qaydada oxumalıdır. Amma sonrakı rüknə daxil olubsa, namazı səhihdir.4

3– Rüku, səcdə və qunutu uzatmaq, böyük Surələri oxumaq namazın muvalatına xələl yetirmir.5

### *QUNUT*

1– Bütün vacib və müstəhəb namazların ikinci rəkətinin rükusundan əvvəl qunut tutmaq müstəhəbdir.6

❋ Cümə namazında hər rəkətdə bir qunut vardır.

❋ Ayət namazında hər rəkətdə beş qunut vardır.

❋ Fitr və Qurban bayramının namazının hər iki rəkətində bir neçə qunut vardır. (Gələcək bəhslərdə bu barədə danışılacaq).

❋ Vətr namazının bir rəkət olmasına baxmayaraq onun rükusundan əvvəl də qunut tutmaq müstəhəbdir.

2– Əgər namaz qılan qunut tutmaq istəsə, ehtiyati-vacibə görə**əlləri üzünün müqabilinə qaldırmalıdır. Əlin içini səmaya doğru saxlamaq və əllərini bir-birinin yanında (qoşa) tutmaq, baş barmaq istisna olmaqla, sair bamaqlarını bir-birinə yapışdırıb əllərinin içinə baxmaq müstəhəbdir.7

3–Qunutda hər bir zikr, hətta bir dəfə "Subhənəllah" deyilsə, kifayətdir.8

---

* Sistani:...ehtiyati vacibə əsasən namaz batil olar. T.m, məs.1118

1 Lənkərani. T.m, məs.1131

** Lənkarani: ... Unudulmuş Həmd üçün ehtiyati-vacibə görə iki səcdeyi-səhv yerinə yetirilməlidir.

2 Sistani. T.m, məs.1120; Lənkərani. T.m, məs.1133

*** Lənkərani: ... hətta əgər səhvən olsa da namazı batildir.

3 Sistani. T.m, məs.1123; Lənkərani. T.m, məs.1136

4 Sistani. T.m, məs.1124; Lənkərani. T.m, məs.1137

5 Sistani. T.m, məs.1125; Lənkərani. T.m, məs.1138

6 Sistani. T.m, məs.1126; Lənkərani. T.m, məs.1139

*Sistani: Qunut tutarkən namaz qılanın əllərini üzünün müqabilində saxlaması müstəhəbdir...

7 Sistani. T.m, məs.1127; Lənkərani. T.m, məs.1140

8 Sistani. T.m, məs.1128; Lənkərani. T.m, məs.1141

Bir neçə şəri suala cavab:

Sual: Sementə və daş döşənən yerə (keramik əşyalara) səcdə və təyəmmüm etməyin hökmü nədir?

Cavab: O ikisinə səcdə etməyin eybi yoxdur, lakin onlara təyəmmüm etmək ehtiyati-vacibə əsasən düzgün deyil.1

Sual: Qaralan və çirklənən səcdə türbətindən (belə ki, o türbətin üstünü çirk qatı örtür və alınla türbət arasında fasilə salır) istifadə etməyin eybi varmı?

Cavab: Əgər türbətin üstündəki çirk alınla türbət arasında bir pərdə qatı şəklinə düşəcək miqdarda olsa, səcdə batildir, həmçinin namaz da batildir.2

Sual: Bir qadın türbətə səcdə edir, alını isə hicabla (xüsusilə də səcdə yeri) örtülmüşdür. O qadın belə qıldığı namazları təzələməlidirmi?

Cavab: Səcdə edəndə alnı ilə möhürün arasında pərdə olduğunu bilməsə, namazı yenidən qılması vacib deyil.3

Sual: Müqəddəs hərəmlərdə yerə döşənən mərmər daşına səcdə etməyin hökmü nədir?

Cavab: Mərmər daşına səcdə etməyin heç bir eybi yoxdur.4

Sual: Səcdədən qalxıb oturduqda hansı ayağımızı o birisinin üstünə qoymaq lazımdır?

Cavab: Müstəhəbdir ki, sağ ayağı sol ayağın üstünə qoyasan.5

[?] Suallar

1- Adi qaydada səcdə edə bilməyən şəxs necə səcdə etməlidir?

2- Səhvən artıq səcdə edən şəxsin namazının hökmü necədir?

3- Əgər bir şəxs namazda təşəhhüdü unudub ayağa qalxdıqdan sonra yadına düşərsə, nə etməlidir?

4- Namazın salamlarından hansı vacib, hansı müstəhəbdir?

5- Tərtiblə muvalatın fərqi nədir?

[1] Xamenei. "Əcvibətül istiftaat", sual 498
[2] Xamenei. "Əcvibətül istiftaat", sual 500
[3] Xamenei. "Əcvibətül istiftaat", sual 501
[4] Xamenei. "Əcvibətül istiftaat", sual 504
[5] Xamenei. "Əcvibətül istiftaat", sual 507

# 26-CI DƏRS

## *NAMAZIN TƏRCÜMƏSI*

1– Həmd Surəsinin tərcüməsi:

بِسْمِ اللّهِ الرَّحْمَـــنِ الرَّحِيمِ

yəni dünyada həm möminə, həm də kafirə, axirətdə isə yalnız möminə rəhm edən Allahın adı ilə başlayıram.

الْحَمْدُ للّهِ رَبِّ الْعَالَمِينَ

yəni həmd və səna yalnız bütün mövcudatı, aləmləri tərbiyə edən Allaha məxsusdur.

الرَّحْمَـــنِ الرَّحِيمِ

yəni dünyada həm möminə, həm də kafirə, axirətdə isə yalnız möminə rəhm edəndir.

مَـــالِكِ يَوْمِ الدِّينِ

yəni O, Allah Qiyamət gününün padşahı və ixtiyar sahibidir.

إِيَّاكَ نَعْبُدُ وإِيَّاكَ نَسْتَعِينُ

yəni yalnız Sənə ibadət edir və yalnız Səndən kömək istəyirik.

اهدِنَـــــــا الصِّرَاطَ المُستَقِيمَ

yəni bizi (Islam dininə) doğru yola hidayət et!

صِرَاطَ الَّذِينَ أَنعَمتَ عَلَيهِمْ

yəni nemət verdiyin kəslərin yoluna (və onlar peyğəmbərlər və onların canişinləridir).

غَيرِ المَغضُوبِ عَلَيهِمْ وَلاَ الضَّالِّينَ

yəni qəzəbə düçar olanların və (haqdan) azanların yoluna yox.

2– "Qul huvəllah" surəsinin tərcüməsi:

بِسْمِ اللّهِ الرَّحْمَـــنِ الرَّحِيمِ

yəni dünyada həm möminə, həm də kafirə, axirətdə isə yalnız möminə rəhm edən Allahın adı ilə başlayıram.

قُلْ هُوَ اللَّهُ أَحَدٌ

yəni (Ey Peyğəmbər) de ki: Allah yeganə olan Allahdır.

اللَّهُ الصَّمَدُ

yəni o Allah heç bir mövcudata möhtac deyil.

لَمْ يَلِدْ وَلَمْ يُولَدْ

yəni övladı yoxdur və heç kəsin də övladı deyil.

وَلَمْ يَكُن لَّهُ كُفُوًا أَحَدٌ

yəni məxluqatın heç biri Onun misli, tayı-bərabəri deyil.

3– Rüku və səcdədə olan zikrlərin tərcüməsi:

سُبحَانَ رَبِّيَ العَظِيمِ وَ بِحَمدِه

yəni mənim əzəmətli Rəbbim hər eyb və nöqsandan pak və münəzzəhdir və mən də Ona həmd-sitayiş edirəm.

سُبحَانَ رَبِّيَ الأَعلي وَ بِحَمدِه

yəni mənim hamıdan uca məqamlı Rəbbim hər bir eyb və nöqsandan pak və münəzzəhdir, mən də Ona həmd-sitayiş edirəm.

4– Təsbihati – ərbəənin tərcüməsi:

سُبحَانَاللهِ وَالحَمدُلله وَ لاَ اِلَهَ الاّاللهُ وَاللهُ اَكبَر

yəni Allah hər eyb və nöqsandan pak və münəzzəhdir. Həmd yalnız Allaha məxsusdur, Allahdan başqa həmd-sənaya, ibadətə layiq olan heç bir məbud yoxdur. Allah, vəsf edildiyindən daha böyükdür.

5– Təşəhhüd və salamın tərcüməsi:

اَلحَمدُلله اَشهَدُ اَن لاَ اِلَهَ الاّاللهُ وَحدَهُ لاَ شَرِيكَ لَهُ

yəni sitayiş və həmd Allaha məxsusdur. Şəhadət verirəm ki, Allahdan başqa heç bir məbud, pərəstişə layiq heç bir Tanrı yoxdur. Təkdir, şəriki yoxdur.

وَ اَشهَدُ اَنَّ مُحَمَّداً عَبدُهُ وَ رَسُولُهُ

yəni şəhadət verirəm ki, Muhəmməd (səlləllahu ələyhi və alihi və səlləm) Allahın bəndəsi və Onun Rəsuludur.

اَللهُمَّ صَلِّ عَلَي مُحَمَّد وَ آلِ مُحَمَّد

yəni Pərvərdigara! Rəhmət göndər Muhəmmədə və Onun Əhli-beytinə.

اَلسَّلاَمُ عَلَيكَ اَيُّهَاالنَّبِيُّ وَ رَحمَةُالله وَ بَرَكَاتُهُ

yəni salam olsun Sənə ey Peyğəmbər! Allahın rəhmət və bərəkəti Sənə olsun!

اَلسَّلاَمُ عَلَينَا وَ عَلَي عِبَادِالله الصَّلِحِينَ

yəni Allahın salamı biz namaz qılanlara və bütün yaxşı bəndələrə olsun!

اَلسَّلاَمُ عَلَيكُم وَ رَحمَةُالله وَ بَرَكَاتُهُ

yəni Allahın salam, rəhmət və bərəkəti siz möminlərə olsun!

## *Namazın təqibatı*

Təqibat – yəni insanın namazdan sonra müəyyən qədər zikr etməsi, dua və Quran oxumasıdır.

❋ Təqibat yaxşı olar ki, üzü qibləyə olduğu halda yerinə yetirilsin.

❋ Təqibatın ərəbcə olması vacib deyil, dua kitablarında qeyd olunan duaların oxunması isə daha yaxşıdır.

❋ Dinimizdə çox sifariş olunan zikrlərdən biri Həzrəti Zəhranın (ə) təsbihatıdır. Yəni 34 dəfə "Allahu əkbər", 33 dəfə "Əlhəmdulillah", 33 dəfə "Suhənəllah"[1]

## *Mubtilati namaz*

Namaz qılan şəxs təkbirətül-ehram deyib namaza başladıqda namazın sonuna qədər bəzi işlər ona haramdır. Əgər onlardan birini etsə, namaz batil olar. On iki şey namazı batil edir, bunlara "mübtilati namaz" deyilir.

*NAMAZI BATIL EDƏNLƏR BUNLARDIR:*

1– Namaz şərtlərindən hər hansı birinin pozulması;

2– Namazda dəstəmazı və qüsulu batil edən işlərdən birinin baş verməsi;

3– Əlləri bir-birinin üstünə qoymaq;

4– "Həmdi" oxuyandan sonra "amin" demək;

5– Üzü qiblədən döndərmək;

6– Danışmaq;

7– Gülmək;

8– Ağlamaq;

9– Namazın surətini pozan işlərdən birini görmək"

10– Yemək və içmək;

11– Namazı batil edən şəkklərdən birinin baş verməsi;

12– Namazın rüknünün azaldıb-çoxaldılması.

❋ Namazın şərtlərindən birinin pozulması.

Namaz qılan namaz əsnasında onun şərtlərindən hər hansı birini pozsa, məsələn*, namaz əsnasında yerin qəsbi olduğunu başa düşsə, namazı batildir.[2]

❋ Namazda dəstəmazı və ya qüsulu batil edən işlərdən birinin baş verməsi.

1– Əgər namaz əsnasında dəstəmazı batil olsa, yaxud qüsulu batil edən işlərdən biri baş versə, namazı batildir.1

2– Əgər namaz əsnasında yatsa, namazı batildir.1

❋ Əlləri bir-birinin üstünə qoymaq**

---

[1] Sistani: T.m, məs.1131; Lənkərani. T.m, məs.1144

*Sistani: Namaz əsnasında övrətini örtən libasın qəsbi olduğunu başa düşsə

[2] Sistani: T.m, məs.1135; Lənkərani. T.m, məs.1148

** Sistani: Təvazökarlıq və ədəb məqsədilə əlləri bir-birinin üstünə qoymaq. Amma namazın bu işlə batil olması ehtiyata əsasəndir. Hərçənd əgər şəriətin göstərişini yerinə yetirmək məqsədilə olsa, bu işin haram olmasına şübhə yoxdur. T.m, məsələ: 1138

1– Əgər namaz qılan şəxs namaz halında əllərini bir-birinin üstünə qoysa, namazı batildir.1

2– Əgər unutqanlıq, yaxud çarəsizlik üzündən, yaxud da başqa işlər (əli qaşımaq və s.) üçün əlləri bir-birinin üstünə qoysa, eybi yoxdur.2

❋ Amin demək

Namaz qılan şəxs "Həmdi" oxuyandan sonra "amin" desə, namazı batil olar.***3

❋ Üzü qiblədən döndərmək**

Qəsdən və ya unudaraq qiblədən arxaya, sağa, yaxud sola dönmək namazı batil edər.4

❋ Danışmaq**

1– Əgər namaz qılan şəxs qəsdən mənası olan bir kəlmə desə, istər bu kəlmə bir hərfli, istərsə də çox hərfli olsun, əgər bir məna ifadə etsə, namazı batildir.5

2– Namazda öskürmək və gəyirməyin eybi yoxdur.6

3– Əgər müəyyən bir kəlməni zikr məqsədi ilə desə, (məsələn, zikr məqsədi ilə "Allahu əkbər" desə) amma onu deyən vaxt səsini ucaldaraq başqasına bir şey anlatmaq istəsə, eybi yoxdur. Amma müəyyən bir şeyi bir kəsə başa salmaq üçün desə, hətta zikr məqsədi ilə deyilsə də, namazı batildir.7

4– Insan namaz halında başqasına salam verməməlidir. Amma başqası ona salam versə, elə cavab verməlidir ki, salam kəlməsi əvvəldə olsun***. Məsələn, "əssəlamu ələykum" və ya "salamun ələykum". Amma "ələykumus - salam" deməməlidir. (salam kəlməsini axıra salmamalıdır).8

Bir neçə şəri suala cavab:

---

[1] Lənkərani. T.m, "Namazı batil edənlərin üçüncüsü"

[2] Sistani: T.m, məs.1139; Lənkərani. T.m, məs.1152

***Sistani: Həmddən sonra "amin" deməyin namazı pozması məmumdan başqa şəxslər üçün ehtiyata əsasəndir. Şəriətin göstərişlərini əməl etmək niyyəti ilə olsa, haram olmağında heç bir şübhə yoxdur. Əgər səhvən və ya təqiyyə üzündən "amin" desə, namazı batil olmaz. T.m, "Namazı batil edənlərin dördüncüsü."

[3] Lənkərani. T.m, "Namazı batil edənlərin dördüncüsü"

*Sistani: Üzürsüz olaraq qiblədən dönmək namazı batil edər. T.m, "Namazı batil edənlərin beşincisi"

[4] Lənkərani. T.m, "Namazı batil edənlərin beşincisi"

**Sistani: Qəsdən danışmaq, hərçənd bir hərfdən çox olmasa da, əgər o hərfin bir anlamı olsa, namazı batil edər. T. m, "Namazı batil edənlərin altıncısı"

[5] Sistani. T.m, məs.1140; Lənkərani. T.m, məs.1153

[6] Sistani. T.m, məs.1142; Lənkərani. T.m, məs.1155

[7] Sistani: T.m, məs.1143; Lənkərani. T.m, məs.1156

***Sistani: ... Amma cavab gərək salam kimi olsun, yəni salamın əslinə əlavə olunmasın, məsələn, gərək cavabda "Salamun ələykum və rəhmətullahi və bərəkətuh" deməsin. Lazım ehtiyata əsasən gərək cavab verərkən "ələykum" və ya "ələykə" sözlərini "salam" sözünün əvvəlində deməsin.

[8] Sistani: T.m, məs.1146; Lənkərani. T.m, məs.1159

Sual: Təşəhhüddə "əşhədu ənnə Əliyyən vəliyullah" demək namazı batil edərmi?

Cavab: Vacibi namazların təşəhhüdündə (hədisdə) gəlməyən şeyləri şəri cəhətdən təşəhhüdün bir qismi niyyəti ilə desə, hətta bu artıq şeylər öz-özlüyündə haqq və düzgün olsa da belə namazı batil olar.1

Sual: Namaz qılan bir şəxs namaz əsnasında güldürücü bir sözü xatırlayaraq, yaxud gülünc bir işin baş verməsi üzündən gülsə, namazı batil olurmu?

Cavab: Əgər səsli (qəh-qəhəli) gülsə, namazı batil olar2.

Sual: Namaz qılan zaman gözləri yummaq düzgündürmü? Çünki gözləri açıq saxlamaq insanı namazdan yayındırır.

Cavab: Şəri cəhətdən gözləri namazda yummağın heç bir eybi yoxdur3.

Sual: Bəzi vaxtlar vacibi namaz əsnasında görürük ki, uşaq təhlükəli bir işə əl atır. Bu halda təhlükəni aradan qaldırmaq məqsədi ilə uşağı başa salmaq, yaxud evdə olanlara bu işi başa salmaq üçün Həmdin, yaxud başqa Surənin bəzi kəlmələrini, yaxud da bəzi zikrləri uca səslə oxumaq olarmı? Namaz əsnasında əli hərəkətə gətirməklə, qaşları tərpətməklə bir nəfərə müəyyən bir şeyi başa salmaq, yaxud bir suala (işarə ilə) cavab vermək olarmı?

Cavab: Qiraət və zikr niyyəti ilə demək şərti ilə başqalarına bir şeyi başa salmaq üçün zikrləri, Quran ayələrini deyərkən səsin ucaldılması namazın vəziyyətinin pozulmasına səbəb olmazsa, heç bir eybi yoxdur. Lakin namaz halında bədənin aramlığını pozan bir danışıq, yaxud hərəkət namazın batil olmasına səbəb olur.4

[?] Suallar

1- Namaz qılan şəxs səhvən namazda mənası olan bir söz desə, namazın hökmü necədir?

2- Namaz əsnasında namaz qılan şəxsə salam verildikdə, necə cavab verməlidir?

3- Qiraət əsnasında başqa birinə bir şeyi başa salmaq üçün "Allahu əkbər" - deyilsə, namazın hökmü necə olar?

4- "Namazın təqibatı" - deyildikdə nə nəzərdə tutulur?

---

1 Xamenei "Əcvibətül istiftaat", sual 516
2 Xamenei "Əcvibətül istiftaat", sual 521
3 Xamenei "Əcvibətül istiftaat", sual 523
4 Xamenei "Əcvibətül istiftaat", sual 520

# 27-CI DƏRS

## NAMAZIN ŞƏKKIYATI (1)

Namazda şəkklər üç hissəyə ayrılır.

- ***1- Namazı batil edən şəkklər***
- ***2- Etina olunmayan şəkklər***
- ***3- Səhih olan şəkklər***

### *1- NAMAZI BATIL EDƏN ŞƏKKLƏR 1 **

*Батил шәкләр*

1- İki rəkətli namazların rəkətlərinin sayındakı şəkk; sübh namazı və səfərdə olan şəxsin (iki rəkətli) namazları kimi;

2- Üç rəkətli namazın rəkətlərinin sayındakı şəkk;

3- Dörd rəkətli namazda bir rəkət və ya daha artıq qılınmasındakı şəkk;

4- Dörd rəkətli namazlarda ikinci səcdənin qurtarmasından qabaq iki rəkətlə daha artıq arasındakı şəkk;

5- İki rəkətlə beş, yaxud iki rəkətlə beşdən artıq rəkət arasındakı şəkk;

6- Üç rəkətlə altı rəkət və ya üç rəkətlə altı rəkətdən artıq arasındakı şəkk;

7- *Neçə rəkət qılındığını bilmədiyi namazlardakı şəkk;

8- Dörd rəkətlə altı və ya dörd rəkətlə altıdan artıq rəkətlərdəki şəkk;

### *2- ETINA OLUNMAYAN ŞƏKKLƏR2 **

1- Yeri keçən əməllərdə şəkk; (məsələn, rükuda Həmdi oxuyub-oxumamasında şəkk etsə)

2- Salamdan sonrakı şəkk;

3- Namazın vaxtı keçəndən sonrakı şəkk;

---

[1] Sistani. T.m, məs.1174; Lənkərani. T.m, məs.1187

* Ayətullah üzma Sistaninin risaləsində bu məsələ batil edən şəkklərin arasında deyilməyib. Batil edən şəkklər yeddi növ göstərilib.

[2] Sistani. T.m, məs.1176; Lənkərani. T.m, məs.1189

* Sistani: Müstəhəb və ehtiyat namazlarındakı şəkk

4- Kəsirüş-şəkk, yəni çox şəkk edən şəxsin şəkki. Əgər namaz vaxtında olsa, öz şəkkinə əməl edərək namazı qılmalıdır. Amma əgər namaz vaxtından sonra şəkk etsə, öz şəkkinə etina etməməlidir.

5- Pişnamazın, namazın rəkətlərinin sayında etdiyi şəkk – əgər məmum onların sayını bilirsə. Həmçinin məmumun namazın rəkətlərinin sayında etdiyi şəkk – əgər imam onların sayını bilirsə;

6- Müstəhəb* namazlardakı şəkk;

### *1. Yeri keçən əməllərdə şəkk*

1– Əgər bir kəs namaz əsnasında onun vacibi əməllərindən birini yerinə yetirib-yetirməməsində məsələn, Həmdi oxuyub- oxumamasında şəkk etsə, bu haldâ ondan sonra yerinə yetirilməli olan əmələ başlamamış olsa, şəkk etdiyi hissəni yerinə yetirməlidir. Amma ondan sonra yerinə yetirilməli olan işə məşğul olsa, öz şəkkinə etina etməməlidir.1

2– Əgər rüku, yaxud səcdədən sonra onun vacibi işlərini (zikr, bədənin aram olması) yerinə yetirib-yetirməməsində şəkk etsə, öz şəkkinə etina etməməlidir. 2

3– Əgər namazın rüknlərindən hər hansı birini yerinə yetirib-yetirməməsində şəkk etsə, bu halda ondan sonrakı işə başlamayıbsa, onu yerinə yetirməlidir. Məsələn, əgər təşəhhüdü yerinə yetirməmişdən iki səcdəni edib-etməməsində şəkk etsə, yerinə yetirməlidir. Amma sonradan yerinə yetirmiş olduğu məlum olsa, rükn artıq olduğuna görə*, namaz batildir.3

4– Əgər rükn olmayan bir əməli yerinə yetirib-yetirməməsində şəkk etsə, bu halda ondan sonrakı işə məşğul olmayıbsa, onu yerinə yetirməlidir. Məsələn, əgər Surəni oxumamışdan qabaq Həmdi oxumasında şəkk etsə, Həmdi oxumalıdır. Əgər Surəni oxuyandan sonra yerinə yetirmiş olduğu məlum olarsa, rükn artıq olmadığı üçün, namaz səhihdir. 4

### *2. Salamdan sonrakı şəkk*

1– Əgər namaz qılan salamlardan sonra namazın səhih olub-olmamasında şəkk etsə, məsələn, rüku edib-etməməsində şəkk etsə, yaxud dörd rəkətli namazın salamından sonra dörd rəkət, yaxud beş rəkət qılmasında şəkk etsə, öz şəkkinə etina etməməlidir.5

2– Əgər namaz qılan namazdan sonra şəkk etsə və şəkkinin hər iki tərəfi batil olarsa, məsələn dörd rəkətli namazın salamından sonra üç rəkət, yaxud beş rəkət qılmasında şəkk etsə, namazı batildir.3

3. Namazın vaxtı keçəndən sonrakı şəkk

---

[1] Sistani. T.m, məs.1177; Lənkərani. T.m, məs.1190
[2] Sistani. T.m, məs.1179; Lənkərani. T.m, məs.1192
* Sistani: ... ehtiyati lazıma görə...
[3] Sistani. T.m, məs.1183; Lənkərani. T.m, məs.1196
[4] Sistani. T.m, məs.1184; Lənkərani. T.m, məs.1197
[5] Sistani. T.m, məs.1188; Lənkərani. T.m, məs.1201

1– Əgər bir kəs namazın vaxtı keçəndən sonra namaz qılıb-qılmamasında şəkk etsə, yaxud qılmadığını güman etsə, öz şəkkinə etina etməməlidir. 1

2– Əgər bir şəxs vaxtı keçməmişdən qabaq namaz qılıb-qılmamasında şəkk etsə, yaxud qılmadığını güman etsə, o namazı qılmalıdır.Hətta əgər qıldığını güman etsə də, yenidən qılmalıdır.

### *4. Kəsirüş-şəkk*

1– *Əgər bir şəxs bir namazda üç dəfə, yaxud üç namazda ardıcıl olaraq (məsələn sübh, zöhr və əsr namazında) şəkk etsə, ona kəsirüş-şəkk deyilir. Əgər onun çox şəkk etməsi qəzəb, qorxu, halının pərişan olması səbəbi ilə olmazsa, öz şəkkinə etina etməməlidir. 2

Kəsirüş-şəkkin vəzifəsi34

**Namazın rəkətlərində şəkk[2]**

1- Şəkkin çox tərəfi namazı batil etmir; məsələn: namaz qılan dörd rəkətli namazlarda üç rəkətlə dörd rəkət arasında şəkk etsə, çox tərəfi götürməlidir.

2- Şəkkin çox tərəfi namazı batil edir; az tərəfi götürülməlidir. Məsələn namaz qılan dörd rəkətlə beş rəkət arasında şəkk etsə, dörd rəkət hesab etməlidir.

**Namazın rəkətlərində şəkk[3]**

1- Yerinə yetirməsi namazı batil etməzsə, həmin işi yerinə yetirdiyini hesab etməlidir. Məsələn: namaz qılan bir, ya iki səcdə etdiyinə şəkk etsə, iki səcdə etdiyini götürməlidir.

2- Yerinə yetirməsi namazı batil edən işlərdən olarsa, yerinə yetirmədiyini hesab etməlidir. Məsələn, namaz qılan bir, yaxud iki rüku yerinə yetirdiyinə şəkk etsə, bir rüku etdiyini götürməlidir.

### *5. İmam və məmumun şəkki*

1– Əgər imam namazın rəkətlərinin sayında şəkk etsə, məsələn üç və ya dörd rəkət qılmasında şəkk etsə, bu halda məmum dörd rəkət qıldığını

---

[1] Sistani. T.m, məs.1189; Lənkərani. T.m, məs.1202

*Sistani: Kəsirüş-şəkk çox şəkk edən adama deyilir. Yəni müəyyən səbəblərdən dalğınlıq və fikir qarışıqlığı olmayan şəxs üç namazda ən azı bir dəfə şəkk etsə, öz şəkkinə etina etməməlidir. T.m, m.1193

[2] Lənkərani. T.m, məs.1206

[3] imam Xomeyni "Təhrirul vəsilə", I c, səh.207

[4] Sistani. T.m, məs.1194; Lənkərani. T.m, məs.1207

yəqin, yaxud güman edib imama başa salsa, imam namazı qurtarmalıdır. Ehtiyat namazı da qılmaq lazım deyil.[1]

2– Həmçinin əgər imam neçə rəkət qıldığını yəqin, yaxud gümanla bilsə, məmum da rəkətlərin sayında şəkk etsə, öz şəkkinə etina etməməlidir.1

### *6. MÜSTƏHƏB NAMAZDA ŞƏKK*[2][3]

**Namaz qılanın vəzifəsi**

1- Müstəhəb namazların rəkətlərinin sayında şəkk: kəsirüş-şəkk üçün deyilən işlərə əməl etməlidir.[2]

2- Nafilə namazlarının hissələrində şəkk, istər rükn olsun, istər qeyri rükn olsun:

- Yeri keçməyibsə: yerinə yetirməlidir.
- Yeri keçibsə: şəkkinə etina etməməlidir.[3]

Bir neçə şəri suala cavab:

Sual: Bir nəfər namazın 3-cü rəkətində qunut tutub-tutmamaq barədə şəkk edir. Bunun hökmü nədir? Namazı tamamlamalıdır, yoxsa şəkk edən vaxt kəsməlidir?

Cavab: Qeyd olunan şəkkə etina edilməməlidir. Namazı da düzdür, bu barədə mükəlləfin öhdəsində heç nə yoxdur. 4

Sual: Nafilə namazlarında rəkətlərdən qeyri yerlərdə şəkkə etina edilməlidirmi? (Məsələn birmi, yoxsa iki?) Səcdənin yerinə yetirilməsində şəkk edilsə, hökm nədir?

Cavab: Nafilə namazlarının zikr və əməllərində şəkk etməyin hökmü vacibi namazlardakı şəklərin hökmü ilə eynidir; şəkkin məhəlli keçməmişsə etina edilir və məhəlli keçməkdə isə etina edilmir. 5

Sual: Səhvən namazın bəzi hissələri digərinin yerində görülsə, yaxud namaz əsnasında hər hansı bir yerə baxsa və ya səhvən danışsa, namazı batildirmi?

Cavab: Namazda səhvən baş verən əməllər namazı batil etmir; bəzi vaxtlarda səcdeyi-səhvə səbəb olar, lakin bir rüknü azaltsa, yaxud çoxaltsa namazı batil olar. 6

Sual: Kəsirüş-şəkk (çox şəkk edən adam) öz şəkkinə etina etməməlidir. Lakin namazda şəkk etsə, vəzifəsi nədir?

Cavab: Vəzifəsi şəkk etdiyinin yerinə yetirdiyini əsas götürməkdir. Amma əgər yerinə yetirdiyini əsas götürməsi namazın pozulmasına səbəb olarsa, yerinə yetirmədiyini əsas götürməlidir. Bu barədə rəkətlərin, namazın əməllərinin, sözlərinin arasında heç bir fərq yoxdur. 7

---

[1] Sistani. T.m, məs.1201; Lənkərani. T.m, məs.1214
[2] Sistani. T.m, məs.1202; Lənkərani. T.m, məs.1215
[3] Sistani. T.m, məs.1204; Lənkərani. T.m, məs.1217
4 Xamenei. "Əcvibətül istiftaat", sual 526
5 Xamenei. "Əcvibətül istiftaat", sual 527
6 Xamenei. "Əcvibətül istiftaat", sual 530
7 Xamenei. "Əcvibətül istiftaat", sual 528

[?] Suallar

1- Batil şəkklər hansılardır?

2- Etina olunmayan şəkkləri bəyan edin.

3- Namaz qılan təşəhhüd halında şəkk etsə ki, bir səcdə edib, yoxsa iki vəzifəsi nədir?

4- Namazda hər hansı bir kəlməni tələffüz etdikdən sonra onun hərflərindən birinin düzgün tələffüz olunmadığına dair şəkk etsə, vəzifəsi nədir?

5- Kəsirüş-şəkk adam 1-ci rəkətdə səcdədən sonra şəkk etsə ki, bir səcdə edib, yoxsa iki səcdə vəzifəsi nədir?

6- Əgər müstəhəb namazlarda 1-ci və 2-ci rəkət arasında şəkk etsə, vəzifəsi nədir?

# 28-CI DƏRS

## *NAMAZIN ŞƏKKIYATI (2)*

### 3. SƏHIH OLAN ŞƏKKLƏR.

Dörd rəkətli namazlarda şəkk[1]

Dörd rəkətli namazlarda aşağıdakı səhih şəkklərdən biri yaranarsa, cədvəldə göstərilən qaydaya əməl olunmalıdır:

| Şəkk | Qiyam halında | Rükuda | Rükudan sonra | Səcdədə | *Ikinci səcdədən sonra | Namazın səhih olduğu halda namaz qılanın vəzifəsi |
|---|---|---|---|---|---|---|
| 2 və 3 rəkət arasında | batil | batil | batil | batil | səhih | Niyyəti üç rəkətə qoyub bir rəkət də qılaraq namazı tamamlamalı,** namazdan sonra bir rəkət ayaq üstə, yaxud iki rəkət oturan halda ehtiyat namazı qılmalıdır. |
| 2 və 4 rəkət arasında | batil | batil | batil | batil | səhih | Niyyəti dörd rəkətə qoyub namazı tamamlamalı, namazdan sonra ayaq üstə iki rəkət ehtiyat namazı qılmalıdır. |
| 2, 3 və 4 rəkət arasında | batil | batil | batil | batil | səhih | Niyyəti dörd rəkətə qoyub namazı tamamlamalı, sonra iki rəkət ayaq üstə və iki rəkət oturan halda ehtiyat namazı qılmalıdır. |
| 3 və 4 rəkət arasında | səhih | səhih | səhih | səhih | səhih | Niyyəti dörd rəkətə qoyub namazı tamamlamalı, namazdan sonra bir rəkət ayaq üstə, yaxud iki rəkət oturan halda ehtiyat namazı qılmalıdır. |

---

[1] Sistani. T.m, məs.1208; Lənkərani. T.m, məs.1221

*Sistani: Ikinci səcdədə

**Sistani: ... ehtiyati vacibə əsasən namazdan sonra bir rəkət ayaq üstə ehtiyat namazı qılmalıdır.

| Şəkk | Qiyam halında | Rükuda | Rükudan sonra | Səcdədə | *Ikinci səcdədən sonra | Namazın səhih olduğu halda namaz qılanın vəzifəsi |
|---|---|---|---|---|---|---|
| 4 və 5 rəkət arasında | səhih | batil | batil | batil | səhih | Qiyam halında şəkk etsə, rüku etmədən oturmalı, namazı tamamlamalı, bir rəkət ayaq üstə, yaxud iki rəkət oturan halda ehtiyat namazı qılmalıdır.***Ikinci səcdədən başını qaldırdıqdan sonra olarsa, bu halda niyyəti dörd rəkətə qoyub namazı tamamlamalı, namazdan sonra iki səcdeyi-səhv etməlidir. Amma əgər birinci səcdədən sonra, yaxud****başını ikinci səcdədən qaldırmazdan əvvəl belə şəkk etsə, ehtiyati vacibə əsasən qeyd olunan göstərişə əməl edib sonra namazı yenidən qılmalıdır. |

Cədvəldə göstərilən hallardan başqa bir neçə hal var ki, az təsadüf olunduğu üçün burada göstərilməyib.

Bir neçə ümumi qayda

***Əgər səhih şəkklərdən biri insanın qarşısına çıxsa, namazı pozmamalıdır; əgər pozsa, günah etmişdir.1

Namaz qılan şəxs dörd rəkətli namazın rəkətlərinin sayında şəkk etsə, bir qədər fikirləşməlidir: əgər şəkkin bir tərəfinə yəqin və ya güman tapsa, həmin tərəfi əsas tutub namazı qurtarmalıdır. Əks halda deyilən göstərişlərə əməl etməlidir. 2

## Ehtiyat namazı

1– Ehtiyat namazı vacib olan bir kəs namazın salamından sonra dərhal ehtiyat namazı niyyəti edib təkbir deməli, Həmdi oxuyub rüku və səcdəni etməlidir. Əgər bir rəkət ehtiyat namazı vacibdirsə, iki səcdədən

*Sistani: ... ikinci səcdədə ...

**Sistani: ... ikinci səcdədən əvvəl bu cür şəkk etsə, namazı batildir.

***Sistani: Əgər səhih şəkklərdən biri insanın qarşısına çıxsa və namazın vaxtı dar olsa, namazı başdan başlaya bilməz, namazı sındırmamalı, deyilən göstərişə əməl etməlidir. Hətta əgər namazın vaxtı geniş olarsa da ehtiyati müstəhəbə görə namazı sındırmamalı və deyilən göstərişə əməl etməlidir. T.m, məs.1209

[1] Lənkərani. T.m, məs.1222

[2] Sistani. T.m, məs.1208; Lənkərani. T.m, məs.1221

sonra təşəhhüdü oxumalı, salamları deməlidir. Iki rəkət ehtiyat namazı vacibdirsə, iki səcdədən sonra bir rəkət də (əvvəlki kimi) qılıb sonra təşəhhüdü və salamları deməlidir.1

2– Ehtiyat namazının Surəsi və qunutu yoxdur ahəstə** qılınmalıdır, niyyəti də dildə deyilməməlidir. Ehtiyati vacibə görə "bismillah"ı da ahəstə deyilsin. 2

## SƏCDEYI-SƏHV

### SƏCDEYI-SƏHVIN QAYDASI

1– Səcdeyi-səhvin qaydası budur ki, namazın salamından sonra dərhal səcdeyi-səhv niyyəti edib***alını səcdənin səhih olduğu şeylərin üstünə qoyub desin:

بِسمِ اللهِ وَ بِاللهِ وَ صَلَّي اللهُ عَلَيَ مُحَمَّدٍ وَ آلِ مُحَمَّد

yaxud

بِسمِ اللهِ وَ بِاللهِ اللهُمَّ صَلِّ عَلَي مُحَمَّدٍ وَ آلِ مُحَمَّد

Amma daha yaxşı olar ki,

بِسمِ اللهِ وَ بِاللهِ السَّلامُ عَلَيكَ أَيُّهَاالنَّبِيُّ وَ رَحمَتُاللهِ وَ بَرَكَاتُهُ

desin. (Və bu ehtiyat daha yaxşıdır). Sonra səcdədən qalxıb otursun, yenidən səcdəyə gedib yuxarıdakı zikrlərdən birini desin. Sonra səcdədən qalxıb otursun, təşəhhüd və salamları desin.3

Səcdeyi səhvin lazım olduğu yerlər: 4 * ** *** ****

---

1 Sistani. T.m, məs.1224; Lənkərani. T.m, məs.1237

*Sistani: ... ehtiyati lazıma əsasən ...

2 Sistani. T.m, məs.1225; Lənkərani. T.m, məs.1238

**Sistani: ... ehtiyati lazıma əsasən alını səcdənin səhih olduğu şeylərin üstünə qoymalıdır. Ehtiyati müstəhəbə görə zikr deyilməlidir. Daha yaxşı olar ki, bu zikri desin: "Bismillahi və billahi. Əssəlamu ələykə əyyuhənnəbiyyu və rəhmətullahi və bərəkətuh" Sonra oturmalı və təkrarən səcdəyə gedib, söylədiyi zikri yenidən dedikdən sonra "Əssəlamu ələykum" deməlidir. Buna "Və rəhmətullahi və bərəkatuh"u da əlavə etməsi daha yaxşıdır.

3 Sistani. T.m, məs.1259; Lənkərani. T.m, məs.1272

4 Sistani. T.m, məs.1245; Lənkərani. T.m, məs.1258

* Sistani: Ehtiyati-vacibə əsasən...

**Sistani: Ehtiyati-müstəhəbə əsasən...

***Sistani: Daha güclü görüşə əsasən....

****Sistani: Namazdan sonra, namazın hökmünün səhih olmasına baxmayaraq, müxtəsər olaraq namazda bir şeyin səhvən əksik və ya artıq yerinə yetirildiyini bilirsə.

**Vacib**
- 1- *Namaz əsnasında səhvən danışdıqda;
- 2- Bir səcdəni unutduqda;**
- 3- Dörd rəkətli namazın ikinci rəkətindən sonra dörd rəkətlə beş rəkət arasında şəkk etdikdə.***

**Ehtiyati-vacib******
- 1- Səhvən salam dedikdə
- 2- Təşəhhüdü unutduqda***

1– Əgər səhv oxuduğu bir şeyi yenidən düzgün şəkildə oxusa, onu ikinci dəfə oxuması üçün səcdeyi-səhv vacib deyil.1

2– Əgər namazda səhvən bir müddət danışsa və onun hamısı bir dəfə hesab olunsa, salamdan sonra iki səcdeyi-səhv hamısı üçün kifayətdir.2

### *UNUDULMUŞ SƏCDƏ VƏ TƏŞƏHHÜDÜN QƏZASI*

1– Insanın unutduğu və namazdan sonra qəzasını yerinə yetirdiyi təşəhhüd və səcdədə, namazda olan bütün şərtlər (bədən və paltarın pak olması, üzü qibləyə olmaq və s.) olmalıdır.3

2– Əgər namazın salamı ilə səcdə və ya təşəhhüdün qəzası arasında həm qəsdən, həm də səhvən namazı batil edən işlərdən birini görsə (məsələn, arxasını qibləyə çevirsə), səcdə və təşəhhüdün qəzasını yerinə yetirməli və ehtiyati-vacibə görə* namazı təzədən qılmalıdır.4

3– Təşəhhüdü və səcdəni qəza etməli olan bir kəsə başqa iş üçün də səcdeyi-səhv vacib olsa, namazdan sonra təşəhhüdü, yaxud səcdəni qəza edib sonra səcdeyi-səhvi yerinə yetirməlidir.5

Bir neçə şəri suala cavab:

Sual: Bir şəxs ehtiyat namazının rəkətlərinin miqdarını – bir rəkət, yaxud iki rəkət olmasını necə öyrənə bilər?

Cavab: Ehtiyat namazının rəkətlərinin miqdarı namazda ehtimal verilən nöqsan qədər olmalıdır; əgər 2-ci rəkətlə 4-cü rəkət arasında şəkk etsə, 2 rəkət ehtiyat namazı vacibdir və əgər şəkk 3-cü rəkət ilə 4-cü rəkət arasında olsa, bir rəkət ehtiyat namazı vacibdir. 6

Sual: Namazın zikrlərindən birini, yaxud Quran ayələrindən birini, yaxud da qunut dualarından birini səhvən oxuduqda səcdeyi-səhv vacibdirmi?

---

[1] Sistani. T.m, məs.1248; Lənkərani. T.m, məs.1261
[2] Sistani. T.m, məs.1249; Lənkərani. T.m, məs.1262
[3] Sistani. T.m, məs.1260; Lənkərani. T.m, məs.1273
Sistani: Ehtiyati-müstəhəbə əsasən... *
[4] Sistani. T.m, məs.1264; Lənkərani. T.m, məs.1277
[5] Sistani. T.m, məs.1270; Lənkərani. T.m, məs.1283
[6] Xamenei. "Əcvibətül istiftaat", sual 532

Cavab: Vacib deyildir. [1]

[?] Suallar

1- Namaz qılan ayaq üstə olarkən 4-cü və 5-ci rəkət arasında şəkk etsə, vəzifəsi nədir?

2- Namaz qılan dörd rəkətli namazda rükudan sonrakı qiyam halında 2-ci və 3-cü rəkət arasında şəkk etsə, vəzifəsi nədir?

3- Şəkkin hansı hallarında iki rəkət ehtiyat namazı qılmaq lazımdır?

4- Namaz qılan namaz bitdikdən sonra ehtiyat namazını və ya səcdeyi-səhv etməyi unutsa, vəzifəsi nədir?

[1] Xamenei. "Əcvibətül istiftaat", sual 533

# 29-CU DƏRS

## *MÜSAFIR NAMAZI*

وَإِذَا ضَرَبْتُمْ فِي الأَرْضِ فَلَيْسَ عَلَيْكُمْ جُنَاحٌ أَن تَقْصُرُواْ مِنَ الصَّلاَةِ إِنْ خِفْتُمْ أَن يَفْتِنَكُمُ الَّذِينَ كَفَرُواْ إِنَّ الْكَافِرِينَ كَانُواْ لَكُمْ عَدُوًّا مُّبِينًا

"Səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəyindən qorxsanız, namazı qəsr qılmağınız sizə günah olmaz. Çünki kafirlər sizinlə açıq-aşkar düşməndir."

(Nisa surəsi, ayə 101)

Insan səfərdə olarkən dörd rəkətli namazı aşağıda deyilcək şərtlərlə şikəstə, yəni iki rəkət qılmalıdır:

1– Onun səfəri səkkiz şəri fərsəxdən• az olmasın.

2– Səfərin əvvəlində səkkiz fərsəx getmək fikrində olsun.

3– Yolda dörd fərsəxə çatmamış öz məqsədindən dönməsin.

4– Səkkiz fərsəxə çatmamışdan qabaq öz vətənindən keçmək, on gün və ya ondan artıq bir yerdə qalmaq fikrində olmasın.

5– Haram bir iş üçün səfər etməsin və səfərin özü də haram olmasın.

6– Çöllərdə köçəri həyat tərzi keçirənlərdən olmasın.

7– Onun peşəsi səfər etmək olmasın.

8– Tərəxxüs həddinə çatsın.

Birinci şərt – Əgər gedib-qayıtması səkkiz fərsəx olan bir kəsin, *getməsi dörd fərsəxdən az olmasa, namazı şikəstə qılmalıdır. Amma getməsi üç fərsəx, qayıtması beş fərsəx olsa, namazı tamam qılmalıdır.1

1– Əgər səfərin səkkiz fərsəx olub-olmamasında şəkk etsə*2

❋ Axtarış aparmaq onun üçün məşəqqətli olmasa, ehtiyati-vacibə görə axtarış aparmalıdır.

❋ Axtarış aparmaq məşəqqətli olarsa, (məşəqqət dedikdə əqli məşəqqət deyil, camaat arasında məşəqqət deyilən işlər nəzərdə tutulur) namazı bütöv qılmalıdır.

2– Əgər aralarındakı fasilə dörd fərsəxdən az olan iki yer arasında bir neçə dəfə gedib-gəlsə, üst-üstə səkkiz fərsəx olmasına baxmayaraq, namazı bütöv qılmalıdır. 3

3– Əgər bir məntəqəyə iki yol olsa və onlardan biri səkkiz fərsəxdən az, digəri isə səkkiz fərsəx, yaxud ondan çox olsa, bu halda bir kəs həmin

---

•Bir şəri fərsəx təqribən 5,5 km-dir.

* Sistani: ...istər gedişi və gəlişi dörd fərsəxdən az olsun, ya olmasın, namazı şikəstə qılmalıdır. Buna əsasən əgər gedişi üç fərsəx və qayıdışı beş fərsəx və ya əksinə olsa, namazı şikəstə, yəni iki rəkət qılmalıdır.

[1] Sistani. T.m, məs.1281; Lənkərani. T.m, məs.1294

* Sistani: ...axtarış aparması lazım deyil, namazı bütöv qılmalıdır.

[2] Sistani. T.m, məs.1283; Lənkərani. T.m, məs.1296

[3] Sistani. T.m, məs.1287; Lənkərani. T.m, məs.1300

yerə səkkiz fərsəx olan yolla getsə, namazı şikəstə qılmalıdır. Amma səkkiz fərsəxdən az olan yolla getsə, namazı bütöv qılmalıdır. [1]

4– **Əgər şəhərin divarı olsa, onda səkkiz fərsəxin əvvəlini şəhərin divarından; divarı olmasa şəhərin axırıncı evlərindən hesab etməlidir. [2]

Ikinci şərt – Səfərin əvvəlindən səkkiz fərsəx getmək niyyətində olsun. Deməli əgər səkkiz fərsəxdən az olan yerə səfər edib ora çatandan sonra, gəldiyi yol ilə birlikdə səkkiz fərsəx olacaq bir yerə səfər etsə, bu halda əvvəldən səkkiz fərsəx getməyi niyyət etmədiyi üçün namazı bütöv qılmalıdır.

1– Amma əgər o yerdən səkkiz fərsəx getmək, yaxud dörd fərsəx gedib vətəninə və ya on gün qalmaq istədiyi yerə çatıb qayıtmaq istəsə, (bu şərtlə ki, onun getməsi dörd fərsəxdən az olmasın) namazı şikəstə qılmalıdır.

Üçüncü şərt – Yol əsnasında öz məqsədindən dönərsə:

❋ Dörd fərsəxə çatmamışdan əvvəl namazı bütöv qılmalıdır.

* [3] [4]

*Dörd fərsəxə çatdıqdan sonra*[*]:
- 1- Həmin yerdə qalmağı, yaxud on gündən sonra qayıdacağını qərara alsa
- 2- Qayıtmaq və ya qalmaqda tərəddüdlü olsa

⇨ Namazı bütöv qılmalıdır[1]

- 3- Qayıtmaq qərarına gəlsə ⇨ Namazı şikəstə qılmalıdır[2]

Dördüncü şərt – Səkkiz fərsəxə çatmamışdan qabaq öz vətənindən keçmək, yaxud on gün və ya ondan artıq bir yerdə qalmaq istəməsin. Çünki vətəninə, yaxud on gün qalacağı yerə çatdıqda səfəri başa çatır. Səfərdə qət etdiyi məsafə səkkiz fərsəxdən az olduğu üçün namazı bütöv qılmalıdır.

1– Müəyyən bir yerdə on gün qalmaqda tərəddüddə qalan bir kəs on gün qalmaq, yaxud vətənindən keçmək niyyətindən dönsə, yolun qalan hissəsi səkkiz fərsəx olsa, yaxud dörd fərsəx olsa, amma həmin yolu gedib-qayıtmaq istəsə, namazı şikəstə qılmalıdır. [5]

---

[1] Sistani. T.m, məs.1288; Lənkərani. T.m, məs.1301

**Sistani: Səkkiz fərsəxin əvvəli elə bir yerdən hesab olunmalıdır ki, insan oranı keçdikdən sonra müsafir hesab olunsun. Belə ki, bu yer şəhərin sonu hesab olunan yerdir. Amma bəzi böyük şəhərlərdə məhəllənin son yerindən də hesab oluna bilər. T.m, məs.1289

[2] Lənkərani. T.m, məs.1302

*Sistani: Gedib-qayıtmaq birlikdə səkkiz fərsəx olan yerə çatdıqdan sonra...

[3] Sistani. T.m, məs.1296; Lənkərani. T.m, məs.1309

[4] Sistani. T.m, məs.1297; Lənkərani. T.m, məs.1310

[5] Sistani. T.m, məs.1303; Lənkərani. T.m, məs.1316

Beşinci şərt

| | |
|---|---|
| Səfər haram olduğu üçün namazın bütöv qılındığı hallar | 1- Haram iş (məsələn oğurluq) üçün səfər edilərsə<br>2- Səfərin özü haram olarsa (məsələn səfər onun üçün zərərli olarsa, yaxud qadın ərinin icazəsi olmadan səfər edərsə və s.) |

1– Səfəri haram olmayan və haram iş üçün səfər etməyən bir kəs, səfərdə günah bir iş görsə də (məsələn, qeybət etsə) namazı şikəstə qılmalıdır. 1

Altıncı şərt – Səhralarda köçəri həyat tərzi keçirən, harada özü və mal-qaraları üçün su, yem tapdıqda orada qalıb bir müddətdən sonra başqa yerlərə köçənlər bu səfərdə namazlarını bütöv qılmalıdırlar.

1– Əgər köçəri həyat tərzi keçirən bir şəxs ziyarət, həcc, ticarət və s. üçün səfər etsə, namazını şikəstə qılmalıdır.2

Yeddinci şərt * 3 **

| | |
|---|---|
| *İşi səfər etmək olan şəxs* | 1- Çoban, sürücü, gəmiçi və s. kimi şəxslər* birinci səfərləri istisna olmaqla namazı bütöv qılmalıdırlar. Amma birinci səfər uzun çəkərsə, namazı şikəstə qılmalıdırlar.[3]<br>2- Başqa bir iş üçün (məsələn, ziyarət, həcc və s.) səfər etsə, namazı şikəstə qılmalıdır.** Amma əgər sürücü öz maşınını ziyarət üçün kirayəyə verib özü də onunla birlikdə ziyarətə getsə, namazını bütöv qılmalıdır.[4] |

1– Şəhərin iki-üç fərsəxliyinə get-gəl edən sürücülər və ticarətlə məşğul olanlar təsadüfən səkkiz fərsəx getsələr, namazı şikəstə qılmalıdırlar.4

Səkkizinci şərt – Səfər edən şəxs təraxxüs həddinə çatdıqda namazı şikəstə qılmalıdır.**Yəni vətənindən o qədər uzaqlaşmalıdır ki, şəhərin

---

[1] Sistani. T.m, məs.1305; Lənkərani. T.m, məs.1318

[2] Sistani. T.m, məs.1315; Lənkərani. T.m, məs.1328

*Sistani: ...həmçinin çox səfər edən şəxslər, onların işləri səfərlə bağlı olmasa belə (məsələn: istirahət, yaxud səyahət üçün) namazı bütöv qılmalıdır. T.m, yeddinci şərt.

[3] Lənkərani. T.m, 7-ci şərt

**Sistani: ... Yalnız camaat arasında "kəsirul-səfər" deyilən şəxslərdən başqa.

[4] Sistani. T.m, məs.1316; Lənkərani. T.m, məs.1329

[4] Sistani. T.m, məs.1320; Lənkərani. T.m, məs.1333

divarları görünməsin, azanın səsi eşidilməsin. Səfər edən şəxs evləri və divarları olmayan bir yerdən səfər edib müəyyən bir yerə çatdıqda, əgər həmin yerin divarı olsaydı oradan görünərdirsə, onda namazını şikəstə qılmalıdır.

1– Səfərə gedən bir kəs əgər bir yerə çatıb azanı eşitməsə, amma şəhərin divarlarını görsə, yaxud şəhərin divarlarını görməsə, amma azanın səsini eşitsə namaz qılmaq istəsə, ehtiyati-vacibə görə həm şikəstə, həm də bütöv qılmalıdır. 1

2– Vətəninə qayıdan bir kəs** öz vətəninin divarını görsə və azan səsini eşitsə, namazını bütöv qılmalıdır. Amma müəyyən bir yerdə on gün qalmaq istəyən bir müsafir o yerin divarını görsə və azan səsini eşitsə, ehtiyati-vacibə görə mənzilə çatana qədər namazı təxirə salmalı, yaxud namazı həm şikəstə, həm də bütöv qılmalıdır. 2

Bir neçə şəri suala cavab:

Sual: Həftədə ən azı iki gün müddətində təhsil almaq məqsədilə səfərə çıxan institut tələbələri, yaxud öz işləri üçün bir həftə müddətində səfərə çıxan məmurların hökmü nədir? Halbuki onlar hər həftə səfərə çıxırlar, lakin tələbələr institutun buraxılış günlərində, yaxud məmurlar iş yerlərinin işləməməsi səbəbilə öz əsl vətənlərində bir ay müddətində qalırlar, bu müddət ərzində isə səfərə çıxmırlar. (Bu) bir aydan sonra qaydaya əsasən (ki, səfəri yenidən başlayırlar) ilk səfərdəki namazları qəsr və sonrakı səfərdə tamam olurmu?

Cavab: Elm öyrənmək üçün olan bu səfərdə namazı qəsr qılmaları vacibdir, o səfərdə istər səfərləri həftəlik olsun, istərsə də hər gün, oruc düz deyildir. Amma iş üçün (istər idarə işi olsun, istərsə də azad iş) səfər edən şəxs vətəni (yaxud yaşadığı yer) ilə iş yeri arásında hər on gündə ən azı bir dəfə gedib-gəlirsə işi, peşəsi üçün olan 2-ci səfərdə namazı tamam qılır, o səfərdə orucu da düzdür. Amma əgər iki iş səfəri arasında on gün müddətində vətənində, yaxud başqa yerdə qalsa, iş üçün olan 1-ci səfərdə bu on gün keçəndən sonra namazı qəsr qılır, orucu da tutmur. 3

Sual: Təyin olunmamış bir müddətdə səfər edən şəxslərin (təhsil almaq məqsədi ilə elmiyyə hövzələrinə din tələbələri kimi, yaxud bir şəhərə müəyyən olunmamış müddət ərzində məmuriyyətə (ezamiyyətə) gedən dövlət məmurları kimi) oruc-namazlarının hökmü nədir?

---

*Sistani: ... Vətəndən başqa yerlərdə tərəxxüs həddinin etibarı yoxdur. Belə ki, vətəndən qeyri qaldığı yerdən çıxdıqda namaz qəsr olur. Tərəxxüs həddi isə şəhər əhlinin səfər edəni, səfər edən şəxsin də onları görmədiyi yerdən hesab olunur. T. m, "səkkizinci şərt" və məs.1327

1 Lənkərani. T.m, məs.1340

**Sistani: .. öz vətəninə çatana qədər namazını şikəstə qılmalıdır. Həmçinin bir yerdə on gün qalmaq istəyən şəxs, oraya çatana qədər namazını şikəstə qılmalıdır. T. m, məs.1328

2 Lənkərani. T.m, məs.1341

3 Xamenei. "Əcvibətül istiftaat", sual 666

Cavab: Onların dərs oxuduqları yerdə, yaxud məmuriyyət yerlərindəki hökmləri, nə qədər ki, on gün qalmağı niyyət etməyiblər, başqa səyahətçilərin hökmü kimidir (namazı qəsr qılmaqda, oruc tutmağın düz olmamasında). 1

Sual: Müsafir öz vətənindən xaric olandan sonra əgər bir yoldan keçsə və o yolda öz əsl vətəninin azan səsini eşitsə, yaxud evlərin divarlarını görsə, onda bu, şəri məsafənin qət olunmasına zərər yetirərmi?

Cavab: Bu, nə qədər ki, öz vətənindən keçməyib, məsafənin qət olunmasına zərər yetirməz və bu səbəblə onun səfəri sınmaz, lakin nə qədər ki, o yerdədir, ona səfər hökmü aid olunmaz.2

[?] Suallar

1- Səfərə çıxan şəxs hansı şərtlərlə dörd rəkətli namazı iki rəkət qılmalıdır?

2- Əgər insan səfərin səkkiz fərsəx olub-olmamasında şəkk etsə, vəzifəsi nədir?

3- Səkkiz fərsəxin əvvəli haradan hesablanmalıdır?

4- Namaz qılan səkkiz fərsəxə çatmamış fikrindən dönərsə, namazı necə qılmalıdır?

---

[1] Xamenei. "Əcvibətül istiftaat", sual 668
[2] Xamenei. "Əcvibətül istiftaat", sual 672

# 30-CU DƏRS

## *MÜSAFIR VƏ QƏZA NAMAZI*

Namazın bütöv qılındığı yerlər:

1– Vətəndə; 1

2– On gün qalacağını bildiyi və ya on gün qalmaq niyyəti olduğu bir yerdə; 2

3– Otuz gün tərəddüdlə qaldığı yerdə;yəni otuz gün ərzində qalacağını və ya gedəcəyini bilmədiyi surətdə, otuz gün keçəndən sonra hətta orada az miqdar qalsa belə. 3

Vətən haradır?

1– Insanın yaşamaq üçün seçdiyi yer onun vətənidir: istər o yerdə dünyaya gəlmiş olsun və ata-anasının vətəni olsun, istərsə də onu yaşamaq üçün seçmiş olsun. Bu şərtlə ki, bu yerdə daimi qalmaq fikri olsun. 4

2– Əgər bir kəs əsl vətəni olmayan bir yerdə müəyyən müddət qalıb sonra başqa bir yerə getmək niyyətində olsa, o yer onun vətəni hesab olunmur. 5

3– *Əsl vətəni olmayan bir yerdə həmişəlik qalmaq məqsədi olmayan bir insan üçün o yer onun vətəni hesab olunmur. Amma əgər qalmaq məqsədi olmadan çox qalsa, nəticədə oranın camaatı "bura onun vətənidir" desələr, bu halda vətəni hesab olunur. 6

4– Bir kəs iki yerdə yaşasa (məsələn, altı ay bir şəhərdə, altı ay da başqa şəhərdə qalsa) hər iki yer onun vətənidir. 7

5– Əgər bir kəs əvvəlcə vətəni olan sonra isə orada qalmaq niyyətindən döndüyü bir yerə çatsa, hərçənd özü üçün yeni vətən seçməmiş olsa da, namazı bütöv qılmalıdır. 8

### *ON GÜN QALMAQ NIYYƏTI*

1– Əgər bir kəs müəyyən yerdə on gün ardıcıl olaraq qalmaq niyyətində olsa, yaxud ixtiyarsız olaraq on gün qalacağını bilsə, namazını bütöv qılmalıdır. 1

---

[1] Sistani. T.m, məs.1337; Lənkərani. T.m, məs.1350
[2] Sistani. T.m, məs.1346; Lənkərani. T.m, məs.1357
[3] Sistani. T.m, məs.1362; Lənkərani. T.m, məs.1375
[4] Sistani. T.m, məs.1338; Lənkərani. T.m, məs.1351
[5] Sistani. T.m, məs.1339; Lənkərani. T.m, məs.1352

*Sistani: Insanın öz yaşayışı üçün seçdiyi yerdə daimi məskunlaşmaq niyyəti olmasa belə, əgər xalq arasında o orada müsafir hesab edilməzsə belə ki, on gun və ya artıq müddət başqa bir yerdə qalmağı qərara aldıqda camaat birinci yeri onun yaşayış yeri olaraq görürsə, ora onun üçün vətən hökmü daşıyır. T.m, məs.1340

[6] Lənkərani. T.m, məs.1353
[7] Sistani. T.m, məs.1341; Lənkərani. T.m, məs.1354
[8] Sistani. T.m, məs.1343; Lənkərani. T.m, məs.1356

2– Əgər səfər edən şəxs on gün qalmaq niyyətindən dönərsə: 2

a) Dörd rəkətli namaz qılmazdan əvvəl qalmaq niyyətindən dönərsə, namazı şikəstə qılmalıdır.

b) Bir dörd rəkətli namaz qıldıqdan sonra niyyətindən dönərsə, orada olduğu müddətdə namazını bütöv qılmalıdır.

### *SƏFƏR EDƏN ŞƏXS NAMAZI BÜTÖV QILSA:*

❋ Əgər səfər edən şəxs namazı şikəstə qılmalı olduğunu bilməsə ⇨ qıldığı namaz səhihdir. 3

❋ Namazın şikəstə olduğunu bilib onun bəzi şərtlərini bilməsə (məsələn, səkkiz fərsəxlik məsafədə şikəstə qılacağını bilməyib), bütöv qılsa ⇨ bu halda vaxt vardırsa*, namazı şikəstə qılmalıdır; yox əgər vaxt keçmiş olsa, şikəstə namazın qəzasını yerinə yetirməlidir. 4

1– Namazını tamam qılmalı olan bir kəs şikəstə qılsa, hər bir halda namazı batildir. 5

Aşağıdakı yerlərdə namaz həm bütöv, həm də şikəstə qılına bilər: 6

❋ Məscidül-Həram

❋ Peyğəmbər məscidi

❋ Kufə məscidi*

❋ Imam Hüseyn (ə)-ın hərəmi

### *QƏZA NAMAZI*

1– Aşağıdakı hallarda namazın qəzasını qılmaq vacibdir:

❋ Vacib namaz vaxtında qılınmadıqda7

❋ Namazı qıldıqdan sonra qıldığı namazın batil olduğunu anladıqda8

2– Boynunda qəza namazı olan bir kəs onu qılmaqda süstlük, səhlənkarlıq etməməlidir. Amma dərhal yerinə yetirməsi vacib deyil. 9 ** 10

---

[1] Sistani. T.m, məs.1344; Lənkərani. T.m, məs.1357

[2] Sistani. T.m, məs.1351; Lənkərani. T.m, məs.1364

[3] Sistani. T.m, məs.1368; Lənkərani. T.m, məs.1381

* Sistani: ...ehtiyati lazıma əsasən namazı yenidən qılmalıdır, qalmasa qəzasını yerinə yetirməlidir. Vaxtı keçdikdən sonra başa düşsə, qəzası yoxdur. T.m, məs.1369

[4] Lənkərani. T.m, məs.1382

[5] Sistani. T.m, məs.1372; Lənkərani. T.m, məs.1385

[6] Lənkərani. T.m, məs.1392

* Sistani: .. Hətta Məkkə, Mədinə və Kufə şəhərinin hər yerində namazı tamam qıla bilər. T.m, məs.1365

[7] Sistani. T.m, məs.1379; Lənkərani. T.m, məs.1392

[8] Sistani. T.m, məs.1380; Lənkərani. T.m, məs.1393

[9] Sistani. T.m, məs.1381; Lənkərani. T.m, məs.1398

**Sistani: ...bilməsə, yaxud unutsa az miqdarı qılsa kifayətdir. Amma yaxşı olar ki, əminlik hasil olan miqdar qədər qılsın. Məsələn: qəzaya gedən sübh namazlarının miqdarını unutsa, amma əmin olsa ki, on namazdan çox deyil, ehtiyata əsasən on sübh namazı qılmalıdır.

[10] Sistani. T.m, məs.1392; Lənkərani. T.m, məs.1404

| | | |
|---|---|---|
| ***3– Bir kəsin bir neçə namazı qəzaya getsə və onların sayını**** | bilməsə ⇒ | Az miqdarının qəzasını qılsa, kifayətdir. |
| | Bilib sonra unudubsa ⇒ | Ehtiyati-vacib budur ki, çox miqdarının qəzasını qılmalıdır. |
| | bilirsə ⇒ | Həmin miqdarın qəzasını qılmalıdır.[6] |

4– Gündəlik namazların qəzasını qılarkən ehtiyati vacibə əsasən gündəlik tərtibə riayət olunmalıdır.* Əda vaxtında tərtibə lazım olan namazların (bir günün zöhr və əsr namazı kimi) qəzasında da tərtib riayət olunmalıdır. 1

5– Qəza namazını camaat namazı ilə qılmaq olar-istər imamın namazı əda olsun, istərsə də qəza. Hər ikisinin də (imam və məmum) eyni namazı qılmaları şərt deyil. Məsələn, sübh namazının qəzasını imamın zöhr və ya əsr namazı ilə birlikdə qılmaq olar. 2

6– Namaz şikəstə olan halda qəzaya gedərsə, onun qəzası da istər səfər vaxtı, istərsə də qayıtdıqdan sonra şikəstə qılınmalıdır. 3

7– Əgər səfərdə olduğu vaxt, səfərdə olmadığı vaxtın qəzasını qılmaq istəsə, onu bütöv qılmalıdır.3

8– Qəza namazı olan bir kəs müstəhəb namaz qıla bilər.4

### *ATA-ANANIN BÖYÜK OĞULA VACIB OLAN QƏZA NAMAZI*

1– Nə qədər ki, insan sağdır, hətta öz qəza namazlarını qıla bilməsə də, başqası (naibi) onun qəza namazlarını qıla bilməz.5

**Əgər ata müəyyən üzürlü səbəblərə görə namazını qılmamış olsa, böyük oğula vacibdir ki, onun vəfatından sonra onların qəzasını etsin, yaxud da həmin namazları qılmaq üçün əcir tutsun. Habelə, əgər ata, orucunu xəstəlik, yaxud səfərdə olduğu üçün tutmayıbsa və sağlığında da qəzasını tutmaq mümkün olmayıbsa, böyük oğul onun vəfatından sonra qəzasını tutmalıdır.

2– *Ehtiyati-vacibə görə böyük oğul anasının da oruc-namazlarının qəzasını yerinə yetirməlidir. 6

---

*Sistani: Gündəlik namazların qəzasını qılarkən tərtib vacib deyil...

[1] Sistani. T.m, məs.1384; Lənkərani. T.m, məs.1400

[2] Sistani. T.m, məs.1397; Lənkərani. T.m, məs.1407

[3] Sistani. T.m, məs.1377; Lənkərani. T.m, məs.1396

[4] Sistani. T.m, məs.1382; Lənkərani. T.m, məs.1399

[5] Sistani. T.m, məs.1396; Lənkərani. T.m, məs.1406

**Sistani: ... Əgər ata öz namazını qılmamış olsa, bunu Allahın əmrinə itaətsizlik deyil, qəza edə biləcək halda etmişsə, onun ölümündən sonra böyük oğul ehtiyati-vacibə əsasən bunları yerinə yetirməli və ya onun üçün əcir tutmalıdır. T.m, məs.1399

*Sistani: Ananın namazlarının qəzasını yerinə yetirmək və ya əcir tutmaq daha yaxşı olduğuna baxmayaraq ona vacib deyildir. T.m, məs.1399

[6] Lənkərani. T.m, məs.1409

3– Böyük oğul ata, ya ananın qəza namazını qılarkən öz vəzifəsinə əməl etməlidir. Yəni sübh, məğrib və işa namazlarının ilk iki rəkətini ucadan oxumalıdır. 1

4– Böyük oğul qəzaları yerinə yetirmədən ölsə, sair övladlara qəza vacib deyil. 2

Bir neçə şəri suala cavab:

Sual: Əgər insan etdiyi səfərdə günahlara və haramlara düçar olacağını bilsə, bu halda onun namazı qəsr olacaq, yoxsa tamam?

Cavab: Nə qədər ki, onun səfəri bir vacibin tərk olunması üçün, yaxud haram bir iş üçün deyilsə, bu halda onun hökmü başqa səyahətçilərin hökmü (namazın qəsr qılınmasında) kimidir. 3

Sual: Xahiş edirik ki, əsas və ikinci vətən barəsində nəzərinizi bildirəsiniz.

Cavab: Əsas vətən insanın doğulduğu, bir müddət orada qaldığı və böyüyüb boya-başa çatdığı yerdir. Ikinci vətən isə həddi-buluğa çatan şəxslərin daimi yaşayış üçün, hətta hər ildə bir neçə aylığa qəbul etdiyi yerdir. 4

Sual: Doğum evi atanın vətənindən xaricdə olduğu üçün ananı bir neçə günlüyə oraya aparmaq məcburiyyətində qalırlar və uşaq dünyaya gəldikdən sonra yenidən ananı öz vətəninə qaytarırlar. Bu uşağın vətəni hara sayılır?

Cavab: Xəstəxana ata-ananın yaşadığı vətəndə olsa, o yer uşaq üçün də əsas vətən sayılır və əks təqdirdə (yəni uşaq xaricdə dünyaya gəlsə), təkcə orada doğulmaqla o yer uşaq üçün vətənə çevrilə bilməz. Doğulduqdan sonra aparılacaq və valideynləri ilə birlikdə yaşayacaq valideynlərinin vətəni o uşağın da vətəni olur. 5

Sual: Bir şəxsin öz vətənindən imtina etməsi dedikdə nə nəzərdə tutulur? Qadının təkcə ailə qurması və öz əri ilə getməsi onun öz vətənindən imtina etməsi sayılır, yoxsa yox?

Cavab: Vətəndən imtina etmək dedikdə bir şəxsin bir daha yaşamaq üçün oraya qayıtmamaq fikri ilə vətəndən xaric olması nəzərdə tutulur və təkcə başqa şəhərə ərə getmək öz vətənindən imtina etmək deyildir. 6

Sual: Bir gənc oğlan başqa bir şəhərdən olan qızla ailə qurub. O qız da öz ata-anası yaşayan şəhərə gedərkən namazını tamam qılmalıdır, yoxsa qəsr?

Cavab: Əgər öz əsas vətənindən imtina etməyibsə, onda orada namazlarını tamam qılar. 7

Sual: Əgər bir nəfərin boynunda bir neçə namazın qəzası olsa, o, aşağıdakı ardıcıllıqla qıla bilərmi:

1. 20 gün sübh namazı;

---

[1] Sistani. T.m, məs.1404; Lənkərani. T.m, məs.1417
[2] Sistani. T.m, məs.1407; Lənkərani. T.m, məs.1420
[3] Xamenei. "Əcvibətül istiftaat", sual 694
[4] Xamenei. "Əcvibətül istiftaat", sual 710
[5] Xamenei. "Əcvibətül istiftaat", sual 703
[6] Xamenei. "Əcvibətül istiftaat", sual 709
[7] Xamenei. "Əcvibətül istiftaat", sual 721

2. 20 gün günorta və ikindi namazı;
3. 20 gün şam və xiftən namazı.
Bu ardıcıllığı bu tərtiblə bir il davam etdirə bilərmi?
Cavab: Qeyd olunan ardıcıllıqla qılmasının eybi yoxdur. [1]

[?] Suallar

1- Hansı yerlərdə namazı həm qəsr, həm də bütöv qılmaq olar?

2- Əgər namaz qılan qəza namazlarının sayını bilməsə, vəzifəsi nədir?

3- Qəza namazı və qəza orucu olan şəxs başqasının qəza namazı və orucunu tutmağa əcir ola bilərmi?

4- Yalnız bir namazının qəzaya getdiyini bilən, lakin bunun hansı namaz olduğunu bilməyən şəxsin vəzifəsi nədir?

---

[1] Xamenei. "Əcvibətül istiftaat", sual 541

# 31-CI DƏRS

## *CAMAAT NAMAZI (1)*

قل رسول الله (ص) : "صلاةُ الرَّجُلِ في جَماعَةٍ خيرٌ مِن صَلاتِهِ في بَيْتِهِ اَربَعينَ سَنَةً."

قيلَ : "يا رَسولَ الله! صَلاةُ يَومٍ؟" قيلَ (ص) : "صلاةُ واحدةُ"

Allahın Rəsulu (s) buyurub: "Camaatla qılınan bir namaz evdə qılınan 40 illik namazdan daha yaxşıdır."

Soruşdular: "Bir günün namazlarımı?"

Buyruldu: "Hətta bircə namaz"1

Islam ümmətinin vəhdət və birliyi islamın çox əhəmiyyət verdiyi məsələlərdən biridir. Bu birliyi qoruyub saxlamaq üçün bir sıra əməllər nəzərdə tutulub, onlardan biri də camaat namazıdır.

### *CAMAAT NAMAZININ ƏHƏMIYYƏTI*

1– Müstəhəbdir ki, gündəlik vacibi namazlar camaatla birlikdə qılınsın. 2

2– Sübh, məğrib və işa namazlarında, məxsusən məscidə qonşu olan və məscidin səsini eşidənlər üçün camaat namazında iştirak etmək daha çox tövsiyə olunub.2

3– Müstəhəbdir ki, insan gözləsin və namazı camaatla qılsın.3

4– Camaatla qılınan namaz, əvvəl vaxtda təklikdə qılınan namazdan daha yaxşıdır.3

5– Müxtəsər şəkildə qılınan camaat namazı təklikdə uzun-uzadı qılınan namazdan daha yaxşıdır.4

6– Etinasızlıq üzündən camaat namazında iştirak etməmək caiz deyildir.5

7– Insanın üzrü olmadan camaat namazına getməməsi yaxşı deyil.2

8– Camaat namazı təşkil olunanda təklikdə namaz qılan bir şəxsin namazı yenidən camaatla qılması müstəhəbdir.Əgər sonradan birinci namazının batil oldutunu başa düşsə, ikinci namazı kifayətdir.6

### *CAMAAT NAMAZININ ŞƏRTLƏRI*

❋ Məmum imamdan qabaq durmamalıdır. 7

❋ Imamın dayandığı yer məmumun dayandığı yerdən uca olmamalıdır. 1

---

[1] "Müstədrəkül vəsail", c.6, səh.466
[2] Sistani. T.m, məs.1408; Lənkərani. T.m, məs.1421
[3] Sistani. T.m, məs.1411; Lənkərani. T.m, məs.1424
[4] Sistani. T.m, məs.1411; Lənkərani. T.m, məs.1424
[5] Sistani. T.m, məs.1410; Lənkərani. T.m, məs.1423
[6] Sistani. T.m, məs.1412; Lənkərani. T.m, məs.1425
[7] Sistani. T.m, məs.1441; Lənkərani. T.m, məs.1453

❋ Ehtiyati-vacibə əsasən məmumun səcdə yeri ilə imamın durduğu yerin arasında* bir normal addımdan artıq fasilə olmamalıdır. 2

Imam camaatın şərtləri3

Imam camaat aşağıdakı şərtlərə malik olmalıdır:

❋ Baliğ
❋ Aqil
❋ 12 Imam şiəsi
❋ Adil
❋ Halalzadə
❋ Namazı səhih tərzdə qılan
❋ Kişi* ehtiyati-vacibə əsasən 4

***Kimə iqtida etmək olmaz?***[1]

1-Ayaq üstə namaz qılan oturan halda namaz qılana iqtida edə bilməz.

2-Ayaq üstə namaz qılan uzanan halda namaz qılana iqtida edə bilməz.

3-Oturan halda namaz qılan uzanan halda namaz qılana iqtida edə bilməz.

1– Oturan halda namaz qılan bir kəs elə həmin halda namaz qılan başqa kəsə iqtida edə bilər. 5

2– Əgər imam camaat müəyyən üzr səbəbilə təyəmmüm, yaxud cəbirə dəstəmazı ilə namaz qılsa, ona iqtida etmək olar. 6

3– Yağış yağması üçün qılınan istisqa, habelə Fitr və Qurban namazları istisna olmaqla (onları camaatla qılmaq olar) müstəhəb namazları** camaatla birlikdə qılmaq olmaz. 7

4– Əgər imam özünün gündəlik namazının qəzasını qılsa, ona iqtida etmək olar, amma namazını ehtiyatən qəza edirsə, yaxud başqa bir kəsin namazının ehtiyatən qəzasını edirsə, ona iqtida etmək***işkallıdır. 8

---

[1] Sistani. T.m, məs.1424; Lənkərani. T.m, məs.1436
* Sistani: ... bir iri addımdan artıq fasilə olmasın.
[2] Sistani. T.m, məs.1444; Lənkərani. T.m, məs.1456
[3] Sistani. T.m, məs.1462; Lənkərani. T.m, məs.1474
*Sistani: Məmum kişidirsə, imam da kişi olmalıdır.
[4] Sistani. T.m, məs.1464; Lənkərani. T.m, məs.1476
[5] Sistani. T.m, məs.1465; Lənkərani. T.m, məs.1477
[6] Sistani. T.m, məs.1466; Lənkərani. T.m, məs.1478
**Sistani: ... ehtiyata əsasən...
[7] Sistani. T.m, məs.1416; Lənkərani. T.m, məs.1429
***Sistani: ... caiz deyil...
[8] Sistani. T.m, məs.1418; Lənkərani. T.m, məs.1431

| IMAM CAMAATIN NAMAZI | MƏMUMUN NAMAZI | IZAH |
|---|---|---|
| GÜNDƏLIK NAMAZIN ƏDASI | GÜNDƏLIK NAMAZIN ƏDASI | IMAM CAMAAT GÜNDƏLIK NAMAZ-LARINI QILANDA MƏMUM GÜNDƏLIK NAMAZLARIN HƏR BIRINI ONA IQTIDA EDIB QILA BILƏR. (MƏSƏLƏN, IMAM ƏSRI QILANDA MƏMUM ZÖHRÜ IQTIDA EDƏ BILƏR).1 |
| GÜNDƏLIK NAMAZIN QƏZASI | GÜNDƏLIK NAMAZIN QƏZASI | HƏTTA IMAM VƏ MƏMUM MÜXTƏLIF NAMAZLARIN QƏZASINI QILSALAR BELƏ, IQTIDA ETMƏK OLAR. MƏSƏLƏN, IMAM CAMAAT ZÖHRÜN QƏZASINI, MƏMUM SÜBHÜN QƏZASINI QILA.2 |
| GÜNDƏLIK NAMAZIN ƏDASI | GÜNDƏLIK NAMAZIN QƏZASI | GÜNDƏLIK NAMAZLARIN HƏR BIRININ QƏZASINI ƏDA NAMAZINA IQTIDA ET-MƏK OLAR. MƏSƏLƏN, SÜBH NAMAZI-NIN QƏZASINI ZÖHR NAMAZININ ƏDA-SINA.2 |
| GÜNDƏLIK NAMAZIN QƏZASI | GÜNDƏLIK NAMAZIN ƏDASI | NAMAZLARIN HƏR HANSI BIRINI IQTIDA ETMƏK OLAR.2 |
| AYƏT NAMAZI | AYƏT NAMAZI | HƏTTA MÜXTƏLIF AYƏT NAMAZLARI OLAR-SA, IQTIDA ETMƏK OLAR. MƏSƏLƏN, IMAM ZƏLZƏLƏ ÜÇÜN, MƏMUM ISƏ GÜNƏŞIN TUTULMASI ÜÇÜN AYƏT NAMAZI QILIR. 3 |
| BAYRAM NAMAZI | BAYRAM NAMAZI | FITR VƏ QURBAN BAYRAMLARININ NA-MAZINI CAMAATLA QILMAQ OLAR. 4 |
| BÜTÖV QILINAN NAMAZ | ŞIKƏSTƏ QILI-NAN NAMAZ | SƏHIHDIR, AMMA MƏKRUHDUR (YƏNI SAVABI AZDIR)5 |
| MEYYIT NAMAZI | MEYYIT NAMAZI | MEYYIT NAMAZININ CAMAATLA QILINMASI MÜSTƏHƏBDIR6 |

[1] Sistani. T.m, məs.1417; Lənkərani. T.m, məs.1430
[2] Sistani. T.m, məs.1397; Lənkərani. T.m, məs.1407
[3] Imam Xomeyni. "Təhrirul vəsilə", c.1, məs.12
[4] Sistani. T.m, məs.1416; Lənkərani. T.m, məs.1429
[5] Sistani. T.m, məs.1499; Lənkərani. T.m, məs.1510
[6] Sistani. T.m, məs.618; Lənkərani. T.m, məs.610

Bir neçə şəri suala cavab:

Sual: Camaat namazında imam necə niyyət etməlidir? Fürada niyyəti, yoxsa camaat niyyəti?

Cavab: Əgər (pişnamaz) camaat namazının fəzilətini əldə etmək istəyirsə, imam olmağı və camaat namazının niyyətini etməlidir. Əgər bu niyyətlə (imam olmaq niyyətilə) namaza başlamasa, onun namazında və başqa şəxslərin ona iqtida etməsində heç bir eyb yoxdur. 1

Sual: Tanımadığımız imam-camaata iqtida etmək olarmı?

Cavab: Əgər iqtida edənlər üçün onun ədaləti hər hansı yolla aşkar olarsa, ona iqtida etmək olar. Onunla qılınan namaz da düzdür. 2

Sual: Ədalətin mənası nədir?

Cavab: Ədalət – şərən haram olan işləri görməyə mane olan və təqvaya yönəldən nəfsani bir haldır. Ədalətin sübut edilməsi üçün ümumiyyətlə ədalətli olmağı göstərən hüsni-zahir (zahirən yaxşı olması) kifayətdir. 3

Sual: Imam-camaatın namaz üçün muzd alması düzdürmü?

Cavab: Düzgün deyil. 4

Sual: Imam-camaat iki bayram namazını, yaxud ümumiyyətlə iki namazı bir vaxtda qıla bilərmi?

Cavab: Gündəlik namazda camaat namazını 2-ci dəfə olaraq qılmağın (başqa məmumlar üçün) heç bir eybi yoxdur. Əksinə müstəhəbdir. Amma bayram namazında düzgün deyildir5.

[?] Suallar

1- Hansı müstəhəb namazları camaatla birlikdə qılmaq olar?

2- Hansı vacib namazları camaatla birlikdə qılmaq olar?

3- Camaat namazında imamın şərtlərini deyin.

4- Camaat namazında məmumun şərtlərini deyin.

---

[1] Xamenei. "Əcvibətül istiftaat", sual 561

[2] Xamenei. "Əcvibətül istiftaat", sual 569

[3] Xamenei. "Əcvibətül istiftaat", sual 573

[4] Xamenei. "Əcvibətül istiftaat", sual 579

[5] Xamenei. "Əcvibətül istiftaat", sual 580

# 32-CI DƏRS

## CAMAAT NAMAZI (2)

### CAMAAT NAMAZINA QOŞULMAĞIN(IQTIDA ETMƏYIN) MÜXTƏLIF HALƏTLƏRI[1]

☑ Birinci rəkət

1– Qiraətdə ⇨ məmum Həmd və Surəni demir, qalan əməlləri isə imam camaatla birlikdə yerinə yetirir.

2– Rükuda ⇨ rükunu və qalan əməlləri imam camaatla birlikdə yerinə yetirir.

☑ Ikinci rəkət

1– Qiraətdə ⇨ məmum qunutu və təşəhhüdü imamla birlikdə deməlidir. Ehtiyat budur ki, imam təşəhhüdü oxuyan zaman məmum əllərinin barmaqlarını və ayaqlarının pəncəsini yerə qoyub, dizlərini qaldırsın.

Əgər namaz iki rəkətdirsə, bir rəkətini qalxıb təklikdə qılıb namazı bitirsin.

Əgər üç və ya dörd rəkətdirsə, imam camaatın üçüncü rəkəti, məmumun isə ikinci rəkəti olur. Imam camaat təsbihati-ərbəəni dedikdə, məmum Həmd və Surəni deməlidir.

Imam camaat üçüncü rəkəti bitirib dördüncü rəkətə qalxdıqda, məmum iki səcdədən sonra təşəhhüdü oxuyub qalxmalı və üçüncü rəkəti yerinə yetirməlidir. Namazın axırıncı rəkətində isə imam camaat təşəhhüd və salamı deyəndən sonra namazı bitirir, məmum isə sonuncu rəkətini təklikdə qılır.

2– Rükuda ⇨ rükunu imam camaatla birlikdə yerinə yetirir, namazın qalan hissəsini isə göstərilən qayda ilə qılır.

3– Qunutda ⇨ qunutu imam camaatla birlikdə yerinə yetirir, namazın qalan hissəsini isə qiraət zamanı imama iqtida edərkən göstərilən qayda ilə qılır.

☑ Üçüncü rəkət

1– Qiraətdə ⇨ əgər Həmd və Surəni, yaxud təkcə Həmdi oxumağa vaxtı çatacaqsa, Həmd və Surəni oxumalıdır. Surəni oxumağa vaxtı olmasa, Həmdi tamamlamalı, rükuda özünü imama çatdırmalıdır.

2– Rükuda ⇨ rükuda iqtida etsə, rükunu imam camaatla yerinə yetirməli, Həmd və Surəni oxumaq isə onun öhdəsindən düşür. Namazın qalan hissəsini isə əvvəldə deyilən qayda ilə yerinə yetirməlidir.

☑ Dördüncü rəkət

---

[1] Sistani. T.m, məs.1436-1461; Lənkərani. T.m, məs. 1448-1473

1– Qiraətdə ⇨ üçüncü rəkətin qiraəti zamanı imama iqtida edərkən göstərilən hökm bura da şamil olur. Axırıncı rəkətdə imam təşəhhüd və salamı demək üçün oturduğu vaxt məmum furada niyyətini edərək qalxıb namazını qurtara bilər və ya əllərinin barmaqlarını, ayaqlarının pəncəsini yerə qoyub dizlərini yerdən qaldıraraq, imamın namazın salamını deməsini gözləməli, sonra isə ayağa qalxmalıdır.

2– Rükuda ⇨ rükunu və səcdələri yerinə yetirsin, namazın qalan hissələrini isə deyildiyi kimi tamamlasın.

*CAMAAT NAMAZINDA MƏMUMUN VƏZIFƏSI*

1– Məmum təkbirətül-ehramı imamdan qabaq deməməlidir. Hətta ehtiyati vacib* budur ki, onun təkbirətül-ehramı qurtarmayınca təkbir deməsin.1

2– Məmum Həmd-Surə istisna olmaqla, namazın qalan hissələrinin hamısını özü deməlidir. 2

Məmum imama necə iqtida etməlidir:

❋ Namazın sözlərində: Əgər məmum namazın təkbirətül-ehram və salamlarından başqa qalan hissələrini imamdan qabaq desə, eybi yoxdur. 3

❋ Namazın əməllərində: məsələn, rükuda, rükudan qalxarkən və səcdədə imamdan qabağa keçmək caiz deyil. Əgər qəsdən imamdan qabaq, yaxud ondan bir müddət sonra əməlləri yerinə yetirsə,** günah etmişdir və ehtiyati vacib budur ki, namazı qılıb qurtarandan sonra yenidən qılsın. 4

---

*Sistani: ... ehtiyati müstəhəb... T.m, məsələ: 1476

[1] Lənkərani. T.m, məs.1488

[2] Sistani. T.m, məs.1470; Lənkərani. T.m, məs.1482

[3] Sistani. T.m, məs.1478; Lənkərani. T.m, məs.1490

**Sistani: .. namazı camaatla qılması batildir, amma niyyətini furada çevirə bilər. T.m, məs.1479

[4] Lənkərani. T.m, məs.1491

1

**Əgər məmum səhvən imamdan əvvəl**

- 1-Rükuya getsə[1]
  - 1–Rükudan qalxacağı halda imamın qiraətindən bir hissəsinə çatacaqsa → Qalxıb yenidən imamla birlikdə rükuya getsə, namazı səhihdir. Bu halda hər iki rükuda zikri deməlidir, lakin ehtiyati-vacibə əsasən birinci rükuda bir kiçik zikrdən artıq deməməlidir.
  - 2–Əgər qəsdən qayıtmasa* → Ehtiyati-vacibə görə namazı batildir
  - 3–Əgər başını qaldıracağı halda imamın qiraətindən bir hissəsinə çatmayacaqsa** → Bu halda imamın ona çatmasını gözləsə, namazı səhihdir.
- 2-Rükudan qalxarsa[2] → İmamın rükuda olduğunu görsə,*** rükuya qayıtmalı, imamla birlikdə qalxmalıdır. Bu halda rükn olan rükunun artıqlığı səbəbi ilə namaz batil olmur. Amma əgər rükuya çatmamış imam rükudan qalxsa,**** namazı batildir.
- 3-Səcdəyə getsə***** → İmamın ona çatmasını gözləsə, namazı səhihdir.[3]
- 4-Səcdədən qalxarsa****** → İmamın hələ səcdədə olduğunu görsə, yenidən səcdəyə qayıtmalıdır.[4]

Bir neçə şəri suala cavab:

---

[1] Lənkərani. T.m, məs.1497 və 1498

* Sistani: ... onun camaat namazının səhih olması şübhəlidir. T.m, məs.1485

** Sistani: ... rükunun zikrini deməlidir. Əgər namazını imamla qılmaq məqsədi ilə başını rükudan qaldırıb imamla rükuya getsə, namazı həm furada, həm də camaatla səhihdir. Əgər qəsdən qayıtmasa onun camaatla qıldığı namazın səhihliyi şübhəlidir. T.m, məs.1486

[2] Lənkərani. T.m, məs.1492

*** Sistani: ... ehtiyata əsasən rükuya qayıtmalıdır. T.m, məs.1480

**** Sistani: ... ehtiyata əsasən namazı batildir. T.m, məs.1480

***** Sistani: ... ehtiyata əsasən yenidən səcdəyə qayıtmalıdır. T.m, məs.1481

[3] Lənkərani. T.m, məs.1499

****** Sistani: ... səcdənin zikrini deməlidir. Amma imamla namaz qılmaq məqsədilə başını səcdədən qaldırıb imamla səcdəyə getsə, namazı həm camaatla, həm də furada səhihdir. Əgər qəsdən qayıtmasa, namazı səhihdir, amma furada hesab olunur. T.m, məs.1487

[4] Lənkərani. T.m, məs.1493

Sual: Əgər bir şəxs məscidə camaat namazının 2-ci rəkətində çatsa və məsələni bilməməzlik üzündən sonrakı rəkətdə vacib olaraq deməli olduğu təşəhhüdü və qunutu yerinə yetirməsə namazı düzdür, yoxsa yox?

Cavab: Namazı düzdür, lakin təşəhhüdün qəzasını etmək, səcdeyi-səhv etmək vacibdir.1 1

Sual: Camaat namazının cərgələrindən biri tam şəkildə qəsr qılanlardan, onun arxasındakı cərgə isə namazı tamam qılanlardan təşkil olunur. Birinci cərgə iki rəkət qılıb dərhal sonrakı iki rəkətə iqtida etmək üçün qalxırlar. Bu halda arxa cərgədə olanların son iki rəkətləri camaat namazı sayılırmı?

Cavab: Birinci cərgədəkilərin hamısının namazı qəsr qıldıqlarını nəzərə alsaq, bu halda ikinci cərgənin camaat namazının düzlüyü şübhəlidir. Ehtiyat budur ki, birinci cərgədəkilər salam üçün oturduqda sonrakı cərgələr niyyətlərini fürada edərək namazlarını bitirsinlər. 2

Sual: imam üzürlü olduğu halda qüsl əvəzinə təyəmmüm etsə, onun camaat namazı qılmasında təyəmmüm kifayətdirmi?

Cavab: Əgər o, (imam) şəri cəhətdən üzrlü olsa, cənabət qüsulu əvəzinə təyəmmüm alaraq pişnamaz olması mümkündür və ona iqtida etməyin heç bir eybi yoxdur. 3

Sual: Həddi-buluğa çatmayan məktəb uşaqlarından bir neçəsi üçüncü, yaxud dördüncü cərgədən sonra camaat namazına dayanırlar. Onlardan arxada da həddi-buluğa çatanlar dayansa, bu halda namazın hökmü nədir?

Cavab: Bu halda namazın eybi yoxdur. 4

Sual: Imam-camaatlardan bəzisinin qiraətləri hərflərin məxrəcləri baxımından düz deyildir. Bu halda hərfləri öz məxrəclərindən düzgün şəkildə tələffüz edə bilən şəxs onlara iqtida edə bilərmi?

Cavab: Əgər məmumun nəzərində imamın qiraəti düz olmasa, ona iqtida etməsi və camaat namazı batildir. 5

[?] Suallar

1- Namazın 3-cü və 4-cü rəkətlərində nə zaman və necə iqtida etmək olar?

2- Əgər məmum səhvən imamdan əvvəl rükuya getsə, hökmü nədir?

3- Əgər camaat namazının cərgəsində müməyyiz uşaq olarsa, bu halda qılınan camaat namazına iqtida etmək olarmı?

4- Əgər bir şəxs camaat namazı qılınan vaxt çatarsa, amma neçənci rəkət olduğunu bilməzsə, iqtida edə bilərmi?

---

[1] Xamenei. "Əcvibətül istiftaat", sual 583
[2] Xamenei. "Əcvibətül istiftaat", sual 588
[3] Xamenei. "Əcvibətül istiftaat", sual 597
[4] Xamenei. "Əcvibətül istiftaat", sual 596
[5] Xamenei. "Əcvibətül istiftaat", sual 599

# 33-CÜ DƏRS

## CÜMƏ NAMAZI, AYƏT NAMAZI

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذَا نُودِي لِلصَّلَاةِ مِن يَوْمِ الْجُمُعَةِ فَاسْعَوْا إِلَى ذِكْرِ اللَّهِ وَذَرُوا الْبَيْعَ ذَلِكُمْ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ

"Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığınız zaman Allahı zikr etməyə tələsin və alış-verişi buraxın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!"

(Cümə surəsi, ayə 9)

– Imam Zaman (ə)-ın qaib olduğu dövrdə cümə namazı təxyiri vacibdir. (yəni, mükəlləf şəxs cümə günündə ya zöhr namazını, ya da cümə namazını qılmaqda ixtiyar sahibidir.) Amma cümə namazını qılmaq daha fəzilətlidir.1

### CÜMƏ NAMAZININ QILINMA QAYDASI2

☑ Vacibat:

Cümə namazı iki rəkətdir, sübh namazı kimi qılınır. Cümə namazının iki xütbəsi vardır ki, bu xütbələri imam camaat namazdan əvvəl oxumalıdır.

☑ Müstəhəbbat:

1– Imam cümənin Həmd-Surəni uca səslə oxuması;

2– Imam cümənin 1-ci rəkətdə Həmddən sonra "Cümə" surəsini oxuması;

3– Imam cümənin 2-ci rəkətdə Həmddən sonra "Munafiqun" surəsini oxuması;

4– Iki qunutun tutulması (biri 1-ci rəkətdə rukudan əvvəl, digəri isə 2-ci rəkətdə rukudan sonra)

### CÜMƏ NAMAZININ ŞƏRTLƏRI

1– *Camaat namazında mötəbər olan bütün şərtlər cümə namazında da lazımdır. 3

2– Cümə namazı camaat namazı şəklində qılınmalıdır. Onu furada qılmaq olmaz. 4

3– Cümə namazının bərqərar olması üçün lazım olan ən az say beş nəfərdir ki, onlardan biri imam olmalıdır. 1

---

[1] Lənkərani. T.m, məs.1536

[2] Sistani. "Minhacus-salehin", "səlatul-cümə", -1; Lənkərani. T.m, məs.1558-1559;

* Sistani: Imam camaatın şərtləri imam cümə üçün də şərtdir. "Minhacus-salehin", "səlatul-cümə", -4-

[3] Lənkərani. T.m, məs.1540

[4] Sistani. "Minhacus-salehin", "səlatul-cümə", -5-; Lənkərani. T.m, məs.1539

4– Iki cümə namazı qılınan yerin arasında lazım olan ən az məsafə bir fərsəxdir. 2

***IMAM CÜMƏNIN XÜTBƏLƏRI OXUYARKƏN VƏZIFƏSI:***

1– Ayaq üstə olmalıdır. 3

2– Ehtiyati-vacibə əsasən xütbələri uca səslə oxumalıdır. 4

3– Birinci xütbədən sonra azacıq oturmalı, sonra ikinci xütbə üçün qalxmalıdır. 5

4– Müstəhəbdir:

- Başına əmmamə qoyması;6
- Təmiz paltar geyinməsi və ətirdən istifadə etməsi;1
- Camaatla üzbəüz dayanması və xütbənin əvvəlində camaata salam verməsi;1
- Ehtiyati-müstəhəb budur ki, imam və dinləyicilər xütbə halında (namazda şərt olan) kamil təharətlə olsunlar.7

***CÜMƏ NAMAZI QILAN ŞƏXSLƏRIN VƏZIFƏSI***

1– *Vacibdir ki, məmumlar imam cümənin xütbələrinə qulaq assınlar. 8

2– **Ehtiyati-müstəhəb budur ki, sakit olsunlar.3

3– Ehtiyati-müstəhəb budur ki, məmumlar xütbə halında imamla üzbəüz olub, namazda icazə verilən qədərdən artıq o yana-bu yana dönməsinlər. 9

## Ayət namazı

Vacib namazlardan biri də ayət namazıdır və bu namaz bəzi təbiət hadisələrinin baş verməsi ilə vacib olur:10

---

[1] Sistani. "Minhacus-salehin", "səlatul-cümə", -4-; Lənkərani. T.m, məs.1544

[2] Sistani. "Minhacus-salehin", "səlatul-cümə", -5-; Lənkərani. T.m, məs.1543

[3] Sistani. "Minhacus-salehin", "səlatul-cümə", -1-; Lənkərani. T.m, məs.1567

[4] Lənkərani. T.m, məs.1568

[5] Sistani. "Minhacus-salehin", "səlatul-cümə", -1-; Lənkərani. T.m, məs.1570

[6] Lənkərani. T.m, məs.1566

[7] Lənkərani. T.m, məs.1571

*Sistani: Ehtiyati vacibə əsasən məmumlar imam cümənin xütbələrinə qulaq asmalıdırlar. "Minhacus-salehin", səlatul-cümə", -9-

[8] Lənkərani. T.m, məs.1573

**Sistani: Imam cümə xütbə oxuyarkən danışmaq məkruhdur. Əgər onun danışmağı başqalarının xütbəyə qulaq asmasına mane olarsa, ehtiyata əsasən onların danışmağı caiz deyil. "Minhacus-salehin", "Səlatul-cümə", -9-

[9] Lənkərani. T.m, məs.1572

[10] Sistani. T.m, məs.1500; Lənkərani. T.m, məs.1511

**

- Zəlzələ ⇨ Heç kəs qorxmasa belə, *namaz vacib olar.
- Ayın tutulması
- Günəşin tutulması

} ⇨ Azacıq tutulsa belə və heç kəs qorxmasa da namaz vacib olar.

- İldırım, şimşək və yaxud qara-qırmızı küləklər və s. kimi hadisələrin baş verməsi ilə əgər camaatın əksəriyyəti qorxarsa, namaz vacib olar.

### *AYƏT NAMAZININ QAYDALARI*[1]

1– Ayət namazı iki rəkətdir.

2– Ayət namazının hər rəkətində beş rüku var, hər rukudan əvvəl "Həmd" surəsi və Qurandan hər hansı bir surə oxunmalıdır. Bu halda iki rəkətdə cəmi on Həmd və on başqa surə oxunmuş olar. Amma bir surəni beş yerə bölüb hər rukudan əvvəl bir hissəsini oxumaq da olar.** Beləliklə, iki rəkətdə birlikdə iki Həmd və iki Surə oxunmuş olar:

1-ci rəkətdə

Həmd və "Bismillahir-rəhmanir- rəhim" ⇨ rüku

"Qul huvəllahu əhəd" ⇨ rüku

"Allahus- səməd" ⇨ rüku

"Ləm yəlid və ləm yuləd" ⇨ rüku

"Və ləm yəkun ləhu kufuvən əhəd" ⇨ rüku

Sonra səcdələri yerinə yetirib ikinci rəkət üçün ayağa qalxmalıdır.

2-ci rəkətdə

Ikinci rəkəti birinci rəkət kimi yerinə yetirib sonra təşəhhüd və salamlarla namazı qurtarmalıdır.

### *AYƏT NAMAZININ HÖKMLƏRİ*

1– Ayət namazının vacib olduğu hadisələr hər hansı bir şəhərdə baş versə, yalnız o şəhərin əhalisinə ayət namazını qılmaq vacib olar. Başqa şəhərin əhalisinə isə bu vacib deyil. [2]

2– Əgər ayət namazını qılan şəxs namazın bir rəkətində beş dəfə Həmd və Surə oxusa, o biri rəkətində isə Həmd oxuyub Surəni beş yerə bölsə, eybi yoxdur. [3]

3– Müstəhəbdir ki, 2, 4, 6, 8 və 10-cu rükulardan qabaq qunut tutulsun. Əgər 10-cu rükudan qabaq bir qunut tutulsa, kifayətdir. [4]

4– Ayət namazının hər rükusu rükndür, əgər qəsdən* və ya səhvən azaldılıb-artırılsa, namaz batildir.[1]

---

*Sistani: ... ehtiyati vacibə əsasən...

[1] Sistani. T.m, məs.1516-1517; Lənkərani. T.m, məs.1527,1528

** Sistani: ... Hətta bir ayədən az da oxuya bilər, amma gərək cümlə bütöv olsun...

[2] Sistani. T.m, məs.1503; Lənkərani. T.m, məs.1514

[3] Sistani. T.m, məs.1518; Lənkərani. T.m, məs.1529

[4] Sistani. T.m, məs.1521; Lənkərani. T.m, məs.1532

* Sistani: ....qəsdən azaldılsa, ya çoxaldılsa namaz batil olar. Əgər səhvən azaldılsa, yaxud ehtiyata əsasən səhvən çoxaldılsa da namaz batildir.

5– Ayət namazını camaatla qılmaq olar. Bu halda Həmd və Surələri yalnız imam camaat deməlidir.2

6– Əgər ayət namazı vacib olan hadisələrdən bir neçəsi baş versə, insan onun hər biri üçün bir ayət namazı qılmalıdır. Məsələn, həm günəş tutulsa, həm də zəlzələ baş versə, iki ayət namazı qılınmalıdır. 3

Bir neçə şəri suala cavab:

Sual: Bəzi şəxslər əsassız üzr səbəbilə cümə namazında iştirak etmirlər. Bu barədə sizin rəyiniz nədir?

Cavab: Cümə namazı hərçənd təxyiri vacibdir, lakin daimi olaraq onda iştirak etməkdən boyun qaçırmağa heç bir şəri dəlil yoxdur. 4

Sual: Cümə namazında deyilən "təxyiri vacib"in mənası nədir?

Cavab: Onun mənası budur ki, mükəlləf şəxs cümə gününün vacibini yerinə yetirməkdə cümə namazı qılmaq, yaxud günorta namazı qılmaqda ixtiyar sahibidir. 5

Sual: Camaatla qılınan cümə namazını fürada şəklində qılmaq olarmı? Belə ki, bir nəfər cümə namazını camaatla qılanların yanında fürada şəkildə cümə namazı qıla bilərmi?

Cavab: Cümə namazının düz olma şərtlərindən biri də camaatla qılınmasıdır. Cümə namazını fürada qılmaq düz deyildir.6

Sual: Cümə namazının xütbələrini şəri zöhr vaxtından əvvəl oxumaq düzdürmü?

Cavab: Xütbələri günortadan əvvəl oxumaq o halda düzgün olar ki, xütbələr günortada qurtarsın.7

Sual: Ayət namazı təkcə hadisə baş verən şəhərdə olanlara vacibdir, yoxsa ümumi olaraq bu hadisədən xəbərdar olanlara, hətta orada olmasalar da?

Cavab: Bu namaz hadisə baş verən şəhərdə olanlara vacibdir. Bu məsələ o şəhərlə bitişik olan və onunla bir sayılan şəhərlərdə olanlara da aiddir. 8

Sual: Adətən müəyyən bir məntəqədə zəlzələ baş verdikdən sonra qısa müddətdə onlarla zəif zəlzələlər və yer silkələnmələri müşahidə olunur. Belə hallarda ayət namazlarının hökmü nədir?

Cavab: Şiddətli və ya zəif olmasından asılı olmayaraq hər bir müstəqil zəlzələ üçün ayət namazı qılınmalıdır. 9

Sual: Zəlzələ seysmik mərkəzlərindən bizim yaşadığımız ərazidə bir neçə zəif yer silkələnməsi hadisəsi elan olunsa, onların sayı da qeyd olunsa və lakin biz özümüz bunu heç cür hiss edə bilməsək, onda bizim üçün ayət namazı vacib olarmı?

---

[1] Sistani. T.m, məs.1524; Lənkərani. T.m, məs.1535
[2] Imam Xomeyni. "Urvətul-vusqa", c.1, səh.730
[3] Sistani. T.m, məs.1501; Lənkərani. T.m, məs.1512
[4] Xamenei. "Əcvibətül istiftaat", sual 620
[5] Xamenei. "Əcvibətül istiftaat", sual 618
[6] Xamenei. "Əcvibətül istiftaat", sual 635
[7] Xamenei. "Əcvibətül istiftaat", sual 639
[8] Xamenei. "Əcvibətül istiftaat", sual 729
[9] Xamenei. "Əcvibətül istiftaat", sual 731

Cavab: Zəlzələ baş verən zaman və ya bu zamana bitişik vaxtda onu özünüz hiss etməsəniz onda sizin üçün ayət namazı vacib olmaz. 1

[?] Suallar

1- Cümə namazı ilə zöhr namazının fərqi nədədir?

2- Cümə namazında camaat namazındakı şərtlərdən başqa hansı şərtlər vardır?

3- Xütbə oxunarkən imam-cüməyə və cümə namazı qılan şəxslərə hansı işlər vacibdir?

4- Güclü yağış yağdıqda və sel gəldikdə ayət namazı vacib olarmı?

5- Ildırım çaxarkən ayət namazı hansı şərtlə vacib olar?

---

1 Xamenei. "Əcvibətül istiftaat", sual 732

# 34-CÜ DƏRS

## *MÜSTƏHƏB NAMAZLAR*

Müstəhəb namazlar çoxdur və onlara nafilə deyilir. Bu kitabda onların hamısının izahına imkan olmadığı üçün daha çox əhəmiyyətli olanlarını burada bəyan edirik.

### *ĞUFEYLƏ NAMAZI*[1]

Müstəhəb namazlardan biri ğufeylə namazıdır ki, məğrib və işa namazları arasında qılınır. Bu namazın vaxtı məğrib tərəfdə qızartı çəkilənə qədərdir.

### *ĞUFEYLƏ NAMAZININ QAYDASI*

Ğufeylə namazı iki rəkətdir. Birinci rəkətdə Həmddən sonra Surənin yerinə aşağıdakı ayə oxunur:

وَ ذَالنُّون اِذْ ذَهَبَ مُغَاضِبًا فَظَنَّ اَنْ لَنْ نَقْدِرَ عَلَيْهِ فَنَادَي فِي الظُّلُمَاتِ اَنْ لاَ اِلَهَ الاَّ أَنْتَ سُبْحَانَكَ اِنّي كُنْتُ مِنَ الظَّالِمِينَ فَاسْتَجَبْنَا لَهُ وَ نَجَّيْنَاهُ مِنَ الْغَمِّ وَ كَذَالِكَ نُنْجِي الْمُوْمِنِينَ

Ikinci rəkətdə isə Həmddən sonra Surənin yerinə aşağıdakı ayə oxunur:

وَ عِنْدَهُ مَفَاتِحُ الْغَيْبِ لاَ يَعْلَمُهَا الاَّهُوَ وَ يَعْلَمُ مَا فِي الْبَرِّ وَ الْبَحْرِ وَ مَا تَسْقُطُ مِنْ وَرَقَةٍ الاَّ يَعْلَمُهَا وَ لاَ حَبَّةٍ فِي ظُلُمَاتِ الْاَرْضِ وَ لاَ رَطْبٍ وِ لاَ يَابِسٍ اِلاَّ فِي كِتَابٍ مُبِينٍ

Qunutda isə bu dua oxunur:

اَللَّهُمَّ اِنّي اَسْاَلُكَ بِمَفَاتِحِ الْغَيْبِ الَّتِي لاَ يَعْلَمُهَا اِلاَّ اَنْتَ اَنْ تُصَلِّيَ عَلَي مُحَمَّدٍ وَ آلِي مَحَمَّدٍ وَ اَنْ تَفْعَلَ بِي كَذَا وَ كَذَا

Gündəlik namazların nafiləsi2

---

[1] Sistani. T.m, məs.783; Lənkərani. T.m, məs.775

[2] Sistani. T.m, məs.776-780; Lənkərani. T.m, məs.768-dən 772-ə qədər

| NAMAZIN ADI | NAFILƏ NAMAZININ RƏKƏTLƏRININ SAYI | NAFILƏ NAMAZININ VAXTI |
| --- | --- | --- |
| SÜBH NAMAZI | 2 RƏKƏT | SÜBH NAMAZINDAN ƏVVƏL QILINIR.* ONUN VAXTI GECƏ YARISINDAN ON BIR RƏKƏTLIK NAMAZ VAXTI KEÇƏNƏ QƏ-DƏRDIR.** |
| ZÖHR NAMAZI | DÖRD DƏNƏ 2 RƏKƏTLI NAMAZ (8 RƏKƏT) | ZÖHR NAMAZINDAN ƏVVƏL QILINIR.*** VAXTI ISƏ ZÖHRÜN ƏVVƏLINDƏN ŞA-XISIN KÖLGƏSI ONUN UZUNLUĞUNUN 2/7 MIQDARINA ÇATANA QƏDƏRDIR. |
| ƏSR NAMAZI | DÖRD DƏNƏ 2 RƏKƏTLI NAMAZ (8 RƏKƏT) | ƏSR NAMAZINDAN ƏVVƏL QILINIR.**** VAXTI ISƏ ŞAXISIN KÖLGƏSI ONUN UZUNLUĞUNUN 4/7 MIQDARINA ÇATA-NA QƏDƏRDIR. |

*Lənkərani: .. Ehtiyata əsasən birinci fəcrdən əvvəl qılınmasın. T. m, məs.772

**Sistani: .. və onu sübh namazından əvvəl qılmanın mümkün olduğu zamana qədər davam edir. Əgər bir şəxs sübh namazının nafiləsini şərq tərəfdən qızartı görünənədək qılmasa, yaxşı olar ki, artıq həmin vaxtda sübh namazını qılsın. T. m, məs.780

***Sistani: ... vaxtı günortanın əvvəlindən başlayıb, onu günorta namazından əvvəl qılmağın mümkün olduğu zamana qədər davam edir. Ancaq əgər bir şəxs günortanın nafiləsini günortadan sonra görünməyə başlayan şaxisin kölgəsinin onun boyunun yeddidə ikisinə çatmasına qədər, yəni əgər şaxisin hündürlüyü yeddi qarışdırsa, kölgənin miqdarı iki qarışa çatarsa, artıq bu vaxtda nafiləni qılmayan günorta namazını qılması daha yaxşıdır. T. m, məs.776

****Sistani:... vaxtı isə əsr namazından əvvəl qılmağın mümkün olduğu zamana qədər davam edir. Amma əgər bir şəxs əsrin nafiləsini şaxisin kölgəsinin onun yeddidə dördünə yetişincəyə qədər təxirə salarsa, artıq əsr namazını qılması daha yaxşıdır. T. m, məs.777

| Namazın adı | Nafilə namazının rəkətlərinin sayı | Nafilə namazının vaxtı |
|---|---|---|
| Şam namazı | İki dənə iki rəkətli namaz (4 rəkət) | Məğrib namazından sonra qılı-nır.* Onun vaxtı məğrib namazı tamam olandan sonra başlayıb məğribdən sonra gün batan tərəfdə əmələ gələn qızartının aradan getdiyi vaxta qədər davam edir. |
| İşa namazı | 2 rəkət oturan halda | Onun vaxtı işa namazı qurtarandan başlayıb gecə yarısına qədər davam edir. Daha yaxşı olar ki, işa namazından sonra dərhal qılınsın. |

### *Gecə namazı*

Gecə namazı on bir rəkətdir və aşağıdakı tərtiblə qılınır:1

2 rəkət ⇨ gecə nafiləsi niyyəti ilə
2 rəkət ⇨ gecə nafiləsi niyyəti ilə
2 rəkət ⇨ gecə nafiləsi niyyəti ilə
2 rəkət ⇨ gecə nafiləsi niyyəti ilə
2 rəkət ⇨ şəf nafiləsi niyyəti ilə
1 rəkət ⇨ vətr nafiləsi niyyəti ilə

### *Gecə namazının vaxtı*

1– **Gecə nafiləsinin vaxtı gecə yarısından sübh namazına qədərdir. Daha yaxşı olar ki, sübh namazına yaxın vaxtlarda qılınsın.2

2–*Müsafir olan və gecə namazını gecə yarısından sonra qılmağa çətinlik çəkən, yaxud vaxtında ayıla bilməməsindən qorxan bir kəs, onu gecənin əvvəlində qıla bilər. 3

Bayram namazı

---

*Sistani:... vaxtı onu şam namazından sonra qılmağın mümkün olduğu zamana qədər davam edir. Amma əgər bir şəxs şam namazının nafiləsini günəş batarkən, qərb tərəfdə görünən qızartı çəkilənədək qılmasa yaxşı olar ki, həmin vaxtda artıq işa namazını qılsın. T. m, məs.778

[1] Sistani. T.m, məs.773; Lənkərani. T.m, məs.765

* *Sistani: Məşhur görüşə əsasən, gecə namazının vaxtı, gecə yarısından başlayıb, sübh azanına qədər davam edir. Amma sübh azanına yaxın qılınması daha yaxşıdır. T.m, məs.781

[2] Lənkərani. T.m, məs.773

*Sistani: Əgər bir kəs fəcr vaxtı yuxudan ayılarsa, gecə namazını əda və qəza niyyəti etmədən qıla bilər. T. m, məs.782

[3] Lənkərani. T.m, məs.774

Fitr və Qurban bayramı namazları Imamın (ə) qaib olduğu bizim zəmanəmizdə müstəhəbdir.

Bayram namazının vaxtı

1– Fitr və Qurban bayramı namazlarının vaxtı gün çıxan vaxtdan zöhrə qədərdir. 1

2– Müstəhəbdir ki, Qurban bayramı namazı günəş qalxandan sonra qılınsın. 2

3– Fitr bayramında isə, müstəhəbdir ki, gün qalxandan sonra iftar edib fitrə zəkatı verəndən sonra bayram namazı qılınsın.3

Bayram namazının qılınma qaydası

Fitr və Qurban bayramının namazı iki rəkətdir və aşağıdakı qayda ilə qılınır: 3

❋ 1-ci rəkətdə Həmd və Surədən sonra** beş təkbir deyilməli, hər təkbirdən sonra bir qunut tutulmalıdır. Beşinci qunutdan sonra isə bir təkbir deyib rüku və iki səcdəni yerinə yetirib ayağa qalxmalıdır.

❋ 2-ci rəkətdə Həmd və Surədən sonra dörd təkbir deyilməli, hər təkbirdən sonra qunut tutub beşinci təkbirdən sonra rüku, səcdələri yerinə yetirib namazı qurtarmaq lazımdır.

❋ Fitr və Qurban bayramı namazlarının qunutunda hər dua oxunsa, kifayətdir. Amma daha yaxşı olar ki, aşağıdakı dua oxunsun:4

اللهُمَّ اَنْتَ وَلِيُّ نِعْمَتِي وَ الْقَادِرُ عَلَي طَلِبَتِي تَعْلَمُ حَاجَتِي فَأسْأَلُكَ بِحَقِّ مُحَمَّدٍ وَ

آلِ مُحَمَّدٍ عَلَيْهِ وَ عَلَيْهِمُ السَلاَمُ لَمَّا قَضَيْتَهَالِي

### *MÜSTƏHƏB NAMAZLARA AID ÜMUMI QANUN5*

1- VƏTR VƏ ƏRABI• NAMAZLARINDAN BAŞQA BÜTÜN MÜSTƏHƏB NAMAZLAR IKI RƏKƏTDIR.

2- MÜSTƏHƏB NAMAZLARIN HEÇ BIRININ AZAN VƏ IQAMƏSI YOXDUR.

3- MÜSTƏHƏB NAMAZLARIN HEÇ BIRINDƏ HƏMDDƏN SONRA SURƏ OXUMAQ LAZIM DEYIL. AMMA HƏMDDƏN SONRA MÜƏYYƏN BIR SURƏNIN OXUNULMASI ŞƏRT QOYULSA, ONDA HƏMDDƏN SONRA HƏMIN SURƏ OXUNMALIDIR.

Bir neçə şəri suala cavab:

---

[1] Sistani. T.m, məs.1526; Lənkərani. T.m, məs.1593

[2] Sistani. T.m, məs.1527; Lənkərani. T.m, məs.1594

[3] Lənkərani. T.m, məs.1595

** Sistani: ... yaxşı olar ki, beş təkbir deyilsin, iki təkbirin arasında bir qunut tutulsun. Beşinci təkbirdən sonra bir təkbir də deyilib rüku və iki səcdə yerinə yetirilsin. Sonra isə ayağa qalxaraq ikinci rəkətdə dörd təkbir deyilsin, hər iki təkbirin arasında bir qunut tutulsun. Dördüncü təkbirdən sonra bir təkbir də deyilib rüku, səcdələr, təşəhhüd və salam yerinə yetirilsin. T.m, məs.1528

[4] Sistani. T.m, məs.1529; Lənkərani. T.m, məs.1596

[5] Imam Xomeyni. "Urvətul vusqa", c.1, səh.515, məs.1 və "Təhrirul vəsilə", c.1, səh.165, məs.2

• Ərabi namazı haqqında məlumat almaq üçün "Mülhəqati məfatihil-cinan" kitabının müstəhəb namazlar bölümünə müraciət edin.

Sual: Müstəhəb namazları ucadan və ya alçaqdan qılmaq vacibdirmi?

Cavab: Müstəhəbdir ki, bu namazlar gündüzlər ahəstə və gecələr isə ucadan qılınsın. 1

Sual: Gecə namazının (iki rəkətli qılınan namazları) iki 4 rəkətli, bir 2 rəkətli və bir də vətr namazı qılınmaqla yerinə yetirilməsinə icazə verilirmi?

Cavab: Gecə namazını dörd rəkətli namaz şəklində qılmaq düzgün deyildir. 2

Sual: Vacibdirmi ki, biz gecə namazı qılarkən heç kəs bizdən xəbərdar olmasın? Və eləcə də bu namazı qaranlıqda qılmaq vacibdirmi?

Cavab: Bu namazın qaranlıqda və başqalarından gizlin qılınması şərt deyildir. Amma bu işdə riya edilməsinə icazə verilmir. 3

Sual: Cümə və bayram namazları hansı vacibat növündəndir?

Cavab: Hazırki dövrdə bayram (fitr və qurban) namazları müstəhəbdir, vacib deyildir. Amma cümə namazı təxyiri vacibdir. 4

Sual: Fitr bayramı namazının qəzası varmı?

Cavab: Qəzası yoxdur. 5

Sual: Fitr bayramı namazının iqaməsi varmı?

Cavab: Fitr bayramı namazının iqaməsi yoxdur. 6

Sual: Ata-anaya öz övladlarına neçə yaşında şəriət hökmlərini öyrətmək vacib olur?

Cavab: Müstəhəbdir ki, uşaqların valideynləri onlara yaxşını pisdən ayırmaq vaxtına çatanda şəriət hökmlərini təlim versinlər.7

Sual: Namazın bəzi işlərini səhv yerinə yetirən bir şəxsi gördükdə mənim vəzifəm nədir?

Cavab: Bu barədə sizin üzərinizə heç bir məsuliyyət düşmür, amma onun bu səhvi hökmü bilməməzlik üzündən olsa, onda ehtiyat budur ki, onu düzgün qılmağa istiqamətləndirəsiniz.8

Sual: Namaz qurtardıqdan sonra namaz qılanların bir-biri ilə əl verib salamlaşması barədə Sizin rəyiniz necədir? Bir halda ki, hörmətli alimlərdən bəziləri bu barədə bizə Məsum Imamlardan (ə) bir şey gəlib çatmadığını və salamlaşmaq üçün heç bir səbəbin olmadığını söyləyirlər. Amma biz salamlaşmağın namaz qılanlar arasında məhəbbət və dostluq əlaqələrini artırmasını görürük.

Cavab: Namaz qurtardıqdan sonra salamlaşmağın eybi yoxdur. Ümumiyyətlə, möminlərin bir-biri ilə salamlaşması müstəhəbdir.9

[?] Suallar———————————————

1- Əsr və Işa namazlarının nafiləsi neçə rəkətdir və nə vaxt qılınır?

2- Gecə namazını gecə yarısından əvvəl qılmaq olarmı?

---

[1] Xamenei. "Əcvibətül istiftaat", sual 733
[2] Xamenei. "Əcvibətül istiftaat", sual 734
[3] Xamenei. "Əcvibətül istiftaat", sual 735
[4] Xamenei. "Əcvibətül istiftaat", sual 645
[5] Xamenei. "Əcvibətül istiftaat", sual 647
[6] Xamenei. "Əcvibətül istiftaat", sual 648
[7] Xamenei. "Əcvibətül istiftaat", sual 743
[8] Xamenei. "Əcvibətül istiftaat", sual 746
[9] Xamenei. "Əcvibətül istiftaat", sual 747

3- Fitr və Qurban bayramı namazının vaxtı nə vaxtdır və onları hansı vaxtda qılmaq müstəhəbdir?

4- Bayram namazının neçə qunut və neçə rükusu vardır?

# 35-CI DƏRS

## ORUC

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

"Ey iman gətirənlər, oruc sizdən əvvəlkilərə vacib olduğu kimi sizə də vacib edilmişdir, bəlkə pəhrizkar olasınız."
(Bəqərə surəsi, 183-cü ayə)

– Oruc Allah–Taalanın fərmanını yerinə yetirmək üçün insanın sübh azanından məğribə qədər orucu batil edən şeylərdən pəhriz etməsidir.1

***Orucun növləri***
- ⇨ Vacib
- ⇨ Haram
- ⇨ Müstəhəb
- ⇨ Məkruh

### *VACIB ORUCLAR*

❋ Mübarək Ramazan ayının orucu;
❋ Qəza orucu;
❋ Kəffarə orucu;
❋ Nəzr, əhd, and və s. vasitəsi ilə vacib olan oruc;
❋ Atanın* böyük oğula vacib olan qəza orucu**

### *HARAM ORUCLAR*

❋ Fitr bayramı günündə oruc tutmaq2
❋ Qurban bayramı günündə oruc tutmaq1
❋ Şəban ayının axırı, yaxud Ramazan ayının əvvəli olduğu məlum olmayan gündə Ramazan ayı niyyəti ilə oruc tutmaq1
❋ Övladın müstəhəb oruc tutması ata-anasının əziyyətinə səbəb olarsa3
❋ Qadının müstəhəb oruc tutması ilə ərinin haqqı tapdanarsa4

### *MÜSTƏHƏB ORUCLAR*

Məkruh və haram günlərdən başqa ilin bütün günlərində oruc tutmaq müstəhəbdir. Bəzi günlər oruc tutmaq üçün daha artıq tövsiyyə olunmuşdur. O cümlədən: 1

---

[1] Lənkərani. T.m, məs.1626
*Sistani: ....ehtiyati-vacibə əsasən....
**Lənkərani. ... ehtiyati-vacib budur ki, böyük oğul anasının da orucunun qəzasını yerinə yetirsin. T. m, məs.1409
[2] Sistani. T.m, məs.1748; Lənkərani. T.m, məs.1804
[3] Sistani. T.m, məs.1750; Lənkərani. T.m, məs.1806
[4] Sistani. T.m, məs.1749; Lənkərani. T.m, məs.1805

❋ Hər hicri-qəməri ayın birinci və axırıncı cümə axşamı günləri oruc tutmaq;

❋ Hicri-qəməri ayın onundan sonra olan birinci çərşənbədə oruc tutmaq;

❋ Hər hicri-qəməri ayın 13,14,15-ci günləri oruc tutmaq;

❋ Rəcəb və Şəban aylarının bütün və ya onların bəzi günlərində (hətta bir gün də olsa belə) oruc tutmaq;

❋ Novruz bayramı günü oruc tutmaq;

❋ Zilqədənin 25- ci və 29-cu günü oruc tutmaq;

❋ Zilhəccənin 1-dən 9-na kimi oruc tutmaq;

❋ "Ərəfə" günü oruc tutmaq. Amma əgər zəiflik səbəbilə "Ərəfə" gününün dualarını oxuya bilməsə, o günün orucu məkruhdur;

❋ Peyğəmbər (s)-ın mübarək mövludu günündə (17 Rəbiül əvvəl) və besət günü (27 Rəcəb) oruc tutmaq

❋ "Qədir Xum" bayramında (18 Zilhəccə) oruc tutmaq;

❋ Məhərrəm ayının 1-i və 3-ü orus tutmaq.

Məkruh oruclar2

❋ "Aşura" günü oruc tutmaq;

❋ "Ərərfə", yaxud Qurban bayramı olması məlum olmayan gündə oruc tutmaq

## *Niyyət*

1– Insanın oruc tutmaq niyyətini qəlbindən keçirtməsi, yaxud "sabah oruc tuturam" deməsi vacib deyil. Hətta əgər Allahın əmrini yerinə yetirmək üçün sübh azanından məğribə qədər orucu batil edən işləri görməsə kifayətdir. 3

4*5 ** 6 *** 7 ****

---

[1] Sistani. T.m, məs.1757; Lənkərani. T.m, məs.1813

[2] Sistani. T.m, məs.1756; Lənkərani. T.m, məs.1812

[3] Sistani. T.m, məs.1559; Lənkərani. T.m, məs.1627

[4] Sistani. T.m, məs.1560; Lənkərani. T.m, məs.1641

[*] Sistani: Agah olan şəxs üçün Ramazan ayının orucunun ən son niyyət vaxtı sübh azanı zamanıdır. Belə ki, ehtiyati vacibə əsasən sübh azanı verildikdə həmin şəxs oruc niyyətində olmalıdır. T.m, məs.1561

[5] Sistani. T.m, məs.1670; Lənkərani. T.m, məs.1628

[**] Sistani: ... ehtiyati vacibə əsasən ...

[6] Lənkərani. T.m, məs.1640

[***] Sistani: ... ehtiyati-vacibə əsasən.... T.m, məs.1576

[7] Lənkərani. T.m, məs.1629

[****] Sistani:... ehtiyata əsasən orucu batil edən işlərdən çəkinsin və o günün olrucunun da qəzasını tutsun. T.m, məs.1563

| | |
|---|---|
| 2- Niyyətin vaxtı | – İnsan Ramazan ayının hər gecəsində sabahkı günün orucunu niyyət edə bilər. Daha yaxşı olar ki, ayın ilk gecəsində bütün ayın orucunun niyyəti edilsin.[1]<br>– *Gecənin əvvəlindən sübh azanına qədər hər vaxt sabahkı günün orucunun niyyətini etsə, eybi yoxdur.[2] |

| | | |
|---|---|---|
| 3-Əgər insan Ramazan ayının olduğunu bilməsə, yaxud unutsa[2] | –Günortadan qabaq başa düşərsə və orucu batil edən işlərdən görməyibsə ⇨ | Oruca niyyət etməlidir və orucu səhihdir. |
| | –Günortadan sonra başa düşərsə və orucu batil edən işlərdən** görübsə ⇨ | Orucu batildir, lakin məğribə qədər orucu batil edən işləri görməməlidir, sonra isə qəzasını tutmalıdır. |
| 4- Əgər Ramazan ayında xəstə[3] | –Günortadan qabaq sağalarsa və o vaxta qədər orucu batil edən işlərdən görməzsə ⇨ | ***Oruc niyyəti edib o günü oruc tutmalıdır. |
| | –Günortadan sonra sağalarsa ⇨ | O günün orucu ona vacib deyil |
| 5- Sübh azanından əvvəl oruc niyyəti etmədən yatan şəxs[4] | –Zöhrdən qabaq oyanıb niyyət etsə ⇨ | Orucu səhihdir |
| | –Zöhrdən sonra oyansa ⇨ | ****Vacib orucu niyyət edə bilməz |

6– Əgər bir kəs Ramazan ayı olduğunu bilsə və qəsdən Ramazan ayından başqa orucu niyyət etsə, onun orucu nə Ramazan ayının orucu, nə də niyyət etdiyi oruc hesab olunur. 1

7– İnsan Şəbanın axırı, yaxud Ramazanın əvvəli olmasında şəkk etsə, oruc tutması vacib deyil. Amma əgər oruc tutmaq istəsə, Ramazan ayının orucunun niyyətini edə bilməz. Qəza və s. kimi orucların niyyətini etsə və sonradan Ramazan ayı olduğu məlum olsa, tutduğu oruc Ramazan ayının orucundan hesab olunur.2

Bir neçə şəri suala cavab:

Sual: Bir nəfər həddi-buluğa çatıb, lakin fiziki cəhətdən bədəni çox zəif olduğu üçün mübarək Ramazan ayının orucunu tuta bilmir və gələn ilin Ramazan ayına qədər keçən orucların qəzasını tutması mümkün deyildir. Onun hökmü necədir?

---

[1] Sistani. T.m, məs.1565; Lənkərani. T.m, məs.1631
[2] Sistani. T.m, məs.1577; Lənkərani. T.m, məs.1642

Cavab: Təkcə zəiflik və imkan olmaması üzündən oruc və onun qəzasını tutmaqda aciz olmaq, onun üzərindən orucun qəzasını götürməz. Vacibdir ki, Ramazan ayında tutduğu orucların qəzasını yerinə yetirsin.1

Sual: Əgər bir qadın Ramazan ayında məğrib azanına 2 saat və ya bir qədər də az qalmış heyz olsa, orucu batil olarmı?

Cavab: O qadının orucu batil olar. 2

Sual: Mən daimi siqaret çəkən şəxslərdənəm və mübarək Ramazan ayında nə qədər çalışıramsa, özümü bu işdən saxlaya bilmirəm. Belə halda öz ailəmə qarşı da çox narahatedici işlərin qarşısını ala bilmirəm. Əsəb gərginliyi cəhətindən dərd çəkirəm. Mənim vəzifəm nədir?

Cavab: Ramazan ayının orucu sizə vacibdir və oruc tutduğunuz halda siqaret çəkməyə icazə verilmir. Başqaları ilə də əbəs yerə hiddətli davranmaq olmaz və siqareti tərgitməyin əsəbləşməklə heç bir əlaqəsi yoxdur. 3

[?] Suallar

1- Aşağıdakı günlərdə oruc tutmağın hökmünü deyin:

Zilhəccə ayının 7-si; Rəbbiül-əvvəl ayının 17-si;

Məhərrəm ayının 10-nu; Rəcəb ayının 27-si;

Zilhəccə ayının 10-nu.

2- Əgər insan Ramazan ayı olduğunu bilməsə, günortadan sonra başa düşsə, nə etməlidir?

3- Bir şəxs Şaban ayının axırı, yaxud Ramazan ayının əvvəli olduğuna şəkk etsə vəzifəsi nədir?

4- Yalnız Ramazan ayının Qədr gecələrində oruc tutmağı nəzr edən şəxsin oruclarının hökmü nədir?

5- Hansı halda gün ərzində Ramazan ayının orucunun niyyətini etmək olar?

---

[1] Xamenei. "Əcvibətül istiftaat", sual 748

[2] Xamenei. "Əcvibətül istiftaat", sual 757

[3] Xamenei. "Əcvibətül istiftaat", sual 761

# 36-CI DƏRS

## *ORUCU BATIL EDƏN ŞEYLƏR*

Orucu batil edənlər aşağıdakılardan ibarətdir:

1– Yemək;
2– Içmək;
3– Cima;
4– Istimna;
5– Allah, Peyğəmbər(s) və onun canişinlərinin (ə) adından yalan demək;
6– Qatı tozu boğaza çatdırmaq;
7– Başın hər yerini suya batırmaq;
8– Sübh azanına qədər cənabət, heyz və nifas halında qalmaq;
9– Axıcı (maye) şeylərlə imalə etmək;
10– Qusmaq.

1 və 2 ⇨ Yemək və içmək 1 2

***Yemək və içmək***

- ***Qəsdən:*** Əgər oruc tutan qəsdən bir şey yesə və ya içsə, hərçənd həmin şey yeməli, içməlilərdən olmasa belə, məsələn: torpaq, neft və s. kimi ⇨ Orucu batildir[1]
- ***Səhvən:*** Əgər oruc tutan səhvən bir şey yesə və ya içsə ⇨ Orucu batil olmaz[2]

1– Dişlərin dibindən çıxan yemək qalıqlarını bilərəkdən udmaq orucu batil edər.3

2– Ağız suyunu udmaq-hətta əgər turşluq və s-ni təsəvvür etməklə də ağıza yığılsa, orucu batil etmir. 4

3– Başdan, sinədən gələn suyu (bəlğəm və burun suyunu) nə qədər ki, ağızın fəzasına çatmayıb udmağın eybi yoxdur. Amma ağızın fəzasına daxil olsa, *ehtiyati-vacibə görə udulmamalıdır.5

4– Əgər bir kəs yemək əsnasında sübhün açıldığını başa düşsə ağzındakı tikələri çıxartmalıdır. Əgər qəsdən udsa, orucu batildir və sonrakı deyiləcək göstərişlərə əsasən kəffarə də vacibdir.6

5– Əgər oruc tutan şəxs həddindən artıq susuz olsa və susuzluqdan ölüm təhlükəsi gözlənilsə, ölümdən nicat tapacaq qədər su içə bilər, lakin

---

[1] Sistani. T.m, məs.1582; Lənkərani. T.m, məs.1646
[2] Sistani. T.m, məs.1584; Lənkərani. T.m, məs.1547
[3] Sistani. T.m, məs.1586; Lənkərani. T.m, məs.1646
[4] Sistani. T.m, məs.1588; Lənkərani. T.m, məs.1652
*Sistani: ... ehtiyati-müstəhəbə əsasən ...
[5] Sistani. T.m, məs.1589; Lənkərani. T.m, məs.1653
[6] Sistani. T.m, məs.1583; Lənkərani. T.m, məs.1649

orucu batil olur. Əgər bu iş Ramazan ayında baş versə,** günün qalan hissəsində orucu batil edən işlərdən çəkinməlidir. 1

6– Insan zəifliyə görə orucunu poza bilməz. Amma onun zəifliyi həddindən artıq olsa və adətən dözülməz olsa, orucu yeməsinin eybi yoxdur.2

3 ⇨ Cima (cinsi əlaqə)

Cima orucu batil edər. 3

4 ⇨ Istimna

1– Əgər oruc tutan şəxs istimna etsə, yəni özü ilə məninin xaric olmasına səbəb olan bir iş görsə, orucu batildir.1

5 ⇨ Allahın və Peyğəmbərin(s) adından yalan danışmaq

* 4 5 ** 1

2

**Allahın və Peyğəmbərin(s)adından yalan danışmaq**

– Əgər oruc tutan şəxs Allah, Peyğəmbər (s) və o Həzrətin canişinlərinin (ə) adından deмək, yazmaq, işarə etmək və s. kimi işlərlə yalan desə, orucu batildir. Ehtiyati-vacib* budur ki, sair peyğəmbərlər və onların canişinləri, habelə, Həzrət Zəhra (ə.s) da bu hökmdə eynilədir.[2]

– Əgər bir şeyin düzlüyünə etiqad bəsləyərək Allahın və ya Peyğəmbərin (s) adından nəql etsə, sonra isə yalan olduğunu başa düşsə, orucu batil olmaz.[3]

– Əgər Allah və Peyğəmbərin (s) adından yalan deməyin orucu batil etdiyini bilsə və yalan hesab etdiyi bir şeyi onlara aid edib sonradan düz olduğunu başa düşsə, **orucu səhihdir.[4]

***Əgər insan səhih və yaxud yalan olduğunu bilmədiyi bir hədisi nəql etmək istəsə[5]***

– Ehtiyati vacibə görə o hədisi ona nəql edən şəxsin adından desin

– Yaxud o hədisi yazıldığı kitabdan nəql etsin

** Sistani: ... ehtiyati-vacibə əsasən həmin miqdardan çox içməməlidir.
1 Sistani. T.m, məs.1590; Lənkərani. T.m, məs.1650
2 Sistani. T.m, məs.1592; Lənkərani. T.m, məs.1655
3 Sistani. T.m, məs.1593; Lənkərani. T.m, məs.1656
1 Sistani. T.m, məs.1597; Lənkərani. T.m, məs.1659
*Sistani: ... ehtiyati-müstəhəbə əsasən ...
2 Sistani. T.m, məs.1605; Lənkərani. T.m, məs.1665
3 Sistani. T.m, məs.1607; Lənkərani. T.m, məs.1667

6 ⇨ Qatı tozu boğaza çatdırmaq

Qatı toz oruc tutan şəxsin boğazına çatsa* orucu batil olar. Istər bu toz yeməlilərdən olsun: (məsələn: unun tozu), istərsə də başqa şeylərdən (məsələn: qum) olsun. 3

Aşağıdakı hallarda toz boğaza çatsa belə oruc batil olmaz:4

❋ Toz qatı olmadıqda;

❋ Boğaza çatmadıqda (yalnız ağıza daxil olduqda);

❋ Ixtiyarsız olaraq boğaza çatdıqda;

❋ Oruc olduğu unudulduqda;

❋ Qatı tozun boğaza çatıb-çatmamasında şəkk etdikdə.

1– Ehtiyati- vacib budur ki, oruc tutan şəxs, siqaret və tənbəki və s. kimi şeylərin də tüstüsündən çəkinsin.5

Bir neçə şəri suala cavab:

Sual: Oruc tutan şəxsin ağzından qan gəlsə orucu batil olarmı?

Cavab: Bununla oruc batil olmaz, amma vacibdir ki, qanın boğazına çatmasının qarşısını alsın. 6

Sual: Xahiş edirəm oruc tutan şəxsin mübarək Ramazan ayında burnuna dərman tökməsi barədə nəzərinizi bildirəsiniz.

Cavab: Əgər ondan istifadə etməklə burnundan bir şey keçib boğaza daxil olarsa, onda oruc tutana icazə verilmir.7

Sual: Əgər oruc tutanın ağzına zorla bir şey daxil edilsə, yaxud başını suya batırsalar, orucu batil olarmı? Yaxud da onu orucunu batil etməyə məcbur etsələr, məsələn desələr ki, əgər yemək yeməsən sənə, yaxud malına ziyan yetiriləcək. Bu şəxs də bu zərəri dəf etmək üçün yemək yeyir. Bu adamın orucu düzgündürmü?

Cavab: Zorla oruc tutanın ağzına bir şey daxil etmək və ya başını suya batırmaq onun orucunu batil etməz. Amma başqasının məcburiyyəti ilə özü yesə, onda orucu batil olar. 8

[?] Suallar

1- Əgər bir şəxs Ramazan ayında gün ərzində yemək yeyib, yalnız qüruba yaxın oruc olduğunu xatırlayarsa, onun orucunun hökmü necədir?

2- Əgər bir şəxs həqiqətdən kənar bir söz danışarsa, orucu batil olarmı?

3- Əgər bir şəxs bir şeyin düzgünlüyünə etiqad bəsləyərək Allahın və ya Peyğəmbər (s)-ın adından nəql edib sonra isə yalan olduğunu başa düşsə orucunun hökmü necədir?

---

** Sistani: ...ehtiyati-vacibə əsasən orucu tamamlamalı, onun qəzasını da tutmalıdır.

4 Sistani. T.m, məs.1607; Lənkərani. T.m, məs.1668

5 Sistani. T.m, məs.1606; Lənkərani. T.m, məs.1666

*Sistani: ... ehtiyati-vacibə əsasən ...

3 Sistani. T.m, məs.1612; Lənkərani. T.m, məs.1672

4 Sistani. T.m, məs.1613-1617; Lənkərani. T.m, məs.1674

5 Sistani. T.m, məs.1615; Lənkərani. T.m, məs.1673

6 Xamenei. "Əcvibətül istiftaat", sual 776

7 Xamenei. "Əcvibətül istiftaat", sual 777

8 Xamenei. "Əcvibətül istiftaat", sual 816

# 37-CI DƏRS

7⇨ Başı suya batırmaq
1 * 2 ** 3 4

- **1-Başı suya batırmaq**
  - **Qəsdən**[1]
    - Əgər oruc tutan şəxs başının hər yerini suya batırsa, hətta bədəni sudan çöldə olsa da* ⇨ Ehtiyati vacibə görə o orucun qəzasını tutmalıdır
    - Amma əgər bədənin hamısı suyun altında, başının bir qədəri isə çöldə olsa ⇨ Oruc batil olmaz
  - **Səhvən**[2]
    - Oruc tutan şəxs ixtiyarsız olaraq suya düşsə və başının hamısı suya batsa, yaxud oruc olduğunu unudub başını suya batırsa ⇨ Oruc batil olmaz
- **2-Oruc olan**
  - –Oruc olduğunu unudub qüsl niyyəti ilə başını suya batırsa ⇨ Orucu və qüsulu səhihdir[3]
  - – Oruc olduğunu bilib qüsl üçün qəsdən başını suya batırsa[4]
    - 1- Onun orucu vaxtı müəyyən orucdursa (Ramazan ayının orucu kimi) ⇨ Ehtiyati vacibə görə qüsulunu yenidən alıb orucunu da qəza etməlidir
    - 2- Onun orucu vaxtı müəyyən olmayan orucdursa (müstəhəb, yaxud kəffarə orucu kimi) ⇨ Qüsulu səhih, orucu isə batildir

3– Oruc tutan şəxs əgər əvvəlcə başın bir yarısını, sonra isə o biri yarısını suya batırsa, orucu batil olmaz.5

4– Vacib oruc tutan şəxs irtimasi qüsl edə bilməz, amma tərtibi qüsl edə bilər.1

---

1 Sistani. T.m, məs.1618; Lənkərani. T.m, məs.1675
*Sistani: ... orucu batil olmur, amma bu iş çox kərahətlidir
2 Sistani. T.m, məs.1622; Lənkərani. T.m, məs.1680
**Sistani. Əgər oruc tutan şəxs qüsl niyyəti ilə başını suya batırsa, orucu və qüsulu hər ikisi səhihdir. T.m, məs.1626
3 Lənkərani. T.m, məs.1683
4 Lənkərani. T.m, məs.1684

5 Sistani. T.m, məs.1619; Lənkərani. T.m, məs.1676

8 ⇨ Sübh azanına qədər cənabət, heyz və nifas halında qalmaq* 2 3 ** 4

- 1-Cünub şəxs sübh azanına qədər
  - –Qəsdən qüsl etməsə, yaxud vəzifəsi təyəmmüm olduğu halda qəsdən təyəmmüm etməsə[*] ⇨ Orucu batildir[3]
  - –Qəsdən qüsl etməsə və vaxtı azalsa, Ramazan ayı kimi vaxtı müəyyən olan vacibi orucu tutmaq üçün ⇨ Təyəmmümlə orucunu tuta bilər, orucu da səhih-dir.[4**]
- 2-Əgər cünub olan şəxs Ramazan ayının qüsulunu unutsa
  - –Əgər bir gündən sonra yadına düşsə ⇨ Həmin günün qəzasını etməlidir[5]
  - –Əgər bir neçə gündən sonra yadına düşsə ⇨ Cünub olduğunu dəqiq bildiyi hər günün qəzasını etməlidir.[5]

*1 ** 2 *** 3

---

[1] Lənkərani. T.m, məs.372

[*]Sistani: .. o günün orucunu axıra qədər tutmalı, başqa bir gün isə "məfizzimmə" niyyəti ilə onun qəzasını tutmalıdır. T. m, məs.1628

[2] Lənkərani. T.m, məs.1686

[3] Lənkərani. T.m, məs.1688

[**]Sistani: ... o günün orucunun qəzasını etmək ehtiyati müstəhəbdir. T.m, məs.1630

[4] Sistani. T.m, məs.1631; Lənkərani. T.m, məs.1689

*

3-Ramazan ayında cünub olan şəxsin hökmləri

- –Bir şəxs Ramazan ayının gecəsində cünub olsa və yatacağı halda sübhə qədər oyana bilməyəcəyini bilsə,* yatmamalıdır. Əgər yatsa və sübhə qədər oyanmasa, orucu batildir. Qəza və kəffarə də vacibdir.[1]
- –Əgər cünub olan şəxs Ramazan ayının gecəsində yatıb sonra ayılsa, bu halda əgər yenidən yatarsa** qüsl üçün oyanacağına ehtimal versə və adətən də oyanırsa, yata bilər.[2]
- –Əgər oruc tutan şəxs gündüz möhtəlim olsa, dərhal qüsl alması vacib deyil.***[3]

Sübh azanına qədər heyz və nifas halında qalmaq 4 5

***Ramazan ayında qadın sübh azanından qabaq heyz və nifasdan paklanıb***

- –Qəsdən qüsl etməsə, yaxud vəzifəsi təyəmmüm olduğu halda qəsdən təyəmmüm etməsə ⇒ Orucu batildir[4]
- –Qüsl etməyə vaxtı olmasa ⇒ Təyəmmüm etməlidir və orucu səhihdir[5]

---

Sistani: ... qüsl etmədən yatmamalıdır. Əgər qüsl etmədən ixtiyari olaraq yatarsa və sübh azanına qədər oyanmazsa, o günün orucunu başa çatdırmalıdır, həmin günün qəza və kəffarəsi də vacibdir.

[1] Sistani. T.m, məs.1634; Lənkərani. T.m, məs.1691

**Sistani: ..ehtiyati vacibə əsasən oyanacağına əmin olmadığı halda qüsl etmədən yatmasın. Hətta əgər yatacağı halda azandan əvvəl oyanacağına ehtimal verdiyi halda da qüsl etmədən yatmasın.

[2] Sistani. T.m, məs.1635; Lənkərani. T.m, məs.1692

***Lənkərani:...Amma ehtiyati müstəhəb budur ki, dərhal qüsl etsin.

[3] Sistani. T.m, məs.1641; Lənkərani. T.m, məs.1698

[4] Sistani. T.m, məs.1646; Lənkərani. T.m, məs.1704

[5] Sistani. T.m, məs.1647; Lənkərani. T.m, məs.1705

1– Əgər qadın Ramazan ayında sübh azanına yaxın vaxtlarda heyz, yaxud nifasdan paklansa, amma qüsl və təyəmmümün heç biri üçün vaxtı olmasa, orucu səhihidir.1

2– Əgər qadın sübh azanından sonra heyz və ya nifas qanından paklansa, yaxud gün ərzində heyz və ya nifas qanı görsə-hətta məğribə yaxın vaxtlarda da olsa, orucu batildir.2

3– Əgər qadın heyz və ya nifas qüsulunu unutsa və bir və ya bir neçə gündən sonra yadına düşsə, tutduğu oruclar səhihidir.3

4– *Əgər istihazə halında olan bir qadın öz qüsullarını istihazə hökmlərində deyilən qaydalara uyğun olaraq yerinə yetirsə, orucu səhihdir. 4

9 ⇨ Imalə

1– Maye şeylərlə imalə etmək, hətta məcburiyyət üzündən və ya müalicə üçün olsa da, orucu batil edir. 5

10 ⇨ Qusmaq 6 ** 7 8

---

[1] Sistani. T.m, məs.1648; Lənkərani. T.m, məs.1706
[2] Sistani. T.m, məs.1649; Lənkərani. T.m, məs.1707
[3] Sistani. T.m, məs.1650; Lənkərani. T.m, məs.1708
*Sistani: Kəsirə istihazəli olan qadın, hətta boynuna vacib olan qüsulları kəsirə istihazə hökmlərində deyildiyi şəkildə etməsə də belə, orucu səhihdir. Həmçinin mütəvəssitə istihazəli qadın qüsl etməsə belə, orucu səhihdir. T.m, məs.1652
[4] Lənkərani. T.m, məs.1710
[5] Sistani. T.m, məs.1654; Lənkərani. T.m, məs.1712
[6] Sistani. T.m, məs.1655; Lənkərani. T.m, məs.1713
*Sistani: ... yaxşı olar ki, qabağını alsın.
[7] Sistani. T.m, məs.1657; Lənkərani. T.m, məs.1715
[8] Sistani. T.m, məs.1661; Lənkərani. T.m, məs.1719

| | | |
|---|---|---|
| 1-Oruc tutan şəxs[1] | –Qəsdən, hətta xəstəlik və s. səbəbilə qussa | ⇨ Orucu batildir |
| | –Səhvən, yaxud ixtiyarsız olaraq qussa | ⇨ Orucu batil olmaz |
| 2-Oruc tutan şəxs | –Əgər qusmağın qarşısını ala bilərsə və bunun da zərəri və məşəqqəti olmazsa, *qabağını almalıdır.[2] | |
| | –Əgər gəyirsə və ixtiyarsız olaraq bir şey boğazına və ya ağzına gəlsə, onu çölə tökməlidir. Əgər ixtiyarsız olaraq udulsa, eybi yoxdur.[3] | |

Oruc tutana məkruh olan işlər1

1– Oruc tutana bir neçə şey məkruhdur, o cümlədən:

❋ gözə dərman tökmək;
❋ zəifliyə səbəb olan iş görmək (qan almaq, hamama getmək kimi)
❋ ətirli gülləri, bitkiləri iyləmək;
❋ diş çəkdirmək və ağızdan qan gəlməsinə səbəb olan bütün işlər.

Bir neçə şəri suala cavab:

Sual: Əgər bir nəfər oruc tutan bir ölkədə axşam azanından sonra orucunu açıb başqa ölkəyə səfər etsə və orada hələ axşam azanının olmamasını görsə, onda onun hökmü necə olar?

Cavab: Əgər bu adam bir ölkədə axşam azanından sonra orucunu açıbsa, onda səfər etdiyi ölkədə də axşam azanından qabaq yemək yeyə bilər və orucu da düzgündür. 2

Sual: Xüsusi üzgüçülük paltarı ilə suyun altına girən şəxsin orucunun hökmü nədir? Belə ki, bu paltarı geyindikdə bədən islanmır.

Cavab: Əgər həmin paltar başa yapışmış halda olsa, onda o şəxsin orucunun düzgün olması işkal məhəllidir (münaqişəlidir). Ehtiyati-vacib budur ki, həmin orucun qəzasını tutsun.3

Sual: Boynunda vacib oruc olan bir şəxs onun qəzasını tutmaq istəyir. Lakin qarşıya bir iş çıxır və ona bu işdə mane olur. Məsələn, gün çıxdıqdan sonra səfərə çıxmalı olur. Səfərə gedir və günortadan sonra qayıdır. Bu müddət ərzində heç bir şey yeyib-içmir, lakin artıq vacib orucun vaxtı keçdiyi üçün həmin gün müstəhəb oruclar tutulan günlərdən sayılır. O şəxs üçün müstəhəb oruc niyyət etmək düzgündürmü?

---

1 Sistani. T.m, məs.1666; Lənkərani. T.m, məs.1724
2 Xamenei. "Əcvibətül istiftaat", sual 846
3 Xamenei. "Əcvibətül istiftaat", sual 758

Cavab: Əgər o şəxsin boynunda Ramazan ayının orucunun qəzası varsa, onda müstəhəb oruc niyyət etməsi düzgün deyildir, hətta vacib oruc niyyət etməyin vaxtı keçsə də. 1

[?] Suallar

1- Əgər bir şəxs illər ötdükdən sonra qüsulunun batil olduğunu başa düşsə, tutduğu orucların hökmü nədir?

2- Oruc halında üzməyin hökmü necədir?

3- Başa yapışmayan xüsusi üzgüçülük paltarı ilə suyun altına girməyin hökmü nədir?

[1] Xamenei. "Əcvibətül istiftaat", sual 760

# 38-CI DƏRS

## *ORUCUN QƏZASI VƏ KƏFFARƏSI VACIB OLAN YERLƏR1*

Orucun yalnız qəzasının vacib olduğu, kəffarəsinin isə vacib olmadığı hallardan bəzisi:

❋ Oruc tutan şəxs Ramazan ayında cənabət qüsulunu unudub bir və ya bir neçə gün cənabətli halda oruc tutsa;

❋ Oruc tutan şəxs Ramazan ayında sübhün açılıb-açılmaması araşdırılmadan orucu batil edən işlərdən görsə və sonradan sübh olduğu məlum olsa;*

❋ "Sübh olmayıb" –deyən bir şəxsin sözünə əsasən orucu batil edən işlərdən birini etdikdən sonra sübh olduğu məlum olarsa;

❋ Səfərə çıxmaq səbəbilə orucu batil olarsa;

❋ Qadınların heyz və nifas halında tutmadıqları oruclar;

❋ Oruc tutan şəxs əgər Ramazan ayında müəyyən üzr səbəbilə oruc tutmasa və Ramazan ayından sonra üzrü aradan qalxsa, amma növbəti Ramazan ayına qədər onların qəzasını qəsdən tutmasa, onların qəzasını etməlidir, hər gün üçün də bir müdd təam fəqirə verməlidir.2

**3

---

[1] Sistani. T.m,məs.1697; Lənkərani. T.m, məs.1754

*Sistani:... ehtiyata əsasən orucu batil edən işlərdən çəkinməli, həmçinin o günün qəzasını da tutmalıdır.

[2] Sistani. T.m,məs.1714; Lənkərani. T.m, məs.1771

*Sistani: Əgər bir şəxs orucu batil edən şeylərdən birini, onun orucu pozmadığına qəti olaraq etiqadı olduğu halda edərsə, orucu batil olmadığı kimi, ona kəffarə də vacib olmaz. T.m, məs.1668

[3] Lənkərani. T.m, məs.1726

| | | |
|---|---|---|
| *Məsələni bilməməzlik üzündən orucu batil edən işlər-dən birini görən şəxs[1] | -məsələni öyrənə bilər-disə ⇨ | Ehtiyata görə kəffarə də vacibdir |
| | -məsələni öyrənə bilməzdisə ⇨ | Kəffarə vacib deyil |
| | -həmin işin orucu batil etmədiyinə yəqinliyi var idisə ⇨ | Kəffarə vacib deyil |

### *ORUCUN KƏFFARƏSI1 **

Ramazan ayının orucunun kəffarəsi vacib olan bir kəs[2]
- ya bir qul azad etməli;
- ya iki ay oruc tutmalı;
- ya da altımış fəqiri doyuzdurmalı, yaxud onların hər birinə bir müdd* təam (yəni buğda, arpa və bu kimi şeylər) verməlidir

1– Əgər yuxarıda deyilənlər mümkün olmasa** on səkkiz gün oruc tutmaqla mümkün olan qədər müdd fəqirə təam vermək arasında ixtiyar sahibidir. Əgər verə bilməsə, hətta bir dəfə "əstəğfirullah" deməklə də istiğfar etməlidir. Ehtiyati vacib budur ki, hər vaxt imkanı olsa, kəffarəni versin.1

2– Iki ay Ramazan ayının orucunun kəffarəsini tutmaq istəyən bir şəxs, onun 31 gününü ardıcıl, arada fasilə salmadan tutmalıdır, amma yerdə qalan günlər ardıcıl olmasa, eybi yoxdur.2

3– Iki ay Ramazan ayının orucunun kəffarəsini tutmaq istəyən bir şəxs, əvvəldə ardıcıl tutmalı olduğu 31 günü elə gündə başlamalıdır ki, bu 31 günün içində orucu haram olan günlərdən (Qurban bayramı kimi) olmasın.3

4– Ardıcıl oruc tutmalı olan bir şəxs arada üzürsüz səbəbə görə bir gün oruc tutmasa, orucları əvvəldən başlamalıdır. 4

5– Əgər ardıcıl oruc tutmalı olan günlər əsnasında heyz, nifas kimi üzr, yaxud getməyə məcbur olduğu bir səfər qarşıya çıxsa, üzrü aradan

---

1 Sistani. T.m, məs.1669; Lənkərani. T.m, məs.1727

* bir müdd – təqribən 750 qramdır.

**Sistani: .. mümkün olduğu qədər sədəqə verməli, bu da mümkün olmasa, istiğfar etməlidir. Ehtiyati vacibə əsasən imkanı olduğu zaman kəffarəni ödəməlidir.

2 Sistani. T.m, məs.1670; Lənkərani. T.m, məs.1728

3 Sistani. T.m, məs.1671; Lənkərani. T.m, məs.1629

4 Sistani. T.m, məs.1672; Lənkərani. T.m, məs.1630

qalxandan sonra günləri əvvəldən başlaması vacib deyil: yerdə qalanları üzrü aradan qalxandan sonra tutmalıdır. 1

**Kəffarə iki növdür:**

**Cəm kəffarəsi** – Əgər bir kəs orucu haram şeylə batil etsə,* ehtiyati-vacibə görə ona cəm kəffarəsi vacib olar. Yəni həm bir qul azad etməli, həm iki ay oruc tutmalı, həm də altımış fəqiri doyuz-durmalıdır, yaxud onların hər birinə bir müdd təam verməlidir. Əgər bunların hər üçünü yerinə yetirmək mümkün olmazsa, mümkün olan qədə-rini yerinə yetirməlidir.[1]

**Bir kəffarə** – Əgər oruc tutan şəxs orucu batil edən halal iş-lərdən görsə (məsələn su içsə), sonra isə orucu batil edən haram işlərdən görsə (məsələn ha-ram yeməklərdən yesə), bir kəffarə kifayətdir.[2]

### *KIMLƏRƏ ORUC VACIB DEYIL? * 2 34 5 ***

***Əgər bir şəxs qocalıq səbəbi ilə***[3]
- oruc tuta bilməsə ⇒ Oruc ona vacib deyil
- yaxud orucun ona məşəqqəti olsa ⇒ Oruc ona vacib deyil və hər gün üçün bir müdd təam fəqirə verməlidir

***Əgər insan çox susuzluq gətirən bir xəstəliyə tu-tularsa***[4]
- əgər susuzluğu dözülməz olarsa ⇒ Oruc ona vacib deyil
- yaxud dözmək məşəqqətli olarsa ⇒ Oruc ona vacib deyil və hər gün üçün bir müdd təam fəqirə verməlidir**

1– Əgər bir şəxs müəyyən xəstəlik səbəbilə Ramazan ayının orucunu tutmasa və onun xəstəliyi gələn ilin Ramazan ayına kimi davam

---

[1] Sistani. T.m, məs.1673; Lənkərani. T.m, məs.1631
*Sistani: ... ehtiyati-müstəhəbə əsasən...
[2] Sistani. T.m, məs.1674; Lənkərani. T.m, məs.1732
[3] Sistani. T.m, məs.1679; Lənkərani. T.m, məs.1737
[4] Sistani. T.m, məs.1734; Lənkərani. T.m, məs.1790
[5] Sistani. T.m, məs.1736; Lənkərani. T.m, məs.1792
**Sistani: ... ehtiyati-müstəhəb budur ki, zəruri olduğu miqdardan çox su içməsin və qəzası vacib deyil. Lənkərani: ... ehtiyati-vacib budur ki, zəruri olduğu miqdardan çox su içməsin. Əgər sonradan oruc tuta bilərsə,tutmadığı günlərin qəzasını tutmalıdır.

etsə, oruc tutmadığı günlərin qəzası ona vacib deyil, amma hər gün üçün bir müdd təam fəqirə verməlidir.1

2 * 3

***Doğum vaxtı yaxınlaşan və oruc tutmağın***[1]

- bətnindəki uşağa zərəri olan qadına ⇨ Oruc vacib deyil. Sonra tutmadığı günlərin qəzasını etməlidir*
- özünə zərəri olan qadına ⇨ Oruc vacib deyil. Sonra tutmadığı günlərin qəzasını etməlidir və hər gün üçün bir müdd təam fəqirə verməlidir

***Uşağa süd verən və südü az olan qadının oruc tutması***[2]

- süd verdiyi uşağa zərər versə ⇨ Oruc vacib deyil. Sonra tutmadığı günlərin qəzasını etməlidir. *
- özünə zərəri olsa ⇨ Oruc vacib deyil. Sonra tutmadığı günlərin qəzasını etməlidir və hər gün üçün bir müdd təam fəqirə verməli-dir.

### *SƏFƏR EDƏN ŞƏXSIN ORUCU** *4*

***Oruc olan şəxs Ramazan***

- ***Səfərə***
  - zöhrdən qabaq** ⇨ Tərəxxüs həddinə çatanda öz orucunu batil etməlidir. Əgər o həddə çatmamışdan qabaq batil etsə, ehtiyati-vacibə görə kəffarə vacib olar.
  - zöhrdən sonra*** ⇨ Orucunu axıra çatdırmalıdır.
- ***Səfərdən***
  - zöhrdən qabaq öz vətəninə, yaxud on gün qalmaq istədiyi yerə çatsa
    - orucu batil edən işlərdən görməyibsə ⇨ O günün orucunu tutmalıdır
    - orucu batil edən işlərdən görübsə ⇨ O günün orucunu tuta bilməz
  - Zöhrdən sonra öz vətəninə, yaxud on gün qalmaq istədiyi yerə çatsa ⇨ O günün orucunu tuta bilməz.

Bir neçə şəri suala cavab:

---

1 Sistani. T.m, məs.1712; Lənkərani. T.m, məs.1769
2 Sistani. T.m, məs.1737; Lənkərani. T.m, məs.1793
*Sistani: ... və hər gün üçün bir müdd təam fəqirə verməlidir.
3 Sistani. T.m, məs.1738; Lənkərani. T.m, məs.1794
3 Sistani. T.m, məs.1730; Lənkərani. T.m, məs.1787
**Sistani:... ehtiyata əsasən orucunu axıra çatdırmalıdır, bu halda onun qəzasını yerinə yetirmək lazım deyil.
***Sistani: ..ehtiyati-vacibə əsasən o gün oruc tuta bilməz. Xüsusilə də gecədən səfər etmək niyyətində olsa, o gün oruc tuta bilməz. Hər halda tərəxxüs həddinə çatmamış, orucu batil edən işlərdən görməməlidir. Əks halda ona kəffarə də vacib olar.
4 Sistani. T.m, məs.1731, 1732; Lənkərani. T.m, məs.1788

Sual: Bir nəfər nadanlıq üzündən 10 il nə namaz qılıb və nə də oruc tutub. Sonra tövbə edib, Allahın yoluna qayıdıb və qəzaya verdiyi əməlləri yerinə yetirmək istəyir. Lakin qəzaya verdiyi orucların qəzasını tuta bilmir və kəffarəni də verməyə maddi imkanı yoxdur. Bu adam təkcə tövbə-əstəğfirullah etməklə kifayətlənə bilərmi?

Cavab: Heç bir halda qəza olrucları onun boynundan götürülmür. Kəffarəyə gəldikdə isə, əgər hər günün müqabilində 60 gün oruc tuta bilməsə və 60 fəqirə yemək yedizdirə bilməsə, onda vacibdir ki, fəqirlərə imkanı olan qədər sədəqə versin.1

Sual: Yerinə yetirmədiyi oruc-namazların sayını bilməyən adam nə etməlidir? Yaxud da tutmadığı orucların şəri cəhətdən üzürlü və ya üzürsüz olmasını bilməyən şəxsin hökmü nədir?

Cavab: Qəzaya verdiyi oruc-namazlardan miqdarını dəqiq bildiyi qədər yerinə yetirsə, kifayət edər. Tutmadığı orucların üzürlü, ya üzürsüz olduğuna şəkk edərsə kəffarə vacib olmaz.2

[?] Suallar

1- Qəza ilə kəffarə orucunun fərqi nədir?

2- Hansı halda cəm kəffarəsi vacib olar? Cəm kəffarəsinə aid iki misal deyin.

3- Əgər bir şəxs Ramazan ayının orucunun qəzasını yerinə yetirməkdə səhlənkarlıq göstərsə və Ramazan ayına az qalmış xəstələnib onların qəzasını yerinə yetirə bilməsə, vəzifəsi nədir?

4- Kimlərə oruc vacib deyil?

5- Ramazan ayında səfərə çıxmağın hökmünü deyin.

---

[1] Xamenei. "Əcvibətül istiftaat", sual 832

[2] Xamenei. "Əcvibətül istiftaat", sual 839

# 39-CÜ DƏRS

## *AYIN ƏVVƏLININ SÜBUT OLUNMASI YOLLARI*

1* 2 3 ** 4

*Ayın əvvəli bir neçə yolla sübut olunur:*[1]

1- İnsanın özü ayı görsə;
2- Sözlərindən yəqin hasil olan bir neçə nəfər "ayı gördük" desələr, həmçinin, yəqinlik hasil olan hər şeyin vasitəsi ilə;
3- Şəban ayının əvvəlindən 30 gün keçmiş olsa, bunun vasitəsi ilə Ramazan ayının əvvəli olması sübuta yetir. Yaxud Ramazan ayının əvvəlindən 30 gün keçsə, bu halda Şəvval ayının olması sübut olunur.
4- İki adil kişi "gecə ayı görmüşük" deyə xəbər versələr;
5- *Cameüş-şərait müctəhid ayın əvvəli olmasına dair hökm versə.

*Ayın əvvəli hansı yollarla sübuta yetməz*

1- Ayın əvvəli münnəcimlərin (astranomların) qabaqcadan verdikləri xəbərə əsasən sübuta yetmir. Amma əgər bir şəxs üçün onların dediklərindən yəqin hasil olsa, ona əməl etməlidir.[2]
2- Ayın yuxarıda olması, yaxud gec batması keçən gecənin ayın əvvəli olmasına dəlil ola bilməz.[3]
3- Ayın əvvəli teleqraf yolu ilə bir şəhərdən başqasına verilən xəbərlə sübuta yetmir.** Amma əgər bir şəhərdən başqa şəhərə teleqrafla xəbər verilsə və bu iki şəhər bir-birinə yaxın, yaxud üfüqləri eyni olsa, insan da teleqrafın cameüş-şərait müctəhidin hökmü, yaxud iki adil şəxsin şəhadəti əsasında olduğunu bilsə, sübuta yetir.[4]

### *ETIKAF*

Müstəhəb işlərdən biri də etikafdır. Etikaf aşağıda deyilən şərtlərlə məsciddə qalmağa deyilir.5

Etikafın şərtləri1

---

[1] Sistani. T.m, məs.1739; Lənkərani. T.m, məs.1795

*Sistani: Şəri-hakimin hökm etməsi ilə ayın əvvəli sübut edilməz. Bu halda ehtiyata riayət etmək daha üstündür. T.m, məs.1740

[2] Sistani. T.m, məs.1741; Lənkərani. T.m, məs.1797

[3] Sistani. T.m, məs.1742; Lənkərani. T.m, məs.1798

**Sistani: ... Amma əgər insan bu teleqrafın iki adil kişinin şəhadəti əsasında, yaxud şəriətdə mötəbər sayılan başqa bir yolla olduğunu bilsə, sübuta yetər. T.m, məs.1745

[4] Lənkərani. T.m, məs.1801

[5] Imam Xomeyni. "Təhrirul vəsilə", c.1, səh.304

1– Mutəkif aqil olmalıdır: Yəni ruhi xəstənin etikaf saxlaması səhih deyil.

2– Niyyət: Qürbət qəsdi və xalis niyyətlə məsciddə qalmalıdır.

3– Oruc olmalıdır: Məsciddə qaldığı günlər oruc tutmalıdır. Oruc tuta bilməyən, yaxud oruc tuta bilən, amma həmin günlər oruc tutmayan şəxsin etikafı səhih deyil.

4– Üç gündən az olmamalıdır: Ən az üç gün olmalıdır, amma daha çox qalmaq da olar.

5– Aşağıdakı məscidlərin birində etikaf saxlamaq olar:

❋ Məscidül-Həram;

❋ Məscidül-Nəbi;

❋ Kufə məscidi;

❋ Bəsrə məscidi.

Bu dörd məsciddən başqa hər şəhərin təkcə came məscidində rica niyyəti ilə etikaf saxlamaq olar. Başqa məscidlərdə caiz deyil.

6– Icazəsi lazım olan şəxslərdən icazə alınmalıdır: Məsələn, qadının etikaf saxlaması ərinin haqqının tapdanmasına səbəb olarsa, ondan icazə almalıdır. (Ehtiyati-vacibə əsasən.)

Övladın etikaf saxlaması valideynin narahatlığına səbəb olarsa, onlardan icazə almaq lazımdır.

7– Etikaf vaxtı məsciddə qalmaq və oradan çıxmamaq.

### *ETIKAFIN ƏHKAMI*

1– Etikaf niyyəti sübh azanında, oruc niyyəti ilə birlikdə olmalıdır. Əgər bir kəs sübh azanından sonra məscidə çatarsa, etikaf niyyəti edə bilməz.1

2– Etikaf saxlayarkən etikaf üçün xüsusi oruc tutmaq şərt deyil. Ramazan ayının orucu, yaxud nəzir orucu ilə də etikaf saxlamaq olar. 2

3- Müstəhəb etikafı birinci və ikinci günlərdə pozmaq caizdir. Amma iki gün qaldıqdan sonra üçüncü gün qalmaq vacib olar. Bu zaman etikafı pozmaq caiz deyil3

4- Qəsdən, yaxud öz ixtiyarı ilə, hətta məsələni bilməməzlik üzündən olsa belə, məsciddən çıxsa, etikafı batil olar. Amma zərurət üzündən – əqli, şəri və ürfi zərurət olsa, məsciddən çıxmağın eybi yoxdur. Aşağıdakı hallar kimi:

❋ ayaq yolu üçün;

❋ cənabət qüsulunu yerinə yetirmək üçün;

❋ şahidlik etmək üçün (məhkəmədə şahidlik etmək üçün);

❋ xəstənin ziyarətinə getmək üçün;

❋ cənazənin dəfni üçün;

❋ qonağı yola salmaq üçün;

❋ səfərdən qayıdan birini qarşılamaq üçün.

Zəruri işlərdən biri üçün məsciddən çıxılarsa, ehtiyati-vacibə əsasən ən yaxın yolu seçməli, ehtiyac olan miqdardan çox məsciddən kənarda

---

[1] Imam Xomeyni. "Təhrirul vəsilə", c.1, səh.304
[2] Imam Xomeyni. "Təhrirul vəsilə", c.1, səh.305
[3] Imam Xomeyni. "Təhrirul vəsilə", c.1, səh.306, məs.3

qalmamalı, oturmamalı, kölgənin altı ilə hərəkət etməməli, imkan daxilində kölgədə oturmamalıdır.1

### *ETIKAFDA HARAM OLAN IŞLƏR*

Etikaf halında aşağıdakı işlərdən çəkinilməlidir: 2

1–Cinsi və şəhvət yaradan işlərdən;

2– Istimnadan (ehtiyati-vacibə əsasən);

3– Ətriyyatı və xoş ətirli gülləri və bitkiləri iyləməkdən, əgər ləzzətlə birlikdə olarsa;

4– Alış-verişdən;

5– Ticarətin başqa növlərindən, məsələn, icarə və s. (ehtiyati-vacibə əsasən);

6– Öz üstünlüyünü göstərmək üçün dini və dünyəvi işlər barədə mübahisə və çəkişmədən.

Bir neçə şəri suala cavab:

Sual: Üfüqlərdə müştərək olma ayın görünməsi üçün şərt hesab olunurmu?

Cavab Üfüqlərdə müştərək və yaxın olan ölkələrdə və yaxud da onların şərqində yerləşən ölkələrdə ayın görünməsi kifayətdir.3

Sual: Müştərək üfüqlər dedikdə nə başa düşülür?

Cavab: Bir xətt boyunca yerləşən şəhərlər nəzərdə tutulur; yəni əgər şəhərlər uzunluq etibarı ilə bir xətt boyunca müştərəkdirlərsə (burada uzunluq astronomiya elminə aid olan termindir) onda bunlara "üfüqdə müştərəkdirlər" deyilir. 4

[?] Suallar————————————————————

1– Ayın əvvəli hansı yollarla sübut olar?

2– Ayın əvvəli astronomların qabaqcadan verdikləri xəbərə əsasən sübuta yetə bilərmi?

3– Etikafın hansı şərtləri vardır?

4– Etikafda olarkən hansı işlər üçün məsciddən çıxmaq olar?

5– Etikafda olarkən hansı əməllər haramdır?

---

[1] Imam Xomeyni. "Təhrirul vəsilə", c.1, səh.306-307, məs.9
[2] Imam Xomeyni. "Təhrirul vəsilə", c.1, səh.309
[3] Xamenei. "Əcvibətül istiftaat", sual 857
[4] Xamenei. "Əcvibətül istiftaat", sual 858

# 40-CI DƏRS

## *ZƏKAT*

خُذْ مِنْ أَمْوَالِهِمْ صَدَقَةً تُطَهِّرُهُمْ وَتُزَكِّيهِم بِهَا وَصَلِّ عَلَيْهِمْ إِنَّ صَلاَتَكَ سَكَنٌ لَّهُمْ وَاللّهُ سَمِيعٌ عَلِيمٌ

" Onların mallarından zəkat al. Bununla onların mallarını və canlarını təmizləmiş və pak etmiş olarsan. Onlara dua et, çünki sənin duan onlar üçün aramlıq, rahatlıqdır. Allah (hər şeyi) eşidən və biləndir."

("Tövbə" surəsi, ayə: 103)

Müsəlmanların mühüm iqtisadi vəzifələrindən biri "Zəkat" ödəməkdir.

Zəkatın əhəmiyyəti haqqında yalnız onu demək kifayətdir ki, zəkat Qurani-Kərimdə namazdan sonra gəlir, imanın və əməli salehliyin nişanəsi olaraq göstərilir.1 * 2 ** 3

***Zəkatın vacib olduğu şeylər**[*2]*

1- Buğda
2- Arpa
3- Xurma
4- Kişmiş
5- Qızıl
6- Gümüş
7- Dəvə
8- İnək
9- Qoyun

***Zəkatın vacib olma şərtləri**[**3]*

- mal nisab həddinə çatmalıdır;
- onun sahibi həddi-buluğa çatmış olmalıdır;
- aqil olmalıdır;
- azad olmalıdır;
- öz malından istifadə edə bilən olmalıdır.

### *NISAB HƏDDI*

Zəkat o halda vacib olar ki, yuxarıda deyilənlər müəyyən ölçüyə çatsın. Bu ölçüyə "nisab həddi" deyilir. Yəni əldə olunan məhsul, ya

---

[1] "Bəqərə" surəsi, ayə 177; "Muminin" surəsi, ayə 4; "Tövbə" surəsi, ayə 11; "Həcc" surəsi, ayə 78 və s.

[*]Sistani: 10 – lazım ehtiyata əsasən ticarət malı

[2] Sistani. T.m, məs.1861; Lənkərani. T.m, məs.1920

[**]Sistani: Mal nisab həddinə çatdıqda, mal insanın özünə aid olduqda və onun sahibi azad olduqda vacib olar. T.m, məs.1863

[3] Lənkərani. T.m, məs.1922

dəvə, inək və qoyunun sayı, yaxud qızıl və gümüş nisab həddindən az olsa, ona zəkat düşməz.

### *BUĞDA, ARPA, XURMA VƏ KIŞMIŞIN NISABI*

1– Buğda, arpa, xurma və kişmişin zəkatının nisabı 288 "mən" Təbriz ölçüsündən 45 misqal azdır ki, təqribən 847 kq-a bərabərdir.[1]

2– Amma qeyd etmək lazımdır ki, buğda, arpa, xurma və kişmişin zəkatı onların suvarılmasından asılıdır. Buna görə də onları üç hissəyə bölmək olar: [2]

| | | |
|---|---|---|
| 1 | Əgər məhsul çay və yağış suyu ilə suvarılsa, yaxud yerin rütubətindən suvarılmağa ehtiyac olmadan əldə olunsa | zəkat məhsulun 1/10-i qədərdir |
| 2 | Əgər məhsul vedrə, su motoru və s. kimi vasitələrlə, hal-hazırda mövcud olan dərin, yaxud nisbə-tən dərin quyulardan suvarılsa | zəkat məhsulun 1/20-i qədər olmalıdır |
| 3 | Əgər məhsul torpağın bir hissəsi yağış, çay suyu və ya yerin rütubətindən istifadə edilərək elə hə-min miqdar da vedrə, su motoru və s. kimi vasitələrlə suvarılaraq əldə olunsa | Birinci yarısının zəkatı 1/10, ikinci yarısının zəkatı 1/20-dir |

### *QIZILIN NISABI* [3]

**Qızılın iki nisabı var:**

- ***I-ci nisab***– 20 şəri (15 adi misqala)* çatsa, lazım olan başqa şərtlər də mövcud olarsa ⇨ Onun 1/40-i zəkat verilməlidir. Əgər bu həddə çatmasa, zəkat vacib deyil
- ***II-ci nisab***– 4 şəri misqaldır, bu da üç adi misqala bərabərdir. Deməli, əgər 15 adi misqalın üstünə 3 adi misqal əlavə olunsa, 18 misqalın hamısının zəkatı 1/40 verilməlidir. Əgər 3 misqaldan az əlavə olunsa, təkcə 15 misqalın zəkatı verilməlidir.

[1] Sistani. T.m, məs.1872; Lənkərani. T.m, məs.1931
[2] Sistani. T.m, məs.1883; Lənkərani. T.m, məs.1942
[3] Sistani. T.m, məs.1904; Lənkərani. T.m, məs.1963
*Bir adi misqal 4,5 qramdır.

## *GÜMÜŞÜN NISABI*[1]

***Gümüşün iki nisabı var:***[2]

***I-ci nisab***–105 adi misqaldır. Əgər gümüş 105 misqala çatsa, başqa şərtlər də mövcud olsa, insan onun 1/40-ni zəkat verməlidir. Əgər bu miqdara çatmasa, zəkatı vacib deyil.

***II-ci nisab***– 21 misqaldır. Yəni 105 misqalın üzərinə 21 misqal əlavə olunsa, bütün 126 misqalın zəkatı qeyd olunduğu kimi verilməlidir. Əgər 21 misqaldan az əlavə olunsa, təkcə 105 misqalın zəkatı verilməlidir.

Dəvənin nisabı2

Nə qədər ki, dəvənin sayı 5-ə çatmayıb zəkatı yoxdur.

| Dəvənin sayı | Zəkatın miqdarı |
|---|---|
| 5 | Bir qoyundur |
| 10 | Iki qoyundur |
| 15 | Üç qoyundur |
| 20 | Dörd qoyundur |
| 25 | Beş qoyundur |
| 26 | Iki yaşına daxil olmuş bir dəvədir |
| 36 | Üç yaşına daxil olmuş bir dəvədir |
| 46 | Dörd yaşına daxil olmuş bir dəvədir |
| 61 | Beş yaşına daxil olmuş bir dəvədir |
| 76 | Üç yaşına daxil olmuş iki dəvədir |
| 91 | Dörd yaşına daxil olmuş iki dəvədir |
| 121 və ondan yuxarı | 40-40 hesab olunmalıdır. Hər 40 başın zə-katı üç yaşına daxil olmuş bir dəvədir; yaxud 50-50 hesablanmalıdır ki, hər 50 dəvənin zə-katı dörd yaşına daxil olmuş bir dəvədir. Ya-xud 40-50, 40-50 hesab etməlidir. |

[1] Sistani. T.m, məs.1905; Lənkərani. T.m, məs.1964
[2] Sistani. T.m, məs.1918; Lənkərani. T.m, məs.1977

### *INƏYIN NISABI1 **

**İnəyin iki nisabı var:**[1]

***I nisab*** – otuzdur. İnəklərin sayı 30-a çatanda qeyd olunan şərtlərə malik olarsa, iki yaşına daxil olmuş bir dana zəkat verilməlidir.*

***II nisab*** – qırxdır ki, onun da zəkatı üç yaşına daxil olmuş bir dişi danadır.

Otuzla qırx arasında olanların zəkatı vacib deyil. Məsələn, bir kəsin 39 inəyi olsa, yalnız 30 inəyin zəkatını verməlidir. Həmçinin 40-dan artıq inəyi olsa, nə qədər ki, 60-a çatmayıb yalnız 40 inəyin zəkatını verməlidir. 60-a çatandan sonra birinci nisab ikiqat olduğundan, iki baş iki yaşına daxil olmuş dana verməlidir. Həmçinin yuxarı getdikcə ya 30-30, ya 40-40, ya da 30-40-la hesablanmalıdır.

### *QOYUNUN NISABI2*

Qoyunların sayı 40-a çatmayınca zəkat vacib deyil.

| Qoyunun sayı | Zəkatın miqdarı |
|---|---|
| 40 | Bir qoyundur |
| 121 | Iki qoyundur |
| 201 | Üç qoyundur |
| 301 | Dörd qoyundur |
| 400 və ondan artıq | Hər yüz baş üçün bir qoyun verilməlidir. |

1– Iki nisab arasında olanlar üçün zəkat vacib deyil. Deməli, əgər bir kəsin qoyunlarının sayı birinci nisab olan 40-dan artıq olub 121 olan ikinci nisaba çatmasa, təkcə 40 başın zəkatını verməlidir. Ondan artıq qalanın zəkatı yoxdur. Sonrakı nisablarda da eyni qayda ilədir.3

[?] Suallar

1- Xurma və buğdanın zəkat nisabı nə qədərdir?

2- 243 baş qoyuna nə qədər zəkat düşür?

3- Su motoru ilə suvarılan buğda və arpa tarlasının zəkatı necə hesablanmalıdır?

4- 65 baş inəyin zəkat nisabını deyin.

---

[1] Sistani. T.m, məs.1920; Lənkərani. T.m, məs.1979

*Sistani:.. ehtiyati-vacibə əsasən dana erkək olmalıdır...

[2] Sistani. T.m, məs.1921; Lənkərani. T.m, məs.1980

[3] Sistani. T.m, məs.1922; Lənkərani. T.m, məs.1981

# 41-CI DƏRS

## *ZƏKATIN ISTIFADƏ YERLƏRI*

إِنَّمَا الصَّدَقَاتُ لِلْفُقَرَاء وَالْمَسَاكِينِ وَالْعَامِلِينَ عَلَيْهَا وَالْمُؤَلَّفَةِ قُلُوبُهُمْ وَفِي الرِّقَابِ وَالْغَارِمِينَ وَفِي سَبِيلِ اللّهِ وَابْنِ السَّبِيلِ فَرِيضَةً مِّنَ اللّهِ وَاللّهُ عَلِيمٌ حَكِيمٌ

"Sədəqələr (zəkatlar) yalnız fəqirlər, miskinlər, zəkat yığıb paylayanlar, qəlbi dinə qarşı yumşaldılanlar, azad ediləcək kölələr, həmçinin borcu olanlar, Allah yolunda (istifadə üçün) və yolda qalan yolçulara (pulu qurtardığı üçün vətənə qayıda bilməyən müsafirlərə) məxsusdur. Bu Allah tərəfindən (müəyyən edilmiş) vacib bir əməldir. Allah (hər şeyi) biləndir və hikmət sahibidir."

(Tövbə" surəsi, ayə:60)

### *ZƏKATIN ISTIFADƏ OLUNAN YERLƏRI*[1]

1- Fəqirə; Fəqir – özünün və ailəsinin illik xərclərini təmin edə bilməyən kəsdir. Amma öz illik xərclərini təmin edə bilən sənəti, yaxud mülkü və ya sərmayəsi olan bir kəs fəqir deyil.

2- Miskinə; Miskin – vəziyyəti fəqirdən də ağır olan kəsdir.

3-Imamın (ə),yaxud onun naibinin tərəfindən zəkatı yığıb saxlamaq və mühasibə edib həmin malı Imam (ə), yaxud onun naibinə və ya fəqirə çatdırmaq üçün təyin edilmiş şəxsə;

4-Zəkat verilərsə Islam dininə yönələn, yaxud müharibədə müsəlmanlara kömək edən kafirlərə, həmçinin zəkat verilərsə imanları güclənən zəif imanlı müsəlmanlara;

5-Qulların alınıb azad olunmasına;

6-Öz borcunu verə bilməyən borclulara;

7-Allah yolunda; Yəni, məscid, mədrəsə tikmək, ümumi – dini mənfəəti olan işlər görmək, yaxud körpü tikilməsi, yolların təmir olunması kimi xeyri müsəlmanlara çatan və ümumiyyətlə Islam və müsəlmanların xeyrinə olan hər bir işə;

8-Ibnüs-səbilə; (səfərdə pulu qurtarıb yolda qalan şəxs).

### *ZƏKATIN NIYYƏTI*

1– Insan zəkatı qürbət, yəni Allah-Təalanın əmrini yerinə yetirmək niyyəti ilə verməlidir. Niyyətdə malın zəkatı, yaxud fitrə zəkatı olduğunu da müəyyənləşdirməlidir.[2]

---

[1] Sistani. T.m, məs.1933; Lənkərani. T.m, məs.1992

[2] Sistani. T.m, məs.1965; Lənkərani. T.m, məs.2024

### *ZƏKATIN ÖDƏNMƏ VAXTI*[1]

- ***Buğda***, ***Arpa*** ⇨ Samandan ayrılandan sonra
- ***Üzüm*** ⇨ Quruyub kişmiş olandan sonra
- ***Xurma*** ⇨ Quruyub quru xurma olandan sonra
- ***Qızıl***, ***Gümüş***, ***Dəvə***, ***İnək***, ***Qoyun*** ⇨ 11 ay tamam olandan sonra

### *FITRƏ ZƏKATI*

Ramazan ayı qurtardıqda, yəni Fitr bayramı gecəsində aşağıdakı deyiləcək şərtlərə malik olan şəxslər zəkat ödəməlidirlər. Bu zəkata "Fitrə zəkatı" deyilir.

Fitr bayramının axşamı bu şərtlərə malik olan şəxslərin Fitrə zəkatı ödəməsi vacibdir:

1-həddi-büluğa çatmış;
2- dəli olmayan;
3- bihuş olmayan;
4- başqasının qulu olmayan;
5- fəqir olmayan;

Yuxarıdakı şərtlərə malik olan şəxs özünün və onun çörəyini yeyən şəxslərin fitrə zəkatını verməlidir: istər böyük olsunlar, istərsə də kiçik; istər müsəlman olsunlar, istərsə də kafir; istər onların xərcləri o şəxsə vacib olsun, istərsə də olmasın; istər öz şəhərində olsun, istərsə də başqa şəhərdə.[2]

Fitrə zəkatının miqdarı[3]: Hər nəfər üçün 1sa' (təqribən 3 kq);

Fitrə zəkatı[2]: Buğda, arpa, xurma, kişmiş, düyü, qarğıdalı və s;

Fitrə zəkatının vacib olma vaxtı[2]: Fitr bayramının axşamı;

Fitrə zəkatının ödənmə vaxtı[4]: Bayram axşamından bayram gününün zöhrünə qədər;

Fitrə zəkatı ödənən şəxslər[5]: Müstəhəbdir ki, insan zəkat fitrəsini verəndə qohum fəqirləri başqalarından qabağa salsın, sonrakı mərhələdə

---

[1] Sistani. T.m, məs.1969; Lənkərani. T.m, məs.2028
[2] Sistani. T.m, məs.2001; Lənkərani. T.m, məs.2055
[3] Sistani. T.m, məs.1999; Lənkərani. T.m, məs.2053
[4] Sistani. T.m, məs.2037; Lənkərani. T.m, məs.2090
[5] Sistani. T.m, məs.2029; Lənkərani. T.m, məs.2082

fəqir qonşularına, sonra isə fəqir elm əhlinə versin. Amma əgər başqaları müəyyən cəhətə görə üstün olsalar, müstəhəbdir ki, onları qabağa salsın.

### *FITRƏ ZƏKATININ HÖKMLƏRI*

1– Əgər bir kəs özünün və ailəsinin illik qazancını təmin edə bilməsə və təmin etmək üçün işi, qazancı və ticarəti də olmasa fəqirdir və fitrə zəkatı ona vacib deyil.1

2– Fitr bayramı gecəsində qürubdan qabaq ev sahibinin razılığı ilə evə daxil olan və onun çörəyini yeyən şəxs hesab olunan qonağın fitrəsi ev sahibinə vacibdir.2

3– Fitr bayramı gecəsində məğribdən sonra gələn qonağın fitrəsi hətta məğribdən qabaq onu dəvət etsə və onun evində iftar etsə də, ev sahibinə vacib deyil.* 345

| | | |
|---|---|---|
| 4–Fitrəsini başqası verməli olan şəxsin | • ***Öz fitrəsini verməsi*** | ⇨ Vacib deyil[4] |
| | • ***Özü fitrəni versə*** | ⇨ Fitrənin vacib olduğu şəxsin boynundan götürülməz[5] |

5– Fitrəni günah yolda işlədən bir kəsə fitrə verilməməlidir. 6

6– Əgər bir kəs fitrəni ayırıb bir tərəfə qoysa, onu özü üçün götürüb yerinə başqa mal qoya bilməz. 7

7– Əgər bir kəs öz malının bir miqdarını fitrə niyyəti ilə ayırsa və bayram günü zöhrə qədər müstəhəqqə verməsə, (sonradan) hər vaxt versə, fitrə niyyəti etməlidir.8

[?] Suallar

1- Fəqirlə miskinin fərqini deyin.
2- Fitrə zəkatı nə vaxt ödənməlidir?
3- Bir nəfərin fitrə zəkatının miqdarı nə qədərdir?
4- Kimlərə fitrə vacib deyil?

---

1 Sistani. T.m, məs.2000; Lənkərani. T.m, məs.2054
2 Sistani. T.m, məs.2003; Lənkərani. T.m, məs.2057
*Sistani: Onun çörək yeyəni hesab olunsa, ehtiyati-vacidə əsasən həmin qonağın fitrə zəkatını vermək vacib olar. T.m, məs.2005
3 Lənkərani. T.m, məs.2059
4 Sistani. T.m, məs.2013; Lənkərani. T.m, məs.2067
5 Sistani. T.m, məs.2015; Lənkərani. T.m, məs.2069
6 Sistani. T.m, məs.2025; Lənkərani. T.m, məs.2078
7 Sistani. T.m, məs.2040; Lənkərani. T.m, məs.2093
8 Sistani. T.m, məs.2038; Lənkərani. T.m, məs.2091

# 42-CI DƏRS

## *XUMS (1)*

وَاعْلَمُواْ أَنَّمَا غَنِمْتُم مِّن شَيْءٍ فَأَنَّ لِلّهِ خُمُسَهُ وَلِلرَّسُولِ وَلِذِي الْقُرْبَى وَالْيَتَامَى وَالْمَسَاكِينِ وَابْنِ السَّبِيلِ إِن كُنتُمْ آمَنتُمْ بِاللّهِ وَمَا أَنزَلْنَا عَلَى عَبْدِنَا يَوْمَ الْفُرْقَانِ يَوْمَ الْتَقَى الْجَمْعَانِ وَاللّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

"Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün – iki dəstənin bir-biri ilə qarşılaşdığı gün (Bədr günü) bəndəmizə nazil etdiyimizə iman gətirmisinizsə, bilin ki, həqiqətən əldə etdiyiniz mənfəətin beşdən biri Allah, Rəsulu, onun yaxınları, yetimlər, miskinlər və yolda qalanlar üçündür. Allah hər şeyə qadirdir."

(Ənfal surəsi, ayə: 41)

Müsəlmanların iqtisadi cəhətdən vəzifələrindən biri "xums" ödəməkdir. Yəni sonradan deyiləcək hallarda insanın öz malının 1/5 hissəsini müəyyən yerlərdə istifadə üçün şəri hakimə ödəməsidir.

Yeddi halda xums vacibdir: 1 *•

1- Qazanc mənfəəti;

2- Mədən;

3- Xəzinə;

4- Harama qarışmış halal mal;

5- Suyun dibinə girməklə əldə edilən cəvahirat;

6- Müharibə qənimətləri;

7- Zimmi kafirin** müsəlmandan aldığı torpaq.

1. Qazanc mənfəəti 2 3

---

[1] Sistani. T.m, məs.1760; Lənkərani. T.m, məs.1816

•Zimmi kafir-Islam dövlətinin himayəsində yaşayıb onun qanunlarına itaət edən kafir

*Sistani:.. məşhur nəzərə əsasən...

[2] Sistani. T.m, məs.1761; Lənkərani. T.m, məs.1817

[3] Sistani. T.m, məs.1764; Lənkərani. T.m, məs.1820

**Əgər insan**

- *ticarət*
- *sənətkarlıq*
- *və ya başqa qazanc yerlərindən*

⇨ qazanc əldə etsə və bu özünün və ailəsinin illik xərclərindən artıq qalsa, onun xumsunu, yəni 1/5-ni sonradan deyiləcək qaydada verməlidir.[1]

**İnsana müəyyən miqdar miras çatsa**

1– Əgər mal sahibinin həmin malın xumsunu vermədiyini bilsə ⇨ onun xumsunu verməlidir.[2]

2– Əgər o malın özündə xums olmasa, amma malı miras olaraq çatan şəxsin xums borcu olduğunu bilsə ⇨ xumsu onun malından verməlidir.[2]

### *NƏLƏRƏ XUMS DÜŞMƏZ*

1– Qadının aldığı mehriyyənin xumsu yoxdur.1

2– Insana yetişən irsə xums düşməz.3

3– Əgər insanın əlinə kafirdən, yaxud xums verməyə etiqadı olmayan bir şəxsdən müəyyən qədər mal gəlsə, onun xumsunu verməsi vacib deyil.2

4– Əgər bir kəsin ticarət üçün aldığı mallarının qiyməti bahalaşsa və onu satmasa, yenidən, ilin ortasında qiyməti aşağı düşsə, qiymətlər bahalaşarkən artan miqdarına xums vacib deyil.3

* 4 5

5– İl boyu qazanc mənfəətindən

- Yeyib-içmək;
- Geymək;
- Mənzil avadanlığı almaq;
- Toy etmək;
- Cehizlik almaq;
- Ziyarət və s.;

6–Fəqir bir şəxsin

- Xums
- Zəkat kimi aldığı şeylər[3]

Həmin şəxsin ictimai mövqeyinə uyğun olsa[*] və ifrat etməmiş olsa, bunların xumsu yoxdur[2]

---

[1] Sistani. T.m, məs.1763; Lənkərani. T.m, məs.1819
[2] Sistani. T.m, məs.1773; Lənkərani. T.m, məs.1829
[3] Sistani. T.m, məs.1777; Lənkərani. T.m, məs.1833
[*] Lənkərani: ... ehtiyacı olan vaxt əldə olunsa və ...
[4] Sistani. T.m, məs.1784; Lənkərani. T.m, məs.1840
[5] Sistani. T.m, məs.1768; Lənkərani. T.m, məs.1824

1– Xərcləri başqası tərəfindən verilən şəxs, əldə etdiyi bütün malların xumsunu verməlidir.1

2– Əgər qənaət etməklə müəyyən bir şey illik xərclərdən artıq qalsa, onun da xumsunu verməlidir.2

3– Tacir, sənətkar və s. kimi şəxslər işə başladığı vaxtdan bir il keçəndə, illik xərclərindən artıq qalanın xumsunu verməlidirlər. Amma peşəsi ticarət, sənətkarlıq və s. olmayan bir kəs, təsadüfən müəyyən qədər mənfəət əldə etsə, qazanc əldə etdiyi müddətdən bir il keçdikdən sonra illik xərclərindən artıq qalan hissəsinin xumsunu verməlidir.3

4– Insan, ilin əsnasında hər vaxt mənfəət əldə etsə, onun xumsunu verə bilər. Xums verməyi ilin axırına qədər təxirə salmaq da olar. Xumsu vermək üçün milad və şəmsi ilini də başlanğıc götürmək olar.4

5– Əgər qazanc mənfəətindən illik istifadə olunan azuqə alınsa və ilin axırında artıq qalsa, artıq qalanın xumsunu verməlidir.5

6 *

**Həddi-büluğa çatdığı vaxtdan xums verməyən bir şəxs[3]**

- 1– Qazanc mənfəətindən ehtiyacı olmayan bir şey alsa və üstündən bir il keçsə → Onun xumsunu verməlidir
- 2– Ehtiyacı olan və iqtisadi mövqeyinə uyğun ev əşyaları, mənzil avadanlığı və s. olsa.
  - -Onları gəlir əldə etdiyi işin əsnasında aldığını bilsə → Xums verməsi lazım deyil
  - -İl boyunca, yaxud il tamam olandan sonra aldığını bilməsə* → Ehtiyati-vacibə əsasən cameüş-şərait müctəhidlə razılaşmalıdır

## 2. Mədən

1– Əgər mədəndən qızıl, gümüş, bürünc, mis, dəmir, neft, daş kömür, firuzə, əqiq mineral maddələr, duz və ümumiyyətlə "mədən qazıntıları"

---

1 Sistani. T.m, məs.1766; Lənkərani. T.m, məs.1822
2 Sistani. T.m, məs.1765; Lənkərani. T.m, məs.1821
3 Sistani. T.m, məs.1774; Lənkərani. T.m, məs.1830
4 Sistani. T.m, məs.1775; Lənkərani. T.m, məs.1831
5 Sistani. T.m, məs.1789; Lənkərani. T.m, məs.1845
6 Lənkərani. T.m, məs.1862

*Sistani: ..ehtiyati-vacibə əsasən ehtimal etdiyi miqdar şəri hakim ilə razılaşdırılmalıdır, yəni əgər 50%-nin xumsunun vacib olduğunu ehtimal versə, 50% xumsunu verməlidir. T.m, məs.: 1806

adlana bilən hər şey əldə olunsa, nisab həddinə çatanda xumsu verməlidir.1

2– *Ehtiyata əsasən, mədəndən çıxarılan şeylərin nisabı 15 misqal qızıl qədərdir. Ehtiyati-vacib budur ki, nisab, mədəndən çıxarılan şeylərin ixracına, saflaşdırılmasına, emalına çəkilən xərcləri çıxmazdan qabaq hesab olunsun. Lakin, xumsu verilməli olan miqdar xərclər çıxıldıqdan sonradır. 2

Bir neçə şəri suala cavab:

Sual: Qızıma bir qədər məişət avadanlığı cehiz vermişəm. Bu cehizə xums gələrmi?

Cavab: Əgər verdiyiniz cehiz xalqın nəzərində sizin vəziyyətinizə uyğundursa, onda verdiyiniz məişət avadanlığına xums gəlməz.3

Sual: Aylıq əmək haqqı alan şəxs o pulları evlənmək üçün gələcəyə ehtiyat saxlasa, onlara xums gələrmi?

Cavab: Əgər aylıq əmək haqqından alınan pulların özünü ehtiyat saxlasa, onda ona ilin başında xums gələr, hətta gələcəkdə evlənən zaman cehiz almaq üçün olsa da.4

Sual: Tələbə üçün özünün gəliri olmadığı halda, atanın pulu ilə və ya universitetin verdiyi borcla aldığı kitablara xums vacibdirmi? Həmçinin, əgər məlum olsa ki, atası onun aldığı kitablara xərc olunan pulun xumsunu verməyib, onda vacib olarmı?

Cavab: Borcla alınan kitablara, eləcə də atanın hibə etdiyi pulla alınan kitablara xums gəlmir. Amma əgər o malların özünün xumsunun verilməməsi məlum olsa, onda onların xumsunun verilməsi vacibdir.5

Sual: Mən öz evimi, başqa ev almaq niyyəti ilə satdıqdan sonra puluma xums gəldiyini başa düşdüm. Hal-hazırda əgər bu pulun xumsunu versəm, daha ev ala bilməyəcəyəm. Onu da qeyd edim ki, evimi satmazdan əvvəl o evi döşəmək üçün xalça-palaz almağa ehtiyacım var idi. Bu məsələnin hökmü necədir?

Cavab: Əgər satılan evin pulu həmin il yaşamaq üçün ehtiyaclı olduğunuz evin alınmasına, yaxud dolanışığa sərf olunsa, onda onlara xums gəlməz.6

Sual: Insanın özünün və ya ailəsinin ehtiyacına görə illik qazancından alınan ev, maşın və başqa əşyaları zəruri halda satanda və ya ondan yaxşısı ilə dəyişəndə hökmü necə olar?

Cavab: Xums ilində dolanışıq üçün lazım olan şeyləri satmaqla əldə edilən puldan həmin şeylərdə sərf olunsa, ona xums vacib deyildir. Amma belə olmazsa, ehtiyata görə vacibdir ki, xums ili çatanda onun

---

[1] Sistani. T.m, məs.1807; Lənkərani. T.m, məs.1863

*Sistani: Mədənin nisabı on beş misqal normal sikkəli qızıldır. Yəni mədəndən çıxarılan şeyin qiyməti, çıxarılma xərcləri azaldıldıqdan sonra on beş misqal sikkəli qızıla çatarsa, onun saflaşdırılma və s. xərcləri çıxıldıqdan sonra yerdə qalanın xumsu verilməlidir.T.m, məs.1808

[2] Lənkərani. T.m, məs.1864

[3] Xamenei. "Əcvibətül istiftaat", sual 873

[4] Xamenei. "Əcvibətül istiftaat", sual 879

[5] Xamenei. "Əcvibətül istiftaat", sual 889

[6] Xamenei. "Əcvibətül istiftaat", sual 899

xumsunu versin. Amma əgər gələn ilin dolanışığında sərf etmək üçün saxladığı hissə ehtiyacını ödəməsə, ona xums vacib deyildir. 1

Sual: Bir nəfərin şəxsi kitabxanası var və orada olan kitablardan müəyyən vaxtlarda istifadə edir. Onun üstündən illər keçir, lakin onlardan bir daha istifadə olunmur. Amma gələcəkdə istifadə olunması ehtimalı var. Istifadə olunmayan müddətdə o kitablara xums gəlirmi? Həmçinin, xumsun vacib olmasında o kitabların özü və ya atası tərəfindən alınmasının fərqi vardırmı?

Cavab: Əgər o kitablara gələcəkdə müraciət etmək üçün ehtiyac olacaqsa və onlar xalqın nəzərində həmin adamın öz səviyyəsinə uyğundursa, onda onlara, bir müddət istifadə etməsə də belə xums gəlmir. Həmçinin əgər o kitablar ona valideynlərindən və ya başqa adamlardan irs, yaxud hədiyyə yolu ilə çatıbsa, ona xums gəlmir.2

Sual: Ərin öz arvadı üçün aldığı qızıla xums gəlirmi?

Cavab: Əgər onun öz vəziyyətinə münasib olan adi səviyyədirsə, onda ona xums vermək lazım deyildir. 3

[?] Suallar

1-Nələrə xums düşmür?

2- Əgər insana xumsu verilmiş mal miras olaraq çatsa və varis malı miras olaraq çatan şəxsin özünün xums borcu olduğunu bilsə, nə etməlidir?

3- Tacir və sənətkar nə vaxt xums ödəməlidir?

4- Mədəndən çıxarılan qızıl və gümüşün xumsunun nisabı nə qədərdir?

5- Hədiyyəyə xums gələrmi?

[1] Xamenei. "Əcvibətül istiftaat", sual 909
[2] Xamenei. "Əcvibətül istiftaat", sual 921
[3] Xamenei. "Əcvibətül istiftaat", sual 922

# 43-CÜ DƏRS

## *XUMS (2)*

### *3. Xəzinə*

1– Xəzinə torpaqda, ağacda, dağda və ya divarda saxlanmış olub bir şəxs tərəfindən tapılan maldır və o xəzinə deyiləcək bir şəkildə olmalıdır.1* 2

***Xəzinədən əldə edilən şeyin qiyməti***
- ***105 misqal*** sikkəli gümüş
- və ya ***15 misqal*** sikkəli qızıla çatsa*

⇨ onun xumsu verilməlidir[2]

### *4. Harama qatışmış halal mal*

1– Halal mal haram mala, ayırd edilməyəcək şəkildə qarışsa və haram malın sahibi və miqdarı heç biri məlum olmasa,** bütün malın xumsu verilməlidir.3

Əgər bir kəsin malı başqasının malı ilə qarışsa: 4

***1-Sahibi məlum olsa***
- ***Haram malın miqdarını bilirsə*** ⇨ Sahibinə qaytarmalıdır.[1]
- ***Haram malın miqdarını bilmirsə*** ⇨ Gərək razılaşsınlar.[1]

1

---

[1] Sistani. T.m, məs.1815; Lənkərani. T.m, məs.1873

*Lənkərani: .. onu əldə etmək üçün sərf olunan xərcləri çıxdıqdan sonra ehtiyati-vacibə görə xumsu verilməlidir.

[2] Sistani. T.m, məs.1817; Lənkərani. T.m, məs.1875

**Sistani: ...haramın miqdarının xumsdan az, yaxud çox olduğunu bilməzsə, malın hamısının xumsunu mütləq qürbət və sahibi bilinməyən mal niyyəti ilə xums düşən şəxsə verərsə, xums verdikdən sonra malın qalan hissəsi halal olar.

[3] Sistani. T.m, məs.1822; Lənkərani. T.m, məs.1880

[4] Sistani. T.m, məs.1824; Lənkərani. T.m, məs.1882

*Sistani:...ehtiyati-vacibə görə şəri hakimdən də icazə almalıdır.

2

**2-Sahibi məlum deyilsə**

- ***Haram malın miqdarını bilirsə*** ⇨ Həmin miqdarı sahibinin niyyəti ilə sədəqə verməlidir,* ehtiyati-vacibə əsasən cameüş-şərait müctəhiddən də icazə almalıdır.[2]
- ***Haram malın miqdarını bilmirsə*** ⇨ Xumsu verildikdən sonra qalanı halal olur.[3]

1– **Əgər harama qarışmış halal malın xumsunu versə və sonradan sahibi məlum olsa, onun boynuna heç nə gəlmir. Ancaq sahibini tanımadığı malı, onun niyyəti ilə sədəqə versə, sonra sahibi tapılsa onun malı miqdarında qaytarması vacibdir.3

### *5. Suyun dibinə girməklə əldə edilən cəvahir4*

***Əgər suyun dibinə girmək vasitəsilə oradan çıxarılan*** { • mirvari • mərcan • yaxud bu yolla çıxarılan başqa cəvahirin } { çıxarılmasına sərf edilən xərclər çıxıldıqdan sonra qiyməti 18 noxud qızıla çatarsa } ⇨ ***Xumsu verilməlidir.***

### *6. Qənimət*

Qənimət məsələsi Imamın (ə) hazır olduğu zamana məxsus olduğundan, onun haqqında danışmırıq.

### *7. Zimmi kafirin müsəlmandan aldığı torpaq*

1–*Əgər zimmi kafir müsəlmandan torpaq satın alsa, onun xumsunu həmin torpaqdan verməlidir. Onun xumsunu pul ilə də ödəyə bilər. 1

---

[1] Sistani. T.m, məs.1823; Lənkərani. T.m, məs.1881

[2] Sistani. T.m, məs.1822; Lənkərani. T.m, məs.1880

**Sistani: Əgər harama qarışmış halal malın xumsunu versə və ya sahibini tapmadığı malı onun niyyətinə sədəqə verə və sahibi tapıldıqdan sonra buna razı olmasa, lazım ehtiyata əsasən onun malının miqdarını özünə verməlidir. T.m, məsələ: 1826

[3] Lənkərani. T.m, məs.1884

[4] Lənkərani. T.m, məs.1886; Sistani. T.m, məs.1828

1– Xumsu verilməmiş şeydən istifadə etmək olmaz. 2

2– **Xumsu və zəkatı verilməmiş pulun eyni ilə müəyyən bir mülk alınsa, o mülkdən istifadə etmək haram, onda qılılnan namaz batildir. 3

3–**Hamamçıya xumsu verilməmiş pul verib hamamda qüsl olunsa, qüsl batildir.4

## *XUMSUN ISTIFADƏ YERLƏRI *** *****

**Xumsu iki yerə bölmək lazımdır**[2]

- ***1. İmamın payı:*** Bu zəmanəmizdə cameüş-şərait müctəhidə verilməli, yaxud onun icazə verdiyi yerlərdə istifadə olunmalıdır.**
- ***2. Seyyidlərin payı:***
  - –***Ehtiyati-vacibə əsasən cameüş-şərait müctəhidə verilməlidir
  - – Yaxud
    - ya fəqir seyyidə
    - ya yetim seyyidə
    - ya da səfərdə yolda qalmış seyyidə ⇨ Verilməlidir

5

* Sistani: Əgər zimmi kafir, müsəlmandan bir yer satın alırsa, məşhur nəzərə əsasən, onun xumsunu həmin yerdən və ya başqa malından verməlidir. Amma bu halda xums bilinən mənasıyla vacib olması mübahisəlidir. T.m, məs. 1842

[1] Lənkərani. T.m, məs.1896;

[2] Lənkərani. T.m, məs.1855; Sistani. T.m, məs.1798

* *Sistani: Xumsu verilməmiş pulla müəyyən bir mülk alınsa, o mülkdən istifadə etmək haramdır, ehtiyati-vacibə əsasən orada qılınan namaz batildir. T.m, məs.882

[3] Lənkərani. T.m, məs.886

*Sistani: Əgər xumsu verilməmiş pulu hamamçıya versə, haram iş görmüş olsa da, zahir budur ki, onun qüsulu səhihdir və xums düşən şəxslərin haqqı onun boynunda qalır. T.m, məs.389

[4] Lənkərani. T.m, məs.383

[2] Sistani. T.m. məs. 1843; Lənkərani. T.m, məs.1901

**Sistani: .. ehtiyati-lazıma əsasən o, ümumi cəhətləri bilən ələm müctəhid olmalıdır.

***Sistani: Seyyidlərin payı fəqir seyyidə, yaxud yetim seyyidə, yaxud da səfərdə yolda qalmış seyyidə verilməlidir.

**Bu seyyidlərə xums verilməməlidir:**

1- Səfərdə yolda qalan bir seyyidin səfəri günah səfəri olsa, ehtiyati-vacibə görə ona xums verilməməlidir.[1]
2- On iki imamı (ə) qəbul etməyən seyyidə xums vermək olmaz.[2]
3- Günah edən seyyidə xums verilməsi onun günahlarına kömək olarsa,* ona xums vermək olmaz.[3]
4- Aşkar surətdə günah edən seyyidə, hətta xumsun onun günahlarına kömək edən olmasa da, ehtiyati-vacibə görə ona xums verilməməlidir.[3]

12*

1– Xums verilən yetim seyyid fəqir olmalıdır: ancaq səfərdə yolda qalan seyyid, hətta öz vətənində fəqir olmasa da, ona xums vermək olar.33

2– Bir kəs öz şəhərində seyyid olması ilə məşhur olsa,** hətta insanın onun seyyid olmasına yəqini olmasa da, onun seyyid olmasına etimad etdiyi halda ona xums vermək olar.4 4

3– Ehtiyati-vacib budur ki, bir nəfər fəqir seyyidə bir illik xərclərindən artıq miqdarda xums verilməsin. 55

Bir neçə şəri suala cavab:

Sual: Əgər insanın mallarına haram mal qarışsa, onun hökmü necə olar və necə halala çıxar? Həmçinin, bu qarışan şeyin haramlığı yəqin olsa və ya olmasa necədir və o şəxsə vacib olan vəzifə nədir?

Cavab: Əgər malların içərisində haram bir şeyin olması yəqin olsa, lakin dəqiq şəkildə onun miqdarını bilməsə və sahibini tanımasa, onda onun halala çıxmaq yolu xumsunun verilməsi ilədir. Amma əgər haram bir şeyin qarışmasında şəkk etsə, onda ona heç bir şey lazım deyildir. 6

Sual: Ev kirayə edən adamın ev sahibinə "rəhn" (girov) adı ilə verdiyi pula xums vermək ev sahibinə vacibdir, yoxsa kirayəçiyə?

Cavab: Əgər o pul qazancdandırsa, onda qaytarıldıqdan sonra kirayəçiyə onun xumsunu vermək vacibdir və borc adı ilə o pulu alan ev sahibinə xums vermək vacib deyildir. 7

Sual: Ev ləvazimatlarının xumsu necə hesablanır?

---

[1] Sistani. T.m, məs.1846; Lənkərani. T.m, məs.1904
[2] Sistani. T.m, məs.1847; Lənkərani. T.m, məs.1905
* Sistani: ... Ehtiyati-vacibə əsasən ona xums verilməməlidir.
[3] Lənkərani. T.m, məs.1902; Sistani. T.m, məs.1844
**Sistani: Insanın onun söylədiklərinin xilafına yəqinliyi, yaxud əminliyi olmasa, onda xums vermək olar. T.m, məs.1849
[4] Lənkərani. T.m, məs.1907
[5] Sistani. T.m, məs.1853; Lənkərani. T.m, məs.1911
[6] Xamenei. "Əcvibətül istiftaat", sual 915
[7] Xamenei. "Əcvibətül istiftaat", sual 919

Cavab: Xalça və bu kimi özü saxlanılmaqda istifadə olunan avadanlıqlara xums yoxdur, amma düyü, zeytun və bu kimi gündəlik tələbat mallarına (ilin axırına qalanlara) xums gələr.1

Sual: Mənim bir neçə dəst qab-qacaq varımdır. Onların bəzisini işlətdikdə xumsun vacib olmamasına kifayət edərmi?

Cavab: Mənzil və ev avadanlıqlarına xumsun vacib olmasının meyarı xalqın nəzərində onlara öz səviyyənizə uyğun ehtiyacınızın olmasıdır, hətta il ərzində ondan istifadə etməsəniz də.2

Sual: Əgər bəzi qab-qacaq və döşənəcəklərin üstündən bir il keçərək işlətməsəm, lakin həmin şeylərdən qonaqlar üçün istifadə etməkdə ehtiyacım olsa, onların xumsunu vermək vacibdirmi?

Cavab: Onların xumsunu vermək vacib deyildir.3

Sual: Çox cildli kitabların yalnız bir cildini oxumaqla o kitabların hamısının üzərindən xums götürülər, yoxsa cildlərin hər birindən bir neçə səhifə oxumaq lazımdır?

Cavab: Əgər o cildlərin hamısına ehtiyac varsa, yaxud o kitabların bütün cildləri hamısı birlikdə (ayrı-ayrı deyil) satılırsa, onda xums yoxdur. Əgər belə olmazsa, onda hal-hazırda ehtiyac olmayan cildlərin xumsunu vermək vacibdir və təkcə o kitabların hər bir cildindən bir səhifə oxumaq xumsun gəlməməsi üçün kifayət etməz.4

Sual: Bir nəfərin bir qədər torpaq sahəsi var, amma orada yaşamaq üçün evi yoxdur. Torpaq sahəsini özünə ev tikmək üçün almışdır. Əlində kifayət qədər pul olmadığı üçün, orada nə ev tikə bilib, nə də ki, satıb. Ona xums vacibdirmi? Vacib olan təqdirdə, o yeri alarkən verdiyi pulun xumsunu versin, yoxsa indiki qiymətlə hesablansın?

Cavab: Əgər onu, alınan ildə ehtiyaclı olduğu evi tikmək üçün alıbsa, onda ona xums gəlməz. 5

Sual: Yuxarıda qeyd olunan sualda əgər ev tikilməyə başlansa və qurtarmamış üstündən bir xums ili keçsə, o binada işlənən materiallara xums vacib olarmı?

Cavab: Sualda göstərilən şəraitdə xums vacib olmaz.6

[?] Suallar———————————————————

1- Tapılmış xəzinənin nisabı nə qədərdir?

2- Əgər bir nəfərin malı başqasının malı ilə qarışsa və həmin malın sahibi məlumdursa, amma miqdarı məlum deyilsə, vəzifəniz nədir ?

3- Xums neçə yerə bölünür və hansı yerlərə istifadə olunur?

4- Hansı seyyidlərə xums vermək olmaz?

---

[1] Xamenei. "Əcvibətül istiftaat", sual 933
[2] Xamenei. "Əcvibətül istiftaat", sual 925
[3] Xamenei. "Əcvibətül istiftaat", sual 926
[4] Xamenei. "Əcvibətül istiftaat", sual 928
[5] Xamenei. "Əcvibətül istiftaat", sual 934
[6] Xamenei. "Əcvibətül istiftaat", sual 935

# 44-CÜ DƏRS

## HƏCC (1)

فِيهِ آيَاتٌ بَيِّـنَاتٌ مَّقَامُ إِبْرَاهِيمَ وَمَن دَخَلَهُ كَانَ آمِنًا وَلِلّهِ عَلَى النَّاسِ حِجُّ الْبَيْتِ
مَنِ اسْتَطَاعَ إِلَيْهِ سَبِيلاً وَمَن كَفَرَ فَإِنَّ الله غَنِيٌّ عَنِ الْعَالَمِينَ

"Orada aydın nişanələr – Ibrahimin məqamı vardır. Ora daxil olan şəxs əmin-amanlıqdadır. Onun yoluna (ərzaq, minik və sağlamlıq baxımından) gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur. Kim bunu inkar edərsə, (özünə zülm etmiş olar). Əlbəttə Allah aləmdəkilərə möhtac deyildir!"
(Ali-Imran surəsi, ayə 97)

Müsəlmanların mühüm vəzifələrindən biri də həcc ziyarətidir. Bütün ömrü boyu aşağıdakı şərtlərə malik olan bir kəsə həcc bir dəfə vacib olur.1

***HƏCCIN VACIB OLMA ŞƏRTLƏRI1***

- Həddi-büluğa çatmış olsun;
- Aqil və azad olsun;
- Həccə getmək səbəbilə şəriətdə əhəmiyyəti həccdən daha artıq olan haram bir işi görməyə, yaxud Həccdən mühüm olan vacib bir əməli tərk etməyə məcbur olmasın;
- Müstəti olsun.

Müstəti olmaq dedikdə aşağıdakı şərtlərə malik olmaq nəzərdə tutulur: 2

*

[1] Sistani. T.m, məs.2044; Lənkərani. T.m, məs.2097
[2] Sistani T.m, məs: 2044; Lənkərani. T.m, məs.2097
*Sistani: ... və hədsiz əziyyət olmadan Məkkəyə gedib...

***Müstəti***

- Maddi cəhətdən imkana malik olsun;
- Səhhəti cəhətdən imkan səhhəti sağlam və *Məkkəyə gedib Həcc əməllərini yerinə yetirmək qüdrətinə malik olsun;
- Yol cəhətdən imkan (yolun açıq və təhlükəsiz olması);
- Vaxt cəhətdən imkan (Həcc əməllərini yerinə yetirə biləcək qədər).

***Maddi imkan dedikdə bunlar nəzərdə tutulur:***[1]

1- Yol azuqəsi və vəziyyətinə münasib olaraq səfərdə ehtiyacı olduğu şeylərə malik olsun;
2- Xərclərini təmin etsin, onun öhdəsində olan şəxslərin xərclərinə malik olsun;
3- Qayıdandan sonra iş-ticarət, qazanc, əkin, yaxud mülkün gəliri, yaxud başqa yollarla məişətini, güzəranını təmin edə bilsin və zəhmətə düşməyə məcbur olmasın.

***Həccin növləri***

1- ***Qiran***
2- ***İfrad***
3- ***Təməttu***

1
Qiran və Ifrad həcci Məkkə və onun ətrafının əhalisinə məxsusdur. Bu barədə geniş məlumat almaq üçün fiqhi kitablara müraciət edilsin.

*TƏMƏTTU HƏCCI.*

Təməttu həcci iki hissədən ibarətdir:
- Təməttu ümrəsi
- Təməttu həcci

Təməttu ümrəsi təməttu həccindən əvvəl yerinə yetirilir.

*TƏMƏTTU ÜMRƏSININ ƏMƏLLƏRI*

Təməttu ümrəsinin əməlləri beş qismdir: 2

---

[2] "Mənaseke həcc", səh.99

1– Miqatda• ehram bağlamaq;
2– Kəbəni təvaf etmək;
3– Təvaf namazı qılmaq;
4– Səfa ilə Mərva arasında səy etmək;
5– "Təqsir etmək" (yəni saçdan, yaxud dırnaqdan bir qədər kəsmək*).

## *EHRAM1*

❋ Kişilər paltarlarının hamısını çıxarıb, tikişi olmayan iki hissə parçadan birini long kimi belinə bağlayıb, digərini isə çiyninə ataraq ehram niyyəti ilə deməlidir:

"Ləbbeyk Allahummə ləbbeyk, ləbbeykə la şərikə ləkə ləbbeyk."

❋ Qadınlara tikili paltarlarını çıxartmaq vacib deyil.**Onlar tikili paltarlarla da ehram bağlaya bilərlər. Qadınlar da niyyət edib yuxarıda göstərilən kimi "Ləbbeyk Allahummə ləbbeyk, ləbbeykə la şərikə ləkə ləbbeyk."– deməlidirlər.

## *TƏVAF2*

Ümrə və Həccin əməllərindən biri təvafdır, yəni yeddi dəfə Kəbənin ətrafında fırlanmaqdır.

1– Təvaf gərək Kəbənin Həcərül-əsvəd adlanan tərəfindən başlansın və həmin yerdə bitsin.

2– Təvaf zamanı Kəbə evi təvaf edənin sol tərəfinə düşməlidir. Belə ki, təvaf zamanı üzü Kəbəyə hərəkət etsə, təvafı batildir.

3– Təvaf edən "hicri Ismail"in də ətrafında dolanmalıdır. (Yəni təvaf zamanı "hicri Ismail"in içinə keçməməlidir.)

4– Təvaf edən təharətli halda təvaf etməlidr. Yəni dəstəmazlı olmalı, boynunda qüsl olmamalıdır və həmçinin namaz qıldığı halda olduğu kimi bədəni və paltarı pak olmalıdır.

## *TƏVAF NAMAZI*

1– Təvaf başa çatdıqdan sonra təvaf namazı niyyəti ilə iki rəkət namaz qılınmalıdır. 3

2– Təvaf namazı sübh namazı kimidir, amma azan və iqaməsi yoxdur. Kişilər təvaf namazını həm hündürdən, həm də astadan qıla bilərlər. 1

---

•Ehram bağlamaq üçün təyin olunan yerlərə miqat deyilir:
1. "Məscidül-şəcərə"
2. "Cöhfə"
3. "Qərnül-mənazil"
4. "Vadiyi-əqiq"
5. "Yələmləm"

*Sistani: ... ehtiyata əsasən təkcə dırnağı tutmaq kifayət etməz.

[1] "Mənaseke həcc", məs.259, 269

*Lənkərani: ... Ehtiyati vacibə görə ehram niyyəti və ləbbeykdən əvvəl geyinilən libasın ehram libası olduğu niyyət edilməlidir... "Mənaseke həcc", səh.138

[2] "Mənaseke həcc", məs.230, 232, 233 və 225

[3] "Mənaseke həcc", məs.773

3– Təvaf namazı Məscidül-Həramda "Məqame Ibrahim"in• arxasında qılınmalıdır. Belə ki, məqamın daşı onunla Kəbə evinin arasında yerləşsin.2

### *Səy*

1– Təvaf namazı bitdikdən sonra yeddi dəfə Səfa ilə Mərva arasındakı məsafəni gedib-qayıtmağa səy deyilir.3

2– Səy Səfada başlayıb Mərvada bitməlidir.4

3– Səfadan Mərvaya getmək bir dəfə, Mərvadan Səfaya qayıtmaq isə iki dəfə hesab olunur.5

### *Təqsir*

1–Təməttu ümrəsində səydən sonra təqsir edilməlidir. Yəni saçdan, yaxud dırnaqdan* bir qədər qısaldılmalıdır.6

Yuxarıdakı əməllər yerinə yetirildikdən sonra ehram bağlanmaqla haram olan işlər** ona halal olar.7

[?] Suallar

1- Həccin vacib olma şərtlərini deyin.

2- Insan hansı hallarda müstəti olur?

3- Təməttu ümrəsinin əməllərini ardıcıl şəkildə bəyan edin.

4- Həccin neçə növü vardır və camaatın əksəriyyətinə həccin hansı növü vacib olur?

---

[1] "Mənaseke həcc", məs.775

•"Məqame Ibrahim" – Həzrəti Ibrahimin Kəbə evini tikərkən ayağının altına qoyduğu daşa deyilir, onun ayağının izi bu daşın üzərində qalıbdır.

[2] "Mənaseke həcc", məs.778

[3] "Mənaseke həcc", məs.825

[4] "Mənaseke həcc", məs.828

[5] "Mənaseke həcc", məs.827

*Sistani: ... Ehtiyata əsasən təkcə dırnağı tutmaq kifayət etməz.

[6] "Mənaseke həcc", məs.888

**Sistani: ... saçı tamamilə qırxmaqdan savayı ...

[7] "Mənaseke həcc", səh.99

# 45-CI DƏRS

## HƏCC (2)

### TƏMƏTTU HƏCCININ ƏMƏLLƏRI[1]

Təməttu həccinin əməlləri 13-dür və aşağıdakı tərtiblə yerinə yetirilir:

1- Məkkədə ehram bağlamaq;
2- Ərəfatda dayanmaq;
3- Məşərül-Həramda dayanmaq;
4- Minada "cəmərеyi-əqəbəyə" (böyük şeytana) daş atmaq;
5- Mina dağında qurban kəsmək;
6- Minada təqsir etmək;
7- Kəbəni təvaf etmək (yəni yeddi dəfə dövrə vurmaq);
8- Iki rəkət təvaf namazı qılmaq;
9- Səfa və Mərva arasında səy etmək;
10- Təvafi-nisa;
11- Təvafi-nisanın iki rəkət namazı;
12- Mina dağında qalmaq (Zil-hiccənin on bir, on ikinci gecəsi və bəzi şəxslər üçün isə hətta on üçüncü gecəsi);
13- On bir və on ikinci gün hər üç şeytana daş atmaq. On üçüncü gecə orada qalan şəxslər isə on üçüncü gün şeytana daş atmalıdır.*

### MƏKKƏDƏ EHRAM BAĞLAMAQ

Təməttu ümrəsində deyilən qayda ilə təməttu həcci üçün Məkkədə ehram bağlanmalıdır.

### ƏRƏFATDA DAYANMAQ

Hacılar ehtiyati-vacibə əsasən Zil-hiccənin doqquzuncu günü zəvaldan (zöhrdən) məğrib namazına qədər, yəni şəri qürub vaxtına qədər Ərəfatda dayanmalı və oradan çıxmamalıdırlar. 2

### MƏŞƏRÜL-HƏRAMDA DAYANMAQ

Hacılar Ərəfatda dayandıqdan sonra Zil-hiccə ayının onuncu gecəsi Məşərül-Harama tərəf hərəkət etməlidirlər.* Ehtiyati-vacibə əsasən onuncu gecəni sübhə qədər Məşərül-Həramda qalmaq niyyəti edib qalmalıdırlar. Sübh açıldıqda isə yenidən niyyət edib günəş çıxana qədər orada qalmalıdırlar.3

---

[1] "Mənaseke həcc", səh.99-100

*Sistani: ... Ehtiyata əsasən ...

[2] "Mənaseke həcc", məs.959

*Sistani: Vacibdir ki, hacılar Ərəfatdan çıxdıqdan sonra gecənin bir hissəsini sübhə qədər Məşərül-Həramda qalsınlar ...

[3] "Mənaseke həcc", səh.979

Hacılar Zil-hiccə ayının onuncu günü Həccin digər əməllərini yerinə yetirmək üçün Məşərül-Həramdan çıxıb Minaya doğru hərəkət edirlər.

Qurban günü Minadakı əməllər aşağıdakılardan ibarətdir:

❋ "cəmərеyi-əqəbəyə" daş atmaq;

❋ qurban kəsmək;

❋ həlq etmək və ya təqsir etmək.

### *BÖYÜK ŞEYTANA DAŞ ATMAQ*

Minada üç daş sütun vardır:

I sütun – "cəmərеyi ula"
II sütun – "cəmərеyi vusta"
III sütun "cəmərеyi əqəbə"
} ⇒ адланыр

Qurban günü vacib olan ilk əməl yeddi ədəd daşı "cəmərеyi əqəbə"yə vurmaqdır. 1

### *QURBANLIQ*

Hacılar "cəmərеyi-əqəbə"yə daş atdıqdan sonra Həccin başqa bir əməlini yerinə yetirmək üçün qurbangaha gedib burada ya bir dəvə, ya bir inək və ya bir qoyun kəsməlidirlər. 2

### *TƏQSİR ETMƏK*

Qurbanlıqdan sonra hacılar ya saçlarını qırxmalıdırlar (həlq), ya da saçlarından və yaxud dırnaqlarından** qısaltmalıdırlar (təqsir).

### *MİNADA BEYTUTƏ*

Həccin vacib əməllərindən biri də Minada beytutə etməkdir (gecə orada qalmaqdır). Hacılar zilhiccə ayının on birinci və on ikinci gecələri Minada beytutə etməlidirlər, yəni şəri qürub vaxtından gecə yarısına** qədər orada qalmalıdırlar. 3

### *ÜÇ CƏMƏRƏYƏ DAŞ ATMAQ*

Hacılar Minada beytutə etməsi vacib olan gecələrin gündüzlərində üç sütunun hər birinə yeddi ədəd daş atmalıdırlar. 4

Vacibdir ki, cəmərələrə daş atmaqda ardıcıllığa əməl olunsun. Yəni əvvəl "cəmərеyi ulaya", sonra "cəmərеyi vustaya", daha sonra "cəmərеyi əqəbəyə" daş atılsın. 5

---

[1] "Mənaseke həcc", məs.390

[2] "Mənaseke həcc", məs.1020

*Sistani: ... ehtiyati vacibə əsasən təkcə dırnağı kəsmək kifayət etməz.

** Sistani: ... ya gecənin əvvəlindən gecə yarısına qədər qalmalıdır, yaxud gecə yarısından əvvəl fəcrə qədər qalmalıdır.

[3] "Mənaseke həcc", məs.120

[4] "Mənaseke həcc", məs.1253

[5] "Mənaseke həcc", məs.1258

## TƏVAFI-NISA

1-Müfrədə ümrəsi və həcc əməllərindən biri nisa təvafıdır.1

2- Nisa təvafı yalnız kişilərə aid deyil, qadınlara da aiddir.2

3- Nisa təvafı yerinə yetirildikdən sonra ehram bağlamaqla bir-birinə haram olan qadın və kişi bir-birinə halal olurlar.3

## EHRAMIN HARAMLARI4

Insan ehram libası geyib "ləbbeyk" deməklə "muhrim" olur. Hacılar ehram vaxtı muhrimə haram olan əməllərdən çəkinməlidirlər. Bunlardan bəziləri yalnız kişilərə, bəziləri yalnız qadınlara, bəziləri isə həm kişilərə, həm də qadınlara haramdır.

## HƏM KIŞI, HƏM DƏ QADINLARA AID OLAN HARAMLAR:

1– Vəhşi* çöl heyvanlarını ovlamaq;
2– Cinsi əlaqədə olmaq;
3– Əqd oxumaq (kəbin kəsmək);
4– Istimna (onanizm);
5– Ətir vurmaq;
6– *Sürmə çəkmək;
7– **Güzgüyə baxmaq;
8– Füsuq (yalan danışmaq, söyüş söymək,*** öyünmək);
9– Cidal ("la vallah" və "bəla vallah" demək, yəni and içmək)
10– Insanın**** bədənində olan canlıları (həşəratları) öldürmək;
11– Zinət***** məqsədilə barmağa üzük taxmaq;
12– Bədənə yağ sürtmək;
13– Bədəndən tük çəkmək;
14– Bədəndən***** qan çıxartmaq;
15– Dırnaq tutmaq;
16– Dişi çıxartmaq;******
17– Hərəmdən gül və ya ağac qopartmaq;
18– Özü ilə silah gəzdirmək.

---

1 "Mənaseke həcc", məs.175, 1173
2 "Mənaseke həcc", məs.1179
3 "Mənaseke həcc", məs.1181
4 "Mənaseke həcc", "mühərrimati-ehram", səh. 152-159

*Sistani: Əsli vəhşi olan heyvanlar nəzərdə tutulur (sonradan əhliləşmiş olsa belə) və burada onun ətinin halal və ya haram olmasının fərqi yoxdur. Həmçinin onu ovlamaq, öldürmək, yaralamaq və s. haramdır.

*Sistani: ... əgər zinət məqsədilə olsa, haramdır. Zinət məqsədilə olmasa, ehtiyati-vacibə əsasən tərk olunmalıdır.

**Sistani: Zinət məqsədilə güzgüyə baxmaq haramdır.

***Sistani: Öyünmək əgər möminin təhqir olunmasına səbəb olarsa, bütün hallarda haramdır. Ehram vaxtı isə bunun haramlığı daha çoxdur. Möminin təhqir olunmasına səbəb olmazsa, işkalı yoxdur.

****Lənkərani: Insanın və heyvanın bədənində ...

*****Sistani: Ehtiyati-vacibə əsasən ...

******Sistani: Bu əməlin caiz olması uzaq görüş deyil

1– Tikili paltar geyinmək;

2– Ayağın üstünü bütünlüklə örtmək;

3– Başı örtmək;

4– Bir məkandan başqa bir məkana gedərkən hərəkət zamanı başın kölgədə olması.*******

Yalnız qadınlara haram olan işlər:

1– Gözəllik məqsədilə zinət əşyalarından istifadə etmək;

2– Üzü niqab və bu kimi şeylərlə örtmək;

Müfrədə ümrəsinin əməlləri

1- Ehram;

2- Təvaf;

3- Təvaf namazı;

4- Səy;

5- Təqsir və ya həlq;

6- Nisa təvafı;

7- Nisa təvafının namazı.

Bir neçə şəri suala cavab:

Sual: Mehriyyəsi həcc miqdarına çatan qadın ərindən öz mehriyyəsini tələb edə bilərmi? Əgər ərin bu miqdarı ödəmək imkanı olmasa necə? Əgər ərin ödəmək imkanı varsa, amma qadın hələlik ondan tələb etməsə necə, yenə də qadına həcc vacib olarmı?

Cavab: Əgər ərin mehriyyəni ödəmək imkanı varsa, qadın mehriyyəsini tələb etməlidir. Əgər qadın istitaətin başqa şərtlərinə də malikdirsə, həcc ona vacib olar.1

Sual: Şəxsi ev almağa imkanım olmadığı halda mənə həcc vacibdirmi? Əgər vacibdirsə hər bir şəraitdə həccə getməliyəmmi?

Cavab: Əgər şəxsi evə ehtiyacınız varsa, yalnız o halda müstəti olarsınız ki, (həcc xərcindən əlavə) şəxsi eviniz, yaxud ev almaq miqdarında pulunuz olsun. 2

Sual: Məscidül-Həramda və Məscidül-Nəbidə şiələr sünnilərin qıldığı camaat və cümə namazlarında onlara iqtida edirlər, bunun hökmü necədir? Onlar namazlarını sonra yenidən qılmalıdırlarmı? Hansı şərtlər mötəbər deyil? (Məsələn camaat namazının sıralarının bir-biri ilə bağlılığı və ya...? )

Cavab: Namaz səhihdir və onu yenidən qılmaq lazım deyil. Amma onların mötəbər hesab etdikləri şərtlərə riayət olunmalıdır. (Məsələn: Imam camaatdan qabağa keçməmək).3

[?] Suallar

1- Təməttu ümrəsi müfrədə ümrəsindən nə ilə fərqlənir?

2- Ərəfat və Məşərül-Həramda dayanmağın vaxtı nə vaxtdır?

3- Təməttu həccinin əməllərini deyin.

---

*******Lənkərani: ...ehtiyati-vacibə əsasən bu hökm hərəkət zamanı bədənə də aiddir.

[1] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 5

[2] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 6

[3] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 113

# 46-CI DƏRS

## ƏMR BE MƏRUF VƏ NƏHY ƏZ MUNKƏR

وَلْتَكُن مِّنكُمْ أُمَّةٌ يَدْعُونَ إِلَى الْخَيْرِ وَيَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنكَرِ
وَأُوْلَـئِكَ هُمُ الْمُفْلِحُونَ

"Içərinizdə (insanları) yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir dəstə olsun! Bunlar (bu dəstə), həqiqətən, nicat tapmış şəxslərdir."
(Ali-Imran surəsi, ayə 104).

Hər bir insan yaşadığı cəmiyyətdə başqalarının yaxşı və ya pis əməllərinə görə məsuliyyət daşıyır. Belə ki, Islamda hər hansı şəxs tərəfindən vacib bir əməl yerinə yetirilmədikdə, yaxud haram bir iş görüldükdə bunun müqabilində susmaq düzgün deyil. Cəmiyyətin bütün fərdləri vacib əməllərin yerinə yetirilməsi və haramın isə qarşısının alınması üçün çalışmalıdır. Bu işə "əmr be məruf və nəhy əz munkər" deyilir. Yəni "əmr be məruf" – yaxşı işlərə dəvətdir, "nəhy əz munkər" – pis işlərdən çəkindirmədir.

1– Əmr be məruf və nəhy əz munkər vacibi-kifaidir, yəni əgər mükəlləf şəxslərdən bəziləri ona əməl etsələr, başqalarının boynundan götürülər.1

### *ƏMR BE MƏRUF VƏ NƏHY ƏZ MUNKƏRIN VACIB OLMA ŞƏRTLƏRI2*

1-Əmr be məruf və nəhy əz munkər etmək istəyən şəxs hansı işlərin haram və hansı əməllərin vacib olduğunu bilməlidir. Deməli, məruf və munkəri təyin edə bilməyən şəxsə əmr be məruf nəhy əz munkər vacib deyil.

2- Əmr və nəhyinin təsirli olacağını ehtimal verməlidir. Deməli əgər təsir etməyəcəyini bilsə, vacib deyil.

3- Günahkar şəxsin öz günah işini təkrar edəcəyini bilsə, yaxud əmin olsa. Deməli, əgər təkrar etməyəcəyini bilsə, yaxud güman etsə və ya əsaslı bir ehtimal versə, vacib deyil.

4- Onun əmr və nəhy etməsindən fəsad yaranmasın. Deməli, əgər əmr və nəhy edəcəyi təqdirdə canına, irz-namusuna, heysiyyətinə, malına nəzərə çarpacaq dərəcədə zərər dəyəcəyini bilsə, yaxud güman etsə, vacib deyil.

---

[1] Lənkərani. T.m, məs.2862
[2] Lənkərani. T.m, məs.2866

**Əmr be məruf və nəhy əz munkərin dərəcələri**

- ***I dərəcə:*** Günahkar şəxs ilə elə rəftar olunmalıdır ki, günah iş gördüyünə görə ona qarşı bu cür rəftar olunduğunu başa düşsün. Məsələn, əgər bu cür rəftarın müxtəlif dərəcələri olsa, yüngül, nisbətən sadə dərəcənin təsirli olmasına ehtimal verdiyi halda, elə onunla kifayətlənməlidir. Məsələn,

  1- Ondan üz döndərsin, yaxud üz-gözünü turşudan halda onunla görüşsün, yaxud onunla yoldaşlığı tərk edib ondan üz döndərsin.[1]

  2- Əgər onunla danışmamaqla (küsməklə) məqsədinə çatacağına ehtimal versə, elə bu qədərlə kifayətlənməli, ondan yuxarı olan dərəcələrə əməl etməməlidir, xüsusilə də bu cür rəftar günah edən şəxsə qarşı hörmətsizlik olarsa.[2]

- ***II dərəcə***: Sözlə əmr be məruf və nəhy əz munkər etmək. Əgər bir kəs moizə və öyüd-nəsihətlə günahkarın günahı tərk edəcəyini ehtimal versə, həmin miqdarla kifayətlənməli, həmin həddən keçməməlidir.[3]
  Əgər nəsihətin təsirli olmayacağını bilsə, kobud danışıqdan və müxalifət edəcəyi halda təhdid etməkdən başqa yol qalmazsa, bu işləri etmək lazımdır, amma yalan və günahlardan çəkinməlidir.[4]

- ***III dərəcə:*** Zor gücünə əl atmaq. Deməli əgər vacibi yerinə yetirməyi, haramı tərk etməyi yalnız zor gücünə edəcyini bilsə, yaxud əmin olsa, bu işi etməsi vacibdir, amma lazım olan həddi aşmamalıdır.[5]

1 2 3 4 5
Bir neçə şəri suala cavab:

---

[1] Lənkərani. T.m, məs.2872
[2] Lənkərani. T.m, məs.2873
[3] Lənkərani. T.m, məs.2876
[4] Lənkərani. T.m, məs.2877
[5] Sistani "Tovzihul məsaile mərace", c.2, səh.640; Lənkərani. T.m, məs.2880

Sual: Başqalarına əmr be məruf və nəhy əz munkər etmək istəyən şəxsin bu iş üçün qüdrətinin olması vacibdirmi? Ona nə vaxt əmr be məruf və nəhy əz munkər etmək vacibdir?

Cavab: Əmr və nəhy edən şəxsə vacibdir ki, yaxşı və pis işləri tanısın, həmçinin o bilməlidir ki, qarşı tərəf də o işləri bilir və bununla yanaşı, şəri cəhətdən üzürsüz və bilərəkdən qarşı çıxır. Eləcə də, vacibdir ki, əmr be məruf və nəhy əz munkər edən şəxs qarşı tərəfə təsir etmək ehtimalı olduqda bu işə qoşulsun. Həmçinin, əmr be məruf və nəhy əz munkərin əhəmiyyəti ilə gözlənilən zərər təhlükəsinin fərqlərini mülahizə etməklə, bu işin təhlükəsindən qorunsun. Amma belə olmazsa, onda bu iş ona vacib deyildir.1

Sual: Əgər bir nəfərin məhrəm adamlarından biri günah işlər görürsə və bu işdən çəkinmirsə, həmin şəxs onunla necə rəftar etməlidir?

Cavab: Əgər onunla əlaqəni kəsməklə, o şəxsin günahdan uzaqlaşmağı ehtimal verilsə, onda o şəxsə əmr be məruf və nəhy əz munkər cəhətindən vacibdir ki, rabitəni kəssin. Əks halda əlaqəni kəsməyə icazə verilmir. 2

Sual: Işdən qovulmağın qorxusundan əmr be məruf və nəhy əz munkəri tərk etməyə icazə verilirmi? Məsələn, gənc nəsillə məşğul olan təlim mərkəzlərindən birinin rəisi şəriət qanunlarının ziddinə bir iş görür və ya həmin yerdə günah işlər görülməsi üçün şərait yaradır.

Cavab: Ümumiyyətlə əmr be məruf və nəhy əz munkər etməklə insan üçün zərər təhlükəsi yaransa, onda bu iş ona vacib deyildir.3

Sual: Qardaşım şəriət və əxlaq məsələlərinə riayət etmir və bu vaxta qədər nəsihətlər ona təsir etməyib. Ondan belə şeyləri müşahidə etdiyim zaman mənim üzərimə düşən vacib vəzifə nədir?

Cavab: Sizə vacibdir ki, şəri məsələlərin xilafına bir iş görən zaman ona qarşı öz narahatlığınızı bildirəsiniz və onu qardaşcasına, məsləhət gördüyünüz və faydalı bildiyiniz yolla danlayasınız, lakin əlaqənizi kəsməyin, çünki bu işə icazə verilmir. 4

[?] Suallar

1- Əmr be məruf və nəhy əz munkərin vacib olma şərtləri hansılardır?

2- Əmr be məruf və nəhy əz munkərin neçə dərəcəsi var və hansılardır?

3- Əgər bir şəxs başqasının nəcis paltarla namaz qıldığını və ya nəcis yemək yediyini görsə, ona deməsi vacibdirmi?

4- Məruf və munkərin hər birinə iki misal deyin.

---

[1] Xamenei. "Əcvibətül istiftaat", sual 1083
[2] Xamenei. "Əcvibətül istiftaat", sual 1084
[3] Xamenei. "Əcvibətül istiftaat", sual 1085
[4] Xamenei. "Əcvibətül istiftaat", sual 1097

# 47-CI DƏRS

## *ALQI-SATQI (1)*

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَأْكُلُواْ أَمْوَالَكُمْ بَيْنَكُمْ بِالْبَاطِلِ إِلاَّ أَن تَكُونَ تِجَارَةً عَن
تَرَاضٍ مِّنكُمْ وَلاَ تَقْتُلُواْ أَنفُسَكُمْ إِنَّ اللّهَ كَانَ بِكُمْ رَحِيمًا

"Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarını haqsız bəhanələrlə yeməyin və özünüzü öldürməyin. Həqiqətən Allah sizə qarşı mərhəmətlidir."
(Nisa surəsi, ayə 29)

***Alqı-satqı növləri***

1- ***vacib***
2- ***haram***
3- ***müstəhəb***
4- ***məkruh***
5- ***mübah***

### *VACIB ALQI-SATQI 1*

Malı-dövləti olmayan və müəyyən vacib xərcləri olan bir kəsin ailəsinin xərclərini təmin etmək üçün alqı-satqı və qazanc əldə etməsi vacibdir.1

### *MÜSTƏHƏB ALQI-SATQI1*

Müstəhəb işlər üçün öz ailəsinin güzəranını yaxşılaşdırmaq, fəqirlərin əlindən tutmaq və s. işlər üçün alqı-satqı etmək müstəhəbdir.1

Haram alqı-satqı2

***Haram alqı-satqı***[1]

1– "Eyni nəcis" olan şeyləri alıb satmaq. Məsələn spirtli içkilər, yaxud donuzu alıb-satmaq.
2– Qəsb olunmuş malı alıb-satmaq;
3– *Maliyyatı, xeyri olmayan şeyləri alıb-satmaq. Məsələn yırtıcı heyvanları;
4– Adətən mənfəəti haram olan şeyləri alıb-satmaq; Məsələn qumar alətini və s;
5– **Riba (sələm) olan müamilə;

* **

"Ğəşş" – yəni mala başqa bir şey qatılsa və qatılan şey məlum olmasa, satıcı da alıcıya deməsə buna ğəşş deyilir və ğəşş haramdır.

---

[1] Sistani. T.m, məs.2061; Lənkərani. T.m, məs.2114
[2] Sistani. T.m, məs.2063; Lənkərani. T.m, məs.2116
*Sistani: Dəyərini itirmiş, yaxud saxta pulları alıb-satmaq
**Sistani: "Ğəşş" (yəni başqa şeylə qarışan) malı satmaq

Peyğəmbərdən (s) nəql olunub ki, buyurur: "Müsəlmanlarla alqı-satqıda ğəşş edən, onlara zərər vuran, saxtakarlıq edən, yaxud hiylə edən kəs bizdən deyil. Hər kəs öz müsəlman qardaşı ilə ğəşş etsə, Allah onun ruzisinin bərəkətini kəsər, məişətinin, güzəranının yolunu bağlayar və onu öz başına buraxar."

### *ALQI-SATQIDA MÜSTƏHƏB OLAN IŞLƏR:1*

***Müstəhəbdir satıcı***

- Malın qiyməti baxımından müştərilər arasında fərq qoymasın.
- Malın qiymətinin üstündə çox bərk dayanmasın.
- Onunla alqı-satqı edən şəxs peşman olub alqı-satqını pozmaq istəsə, malı geri götürsün.

### *SATICI VƏ ALICININ ŞƏRTLƏRI:2 **

***Satıcı və alıcının şərtləri***

1- Həddi-büluğa çatmış olsun;

2- Aqil olsun;

3-*Cameüş-şərait müctəhid onlara öz mallarından, əmlakından istifadə etmələrini qadağan etməmiş olsun;

4- Alqı-satqı niyyətləri olsun (deməli əgər misal üçün, zarafatyana "öz malımı satdım" desə müamilə batildir);

5- Heç kəs onları alqı-satqıya məcbur etməsin;

6- Verdiyi mal, yaxud əvəz özünün malı olsun, yaxud az yaşlı uşağın atası, babası kimi malının ixtiyarı əlində olsun.

### *MƏKRUH ALQI-SATQI3*

Məkruh alqı-satqının bəziləri aşağıdakılardan ibarətdir:

1– Öz işini kəfən alqı-satqısına həsr etmək;

2– Sübh azanından gün çıxana qədər olan alqı-satqı;

3– Öz işini buğda, arpa və s. kimi şeylərin alqı-satqısına həsr etmək;

4– **Başqasının almaq istədiyi bir şeyi almaq üçün müamiləyə girmək.

---

[1] Sistani "Alqı-satqının müstəhəbləri"; Lənkərani. T.m, məs.2112

[2] Sistani. T.m, məs.2089; Lənkərani. T.m, məs.2142

*Sistani: Səfeh olmamalıdır, yəni öz mallarını boş işlərə xərcləməməlidir.

[3] Sistani. T.m, məs.2062; Lənkərani. T.m, məs.2115

## *ALQI-SATQININ NÖVLƏRI123*

*Alqı-satqının növləri*

- ***Nəqd.*** Əgər müəyyən bir şeyi nəqd satsalar alıcı və satıcı alqı-satqıdan sonra malı və pulu qarşılıqlı şəkildə tələb edib təhvil ala bilərlər.[1]
- ***Nisyə.*** Nisyə alqı-satqıda gərək müddət dəqiq şəkildə məlum olsun. Əgər bir kəs müəyyən bir malı nisyə satsa qərar qoyulan müddət tamam olmamışdan qabaq onun əvəzini alıcıdan tələb edə bilməz.[2]
- ***Sələf.*** İnsanın pulu nəqd alıb sonradan malı bütünlüklə satmasına sələf müamiləsi deyilir. Əgər "bu pulu verirəm ki, altı aydan sonra filan malı alam", satıcı da "qəbul etdim" desə, yaxud satıcı pulu alıb "filan malı satdım ki, altı aydan sonra təhvil verəm" – desə, alqı-satqı səhihdir.[3]

## *SƏLƏF MÜAMILƏSININ ŞƏRTLƏRI4*

1- Malın qiymətinin fərqlənməsinə səbəb olan xüsusiyyətlərini müəyyən etsinlər. Amma həddindən artıq diqqət etmək lazım deyil.

2- Satıcı və alıcı bir-birindən ayrılmamışdan qabaq alıcı pulunun hamısını satıcıya versin.

3- Müddət dəqiq şəkildə müəyyən olsun.

4- Malın təhvil verilməsi üçün təyin olunan vaxt*5 elə bir vaxt olmamalıdır ki, həmin mal az tapılan olsun və satıcı da onu təhvil verə bilməsin.

5- Malın təhvil olunacağı yeri6***təyin etsinlər. Amma əgər onların danışıqlarından təhvil olunacağı yer məlum olsa həmin yerin adını deməlləri lazım deyil.

6- Malın çəkisini, ölçüsünü, yaxud sayını müəyyən etsinlər.

---

** Sistani: Möminin ...

[1] Sistani. T.m, məs.2112; Lənkərani. T.m, məs.2166

[2] Sistani. T.m, məs.2113 və 2114; Lənkərani. T.m, məs.2167 və 2168;

[3] Sistani. T.m, məs.2118; Lənkərani. T.m, məs.2172

[4] Sistani. T.m, məs.2120; Lənkərani. T.m, məs.2174

* Sistani: ... elə bir vaxt olmalıdır ki, həmin vaxtda satıcı malı təhvil verə bilsin, istər həmin vaxtda az tapılan olsun, istərsə də əksinə. T.m, 4-cü şərt

* Sistani: ... ehtiyata əsasən dəqiq aydınlaşdırılmalıdır. T.m, 5-ci şərt

1– Insan, sələf kimi aldığı malı, müddəti qurtarmamışdan qabaq sata bilməz. Müddət tamam olandan sonra, onu təhvil almamasına baxmayaraq, satmasının eybi yoxdur.[1]

2– Əgər satıcının verdiyi mal qərara aldıqlarından yaxşı, yaxud pis olsa, müştəri qəbul etməyə bilər.[2]

3–Satıcı müştərinin razı olduğu halda qərara alınan malın yerinə başqa mal verə bilər.[3]

4– Əgər sələf kimi satılan mal, təhvil verilməli olduğu vaxtda tapılmazsa və onu tapa bilməsə, müştəri satıcı tapana qədər gözləyə də bilər, (gözləməyib) alqı-satqını pozub verdiyi şeyi geri də ala bilər.[4]

### *RIBA MÜAMILƏSI*

***Ribanın növləri***
- 1- Alqı-satqı ilə
- 2- Borc ilə

***Müamilə ilə olan ribanın şərtləri***
- 1- Müamilə olunan mal eyni cinsdən olsun;
- 2-Müamilə olunan mal çəki, yaxud ölçü ilə satılan mal olsun.

1– Əgər çəki, yaxud ölçü qabı ilə satılan malın müəyyən miqdarını, həmin cinsdən olan artıq miqdara satsalar (məsələn, 1 kq buğdanı 1,5 kq buğdaya satsalar) riba və haramdır. Hətta əgər iki maldan biri sağlam, digəri isə eybli olsa, yaxud birinin cinsi yaxşı, digərininki isə pis olsa, yaxud iki şeyin bir-birindən qiymət fərqi olsa, verdiyindən artıq miqdarda alsa, yenə də riba və haramdır.[5]

Alqı-satqıda:
- ✵ ***sağlam mis əvəzinə*** ⇨ sınıq mis
- ✵ ***sədri düyü əvəzinə*** ⇨ yumru düyü
- ✵ ***emal olunmuş qızıl***

⇨ verib, bu miqdardan artığı alınarsa, yenə də riba və haramdır.

2– Əgər artıq aldığı şey satdığının cinsindən deyil başqa cinsdən olsa (məsələn, 1 kq buğdanı 1 kq buğda və əlavə olaraq bir miqdar pula satsa) yenə də riba və haramdır. Hətta əgər üstündə bir şey almasa, amma alıcının müəyyən bir iş görməsini şərt etsə, yenə də riba və haramdır.[6]

---

[1] Sistani. T.m, məs.2121; Lənkərani. T.m, məs.2175
[2] Sistani. T.m, məs.2123; Lənkərani. T.m, məs.2177
[3] Sistani. T.m, məs.2124; Lənkərani. T.m, məs.2178
[4] Sistani. T.m, məs.2125; Lənkərani. T.m, məs.2179
[5] Sistani. T.m, məs. 2080; Lənkərani. T.m, məs.2133
[6] Sistani. T.m, məs. 2081; Lənkərani. T.m, məs.2134

3– Borc verən şəxs verdiyi miqdardan artıq alacağını şərt etsə bu ribadır və haramdır. Məsələn: 10 manat verib 15 manat alacağını şərt qoysa.1

4– Riba vermək riba almaq kimi haramdır.2

5– Əgər bir kəs borc verdiyi adamın onun üçün müəyyən bir iş görməsini şərt etsə, yaxud borc verdiyi şeyə başqa bir şey əlavə edərək qaytarmasını (məsələn, borc aldığı 1 manat pulu, 1 kibritlə qaytarmasını) şərt etsə, bu ribadır və haramdır.3

6– Əgər bir şəxs borc verdiyi adamla borc aldığı şeyi məxsus halda (məsələn, müəyyən qədər emal olunmamış qızıl verib, bir şey düzəldərək) qaytarmasını şərt etsə, bu da ribadır və haramdır.1

Bir neçə şəri suala cavab:

Sual: Donuz ətini, içilməsi və yeyilməsi haram olan hər hansı bir şeyi, bunları halal bilən birinə satmaq və ya hədiyyə etmək səhihdirmi?

Cavab: Insanın, müştəri halal bilsə belə, yeyilməsi və içilməsi haram olan bir şeyi yemək və içmək məqsədilə və yaxud müştərinin bunu yeyib-içəcəyini bildiyi halda satması və ya hədiyyə etməsi caiz deyil. 4

Sual: Meyyiti yumaq müqabilində muzd almaq caizdirmi?

Cavab: Müsəlman meyyitini yumaq ibadətdir və vacibi kifayidir. Yalnız meyyitin yuyulmasına görə muzd alınarsa, caiz deyil. 5

Sual: Qumar aləti olmayan şeylərlə oynayarkən pul və ya başqa şeylər müqabilində mərcə girmək caizdirmi?

Cavab: Qumar aləti olmasa belə oyunda mərcə girmək caiz deyil. 6

Sual: Bir şəxs nisyə olaraq bir əşyanı satın alır. Üç ay müddəti başa çatdıqda isə satıcıdan malın pulunun üzərində bir qədər artıq pul verməyinin qarşılığı olaraq borc müddətinin daha üç ay uzadılmasını istəyir. Belə bir razılaşma caizdirmi?

Cavab: Bu cür artıq pul vermək riba və haramdır. 7

Sual: Hər hansı bir malı nəqd satılan qiymətindən daha artıq qiymətə nisyə olaraq satın almaq caizdirmi? Bu riba sayılmazmı?

Cavab: Malı nəqd qiymətindən daha artıq qiymətə nisyə olaraq satmaq və ya almağın heç bir eybi yoxdur. Nəqd və nisyə arasındakı qiymət fərqi riba sayılmaz. 8

[?] Suallar

1- Haram alqı-satqı neçə növdür və hansılardır?

2- Satıcı və alıcı hansı şərtlərə malik olmalıdır?

3- Alqı-satqıda müstəhəb olan işlərdən ikisini deyin.

4- Sələf müamiləsinin hansı şərtləri vardır?

5- Riba (sələm) neçə növdür və müamilə ribasının hansı şərtləri vardır?

---

[1] Sistani. T.m, məs. 2291; Lənkərani. T.m, məs.2345
[2] Sistani. T.m, məs. 2292; Lənkərani. T.m, məs.2346
[3] Sistani. T.m, məs. 2291; Lənkərani. T.m, məs.2345
[4] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 3
[5] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 27
[6] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 37
[7] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 682
[8] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 537

# 48-CI DƏRS

## *ALQI-SATQI (2)*

### *XIYARATI*[1]

Alqı-satqını pozmaq haqqına "xiyar" (ixtiyar) deyilir. Alıcı və satıcı on bir yerdə müamiləni poza bilərlər.

***Alqı-satqı xiyaratı***

1- Xiyare məclis;
2- Xiyare ğəbn;
3- Xiyare şərt;
4- Xiyare tədlis
5- Xiyare təxəllofe şərt;
6- Xiyare eyb;
7- Xiyare şirkət;
8- Xiyare röyət;
9-. Xiyare təxir;
10- Xiyare heyvan;
11- Xiyare təəzzürü təslim;

### *1. XIYARE MƏCLIS*

*Iki tərəf alqı-satqı məclisindən ayrılmamış müamiləni poza bilərlər. Buna "xiyare məclis" deyilir.

### *2. XIYARE ĞƏBN*

Alıcı və ya satıcı aldandığı halda müamiləni poza bilər. Buna "xiyare ğəbn" deyilir.

### *3. XIYARE ŞƏRT*

Alqı-satqıda müəyyən müddətə qədər hər ikisinin, yaxud birinin alqı-satqını poza bilməsini şərt qoysalar, şərtə uyğun olaraq alqı-satqını pozmaq olar. Buna "xiyare şərt" deyilir.

### *4. XIYARE TƏDLIS*

Alıcı, yaxud satıcı öz malını olduğundan daha yaxşı cilvələndirib camaatın nəzərində dəyərli edərsə, buna "xiyare tədlis" deyilir.

### *5. XIYARE TƏXƏLLOFE ŞƏRT*

Satıcı və ya alıcı müəyyən bir iş görməyi, yaxud verdiyi malın məxsus halda olmasını şərt edib sonra şərtə əməl etməsə bu halda qarşı tərəf alqı-satqını poza bilər. Buna "xiyare təxəllofe şərt" deyilir.

---

[1] Sistani. T.m, məs.2132; Lənkərani. T.m, məs.2186

*Sistani: Hətta məclis bitmiş olsa belə, alıcı və satıcı bir-birindən ayrılmamış olsunlar.

### 6. XIYARE EYB

Malda, yaxud onun əvəzində müəyyən eyb olsa,* alqı-satqını pozmaq olar. Buna "xiyare eyb" deyilir.

### 7. XIYARE ŞIRKƏT

Satılan malın müəyyən miqdarının başqasının olduğu məlum olarsa və əgər onun sahibi alqı-satqıya razı olmazsa alıcı alqı-satqını poza, yaxud o miqdarın pulunu satıcıdan ala bilər. Buna "xiyare şirkət" deyilir.

### 8. XIYARE RÖYƏT

Satıcı müştərinin görmədiyi müəyyən olunmuş malın xüsusiyyətlərini ona deyəndən sonra dediyi kimi olmadığı məlum olsa; həmçinin əgər əvvəlcə gördüyü malın indi də həmin vəziyyətdə olduğunu təsəvvür edib alqı-satqı etsə sonra həmin malın öz xüsusiyyətlərini itirdiyi məlum olarsa, alqı-satqını pozmaq olar. Buna "xiyare röyət" deyilir.

### 9. XIYARE TƏXIR

Müştəri nəqd aldığı malın pulunu üç günə kimi verməsə, satıcı da malı təhvil verməmiş olsa,* satıcı və alıcı üçün alınan, yaxud satılan şey üçün təxir şərti olmasa, satıcı alqı-satqını poza bilər. Buna "xiyare təxir" deyilir.

### 10. XIYARE HEYVAN

Heyvan satın almış olan alıcı üç günə qədər alqı-satqını poza bilər. Buna "xiyare heyvan" deyilir.

### 11. XIYARE TƏƏZZÜRÜ TƏSLIM

Satıcı satdığı malı təhvil verə bilməsə, məsələn satdığı at qaçsa, müştəri alqı-satqını poza bilər. Buna "xiyare təəzzürü təslim" deyilir.

### XIYARATIN HÖKMLƏRI

1– Əgər alıcı malın qiymətini bilməsə, yaxud alqı-satqı vaxtı qafil olub malı öz qiymətindən çox baha almış olsa, belə ki, camaat onu məğbun (aldanmış) hesab edib azlığına-çoxluğuna əhəmiyyət verirsə, alqı-satqını poza bilər. Bu hökm satıcıya da aiddir.1

2– Əgər alqı-satqıdan sonra malın eybli olduğunu başa düşsə** və dərhal alqı-satqını pozmasa, ehtiyati-vacibə görə daha alqı-satqını pozmaq haqqı yoxdur. Amma əgər məsələni bilməsə, başa düşdüyü vaxt

---

*Lənkərani: ... və qarşı tərəf əvvəlcədən bundan xəbərsiz olarsa ...

*Sistani: ... satıcı alqı-satqını poza bilər. Əlbəttə bu, satıcının alıcıya pulu verməsində möhlət verib müddət bildirilmədiyi haldadır. Amma əgər möhlət verilməmiş olsa, pulu verməyi azacıq gecikdirməklə də alqı-satqını poza bilər. Amma əgər ona üç gündən çox möhlət vermişsə, bu möhlət tamam olmamışdan əvvəl alqı-satqını poza bilməz.

1 Sistani. T.m, məs.2133; Lənkərani. T.m, məs.2187

**Sistani: ... alqı-satqını pozmaq istəsə bunu dərhal etməlidir. Əks təqdirdə, bəzi hallar istisna olmaqla normadan daha çox vaxt təxirə salsa, alqı-satqını poza bilməz. T.m, məs.2140

alqı-satqını poza bilər. Fikirləşmək üçün müəyyən qədər təxirə salmağın eybi yoxdur.1

Aşağıdakı hallarda alıcı malın eybli olduğunu bilsə, alqı-satqını poza bilməz və qiymətlər fərqini ala bilməz:2

- Aldığı vaxt malın eybini bilsə;
- Satıcı alqı-satqı vaxtı "Bu malı, onda olan hər eybi ilə birlikdə satıram" – desə. Amma əgər eybi müəyyən etsə və desə ki, malı bu eyblə birlikdə satıram və sonradan onda başqa eyb də olması məlum olsa, alıcı, satıcının müəyyən etmədiyi eyb üçün malı geri qaytara və ya qiymətlər fərqini ala bilər.**

3– Alqı-satqıda and içmək – əgər düzgün olsa məkruh, yalan olsa haramdır.3

Şərtli satış

1– Satıcı malı satarkən şərt qoysa ki, filan müddətə qədər aldığı pulu qaytaracaq, əgər qaytara bilərsə, malı geri alacaqdır. Buna "şərtli satış" deyilir.

2– Şərtli satışda alıcı və satıcının alqı-satqı niyyəti olarsa, hətta malı öz dəyərindən aşağı qiymətə satsa belə, alqı-satqı səhihdir. Məsələn pula ehtiyacı olan bir adam evini öz dəyərindən aşağı qiymətə satsa və şərt qoysa ki, "üç aya qədər evin pulunu gətirsəm, evimi qaytaracaqsan."4

3– Şərtli satışda satıcı müddəti qurtarandan sonra pulu verməzsə, alıcının mülkü ona verəcəyinə arxayın olsa da, alqı-satqı səhihdir. Amma əgər vaxt tamam olanda pulu verməsə, mülkü alıcıdan, alıcı da ölsə onun vərəsələrindən tələb edə bilməz. 5

Bir neçə şəri suala cavab:

Sual: Bir şəxs birindən müəyyən edilmiş qiymətə bir ev satın alır və aldığı evin pulunu ödəməyə söz verir. Gecikdirmə şərti qoyulmayan bu müamilədə müştəri pulu ödəməmişsə və müamilənin üstündən iki il keçməsinə baxmayaraq satıcı evi müştəriyə təhvil verməmişdir. Belə bir müamilə batil sayılarmı?

Cavab: Müştərinin sırf pulu satıcıya ödəməyi və satın aldığı şeyi ondan təhvil götürməyi gecikdirməsi ilə müştəri bunu satıcıya şərt qoymamış olsa belə müamilə batil olmaz. Yalnız belə bir müamilənin üstündən üç gün keçdikdən sonra satıcının fəsx etmə (müamiləni pozmaq) hüququ vardır. 6

Sual: Bir şəxs bir mülkü pulun bir miqdarını nisyə olaraq ödənilməsilə müəyyən bir qiymətə satır və qiymətin nəqd miqdarını alıb malı müştəriyə təhvil verdikdən sonra başqa birisi malı daha baha

---

[1] Lənkərani. T.m, məs.2194

[2] Sistani. T.m, məs.2142; Lənkərani. T.m, məs.2196

*Sistani. T.m, məs.2142; Lənkərani: 3. Malın eybinə razı olsa; 4. Alqı-satqı vaxtı "əgər malın eybi olsa geri qaytarmayacağam, qiymətlər fərqini də almayacağam" – desə; T.m, məs.2196;

[3] Sistani T.m, məs.2062; Lənkərani. T.m, məs.2203

[4] Sistani. T.m, məs.2134; Lənkərani. T.m, məs.2188

[5] Sistani. T.m, məs.2135; Lənkərani. T.m, məs.2189

[6] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 461

qiymətə satın almaq istəyir. Bu halda satıcının malı daha baha qiymətə ikinci müştəriyə satmaq üçün birinci müamiləni fəsx etməsi caizdirmi?

Cavab: Satış səhih bir şəkildə baş tutduqdan sonra satıcının öz sözündə qalması və razılaşmaya əməl etməsi vacibdir və satıcının xiyaratda müəyyən olunmuş fəsx etmə hüququ olmayınca müamiləni pozub malı yenidən başqa birinə satması caiz deyil. 1

Sual: Satıcının xiyaratda müəyyən olunmuş müamiləni pozmaq hüququ olmadan müamiləni pozmaq və ya satışı tamamladıqdan sonra qiyməti artırmaq haqqı varmı?

Cavab: Satıcının bunların heç birinə haqqı yoxdur. 2

[?] Suallar

1- "Xiyare ğəbn"lə "xiyare eyb"in fərqi nədir?
2- "Xiyare şərt"lə "xiyare təxəllofe şərt"in fərqi nədir?
3- Şərtli satışa aid iki misal deyin.
4- Hansı hallarda alıcı, yaxud satıcı alqı-satqını poza bilməz?

[1] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 479
[2] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 484

# 49-CU DƏRS

## ICARƏ, CÜALƏ, BORC, RƏHN, HƏVALƏ, ZƏMANƏT

### ICARƏYƏ VERILƏN MALIN ŞƏRTLƏRI:1

1* Müəyyən olsun; deməli əgər "öz evlərindən birini icarə verdim" – desə, səhih deyil.

2- İcarəyə götürən şəxs onu görsün, yaxud malı icarəyə verən şəxs onun xüsusiyyətlərini elə bəyan etsin ki, tamamilə məlum olsun;

3- Onun təhvil verilməsi mümkün olsun; deməli qaçmış atı icarə vermək batildir.

4- O mal istifadə etməklə aradan getməsin; deməli çörək, meyvə və s. yeyinti məhsullarını icarəyə vermək səhih deyil.

5- Maldan icarə verildiyi istiqamətdə istifadə etmək mümkün olsun; deməli torpağın əkinçilik üçün icarəyə verilməsi yağış suyu kifayət etməzsə və çay, yaxud başqa yerlərdən suvarılmazsa, səhih deyil.

6- İcarəyə verilən şey öz malı olsun;* əgər başqasının malını icarəyə versə, sahibi razılıq verdiyi halda səhih olar.

### ICARƏNIN MÜXTƏLIF MƏSƏLƏLƏRI

1– Icarəyə verilən şey halal iş üçün istifadə olunmalıdır. Mağazanı şərab satmaq, yaxud saxlamaq, avtomobili şərab daşımaq üçün icarəyə vermək batildir.2

2– Icarəyə verilən malın istifadə müddəti müəyyən olmalıdır.2

3– Bir şeyi icarəyə verən kəs onu təhvil verməmiş, icarə haqqını tələb edə bilməz. Həmçinin əgər müəyyən işi yerinə yetirmək üçün əcir olubsa o işi yerinə yetirmədən muzdunu tələb etməyə haqqı yoxdur.3

4– Əgər icarə verdiyi şeyi təhvil versə, hətta icarə alan təhvil almasa və ya təhvil alıb icarə müddətinin axırına kimi istifadə etməsə də onun icarə haqqını verməlidir.4

5– Əgər bir kəs məsələn bir fəhləni müəyyən gündə hər hansı bir işi görmək üçün tutsa, fəhlə həmin işi görmək üçün iş başına gəlsə onun əməyindən istifadə olunmasa belə haqqı verilməlidir.5

---

[1] Sistani. T.m, məs.2192; Lənkərani. T.m, məs.2246

*Sistani: ...ya o malı icarə vermək üçün vəkil olsun, yaxud mal sahibinin vəlisi olsun.

[2] Sistani. T.m, məs.2195; Lənkərani. T.m, məs.2249

[3] Sistani. T.m, məs.2203; Lənkərani. T.m, məs.2257

[4] Sistani. T.m, məs.2204; Lənkərani. T.m, məs.2258

[5] Sistani. T.m, məs.2205; Lənkərani. T.m, məs.2259

6– Əgər sənətkar götürdüyü şeyi xarab etsə, həmin malın dəyərini ödəməlidir.1

7– Əgər qəssab heyvanın başını kəsib haram etsə – istər muzd almış olsun, istərsə də pulsuz kəsmiş olsun – pulunu sahibinə verməlidir.2

8– Əgər sahibkar bənnanı onun üçün fəhlə tutmağa vəkil etsə, bu halda bənna fəhləyə sahibkardan aldığı miqdardan az versə, özünə götürdüyü artıq hissə haramdır. Onu sahibkara verməlidir. Amma əgər evin tikintisini qurtarmaq üçün əcir olsa və evi şəxsən tikmək, yaxud başqasına vermək ixtiyarına malik olsa və əcir olunduğu miqdardan az başqasına verib özü də dəyəri olan bir iş görsə artıq aldığı ona halaldır.3

### *Cüalə*

Cüalə – insanın onun üçün görülən işin müqabilində müəyyən bir şey verməyi qərara almasına deyilir. Məsələn "hər kəs mənim itirdiyim malı tapsa, ona 10 manat verəcəyəm" – deməsidir.

Cail: Bu şərti qoyan şəxsə deyilir.

Amil: Bu işi görən şəxsə deyilir.4

1– Amil işə başlamazdan əvvəl cail cüaləni poza bilər. 5

2– Amil işə başlayandan sonra cail cüaləni pozmaq istəsə işkalı vardır. 6

3– Amil başladığı işi yarımçıq qoya bilər. Amma əgər o işi tamamlamaması cailə zərər vursa onu axıra çatdırmalıdır. 7

### *Borc*

Borc vermək müstəhəb bir işdir. Qurani-Kərimdə və hədislərdə ona dair çoxlu tövsiyələr olunmuşdur.

**Borcun növləri**
- müddəti müəyyən olan borc
- müddəti müəyyən olmayan borc

### *Borcun hökmləri*

1– Müddəti təyin olunmuş borcda borc sahibi o müddət tamam olmamışdan qabaq öz borcunu tələb edə bilməz. Amma əgər müddəti təyin olunmasa, hər vaxt istəsə, öz borcunu tələb edə bilər.8

2– Əgər borc sahibi öz borcunu, tələb etməyə haqlı olduğu vaxt istəsə və borclu da verə bilsə dərhal verməlidir, təxirə salsa, günahkardır.9

---

1 Sistani. T.m, məs.2208; Lənkərani. T.m, məs.2262
2 Sistani. T.m, məs.2209; Lənkərani. T.m, məs.2263
3 Sistani. T.m, məs.2224; Lənkərani. T.m, məs.2278
4 Sistani. T.m, məs.2226; Lənkərani. T.m, məs.2280
5 Sistani. T.m, məs.2232; Lənkərani. T.m, məs.2286
6 Sistani. T.m, məs.2233; Lənkərani. T.m, məs.2287
7 Sistani. T.m, məs.2234; Lənkərani. T.m, məs.2288
8 Sistani. T.m, məs.2283; Lənkərani. T.m, məs.2337
9 Sistani. T.m, məs.2284; Lənkərani. T.m, məs.2338

## RƏHN (GIROV)

Rəhn – borclu şəxs öz malının bir miqdarını borc aldığı adamın yanında qoyur ki, əgər həmin şəxs öz borcunu vaxtında qaytara bilməsə borc verən şəxs öz borcunu o maldan çıxsın.1

1– Girov qoyan və alan şəxs girov qoyulan şeyi bir-birinin icazəsi olmadan kiminsə mülkünə keçirə bilməz. Məsələn, bağışlaya, yaxud sata bilməz. Amma əgər onlardan biri onu bağışlasa, yaxud satsa və sonra isə digəri razı olduğunu bildirsə, eybi yoxdur.2

2– Girov qoyulan şeyin mənfəəti onun sahibinindir.3

3– Əgər borcu qaytarmalı olduğu vaxt borc sahibi istəsə və o da verməzsə,* borc sahibi girov qoyulan şeyi satıb borcunu götürə bilər, artıq qalanlarını isə borclu olana qaytarmalıdır. Əgər cameüş-şərait müctəhidi tapsa, ehtiyati-vacibə görə onu satmaq üçün ondan icazə almalıdır.4

## HƏVALƏ

Borclu şəxs öz borcunu ödəməyi başqasının öhdəsinə qoysa, borc sahibi də bunu qəbul etsə buna "həvalə" deyilir.

1– Borc sahibi həvaləni – hətta həvalə olan şəxs fəqir olmasa da və həvaləni verməkdə səhlənkarlıq etməsə də qəbul etməyə bilər.5

2– Həvalə düzələndən sonra həvalə verən və həvalə olunan şəxslər həvaləni poza bilməzlər.6

3– Əgər borclu, borc sahibi və həvalə olunan şəxs, yaxud onlardan biri həvaləni pozmaq haqqı qoymuş olsalar, ona uyğun olaraq həvaləni poza bilərlər.7

## ZƏMANƏT

Zəmanət – bir kəsin başqasının borcunu ödəməsi üçün zamin olmasıdır.

Zəmanət yalnız o vaxt səhih sayılır ki, zamin olan şəxs hər hansı bir kəlmə ilə – hətta ərəbcə olmasa da, borc sahibinə desin ki, mən sənin borcunu verməyə zamin oldum.8 *

---

[1] Sistani. T.m, məs.2309; Lənkərani. T.m, məs.2363
[2] Sistani. T.m, məs.2315; Lənkərani. T.m, məs.2369
[3] Sistani. T.m, məs.2314; Lənkərani. T.m, məs.2368
*Sistani: Əgər borcun ödənməsi lazım olduğu bir vaxtda borc sahibi borcunu istəsə və o, verməzsə borc sahibi girov aldığı malı satıb tələbini onun pulundan almağa dair vəkaləti varsa, girov götürdüyünü sataraq borcunu götürə bilər. Belə bir vəkaləti olmasa, borcludan icazə almalıdır. Əgər borclunu tapa bilməsə, onu satıb həmin puldan borcunu götürmək üçün şəri hakimdən icazə alması lazımdır. Hər iki halda əgər artıq qalarsa, artığını malın sahibinə qaytarmalıdır. T.m, məs.2317
[4] Lənkərani. T.m, məs.2371
[5] Sistani. T.m, məs.2304; Lənkərani. T.m, məs.2358
[6] Sistani. T.m, məs.2306; Lənkərani. T.m, məs.2360
[7] Sistani. T.m, məs.2307; Lənkərani. T.m, məs.2361
[8] Sistani. T.m, məs.2319; Lənkərani. T.m, məs.2375

**Zamin olmağın şərtləri**[5]

- Zamin və borc sahibi həddi-büluğa çatmış və aqil olmalıdır;
- Bir kəs onları bu işə məcbur etməməlidir;
- Səfeh olmamalıdır;
- Müflis olmamalıdır;*
- Borc sahibi, borclu olan şəxs və borc olunan şey – hamısı müəyyən olmalıdır.

### *ZƏMANƏTIN HÖKMLƏRI*

1– Əgər insan bir kəsin borcunu qaytarmağa zamin olsa, zəmanətindən geri çəkilə bilməz.61

2– Əgər borc sahibi öz borcunu zamin olan şəxsə bağışlasa, o, borclu olan şəxsdən bir şey ala bilməz. Əgər bir miqdarını bağışlasa, o miqdarı tələb edə bilməz.2

3– Əgər bir kəs borclu şəxsin icazəsi olmadan onun borclarını verməyə zamin olsa, ondan bir şey ala bilməz.3

Bir neçə şəri suala cavab:

Sual: Ev sahibi icarəçiyə icarə müddəti bitdiyi təqdirdə hər bir günün müqabilində ödədiyi miqdardan daha artıq bir məbləğ ödəməsini şərt qoyarsa, icarəçi danışıq əsasında ödəməyə söz verdiyi miqdarı ödəməlidirmi?

Cavab Icarəçinin müqavilə və danışıq əsasında qeyd olunan şərtə əməl etməsi lazımdır.4

Sual: Borcu ödəmək üçün haram mal vermənin hökmü nədir?

Cavab: Başqasının malını verməklə borc ödənməz və bununla borclunun boynundan məsuliyyət götürülməz. 5

Sual: Borc verən borcunu sübuta yetirib almaq üçün xərclədiyi məhkəmə xərcini borclu şəxsdən istəyə bilərmi?

Cavab: Borc sahibinin xərclədiyi məhkəmə xərcini ödəmək borclu şəxsin öhdəsində deyil. 6

Sual: Əgər borclu borcunu vaxtında ödəməyib gecikdirsə, borc sahibinin ondan borc miqdarından artıq bir məbləğ ödəməsini istəməsi caizdirmi?

---

[5] Sistani, T.m, məs.2320 və 2323

*Lənkərani:... Müflisləşmə səbəbilə cameüş-şərait müctəhidin onu öz malından istifadəni qadağan etdiyi şəxs olmamalıdır... T. m, məs: 2376 və 2379

[6] Sistani. T.m, məs.2327; Lənkərani. T.m, məs.2381

[2] Sistani. T.m, məs.2326; Lənkərani. T.m, məs.2380

[3] Sistani. T.m, məs.2324; Lənkərani. T.m, məs.2385

[4] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 554

[5] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 667

[6] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 670

Cavab: Borc sahibi şərən borc miqdarından artıq bir şey istəyə bilməz. 1

[?] Suallar

1- Icarəyə verilən mal hansı şərtlərə malik olmalıdır?

2- Mülkü icarəyə götürən şəxs onu başqa birinə icarəyə verə bilərmi?

3- Cüalə nədir? Kimlərə cail və amil deyilir?

4- Zəmanət nədir? Zəmanət ilə həvalənin fərqini deyin.

5- Əgər bir şəxs borclu şəxsin razılığı ilə zamin olsa və onun borcunu ödəsə sonradan ödədiyi pulu borclu olan şəxsdən ala bilərmi?

---

1 Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 678

# 50-CI DƏRS

## VƏKALƏT, VƏDIƏ, ARIYƏ

### *VƏKALƏT*

Insanın özü edə biləcəyi bir işi* onun tərəfindən yerinə yetirməsi üçün başqasına tapşırmasına vəkalət deyilir. Məsələn, öz evini satması üçün bir kəsi vəkil etmək kimi.1 **

| | |
|---|---|
| ***Vəkilin və müvəkkilin şərtləri***[1] | • ** Həddi-büluğ və aqil olmalıdır;<br>• Öz ixtiyarı ilə bu işi görməlidirlər;<br>• Bu işi məqsədli şəkildə görməlidir. |

1– Şəri hakimin malından istifadəni qadağan etdiyi bir şəxs, öz malını satmaq üçün bir kəsi vəkil edə bilməz.

### *VƏKALƏTIN HÖKMLƏRI*

1– Vəkalətdə siyğə oxunması vacib deyil. Əgər insan başqasını vəkil etdiyini, o da qəbul etdiyini başa salsa, (məsələn, öz malını bir kəsə satmaq üçün versə, o da malı qəbul etsə) vəkalət səhihdir.2

2– Insan görə bilmədiyi, yaxud şərən görməməli olduğu bir işi yerinə yetirmək üçün başqası tərəfindən vəkil ola bilməz. Məsələn, həcc ehramında olan bir kəs əqd siyğəsi oxumamalıdır, buna görə siyğəni oxumaq üçün başqasının tərəfindən vəkil ola bilməz.3

3– Əgər insan bir kəsi özünün bütün işlərini görmək üçün vəkil etsə, səhihdir. Amma əgər işlərindən birini görmək üçün vəkil edib, amma onu müəyyənləşdirməsə, vəkalət səhih deyil.4

4– Əgər insan bir kəsi müəyyən iş üçün vəkil edib onun üçün bir şey verməyi qərara alsa, o iş yerinə yetiriləndən sonra həmin şeyi ona verməlidir.5

### *VƏDIƏ (ƏMANƏT)*

1– Əgər insan öz malını bir kəsə verib "sənin yanında əmanət qalsın" – desə, o da qəbul etsə vədiənin (əmanətin) hökmünə əməl etməlidirlər.

Mal sahibi öz malını bir söz danışmadan bir kəsə saxlamaq üçün versə, o da qəbul etdiyini başa salsa, bu da əmanət hökmündədir. 6

---

*Sistani: ... müamiləni istər əqd (iki tərəfli müqavilə), istərsə də iqa (bir tərəfli müqavilə) olsun ...

[1] Sistani. T.m, məs.2267; Lənkərani. T.m, məs.2321

**Sistani: Vəkildə büluğ şərt deyil.

[2] Sistani. T.m, məs.2265; Lənkərani. T.m, məs.2319

[3] Sistani. T.m, məs.2268; Lənkərani. T.m, məs.2322

[4] Sistani. T.m, məs.2269; Lənkərani. T.m, məs.2323

[5] Sistani. T.m, məs.2277; Lənkərani. T.m, məs.2331

[6] Sistani. T.m, məs.2336; Lənkərani. T.m, məs.2394

## ƏMANƏTIN HÖKMLƏRI

1– Əmanəti saxlaya bilməyən bir şəxs ehtiyati-vacibə görə qəbul etməməlidir.1

2– Əgər bir kəs bir əmanəti qəbul etsə, onu saxlamaqda səhlənkarlıq etməməli, hər vaxt malın sahibi almaq istəsə, təhvil verməlidir.2

3– Bir şeyi əmanət qoyan şəxs hər vaxt istəsə, geri ala bilər. Əmanəti qəbul edən şəxs də hər vaxt istəsə, onu sahibinə qaytara bilər. 3

4– Əmanəti qəbul edən şəxsin onu saxlamaq üçün münasib yeri olmasa, münasib yer hazırlamalıdır və onu elə saxlamalıdır ki, camaat "əmanətə xəyanət edibdir, onu saxlamaqda səhlənkarlıq edibdir" deməsin. Əgər münasib olmayan yerə qoysa və tələf olsa, əvəzini verməlidir. 4 5

**Əmanət tələf olsa**[2]
- Əgər əmanəti qəbul edən şəxs onu saxlamaqda səhlənkarlıq etsə və əmanət tələf olsa, əvəzini verməlidir.
- Əgər əmanəti qəbul edən şəxs onu saxlamaqda səhlənkarlıq etməsə və əmanət tələf olsa, ona zamin deyildir.

### *ARIYƏ*

*Ariyə insanın öz malını istifadə etmək üçün başqasına verib, əvəzində də heç nə almamağına deyilir.6

1– Bir şeyi ariyə verən şəxs istədiyi vaxt onu geri ala bilər. Ariyə edən şəxs də nə vaxt istəsə, onu qaytara bilər.7

2– Halal istifadəsi olmayan şeyləri, məsələn, musiqi, qumar alətlərini, yaxud istifadə olunması səbəbilə haram olan qızıl və gümüş qabları ariyə vermək batildir.8 **

3– Bir şeyi ariyəyə götürən şəxs onu yaxşı qoruyub saxlamalıdır.

4– Ariyəyə götürülmüş mal tələf olsa, yaxud onda bir nöqsan yaransa:

❋ Əgər onu saxlayarkən səhlənkarlıq*** etməyibsə və onun istifadəsində həddini aşmayıbsa, zamin deyildir.

---

1 Sistani. T.m, məs.2339; Lənkərani. T.m, məs.2398
2 Sistani. T.m, məs.2344; Lənkərani. T.m, məs.2395
3 Sistani. T.m, məs.2341; Lənkərani. T.m, məs.2400
4 Sistani. T.m, məs.2343; Lənkərani. T.m, məs.2402
5 Sistani. T.m, məs.2344; Lənkərani. T.m, məs.2403

*Sistani: Ariyə insanın öz malını şəri cəhətdən icazəli işlərdən istifadə üçün başqasına verməsinə deyilir. T.m, məs.2353

6 Lənkərani. T.m, məs.2412
7 Sistani. T.m, məs.2362; Lənkərani. T.m, məs.2421
8 Sistani. T.m, məs.2363; Lənkərani. T.m, məs.2422

**Sistani: Yemək və içməkdən qeyri bir məqsədlə istifadə olunan qızıl və gümüş qabların ariyəyə verilməsi ehtiyati-vacibə əsasən batildir.

***Sistani: ... şəriətin qadağan etdiyi işlərdə istifadə etməyibsə ... T.m, məs.2358

❋ Əgər onu saxlayarkən səhlənkarlıq edibsə və onun istifadəsində həddini aşıbsa, ona dəyən zərəri ödəməlidir.1

❋ Əgər əvvəlcədən şərt qoysalar ki, o mala dəyən hər bir zərərə ariyəyə götürən şəxs zamindir, onda dəyən zərəri ödəməlidir.2

Bir neçə şəri suala cavab:

Sual: Bir şəxs başqa birisinə vəkil olub işə başlamazdan əvvəl zəhmət haqqısının ona verilməsini şərt qoyur. Bu halda əgər vəkil heç bir iş görməzsə, aldığı zəhmət haqqı ona halal olarmı?

Cavab: Vəkalət müqaviləsi tamamlandıqdan sonra vəkil vəkalət üçün verilən zəhmət haqqının sahibi olur. Yəni vəkil vəkil edildiyi işi yerinə yetirməzdən əvvəl də öz haqqını istəyə bilər. Amma vaxtı qurtarana qədər və ya vəkalət müddəti başa çatana qədər vəkil edildiyi işi görməzsə, vəkalət müqaviləsi pozular. Bu halda aldığı zəhmət haqqını müvəkkilə qaytarması şərtdir.3

Sual: Əgər bir şəxs vəkilə vəkalətin haqqı olaraq bir miqdar pul verib ondan qəbz istəyərsə, vəkil isə aldığı haqqın müqabilində heç kəsə qəbz vermədiyini deyərsə, bir müddət sonra vəkil vəkillik etmədən ölərsə, müvəkkil vəkilə verdiyi pulu onun varislərindən geri ala bilərmi?

Cavab: Yuxarıda göstərilən halda vəkildən alınacaq pulu onun varislərindən istəmək olar. Onların da vəkilin mirasından bu borcu müvəkkilə ödəməsi vacibdir. 4

Sual: Başqa bir şəhərə aparılması üçün əmin bir şəxsə verilən pul yolda oğurlansa, bu şəxs həmin pula zamindirmi?

Cavab: Həmin şəxsin pulu qorumaqda ifrat və təfrit (qüsur və səhlənkarlıq) etməsi sübuta yetmədiyi təqdirdə, o pula zamin deyildir. 5

[?] Suallar

1- Vəkil və müvəkkilin şərtlərini deyin.

2- Əmanəti saxlaya bilməyən şəxs onu qəbul edə bilərmi?

3- Əmanət tələf olarsa, əmanət götürən şəxs onun əvəzini qaytarmalıdırmı?

4- Ariyə nədir?

5- Ariyə ilə vədiənin fərqi nədir?

---

[1] Lənkərani. T.m, məs.2417

[2] Lənkərani. T.m, məs.2417

[3] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 724

[4] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 714

[5] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 733

# 51-CI DƏRS

## ŞIRKƏT (ŞƏRIK OLMAQ), MÜZARIBƏ

### *ŞIRKƏT*

Şərik olmaq iki cür olur:[1]

- Əqd vasitəsilə
- Əqdsiz

Əqd vasitəsilə şərik olmaq

Əqd vasitəsilə şərik olmada iki tərəf qarşılıqlı surətdə qərara gəlir ki, öz müştərək malları ilə alqı-satqı etsinlər.

Əqdsiz şərik olmaq

Əqdsiz şərik olma şəriklik əqdi olmadan bir şeyin bir neçə nəfərə aid olmasına deyilir. Məsələn, bir şəxsin mirasının bir neçə nəfərə çatması kimi.

1– Əqd vasitəsi ilə şərik olduqda tərəflərin hər ikisinin birlikdə, ya hər birinin təklikdə, yaxud onlardan yalnız birinin alver etməsini şərt etsələr, şərtə əməl edilməlidir.[2]

2– Əgər onlardan hansının sərmayə ilə alver etməsini müəyyənləşdirməsələr, heç biri digərinin icazəsi olmadan o sərmayə ilə alqı-satqı edə bilməz.[3]

3– Əgər şəriklərdən biri özü üçün bir şeyi nisyə alsa, zərər və mənfəəti özünə məxsusdur. Amma şərik olduqları ticarət üçün alsa* və şərik də buna razı olduğunu desə, zərər və mənfəət hər ikisinə çatır.[4]

### *MÜZARIBƏ*

Müzaribə iki nəfərin öz aralarında qərarlaşmasından ibarətdir. Belə ki, bir nəfər öz aralarında razılaşdıqları bölgü əsasında əldə olunan gəlirə şərik olmaq məqsədilə öz malını ticarət etmək üçün başqasına verir.[5]

---

[1] Imam Xomeyni. "Təhrirul vəsilə", c.1, səh.623, məsələ 3, "kitabuş-şirkət"

[2] Sistani. T.m, məs.2157; Lənkərani. T.m, məs.2211

[3] Sistani. T.m, məs.2158; Lənkərani. T.m, məs.2212

*Sistani: ... şərik olma qərarında nisyə alqı-satqı da nəzərdə tutulubsa, mənfəət və zərər hər ikisinə məxsusdur. T.m, məs.2166

[4] Lənkərani. T.m, məs.2220

[5] Imam Xomeyni. "Təhrirul vəsilə", c.1, səh.608, "kitabul-müzaribə"

***•Mal sahibinin şərtləri***
1- Həddi-büluğ olsun;
2- Aqil olsun;
3- İxtiyarlı olsun;
4- Hakimi-şəri müzaribə etmək istədiyi maldan istifadəni ona qadağan etmiş olmasın.

***• Amilin şərtləri***
1- Həddi-büluğ olsun;
2-. Aqil olsun;
3- İxtiyarlı olsun;
4- Ticarət etməyə qadir olsun.

***• Malın şərtləri***[2]
1- Nəğd pulla olmalıdır, nisyə və götürüləcək qazancla müzaribə etmək səhih deyil.
2- Dirhəm, dinar və pulla olsun. Mal ilə müzaribə etmək səhih deyil.
3- Müəyyən olmalıdır.
4- Əlamət və miqdarı məlum olmalıdır.

***• Qazancın şərtləri***[2]
1- Hər birinin götürəcəyi pay məlum olsun.
2- Payın miqdarı kəsirlə göstərilsin (1/2; 1/3; 1/4 kimi). Məsələn, əgər "birinin payı 100 000 manat olsun" – deyilsə, bu səhih deyil.
3- Gəlir yalnız müzaribə edən tərəflər arasında bölünməlidir. Əgər gəlirin bir miqdarı müzaribənin qərarlaşmasında nəzərdə tutulmayan şəxs üçün ayrılsa, müzaribə batildir.

***• Gəlir götürməyin şərti***
1- Müzaribə alqı-satqı etməklə olsun;
2- Alqı-satqı və ticarətdən başqa bir iş üçün olsa, müzaribə səhih deyil.

## *MÜZARIBƏNIN HÖKMLƏRI*

1– Mal sahibi öz malını müzaribə üçün iki nəfərə verə bilər. Bu halda onların payı bərabər də ola bilər, birinin payı az, digərinin isə payı çox da ola bilər. Həmçinin iş bölgüsündə də onların işləri bərabər, yaxud birinin işi az, digərinin işi isə çox ola bilər.2

---

[1] Imam Xomeyni. "Təhrirul vəsilə", c.1, səh.608-609, məs.1
[2] Imam Xomeyni. "Təhrirul vəsilə", "kitabul-müzaribə", məs.6

2– Mal sahibi iki nəfər və ya daha artıq olsa, onlar öz mallarını müzaribə üçün bir nəfərə verə bilərlər.1

3– Ticarət edərkən adətən başqalarına gördürülən işləri (məsələn, malı çəkmək, yaxud daşımaq və s.) başqalarına tapşırarsa, onların haqqlarını sərmayədən verə bilər. Yox əgər həmin işləri özü görərsə, öz haqqını sərmayədən götürə bilər. Amma adətən "amil"in öhdəsinə olan işlər üçün zəhmət haqqı götürə bilməz.2

4– Əgər müzaribənin əqdi "mütləq" olsa, yəni orada heç bir qeyd-şərt olmasa, amil məsləhət bildiyi kimi ticarət edə bilər, amma malı nisyə verə bilməz. Əgər malın nisyə verilməsi o işdə adi bir hal olsa, malı nisyə vermək olar.

Amma müzaribə əqdi şərtlə olsa, şərtə əməl olunmalıdır. Şərtə əməl etməsə və mala zərər dəysə, özü mala zamindir. Amma əgər gəlir əldə etsə, sərmayə sahibi həmin gəlirdə şərikdir.3

5– Amil malikin (mal sahibinin) icazəsi olmadan öz xərcini və başqalarının xərcini sərmayədən götürə bilməz. Malik icazə verdiyi təqdirdə də israf etməməlidir. Sərmayənin hesabından heç kəsə sovqat göndərə bilməz və heç kəsi qonaq edə bilməz. Amma bu iş ticarətə faydalı olarsa, istisnadır.4

[1] Imam Xomeyni. "Təhrirul vəsilə", "kitabul-müzaribə", məs.10
[2] Imam Xomeyni. "Təhrirul vəsilə", "kitabul-müzaribə", məs.15
[3] Imam Xomeyni. "Təhrirul vəsilə", "kitabul-müzaribə", məs.16,18
[4] Imam Xomeyni. "Təhrirul vəsilə", "kitabul-müzaribə", məs.20

**Amilin zamin olma məsələsi[2]**

- *Malın hamısı, yaxud bir miqdarı tələf olsa*
  - amilin təqsiri üzündən ⇒ Amil zamindir
  - amilin təqsiri olmadan ⇒ Amil zamin deyil
- *Ticarət*
  - qazanc gətirməzsə ⇒ Amil mal sahibinin gəlirinə zamin deyil
  - zərər gətirərsə ⇒ Amil mal sahibinin zərərinə zamin deyil
- *Şərt etmiş olsalar ki,*
  - zərər malikin öhdəsinədir ⇒ Amil zərərə zamin deyil
  - sərmayəyə zərər gəlsə, amil də onun 1/2, ya da 1/3-ni versin ⇒ Zərər olsa, amil də zamindir

1– Amil malikin icazəsi olmadan malı müzaribə üçün başqasına verə bilməz və başqasını da müzaribəyə şərik edə bilməz. Malik icazə vermiş olsa, birinci müzaribə pozulmalı, malik ikinci şəxslə müzaribə bağlamalı və ya hər üçü (malik, amil və üçüncü şəxs) birlikdə müzaribə etməlidirlər. 2

Bir neçə şəri suala cavab:

Sual: Üç nəfər birlikdə ticarət etmək üçün şərikli bir neçə ticarət yeri satın alırlar. Amma ortaqlarından biri o yerlərdən istifadə, hətta icarəyə vermə və ya satma məsələsində başqa ortaqlarla razılığa gəlmək istəmir. Beləliklə:

a) Digər iki şərikin icazəsi olmadan şəriklərdən birinin öz payını satması və ya icarəyə verməsi caizdirmi?

b) Digər iki şərikin icazəsi olmadan şəriklərdən birinin həmin ticarət yerlərində işə başlaması caizdirmi?

c) Onun bu yerlərdən birini özünə götürüb yerdə qalanlarını iki şərikə verməsi caizdirmi?

Cavab: a) Şəriklərdən hər birinin öz ortaq hissəsini digər şəriklərin icazəsi olmadan satması caizdir.

---

[1] Imam Xomeyni. "Təhrirul vəsilə", c.1, səh.611, "kitabul-müzaribə", məs.14

[2] Imam Xomeyni. "Təhrirul vəsilə", c.1, səh.615, məs.25

b) Şəriklərdən birinin digər şəriklərin icazəsi olmadan şərikli maldan istifadəsi caiz deyil.

c) Şəriklərdən heç biri digər şəriklərin razılığı olmadan öz başına şərikli maldan öz payını götürə bilməz. 1

Sual: Banklar etdikləri müamilələrdə heç bir şəkildə dəyən zərəri qəbul etmədikləri üçün bank müamilələrinin müzaribə hesab olunmadığını nəzərə alsaq, pul sahiblərinin banka qoyduqları pulun mənfəəti olaraq bankdan aldıqları məbləğ halal sayılırmı?

Cavab: Dəyən zərəri bankın öz üzərinə götürməməsi müzaribəni batil etməz və bu müzaribə müqaviləsinin yalnız formal bağlanmış müamilə olduğunu sübut etməz. Çünki şərən müzaribə müqaviləsində pul sahibinin və ya vəkilin dəyə biləcək zərər və ziyanı öhdəsinə götürməyi pulu dövriyə etdirən şəxs üçün şərt qoymasının heç bir maneəsi yoxdur. Beləliklə, yalnız formal bir müqavilə olduğu və ya hər hansı bir səbəblə batil olduğu aydın olmayınca pul sahibləri tərəfindən vəkil olan bank gördüyü işlərin müzaribə olduğunu iddia etdiyi halda müzaribə səhih hökmündədir və bankın mənfəət olaraq pul sahiblərinə verdiyi məbləğ də onlara halaldır. 2

[?] Suallar

1- Malik və amilin şərtlərinin müştərək və fərqli cəhətlərini bəyan edin.

2- Şirkətlə müzaribənin fərqləri nədədir?

3- Müzaribədə amil hansı xərclərini sərmayədən götürə bilər?

4- Əgər ticarət zərərlə bitərsə, hansı halda amil mal sahibinin zərərinə zamindir?

---

[1] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 609
[2] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 811

# 52-CI DƏRS

## NƏZIR VƏ AND

يُوفُونَ بِالنَّذْرِ وَيَخَافُونَ يَوْمًا كَانَ شَرُّهُ مُسْتَطِيرًا

"(Onlar elə kimsələrdilər ki,) etdikləri nəzri yerinə yetirər və dəhşəti (hər yeri) bürüyəcək gündən qorxarlar."

(Insan surəsi, ayə:7)

Nəzir1

**Nəzir**[1]

- ***Şərtli olunan nəzir*** – məsələn, əgər mənim xəstəliyim sağalsa, Allah üçün filan işi görmək mənim öhdəmə olsun.
- ***Mütləq nəzir*** – bu qeydsiz-şərtsiz deyilən nəzirdir. Məsələn, mən Allah üçün nəzir edirəm ki, gecə namazı qılım.

1– Nəzirdə siyğə oxunmalıdır. Onun ərəbcə oxunması vacib deyil. Deməli, "əgər xəstəliyim sağalsa, Allah üçün 10 manat fəqirə vermək mənim boynumadır" desə, səhihdir. "Allah üçün" kəlməsi dildə deyilməlidir, qəlbdən keçirilsə kifayət deyil.2

2– Nəzir edən şəxs həddi-büluğa çatmış, aqil olmalı, öz ixtiyarı və qəsdi ilə nəzir etməlidir. Deməli, nəzir etməyə məcbur olan, əsəbiləşib ixtiyarsız olaraq nəzir edən şəxslərin nəziri səhih deyil.3

3– Əgər məkruh, haram bir iş görməyi, yaxud vacib, müstəhəb işi tərk etməyi nəzir etsə, nəziri səhih deyil.4

4– Insan o işi nəzir edə bilər ki, görülməsi mümkün olsun. Deməli, piyada Kərbəlaya gedə bilməyən bir kəs, piyada getməyi nəzir etsə, nəziri səhih deyil.5

5– Əgər bir əməli yerinə yetirməyi nəzir etsə, nəzir etdiyi qaydada yerinə yetirməlidir. Deməli, əgər ayın əvvəl günü sədəqə verməsini, yaxud oruc tutmasını, yaxud da ayın əvvəlinin namazını qılmağı nəzir etsə, bu halda həmin gündən əvvəl və ya sonra yerinə yetirsə kifayət deyil. Həmçinin əgər xəstəliyi sağalarsa sədəqə verməyi nəzir etsə və sağalmamışdan qabaq sədəqə versə, kifayət deyil.6

6– Əgər müəyyən bir fəqirə sədəqə verməyi nəzir etsə, başqa fəqirə verə bilməz.7

---

[1] Lənkərani. T.m, məs.2716
[2] Sistani. T.m, məs.2650; Lənkərani. T.m, məs.2717
[3] Sistani. T.m, məs.2651; Lənkərani. T.m, məs.2718
[4] Sistani. T.m, məs.2657; Lənkərani. T.m, məs.2724
[5] Sistani. T.m, məs.2656; Lənkərani. T.m, məs.2723
[6] Sistani. T.m, məs.2660; Lənkərani. T.m, məs.2728
[7] Sistani. T.m, məs.2668; Lənkərani. T.m, məs.2736

7– Əgər Imamlardan hər hansı birinin (məsələn, həzrəti Əba Əbdillahın (ə)) ziyarətinə getməyi nəzir edib başqa Imamın ziyarətinə getsə kifayət deyil. Əgər müəyyən üzr səbəbilə həmin Imamı ziyarət edə bilməsə boynuna bir şey vacib deyil.1

### *NƏZIRIN KƏFFARƏSI*

Əgər insan ixtiyar üzündən öz nəzirinə əməl etməsə, kəffarə verməlidir:2

***Kəffarə***
- ya bir qul azad etməli;
- ya 60 fəqirə təam verməli;
- ya da iki ay ardıcıl oruc tutmalıdır.

And

***And içmək iki cürdür:***

1- Bir işi yerinə yetirmək üçün and içmək. Məsələn, oruc tutmaq üçün.
2- Bir işi etməmək üçün and içmək. Məsələn, siqaret çəkməmək üçün.

3

***Andı pozmaq və onun kəffarəsi***[1]

- ❋ ***Unutqanlıq üzündən*** andı pozmaq;
- ❋ ***Çarəsizlikdən*** andı pozmaq;
- ❋ Andı pozmağa ***məcbur edildikdə;***
- ❋ Vəsvas adam and içib, ***vəsvasılığına görə*** qeyri-ixtiyari ona əməl edə bilmədikdə;

→ Kəffarə yoxdur

❋ ***Qəsdən*** andı pozsa ⇨ Kəffarə verməlidir
- ya bir qul azad etməli;
- ya on fəqiri doyurmalı;
- ya da onları geyimlə təmin etməlidir.
- bunları edə bilməsə, üç gün oruc tutmalıdır. Oruc günləri də ardıcıl olmalıdır.

---

[1] Sistani. T.m, məs.2669; Lənkərani. T.m, məs.2737
[2] Sistani. T.m, məs.2663; Lənkərani. T.m, məs.2731
[3] Sistani. T.m, məs.2679; Lənkərani. T.m, məs.2747

*1

**And içməyin şərtləri**[1]

1-And içən şəxs
- Aqil;
- Həddi-büluğa çatmış;
- Məqsədli və ixtiyari olaraq and içməlidir.*

2-Yerinə yetirməsini and içmək istədiyi iş haram və məkruh; tərk etməsini and içmək istədiyi iş vacib və müstəhəb olmamalıdır.

3-Allahın Müqəddəs Zatından başqalarına deyilməyən mübarək adlarından birinə and içməlidir. ("Allah" kəlməsi kimi)

4-And içməyi dilinə gətirsin. Əgər yazsa, yaxud qəlbindən keçirsə, səhih deyildir. Lal adam işarə ilə and içsə, səhihdir.

5-Andına əməl etmək onun üçün mümkün olmalıdır.

1– And içən şəxsin sözü düz olsa and içməsi məkruh, yalan olsa haramdır və böyük günahlardandır.1

[?] Suallar

1- Şərtli nəzir və mütləq nəziri (hər birinə bir misal çəkməklə) izah edin.

2- Kimlər nəzir edə bilərlər?

3- Nəzirə əməl etməməyin kəffarəsi nədir?

4- And neçə növdür və hansılardır?

5- Andı pozmağın kəffarəsi nədir?

6- And içməyin şərtləri hansılardır?

* Lənkərani: 4 – öz malı ilə əlaqədar and içmək istəyirsə səfeh olmamalıdır. 5 – şəri hakim ona öz malından istifadəni qadağan etmiş olmamalıdır.

1 Sistani. T.m, məs.2680; Lənkərani. T.m, məs.2748;

# 53-CÜ DƏRS

## SƏDƏQƏ, HIBƏ, SÜLH VƏ TAPILAN MALIN HÖKMLƏRI

### Sədəqə

Sədəqə Qurani-Kərimin ayələrində və məsum Imamların hədislərində çox tövsiyə olunmuş müstəhəb işlərdən biridir. Sədəqənin hədsiz savabı vardır.[1] Belə ki, buyurulur:

"Sədəqə dünyada böyük müsibətlərin və qəfil ölümlərin qarşısını alar, axirətdə isə böyük günahların silinməsinə səbəb olar və qiyamət sorğu-sualını asanlaşdırar."[2]

### SƏDƏQƏNIN HÖKMLƏRI

1– Insan sədəqəni qəsdi-qürbətlə; hər cür riya və özünü göstərməkdən uzaq olaraq yalnız Allahın razılığı üçün verməlidir.[3]

2– Sədəqəni geri almaq caiz deyil.[4]

3– Seyyid olmayanın fitrə zəkatı seyyidə haram olduğu halda, sədəqə seyyidə halaldır.[5]

4– Müsəlmanlarla müharibə etməyən, Peyğəmbər (s) və Imamlara hörmətsizlik göstərməyən kafirə də sədəqə vermək olar.[6]

5– Yaxşı olar ki, sədəqə gizlin verilsin. Amma başqalarını da bu işə həvəsləndirmək məqsədi ilə aşkar da verilə bilər.

Zəkatın isə aşkar verilməsi daha yaxşıdır.[7]

6– Dilənmək və dilənçini əli boş qaytarmağın hər ikisi məkruhdur.[8]

### Hibə

Hibə insanın öz malını heç bir əvəz almadan başqasının mülkiyyətinə keçirməsinə deyilir.[9]

Aşağıdakı hallarda hibəni geri almaq olmaz:[10]

❋ Yaxın qohumlara (məsələn ata, ana, övlada) edilən hibə; əgər onlara təhvil verilibsə;

❋ Yaxın qohumlardan başqalarına edilən hibə; o halda ki, həmin mal istifadə edilib və aradan gedib.

---

[1] Sistani. T.m, məs.2684; Lənkərani. T.m, məs.2752

[2] "Biharul ənvar", c.96, səh.124; "Vəsailuş-şiə", c.6, səh258

[3] "Təhrirul vəsilə", c.2, "əlqovlu fis-sədəqəti", səh.90, məs.1

[4] "Təhrirul vəsilə", c.2, "əlqovlu fis-sədəqəti", səh.90, məs.2

[5] "Təhrirul vəsilə", c.2, "əlqovlu fis-sədəqəti", səh.90, məs.3

[6] "Təhrirul vəsilə", c.2, "əlqovlu fis-sədəqəti", səh.90, məs.5

[7] "Təhrirul vəsilə", c.2, "əlqovlu fis-sədəqəti", səh.90, məs.6

[8] "Təhrirul vəsilə", c.2, "əlqovlu fis-sədəqəti", səh.90, məs.9 və 10

[9] Sistani. "Minhacus-salehin", "kitabul-hibə"; Lənkərani. "Istiftaat", sual 1213;

[10] Sistani. "Minhacus-salehin", məs.1320 və 1321; Lənkərani. "Istiftaat", sual 1209 və 1211;

Sülh – insanın öz malını, yaxud mənfəətinin bir miqdarını başqasının mülkiyyətinə keçirməsi üçün razılığa gəlməsidir.

Eyni zamanda sülh bir nəfərin qarşı tərəfin öz tələbindən və haqqından keçməsinin əvəzi olaraq öz malından, yaxud malının mənfəətindən bir miqdarını başqasına həvalə etməsinə deyilir.

Hətta əgər insan əvəz almadan malın, yaxud onun mənfəətinin müəyyən miqdarını birinə həvalə etsə, yaxud tələbindən, haqqından keçsə, yenə də sülh səhihdir.1

2 *

***Bir-biri ilə sülh edən iki nəfərin şərtləri***[1]

1- Həddi-büluğa çatmış olsun;
2- Aqil olsun;
3- Məcburiyyət üzündən olmasın;
4- Sülh etmək məqsədilə olsun;
5-Cameüş-şərait müctəhid onlara öz mallarından istifadə etməni qadağan etməmiş olsun.*

Eyni cinsdən olan iki şeyi bir-biri ilə sülh etmək istədikdə:3

***Çəkiləri məlumdur***

1- hər ikisi bərabərdirsə ⇨ Sülh səhihdir
2- biri artıqdırsa ⇨ Sülh səhih deyil**

1– Əgər iki nəfər müəyyən bir şeyi bir-biri ilə sülh etsələr qarşılıqlı razılığa əsasən, sülhü poza bilərlər. Həmçinin əgər müamilədə hər ikisi, yaxud biri üçün müamiləni pozmaq haqqı qoymuş olsalar, o haqqı olan şəxs sülhü poza bilər.4 *

---

[1] Sistani. T.m, məs.2168; Lənkərani. T.m, məs.2222
[2] Sistani. T.m, məs.2169; Lənkərani. T.m, məs.2223
*Sistani: ... 6 – Səfeh olmasın.
[3] Sistani. T.m, məs.2174; Lənkərani. T.m, məs.2228
**Sistani: Bu ikisinin alış-verişi ribaya səbəb olduğu üçün haramdır. Onların sülhü də haramdır.
[4] Sistani. T.m, məs.2177; Lənkərani. T.m, məs.2231

Insan heyvan qismindən olmayan bir mal tapdıqda:

- ***Sahibi məlum olarsa*** ⇨ sahibinə qaytarmalıdır
- ***Sahibi məlum olmazsa***
  - 1* Qiyməti dirhəmdən* az olmasa
    - 1-Sahibini göstərən bir əlaməti yoxdursa ⇨ Ehtiyati-vacibə əsasən sahibi tərəfindən sədəqə verməlidir.[1]
    - 2- Sahibini göstərən bir əlaməti varsa — Elan etməlidir: sahibi tapılsa ona qaytarmalıdır. Bir il müddətində elan etdikdən sonra sahibi tapılmasa,** onu özü üçün götürə bilər, bu məq-sədlə ki, sahibi tapıldıqda onun əvə-zini versin. Yaxud götürüb sahibi üçün saxlamalıdır ki, hər vaxt tapılsa qaytarsın, yaxud da sahibi tərəfin-dən sədəqə verməlidir.[2]
  - 2- Qiyməti dirhəmdən az olsa*** ⇨ Özünə götürə bilər. Ehtiyati-vacibə görə hər vaxt sahibini tapsa tələf olmamışsa malın özünü, tələf olmuşsa malın əvezini verməlidir.[3]

Bir neçə məsələ

1– Bir şeyi tapdıqda bir kəs "mənim malımdır" – desə, həmin malı yalnız bu halda ona vermək olar ki, nişanələrini desin və malın onun olmasına xatircəmlik yaransın.4

---

*Sistani: Əgər bir kəs heyvan qismindən olmayan, sahibini məlum edən nişanələri olmayan (itən bir) malı tapsa və onun qiyməti istər bir dirhəmdən az olsun, ya olmasın, onu özü üçün götürə bilər. Ehtiyati-müstəhəb budur ki, sahibi tərəfindən sədəqə versin. T.m, məs.2573

*Dirhəm – 12,6 noxud sikkəli gümüş

1 Lənkərani. T.m, məs.2631

**Sistani: ... ya onu götürüb sahibi üçün saxlaya bilər, hər vaxt sahibi tapılsa, onu qaytarmalıdır və bu müddətdə onu qorumaq şərtilə istifadə edə bilər. Yaxud da onu sahibi tərəfindən fəqirlərə sədəqə verə bilər. Ehtiyati-vacibə əsasən onu özü üçün götürməməlidir. T.m, məs.2577

2 Lənkərani. T.m, məs.2633 və 2635

***Sistani: ... ehtiyati vacibə əsasən sahibi tərəfindən sədəqə verməlidir. Əgər sahibi tapıldıqda onun sədəqə verməsinə razı olmazsa, tapan şəxs əvezini qaytarmalıdır. Sahibini göstərən nişanəsi olan malın qiyməti dirhəmə çatarsa tapdığı gündən camaatın toplaşdığı yerlərdə elan olunmalıdır. T.m, məs.2575

3 Lənkərani. T.m, məs.2632

4 Sistani. T.m, məs.2586; Lənkərani. T.m, məs.2644

2– Əgər tapılan malın qiyməti dirhəmə çatsa, bu zaman həmin şəxs elan etmədən onu məsciddə və yaxud camaatın yığışdığı başqa bir yerdə qoyarsa və nəticədə həmin mal tələf olarsa və yaxud başqası onu götürərsə, onu tapan şəxs zamindir.1

3– Həddi-büluğa çatmamış bir uşaq bir şey tapdıqda onun vəlisi elan etməlidir.2

Bir neçə şəri suala cavab:

Sual: Başqalarına əl açan, dilənməklə dolanan və islam cəmiyyətinin görünüşünü çirkləndirən dilənçilərə qarşı vəzifəmiz nədir?

Cavab: Sədəqələri iffətli və dindar fəqirlərə çatdırmağa çalışın.3

Sual: Kişinin arvadı üçün satın aldığı qızıl zinət əşyaları qadına məxsusdur, yoxsa ərinin malı hesab olunub ölümündən sonra onun varisləri arasında bölüşdürülməli və arvadının payı verilməlidir?

Cavab: Bu zinət əşyaları əgər qadının özündə və onun ixtiyarında olarsa və qadın onu öz malı kimi istifadə edərsə, əksi sübut olunmadığı təqdirdə onun malı hökmündədir. 4

Sual: Qadınla kişi boşanarkən toy ərəfəsində qadının ailəsi tərəfindən onlara verilən yataq, xalça və paltar kimi əşyaları ərindən istəyə bilərmi?

Cavab: Bu əşyalar əgər qadının öz ailəsindən aldığı və ya özü üçün satın aldığı, yaxud özünə bağışlanan əşyalar olarsa, qadının malıdır və əgər həmin malların əsli aradan getməyibsə, qadın onları ərindən tələb edə bilər. Yox əgər qadının ailəsi və ya qohumları tərəfindən ərinə hədiyyə edilibsə, qadın onları ərindən tələb edə bilməz, bunları tələb etmə haqqı onları hədiyyə edən şəxslərə məxsusdur. Və bu malların özü aradan getməmiş olarsa və bunları hədiyyə edənlər kişiyə qohum deyillərsə, onda hədiyyə edənlər hibəni pozub hədiyyəni geri ala bilərlər.5

[?] Suallar

1- Sədəqə ilə hibənin fərqi nədir?
2- Hansı hallarda hibəni geri almaq olar?
3- Bir-biri ilə "sülh" edən şəxslər hansı şərtlərə malik olmalıdır?
4- Tapılmış malın hökmlərini qısa şəkildə izah edin.

---

[1] Sistani. T.m, məs.2587; Lənkərani. T.m, məs.2645
[2] Sistani. T.m, məs.2580; Lənkərani. T.m, məs.2638
[3] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 728
[4] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 628
[5] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 630

# 54-CÜ DƏRS

## YEMƏK VƏ IÇMƏK (1)

### *YEMƏK VƏ IÇMƏYIN HÖKMLƏRI*

يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُلُواْ مِن طَيِّبَاتِ مَا رَزَقْنَاكُمْ وَاشْكُرُواْ لِلّهِ إِن كُنتُمْ إِيَّاهُ تَعْبُدُونَ

"Ey iman gətirənlər! Sizə ruzi verdiyimiz pak nemətlərdən yeyin! Əgər yalnız Allaha ibadət edirsinizsə, Ona şükr edin."

(Bəqərə surəsi, ayə 172)

Bitki mənşəli yeməklər: Meyvə-tərəvəz və göyərtilərin insana zərəri olmadığı halda hamısı halaldır.

### *HEYVAN MƏNŞƏLI YEMƏKLƏR:*[1]

**Heyvanlar**

- *1- Ev heyvanı*
  - 1- əti halal olan
    - inək
    - qoyun
    - dəvə
  - 2- əti məkruh olan
    - at
    - qatır
    - ulaq
  - 3- əti haram olan
    - it
    - pişik və s.
- *2- Vəhşi heyvan*
  - 1- əti halal olan
    - ceyran
    - dağ keçisi
  - 2- əti haram olan
    - Bütün növ yırtıcı heyvanlar: canavar, pələng və s. kimi

### *YEMƏK YEYƏNDƏ MÜSTƏHƏB OLAN IŞLƏR* 2

---

[1] Sistani. T.m, məs.2640 və 2593; Lənkərani. T.m, məs.2703 və 2707

[2] Sistani. T.m, məs.2645; Lənkərani. T.m, məs.2711

1- Yeməkdən qabaq əlləri yumaq;
2- Yeməkdən sonra əlləri yuyub dəsmalla qurulamaq;
3- Ev sahibinin hamıdan qabaq yeməyə başlayıb hamıdan sonra çəkilməsi;
4- Yeməyə başlayanda "bismillah" demək; amma əgər bir süfrədə bir neçə növ yemək olsa, hər birini yeməyə başlayanda "bismillah" demək müstəhəbdir.
5- Sağ əllə yemək;
6- Əgər bir neçə nəfər bir süfrənin başında otursa, hər kəsin öz qabağında olan yeməklərdən yeməsi;
7- Tikələri kiçik götürmək;
8- Yeməyi təcili və tələsən halda yeməmək, yeməyi uzatmaq;
9- Xörəyi yaxşı-yaxşı çeynəmək;
10-Yeməkdən sonra Allaha həmd etmək;
11- Yeməkdən sonra dişləri yumaq; dişlərin dibində qalan yemək qalıqlarını çıxartmaq, ağzı yumaq, dişləri fırçalamaq.
12- Meyvələri və göyərtiləri yeməzdən qabaq yumaq.

### *YEMƏK YEYƏNDƏ MƏKRUH OLAN IŞLƏR 1*

1- Tox halda yemək;
2- Çox yemək;
3- Yemək yeyəndə başqalarının üzünə baxmaq;
4- Xörəyi qaynar halda yemək;
5- Yediyi, yaxud içdiyi şeyi üfürmək;
6- Süfrəyə çörək qoyulandan sonra başqa şeyləri gözləmək;
7– Meyvəni tam yemədən atmaq

### *SU IÇMƏYIN MÜSTƏHƏBBATI 2*

1- Suyu sovuraraq içmək;
2- Suyu içməzdən əvvəl "bismillah", axırda "əlhəmdu lillah" demək;
3- Suyu üç dəfəyə içmək;
4- Meyli olanda su içmək;
5- Su içəndən sonra imam Hüseyn (ə) və onun əhli-beytini yad edib, qatillərinə lənət göndərmək.

1 Sistani. T.m, məs.2646; Lənkərani. T.m, məs.2712
2 Sistani. T.m, məs.2647; Lənkərani. T.m, məs.2713

1- Çox su içmək;
2- Yağlı yeməklərdən sonra su içmək;
3- Qabın sınıq yerindən və dəstəyi olan tərəfdən su içmək.

Iki məsələ:

❋ Dovşanın ətini yemək haramdır.2

❋ *Həşəratların bütün növləri haramdır. Çəyirtkə isə istisnadır, onu yemək halaldır.3

## *QUŞLAR*

Aşağıdakı quşların əti halaldır:

❋ Bütün növ göyərçinlər (qumru da göyərçinlərdən hesab olunur).4

❋ Bütün növ sərçələr (bülbül də bura daxildir).5

❋ Toyuq və xoruz.6

Aşağıdakı quşların əti haramdır:6

❋ Yarasa;

❋ Qarğa;

❋ Bütün növ caynaqlı quşlar, məsələn qartal, qırğı, kərkəs və s.

Bir neçə məsələ

1– Qaranquş və hudhudun (şanapipiyin) əti məkruhdur.6

2– Əti halal olan quşların yumurtası halal, əti haram olan quşların yumurtası isə haramdır. Əgər səhv olunsa, onda iki tərəfi bərabər olanlar haram, bir tərəfi o biri tərəfindən nazik olanlar isə halaldır.7

## *SU HEYVANLARI*

1– Su heyvanları içərisində yalnız pullu balıqlar və bir də təkcə qulaqlarının yanında pulları aşkar görünən balıq növləri halaldır. Pulsuz balıqlar sair dəniz heyvanları (balina, xərçəng,• qurbağa və s.) kimi haramdır. 8

2– Halal balığın kürüsü halal, haram balığın kürüsü haramdır. 9 10 * ** ***

---

[1] Sistani. T.m, məs.2648; Lənkərani. T.m, məs.2714

[2] Sistani. "Minhacus-salehin", c.3, məs.881; Lənkərani. T.m, məs.2707

*Sistani: Ehtiyati-vacibə əsasən ... T.m, məs.2633

[3] Lənkərani. T.m, məs.2707, 2690

[4] Sistani. "Minhacus-salehin", c.3, məs.883; Lənkərani. T.m, məs.2692

[5] Sistani. T.m, məs.2633; Lənkərani. T.m, məs.2692

[6] Sistani. T.m, məs.2633; Lənkərani. T.m, məs.2692

[7] Sistani. "Minhacus-salehin", c.3, məs.887; Lənkərani. T.m, məs.2694

•Xərçəng dedikdə kiçik dəniz xərçəngi nəzərdə tutulmur. Kiçik dəniz xərçənginin yeyilməsi halaldır.

[8] Sistani. T.m, məs.2624; Lənkərani. T.m, məs.2695

[9] Sistani. "Minhacus-salehin", c.3, məs.880; Lənkərani. T.m, məs.2696

[10] Sistani. T.m, məs.2635; Lənkərani. T.m, məs.2698

*Sistani: ... noxud qədər olan hissə;

**Sistani: ... ehtiyati-lazıma əsasən;

***Lənkərani: 15 – Dırnaqların arasında olan "zatul-əşca" adlanan vəz.

Əti halal olan heyvanın bədəninin haram hissələri[5]

- Qan;
- Fəzlə (heyvanın nəcisi);
- Yumurtalıq;
- Cinsiyyət orqanı;
- Uşaqlıq;
- "Duşul" adlanan vəz;
- Donbalan deyilən yumurta (ağ ət);
- Kəllə beynində xüsusi formada* noxudun yarısı qədər olan hissə;
- Onurğa sümüyünün içində olan haram beyin;
- Onurğa sümüyünün iki tərəfində olan piy;**
- Öd kisəsi;
- Dalağ;
- Sidik kisəsi;
- Gözlərin bəbəyi***

*Ehtiyati-lazıma görə bu şeylərin haramlığı böyük heyvanlardadır. Amma kiçik heyvanlarda (məsələn sərçə kimi) bunların ayırd edilməsi mümkün olmasa, yeyilməsinin eybi yoxdur.

Bir neçə məsələ

1– Torpaq yemək haramdır.1

2– Seyyidüş-Şühəda Imam Hüseynin (ə) türbətini şəfa məqsədilə az miqdarda yemək olar.1

3– Şərab və hər bir məst edici içkini içmək haramdır.2

4– İnsanın şərab içilən süfrədən bir şey yeməsi haram-

dır** və o, süfrə* başında oturanlardan biri sayılsa, orada oturmamalıdır.3

5– Susuzluq və aclıqdan ölüm ərəfəsində olan müsəlmana çörək və su verib onu ölümdən xilas etmək hər bir müsəlmana vacibdir.4

6– Şərab içmək haramdır.2

7– ***Insan şərab içilən süfrənin başında oturanlardan biri sayılsa, oturmamalıdır. O süfrədən bir şey yemək haramdır.1

---

*Sistani: Yuxarıda qeyd edilənlərin haramlığı quşları, balıqları, çəyirtkələri çıxmaqla yerdə qalan əti halal heyvanlarda haram olan hissələrdir. Quşların isə qan və peyini şübhəsiz haramdır. Qeyd olunmuş yerdə qalan hissələrə gəlincə isə onların haramlığı ehtiyati-vacibə əsasəndir.

Həmçinin balıq və çəyirtkənin də qan və peyini ehtiyati-vacibə əsasən haramdır, yerdə qalan hissələri isə haram deyil.

[1] Sistani. T.m, məs.2637; Lənkərani. T.m, məs.2700

[2] Sistani. T.m, məs.2642; Lənkərani. T.m, məs.2708

**Sistani: ... ehtiyati-vacibə əsasən belə süfrədə oturmaq da haramdır. T.m, məs.2643

[3] Lənkərani. T.m, məs.2709

[4] Sistani. T.m, məs.2644; Lənkərani. T.m, məs.2710

| |
|---|
| HƏR BIR NƏCIS HARAMDIR. AMMA HƏR HARAM NƏCIS DEYIL |

[?] Suallar

1- Aşağıda göstərilən heyvanların əti halaldır, ya haram:
Qarğa, ulaq, ilan, qarışqa, inək, pişik, siçan, qaban?
2- Aşağıda göstərilən quşlardan hansının əti haram deyil:
Bülbül, qaranquş, şanapipik, qumru, çəyirtkə, sərçə?
3- Hansı balıq kürüsü halaldır və hansı haramdır?

***Sistani: Şərab içilən süfrədən bir şey yemək haramdır. Ehtiyata əsasən şərab içilən süfrədə oturmaq da haramdır. T.m, məs.2643

[1] Lənkərani. T.m, məs.2709

# 55-CI DƏRS

## *YEMƏK VƏ IÇMƏK (2)*

### *HEYVANIN BAŞININ KƏSILMƏSI VƏ HEYVAN OVU*

Əgər əti halal olan heyvanın başını aşağıda deyiləcək qayda əsasında kəssələr – istər vəhşi olsun, istərsə ev heyvanı, can verdikdən sonra əti halal,bədəni pak olur.1

### *HEYVANIN BAŞININ KƏSILMƏ QAYDASI*

Heyvanın başını kəsəndə hülqumu (nəfəs borusu), qida borusu və hülqumun iki tərəfində olan iki yoğun damar (bunlara "dörd damar" deyilir), boğazın altında olan çıxıntının alt tərəfindən tam, kamil şəkildə kəsilməlidir. Əgər onları deşsələr, kifayət deyil.2

### *HEYVANIN BAŞININ KƏSILMƏSINDƏKI ŞƏRTLƏR3 **

1- Heyvanın başını kəsən şəxs – istər qadın olsun, istərsə də kişi – müsəlman olmalıdır.

2- Heyvanın başı dəmirdən olan şey ilə kəsilməlidir.

3- Heyvanın başını kəsəndə bədəninin qabaq tərəfi üzü qibləyə olmalıdır.

4- Heyvanın başını kəsmək istəyəndə, yaxud bıçağı onun başına qoyanda baş kəsmək niyyəti ilə Allahın adını zikr etməlidir. "Bismillah"* demək kifayətdir.

5- Heyvanın başı kəsildikdən sonra gözünü, ya quyruğunu hərəkət etdirməklə, ya ayağını yerə vurmaqla olsa belə, çırpınmalıdır. Bu hökm heyvanın diri olmasına şübhə olduğu haldadır. Əgər belə olmasa heç bir lüzum yoxdur.

6- Heyvanın başı şərən göstərilən yerdən kəsilməlidir. *

### *SILAH ILƏ OV ETMƏNIN HÖKMLƏRI 4*

Əti halal olan vəhşi heyvanı silah ilə ovlasalar və ölsə, beş şərt daxilində əti halal və bədəni pak olar:

---

[1] Sistani. T.m, məs.2592; Lənkərani. T.m, məs.2651

[2] Sistani. T.m, məs.2600; Lənkərani. T.m, məs.2659

[3] Sistani. T.m, məs.2603; Lənkərani. T.m, məs.2662

*Sistani: ... və ya "Allahu əkbər" demək kifayətdir.

*Sistani: ... 6- Heyvanın bədənindən adi miqdarda qan axmalıdır və əgər qan onun damarlarında bağlansa və ondan qan axmasa və ya axan qan o növ heyvana nisbətdə az olsa, o hevan halal olmur. Amma qanın az axması heyvanın başını kəsməzdən əvvəl qan axması olduğuna görə olsa, o halda eybi yoxdur.

7- Heyvanın başının kəsilməsi məqsədli şəkildə olmalıdır. Əgər bıçaq əldən düşərək heyvanın başını üzsə, yaxud insan məst, ya bihuş halda heyvanın başını kəssə, halal olmaz.

[4] Sistani. T.m, məs.2610; Lənkərani. T.m, məs.2669

•Ov silahı bıçaq, qılınc kimi kəsici, yaxud nizə, ox kimi iti olmalı və itilik səbəbilə heyvanın bədənini parçalamalıdır. Əgər heyvanı tora salmaq, çubuq, daş və s. kimi şeylərlə ovlasalar (və ölsə) pak olmur, onu yemək də haramdır.

• Ov edən müsəlman, yaxud yaxşını-pisi başa düşən müsəlman uşağı olmalıdır.

• Silahı heyvanı ovlamaq üçün işlətməlidir. Amma başqa yeri nişan alsa və təsadüfən heyvana dəyib öldürsə o heyvan pak deyil, yeyilməsi də haramdır.

• Silahı işə salarkən Allahın adını deməlidir. Əgər qəsdən Allahın adını deməsə, ov halal deyil. Amma unutsa, eybi yoxdur.

• Heyvana çatanda ölmüş olsun, yaxud diri olarsa baş kəsmək miqdarında vaxt olmasın. Əgər baş kəsmək miqdarında vaxt olduğu halda heyvanın başını kəsməsə və ölsə, haramdır.

### *Ov iti ilə ov etmək1 **

Ov iti ilə əti halal olan vəhşi bir heyvan ovlansa, o heyvanın pak və halal olmasının aşağıdakı şərtləri vardır:

1- İtə elə təlim verilməlidir ki, onu nə vaxt ov tutmaq üçün göndərsələr getsin və nə vaxt ov dalınca getməsinin qabağını alsalar, dayansın.

2- O iti sahibi göndərməlidir. Əgər göndərilmədən ovun dalınca gedib şikar etsə, o heyvanı yemək haramdır.

3- Iti ov dalınca göndərən şəxs müsəlman olmalıdır.

4- It göndərilən vaxt Allahın adı zikr edilməlidir. Əgər qəsdən Allahın adını zikr etməsə, o şikar haramdır. Amma əgər unudaraq deməsə, eybi yoxdur.

5- Şikar itin dişindən yaralanaraq ölməlidir. Deməli, it ovu boğsa, yaxud şikar qaçmaqla, qorxudan ölsə, halal deyil.

6- Iti göndərən şəxs, heyvanın öldüyü vaxt çatmalı, yaxud diri olarsa, başını kəsmək qədər vaxt olmamalıdır. Əgər baş kəsmək qədər vaxt olarkən çatıb başını kəsməsə, nəticədə ölsə, halal deyil.*

### *Balıq ovu*

1– Əgər pullu balığı sudan diri tutsalar və sudan kənarda can versə pak, yeyilməsi də halaldır. Əgər suda ölsə pak, yeyilməsi isə haramdır. Amma əgər balıqçıların toruna düşüb suda ölsə, yeyilməsi halaldır.2

2– Balığı tutan şəxsin müsəlman olması, onu götürən vaxt Allahın adını deməsi şərt deyil. Amma müsəlman kafirin balığı diri tutduğunu və sudan çöldə can verdiyini bilməlidir.3

3– Sudan ölü, yaxud diri halda tutulması məlum olmayan ölü balıq müsəlmanın əlində olsa halaldır. 4

---

[1] Sistani. T.m, məs.2618; Lənkərani. T.m, məs.2677

*Lənkərani: 7 – Ovçu sürətlə, yaxud adi qaydada ova tərəf hərəkət etməlidir.

[2] Sistani. T.m, məs.2624; Lənkərani. T.m, məs.2683

[3] Sistani. T.m, məs.2626; Lənkərani. T.m, məs.2685

[4] Sistani. T.m, məs.2627; Lənkərani. T.m, məs.2686

[?] Suallar

1- Heyvanın başını kəsən şəxs hansı şərtlərə malik olmalıdır?

2- Heyvanın başının şəri yolla kəsilmə qaydasını deyin.

3- Silahla ov edən şəxs hansı şərtlərə malik olmalıdır?

4- Ov iti ilə ovlanan heyvanın pak və halal olmasının hansı şərtləri vardır?

5- Sudan ölü və ya diri tutulması məlum olmayan ölü balıq halaldır, yoxsa haram?

# 56-CI DƏRS

## *BAXMAĞIN HÖKMLƏRI*

وَاللّهُ أَخْرَجَكُم مِّن بُطُونِ أُمَّهَاتِكُمْ لاَ تَعْلَمُونَ شَيْئًا وَجَعَلَ لَكُمُ الْسَّمْعَ وَالأَبْصَارَ وَالأَفْئِدَةَ لَعَلَّكُمْ تَشْكُرُونَ

"Allah sizi analarınızın bətnlərindən heç bir şey bilmədiyiniz halda çıxartdı. Sizə qulaq, göz, qəlb verdi ki, bəlkə, şükr edəsiniz!"
(Nəhl surəsi, ayə 78)

Ilahi nemətlərdən biri də görmək qabiliyyətidir. Insan bu nemətdən kamal və tərəqqiyə çatmaq üçün istifadə etməli və harama, naməhrəmə baxmaqdan çəkinməlidir. Naməhrəmə baxmağın və insanın özünü naməhrəmin baxışından qorumağı-nın xüsusi hökmləri vardır.

### *Məhrəm və naməhrəm*

#### *MƏHRƏM OLMANIN SƏBƏBLƏRI:*

- ***Nəsəbi ⇨ qohumluq***
- ***Səbəbi ⇨ evlənmək***
- ***Rizai ⇨ süd vermək***

#### *NƏSƏBI MƏHRƏMLƏR*

Yeddi qism qadın və kişilər qohumluq səbəbilə bir-birinə məhrəmdirlər və bir-birilə evlənə bilməzlər.

***Kişiyə məhrəm olan qadınlar:***

1- Anası və nənəsi (həm atasının anası, həm də anasının anası);
2- Qızı və nəvələri;
3- Bacısı;
4- Bacısı qızları;
5- Qardaşı qızları;
6- Bibisi (həm öz bibisi, həm də ata-anasının bibisi);
7- Xalası (həm öz xalası, həm də ata-anasının xalası);

***Qadına məhrəm olan şəxslər:***

1- Ata və babası;
2- Oğlu və nəvələri;
3- Qardaşı;
4- Bacısı oğlanları;
5- Qardaşı oğlanları;
6- Əmisi (həm öz əmisi, həm də ata-anasının əmisi);
7- Dayısı (həm öz dayısı, həm də ata-anasının dayısı);

Yuxarıda adı çəkilənlərdən başqa bəzi şəxslər süd verməık və evlənmək vasitəsilə məhrəm olurlar. Amma bundan başqa şəxslər naməhrəmdirlər.

### *SƏBƏBI MƏHRƏMLƏR*

***Kişiyə evlənmə səbəbilə məhrəm olan qadınlar:***

1- arvadı;
2- arvadının anası və nənəsi;
3- arvadının başqa kişidən olan qızı;
4- analıq;
5- gəlin;

– Kişiyə arvadı onun əqdində olduğu surətdə onun bacısı ilə evlənmək haramdır. Amma birinə talaq verdikdən sonra, yaxud dünyadan getdikdən sonra o biri ilə evlənmək olar.

***Qadına evlənmə səbəbilə məhrəm olan şəxslər:***

1- əri;
2- ərinin atası və babası;
3-ərin başqa arvaddan olan oğlu, yaxud onun nəvəsi;
4- atalıq;
5- qızının əri;

### *RIZAI MƏHRƏMLƏR*

Bir uşaq aşağıdakı şərtlərlə bir qadından süd əmsə, bəzi şəxslər ona məhrəm olarlar:

1- Uşaq diri qadından süd əmsə;

2- O qadının südü haramdan olmasa; Zinadan əmələ gələn uşağın südünü başqa uşağa versələr, uşaq o süd vasitəsilə heç kəsə məhrəm olmaz.

3- Süd doğumdan olsa; Uşaq doğulmamış ananın döşünə süd gəlsə və onu başqa uşağa versə, məhrəmliyə səbəb olmaz.

4- Uşaq südü qadının döşündən əmsə; Südü uşağın boğazına töksələr məhrəmliyə səbəb olmaz.

5- Süd xalis olsa, başqa şeylə qarışmasa;

6- Süd bir ərdən olsa; Bir uşağa məsələn, yeddi dəfə süd vermiş qadın ərindən boşanıb başqa kişi ilə evlənərsə və həmin kişidən də uşağı olarsa, yenidən həmin uşağa səkkiz dəfə də süd versə, məhrəmliyə səbəb olmaz.

7- Uşaq xəstəlik üzündən əmdiyi südü qaytarmasa;

8- *Uşaq on beş dəfə, yaxud bir gün (24 saat) ərzində, sonra deyiləcək qayda ilə doyunca süd əmsə, yaxud onu o qədər əmizdirsələr ki, "o südlə sümüyü möhkəmlənmişdir, bədənində ət əmələ gəlmişdir" deyilsə; Hətta əgər on dəfə də ona süd versələr və onların arasında (hətta yemək verilməklə də) heç fasilə düşməsə, ehtiyati-vacib budur ki, ona süd vasitəsilə məhrəm olan kəslər onunla evlənməsinlər, ona məhrəm baxışlarla baxmasınlar.

9- Uşağın iki yaşı tamam olmamış olsa; Deməli, iki yaş tamam olandan sonra ona süd versələr, heç kəsə məhrəm olmur.

10- Uşaq bir gecə-gündüz əsnasında başqa yemək yeməməlidir, yaxud başqasından süd əmməməlidir. Amma əgər az miqdarda yemək yesə və "arada yemək yeyibdir" deyilməsə, eybi yoxdur.2

11- Uşaq on beş dəfəni bir qadının döşündən süd əmməlidir və bu əsnada başqasının südünü əmməməlidir.*1

Əgər süd içən uşaq oğlandırsa, aşağıdakı qadınlar ona məhrəm olarlar:3

- süd verən qadının özü;
- süd verən qadının anası və nənəsi;
- süd verən qadının bacısı;
- süd verən qadının qızları və nəvələri;
- süd verən qadının bibisi və xalası.

Qadının südü kimə məxsusdursa, həmin kişi süd içən uşağın "süd atası" hesab olunur.2

Əgər süd içən uşaq qızdırsa, aşağıdakı kişilər ona məhrəm olarlar:3

---

[1] Sistani.T.m, məs.2483; Lənkərani. T.m, məs.2542

*Sistani: Uşaq o qədər süd içməlidir ki, sümükləri həmin süddən bərkisin və bədəninə ət gəlsin. Bu həddə çatıb-çatmaması məlum olmasa, sonra deyiləcək qayda ilə bir gün (24 saat) ərzində, yaxud on beş dəfə doyunca süd əmərsə kifayətdir.

[2] Sistani.T.m, məs.2484; Lənkərani. T.m, məs.2543

*Lənkərani:...Hər dəfə də zaman fasiləsi olmadan süd əmməlidir.

[3] Imam Xomeyni. "Təhrirul vəsilə", c.2, səh.268, məs.7

[3] Sistani.T.m, məs.2445; Lənkərani. T.m, məs.2504

❋ süd verən qadının əri (yəni süd atası);
❋ həmin kişinin atası;
❋ həmin kişinin oğlanları və nəvələri;
❋ o kişinin qardaşları;
❋ o kişinin əmiləri və dayıları;
❋ süd verən qadının qardaşları;
❋ süd verən qadının oğlanları və nəvələri;
❋ süd verən qadının atası və babası;
❋ süd verən qadının əmiləri və dayıları.

Yuxarıda deyilən şəxslər yalnız süd içən şəxsə məhrəm olurlar.

### *BAXMAĞIN HÖKMLƏRI*

1– Qadın və əri, hətta ləzzət məqsədilə olsa belə, bir-birinin bütün bədəninə baxa bilərlər.[1]

2– Ər və arvaddan başqa şəxslərin (istər qadının qadına, istər kişinin kişiyə, istər kişinin qadına və istərsə də qadının kişiyə) ləzzət məqsədilə bir-birinə baxması haramdır.[2]




3– Əgər kişi namәhrəm qadını müalicə etmək üçün baxmağa, yaxud əlini onun bədəninə vurmağa məcbur olsa, eybi yoxdur. Amma əgər baxmaqla, nəzər salmaqla müalicə edə bilərsə əlini vurmamalı; əl vurmaqla müalicə edə bilərsə, baxmamalıdır.[3]

4– *Müsəlman olmayan qadınların adətən bədənlərinin örtmədikləri hissələrinə ləzzət məqsədi olmadan baxmağın eybi yoxdur.[4]

5– Kişi və qadın evlənmək istədiyi şəxsə aşağıdakı şərtlərlə baxa bilər:[1]

---

[1] Sistani. T.m, məs.2445; Lənkərani. T.m, məs.2504
[2] Sistani. T.m, məs.2447; Lənkərani. T.m, məs.2506
[3] Sistani. T.m, məs.2446 və 2447; Lənkərani. T.m, məs.2505 və 2506
[4] Sistani. T.m, məs.2442; Lənkərani. T.m, məs.2501
[3] Sistani. T.m, məs.2450; Lənkərani. T.m, məs.2507
*Sistani: Örtülü geyinmələrini tapşırdıqda əhəmiyyət verməyən açıq-saçıq qadınlara, ləzzət almaq məqsədi və harama düşmək qorxusu olmadan baxmağın eybi yoxdur. T.m, məs.2443
[4] Lənkərani. "Urvə", "Nigah" bəhsi, məs.27

❋ Ləzzət məqsədi olmadan, yalnız izdivac məqsədilə;
❋ Izdivac yalnız bu baxışdan asılı olarsa;
❋ Iki tərəfin izdivacına heç bir manea olmazsa.

6– Naməhrəmin bədəninə, hətta üzünə və əllərinə də ləzzət məqsədi olmadan belə toxunmaq haramdır.2

Şəri suala cavab: 3

Sual: Biz Avropa ölkələrinin univerisitetlərində oxuyan tələbələr qadın müəllimlər və tələbə qızlarla görüşərkən onlarla əllə salamlaşmağa məcburuq. Salamlaşarkən əgər biz əl verməsək bu müsəlman tələbələrin ədəbsizliyi kimi başa düşüləcək. Biz əllə salamlaşa bilərikmi?

Cavab: Xeyr. Onları başa salmalısınız ki, naməhrəm qadınla əllə görüşməmək ədəbsizlik deyil. Bunu Islam əqidəsinin şəri hökmləri belə tələb edir.

### *Örtünmə*

1– Qadının öz bədənini və saçını naməhrəm kişidən örtməsi vacibdir. Üzün dəstəmazda yuyulan miqdarını və biləkdən aşağı əlləri örtmək isə vacib deyil.4

2– Ehtiyati-vacibə əsasən qadın öz bədənini və saçını həddi-büluğa çatmayan, amma yaxşını-pisi başa düşən və şəhvət hisslərinin oyanma həddində olan oğlan uşağından da örtməlidir. 5

Bir neçə şəri suala cavab:

Sual: Tibb mütəxəssislərinin və tibb sahəsində təhsil alan tələbələrin məcburiyyət üzündən öz ixtisaslarına uyğun pis səhnələri olan elmi filmlərə və kitablara baxmalarının hökmü nədir?

Cavab: Əgər öyrənmək üçün baxmağa məcbur olsalar və bu baxmaq ləzzət məqsədilə olmasa eybi yoxdur. 6

– Ailə quracağına ümid olmayan naməhrəm yaşlı qadınların saçlarına baxmağın işkalı yoxdur. 7

– Qeyri-müsəlman qadınlarının bədənlərinin adətən örtmədikləri yerlərinə ləzzət məqsədi olmadan baxmağın işkalı yoxdur.8

[?] Suallar————————————————

1- Məhrəmiyyət səbəbləri hansılardır? Onların hər birinə aid misal deyin.

2- Məhrəmliyə səbəb olan süd vermənin şərtlərini deyin.

3- Aşağıdakı şəxslər məhrəmdirlər, ya yox? Həyat yoldaşının nənəsi, baldız, həyat yoldaşının xalası və bibisi, (kişiyə) qardaşın arvadı.

4- Qadın kişi həkiminə müraciət edə bilərmi?

---

[1] Sistani. "Min hacus-salehin", "Nigah" bəhsi, məs.27; Lənkərani. "Urvə", "Nigah" bəhsi, məs.26;

[2] Sistani. "Min hacus-salehin", "Nigah" bəhsi, məs.16; Lənkərani. "Urvə", "Nigah" bəhsi, məs.47;

[3] Lənkərani. "Camiul məsail" c.1, sual 1777

[4] Sistani. T.m, məs.2444; Lənkərani. "Urvə", "Sətr və Satir", səh.551;

[5] Sistani. T.m, məs.2444; Lənkərani. T.m, məs.2503

[6] Xamenei. "Əhkame rəvabete zəno mərd və məsaile ictimaiye anan", səh.80

[7] Xamenei. "Əhkame rəvabete zəno mərd və məsaile ictimaiye anan", səh.52

[8] Xamenei. "Əhkame rəvabete zəno mərd və məsaile ictimaiye anan", səh.55

# 57-CI DƏRS

## EVLƏNMƏ

وَأَنكِحُوا الْأَيَامَى مِنكُمْ وَالصَّالِحِينَ مِنْ عِبَادِكُمْ وَإِمَائِكُمْ إِن يَكُونُوا فُقَرَاء يُغْنِهِمُ اللَّهُ مِن فَضْلِهِ وَاللَّهُ وَاسِعٌ عَلِيمٌ

"Aranızda olan subayları, əməli saleh kölələrinizi və kənizlərinizi evləndirin. Əgər onlar yoxsuldurlarsa, Allah öz fəzl və kərəmi ilə onları varlı edər. Allah (rəhməti) geniş olan və elm sahibidir."

(Nur surəsi, ayə 32)

### LƏYAQƏTLI HƏYAT YOLDAŞI

Yaxşı olar ki, insan evlənmək istədiyi qadının yalnız gözəlliyinə və maddi imkanına deyil, aşağıdakı xasiyyətlərinə də diqqət etsin.

Peyğəmbərin(s) nəzərində yaxşı qadınların xüsusiyyətlərindən bəzisi:1

- ❋ Məhəbbətli və qayğıkeş olsun;
- ❋ Iffətli və həyalı olsun;
- ❋ Öz ailəsi arasında əziz tutulsun;
- ❋ Ərinə qarşı təvazökar olsun;
- ❋ Özünü yalnız əri üçün bəzəsin;
- ❋ Ərinə itaət etsin.

### AILƏ QURMAQ ÜÇÜN KIŞININ LAYIQLI XÜSUSIYYƏTLƏRI

❋ Allahın Peyğəmbəri (s) buyurub: "Insanların iman cəhətdən ən layiqlisi, ailəsinə qarşı xoşxasiyyətli və mehriban olanıdır. Sizlərin arasında ailəsinə qarşı ən mehriban olanı mənəm."2

❋ Imam Sadiq (ə) buyurub: "... Ailəsi ilə yaxşı rəftar edənin Allah-Təala ömrünü uzadar."3

❋ Allahın Peyğəmbəri (s) buyurub: "Mən arvadını döyən kişiyə heyrətlənirəm. Çünki o özü döyülməyə daha layiqdir." 4

❋ Imam (ə) buyurub: "Qadına gücü çatmayan, ona münasib olmayan işi tapşırmayın. Çünki qadın ətirli bir çiçəkdir, (qolu qüvvətli) qəhrəman deyil." 5

❋ Imam Əli (ə) buyurub: "Qadınlar sizin əlinizdə ilahi əmanətlərdir. Onlara ziyan vurmayın, onları sıxışdırmayın." 6

---

[1] Imam Xomeyni "Təhrirul vəsilə", c.2, səh.237
[2] "Vəsailuş şiə", c.8, səh.507, hədis 25
[3] Biharul-ənvar, c.103, səh.225, hədis 9
[4] Mustədrəkul – vəsail, c 14, səh: 250, hədis 3
[5] Biharul-ənvar, c.103, səh.252, hədis 54
[6] "Mustədrəkul vəsail", c.14, səh.251, hədis 7

### *ƏQDIN HÖKMLƏRI*

1– Nigahda əqd sigəsi (kəbin) oxunmalıdır, təkcə qadın ilə kişinin razı olmağı kifayət deyil.[1]

2– Əgər əqddə bir hərfi səhv oxusalar və onun mənası dəyişsə, əqd batildir.[2]

### *ÜMUMI QANUN*

> INSANIN ÖZ MƏHRƏMI ILƏ (ISTƏR NƏSƏBI, ISTƏR EVLƏNMƏK, ISTƏRSƏ DƏ SÜD VERMƏK VASITƏSILƏ) EVLƏNMƏSI HARAMDIR

### *ƏQIQƏ*[3]

1– Əqiqə – körpə dünyaya gəldikdə onun üçün qurbanlıq olaraq kəsilən qoyun və yaxud hər hansı bir heyvana deyilir.

2– Müstəhəbdir ki, oğlan üçün erkək heyvan, qız üçün isə dişi heyvan kəsilsin.

3– Müstəhəbdir ki, əqiqə yeddinci gün kəsilsin.

4– Əgər yeddinci gün kəsilməsə, müstəhəbdir ki, həddi-büluğa qədər kəsilsin. Hətta əgər kəsilməsə, müstəhəbdir ki, uşaq həddi-büluğa çatdıqdan sonra özü üçün əqiqə kəssin.

5– Əqiqə etmək caiz olan heyvanlar bunlardır:

❋ qoyun

❋ inək

❋ dəvə

6– Əqiqə etmək əvəzinə onun pulunu sədəqə vermək kifayət deyil və əqiqəni əvəz etməz.

7– Əqiqə edən şəxs bişmiş və ya çiy əti paylaya da bilər, yaxud özü bişirib bir dəstə möminləri (ən azı 10 nəfəri) dəvət edib onlara qonaqlıq verə də bilər.[4]

### *TƏLAQ*

"Təlaq" – lüğətdə "azad etmək" mənasındadır. Fiqh elminin terminologiyasında isə ər və arvadın şəri qayda ilə bir-birindən ayrılmasına deyilir.

Islam ailənin qorunması və evliliyin davamlılığına xüsusi diqqət yetirmiş, müştərək həyatları boyu qadın və kişinin bir-birilə xoş rəftar etmələrini təkidlə buyurmuşdur. Təlaqdan başqa yolu olmayan bəzi hallarda isə təlaq üçün ağır şərtlər qoyulmuşdur ki, təlaq halları mümkün olduğu qədər azalsın.

### *TƏLAĞIN ŞƏRTLƏRI.*

1. Təlaq verən kişi bu şərtlərə malik olmalıdır:[5]

❋ Aqil olsun;

---

[1] Sistani. T.m, məs.2372; Lənkərani. T.m. məs.2431

[2] Sistani. T.m, məs.2380; Lənkərani. T.m. məs.2439

[3] Imam Xomeyni. "Təhrirul vəsilə", c.2, "kitabul nigah", səh.311, məs.9

[4] Imam Xomeyni. "Təhrirul vəsilə", c.2, "kitabul nigah", səh.311, məs.10

[5] Sistani. T.m, məs.2507; Lənkərani. T.m, məs.2566

❋ * Həddi-büluğa çatmış olsun;

❋ Öz ixtiyarı ilə təlaq verməlidir, təlaq verməyə məcbur edilməməlidir.

❋ Məqsədi təlaq vermək olsun, təlağın sözlərini zarafatla deməsin.

2. Qadın təlaq vaxtı: 1

❋ Heyz və nifas halında olmamalıdır.

❋ Kişi qadınla axırıncı heyz və nifas qanından paklandıqdan sonra və həmçinin axırıncı heyz və nifas vaxtı yaxınlıq etmiş olmamalıdır.•

❋ Qadın kişinin daimi arvadı olmalıdır.

Müvəqqəti əqddə təlaq yoxdur, qadının kişidən ayrılması əqd müddətinin bitməsi ilə baş tutur. Vaxt bitməmiş ayrılmaq istəsələr, kişi yerdə qalan müddəti qadına bağışlamalıdır. Belə ki, deməlidir: "Yerdə qalan müddəti sənə bağışlayıram." Bu halda şahid tutmaq və heyz halından pak olmaq şərt deyil..

### *TƏLAQ SIĞƏSI*[2]

❋ Ərəbcə düzgün oxunmalıdır.

❋ Təlaq oxunarkən iki nəfər adil kişi orada olub təlaq siğəsini eşitməlidir.

### *TƏLAĞIN NÖVLƏRI*[3]

***Təlağın növləri*** { ***•rici təlağı*** / ***•bain təlağı*** }

### *RICI TƏLAĞI*

Rici təlağı budur ki, təlaqdan sonra qadının iddədə olduğu vaxta qədər kişi ona qayıda bilər. (Yəni təlaq niyyətindən dönə bilər.)

### *BAIN TƏLAĞI*

Bain təlağı budur ki, təlaqdan sonra kişinin öz arvadına qayıtmaq haqqı olmasın.

Bain təlağı beş* qismdir:

1– Doqquz yaşı tamam olmayan qadının təlağı;

2– Yaisə olan qadının təlağı;

3– Ərinin əqddən sonra yaxınlıq etmədiyi qadının təlağı;

4– Üç dəfə təlaq verilən qadının üçüncü təlağı;

5– Xül və mübarat təlağı.

---

* Lənkərani: Ehtiyati-vacibə əsasən...

1 Sistani. T.m, məs.2508; Lənkərani. T.m, məs.2576

•Bu deyiləndən istisna olaraq təlaq bəzi hallarda səhihdir. Geniş məlumat üçün fiqh kitablarına müraciət etmək olar.

2 Sistani. T.m, məs.2517; Lənkərani. T.m, məs.2576

3 Sistani. T.m, məs.2531; Lənkərani. T.m, məs.2590

*Sistani: Bain təlağı altı qismdir: ... 6 – Əgər kişi arvadının dolanışıq xərcini verməsə və eyni zamanda ona təlaq verməyə də razı olmasa, qadın hakimi şərinin vasitəsilə təlaq alarsa, bu təlaq da bain təlağından hesab edilir.

## *XÜL TƏLAĞI*

Ərinə meyli olmayan,**öz mehriyyəsi və ya başqa bir malını ona təlaq verməsi üçün ərinə bağışlayan qadının təlağına "xül təlağı" deyilir. **1 1

## *MÜBARAT TƏLAĞI*

Ər-arvad bir-biri ilə yaşamaq istəməzsə*** və qadın öz mehriyyəsini, yaxud başqa malını ona təlaq verməsi üçün ərinə bağışlayarsa, bu cür təlağa "mübarat təlağı" deyilir. 2

## *TƏLAQ IDDƏSI*

"Iddə" – qadının ərindən ayrıldıqdan sonra gözlədiyi müəyyən zaman müddətinə deyilir. Belə ki, qadın bu müddət ərzində ərə gedə bilməz.

Aşağıdakı şərtlərə malik olan qadın təlaq iddəsi gözləməlidir: 3

❋ Doqquz yaşı tamam olubsa;

❋ Yaisə deyilsə;

❋ Əri onunla yaxınlıq edibsə.

## *IDDƏ MÜDDƏTI*

1– Əgər hamilə qadına təlaq versələr, onun iddəsi uşağın dünyaya gəlməsinə, yaxud düşməsinə qədərdir. Məsələn, təlaqdan bir saat sonra uşaq dünyaya gəlsə, həmin vaxt iddəsi tamam olur.4

2– Əgər qadın hamilə deyilsə və heyz olursa, üçüncü heyzin başlanmasına qədər iddə saxlamalıdır. Yəni təlaq verildiyi paklıqdan sonra (hərçənd az miqdar olsa da) o qədər gözləməlidir ki, yenidən heyz görüb pak olsun. Üçüncü heyzi görən kimi iddəsi tamam olur və ərə gedə bilər.5

3– Əgər qadın hamilə deyilsə və yaisə də deyilsə, heyz olmursa, üç ay gözləməlidir.6

---

*Sistani: ... və ərinə qarşı ikrah hissi olan ...

**Sistani: Qadının ərinə qarşı olan ikrah hissi ərini evliliyin hüquqlarına əməl etməməklə təhdid etmə həddinə çatdıqda xül təlağı etibarlı sayılmır. T.m, məs.2537

1 Lənkərani. T.m, məs.2596

***Sistani: ... onlarda bir-birinə qarşı ikrah hissi olarsa... T.m, məs.2540

2 Lənkərani. T.m, məs.2599

3 Sistani. T.m, məs.2519; Lənkərani. T.m, məs.2578

4 Sistani. T.m, məs.2523; Lənkərani. T.m, məs.2582

5 Sistani. T.m, məs.2520; Lənkərani. T.m, məs.2579

6 Imam Xomeyni. "Təhrirul vəsilə", c.2, səh.335

**Vəfat iddəsi**
- ❋ ***hamilə deyilsə*** ⇨ 4 ay 10 gün iddə saxlamalıdır (yəni ərə getməməlidir).
- ❋ ***hamilədirsə*** ⇨ doğuma qədər iddə saxlamalıdır, amma əgər uşaq 4 ay 10 gün keçməzdən qabaq dünyaya gəlsə, ərinin ölümündən 4 ay 10 gün keçənə qədər gözləməlidir. Buna "vəfat iddəsi" deyilir.

Bir neçə məsələ:

1– Vəfat iddəsində olan qadına aşağıdakı işlər haramdır:[2]

❋ Evlilik (istər müvəqqəti, istər daimi olsun);

❋ Bəzəkli paltar geyinmək;

❋ Sürmə çəkmək və zinət sayılan başqa işləri görmək.

2– Vəfat iddəsinin başlanğıcı qadının ərinin ölümündən xəbər tutduğu vaxtdan hesablanır.[3]

[?] Suallar

1- Layiqli həyat yoldaşı öz ərinə qarşı necə olmalıdır?

2- Rici və bain təlağının fərqi nədir?

3- Mübarat təlağı nədir? Onu izah edin.

4- Vəfat iddəsinin müddəti nə qədərdir?

---

[1] Sistani. T.m, məs.2526; Lənkərani. T.m, məs.2585

[2] Sistani. T.m, məs.2527; Lənkərani. T.m, məs.2586

[3] Sistani. T.m, məs.2529; Lənkərani. T.m, məs.2588

# 58-CI DƏRS

## VƏQF, VƏSIYYƏT

### VƏQF[1]

**Vəqfin növləri[1]**

- ***Ümumi vəqf:*** Bu vəqf xüsusi bir dəstə adamlar üçün deyil, hamının istifadəsi üçün nəzərdə tutulur. Məsələn, torpağın məscid tikilməsi üçün vəqf olunması.
- ***Xüsusi vəqf:*** Bu vəqf xüsusi bir dəstə adamların istifadəsi üçün nəzərdə tutulur. Məsələn, hər hansı bir şeyin imam camaata vəqf olunması, yaxud bir mədrəsəyə vəqf olunması kimi.

### VƏQFIN ŞƏRTLƏRI[2]

**Vəqf edən şəxsin şərtləri[2]**

- Həddi-büluğa çatmış olsun;
- Aqil olsun;
- Məqsədli və öz istəyi ilə vəqf etməlidir.
- Öz malından istifadə etməsi qadağan edilmiş şəxslərdən olmasın.

### VƏQFIN HÖKMLƏRI

1– Əgər bir şəxs müəyyən bir şeyi vəqf edərsə, onun mülkündən çıxar, özü, ya başqaları onu bağışlaya, ya sata bilməzlər və heç kəs o mülkdən irs aparmaz. 3

2– Müəyyən bir malı vəqf edən bir şəxs, onu həmişəlik olaraq vəqf etməlidir. 4

3– Əgər vəqfin mülkü xarab olsa, vəqfdən çıxmır; amma əgər nəzərdə tutulan ünvan aradan getsə (məsələn, bağı istirahət üçün vəqf etsələr və bağ xarab olsa) vəqf batil olur və vəqf edənin vərəsələrinə qayıdır. 5

4– Vəqf olunan şeyləri vəqf olunmuş yerdən başqa yerə aparmaq olmaz. Hətta məscidə vəqf olunmuş möhürləri belə başqa yerə aparmaq olmaz. 6

---

1 Imam Xomeyni "Təhrirul vəsail", c.2, "kitabul vəqf", səh.70, məs.34
2 Sistani. T.m, məs.2691; Lənkərani. T.m, məs.2759
3 Sistani. T.m, məs.2685; Lənkərani. T.m, məs.2753
4 Sistani. T.m, məs.2688; Lənkərani. T.m, məs.2756
5 Sistani. T.m, məs.2697; Lənkərani. T.m, məs.2765
6 Sistani. T.m, məs.2700; Lənkərani. T.m, məs.2768

### *VƏQFIN BƏZI NÜMUNƏLƏRI VƏ ONLARIN HÖKMLƏRI*[1]

| | VƏQFIN NÜMUNƏLƏRI | HÖKM |
|---|---|---|
| | MÜSƏLMAN ŞƏXS BIR ŞEYI ŞƏHƏRIN FƏQIRLƏRINƏ VƏQF ETSƏ | HƏMIN ŞƏHƏRIN MÜSƏLMAN FƏQIRLƏRINƏ ÇATIR. |
| | "ALLAH YOLUNDA" VƏ YA XEYRIYYƏ IŞLƏRI ÜÇÜN VƏQF EDILSƏ | SAVABI OLAN HƏR BIR IŞ ÜÇÜN XƏRCLƏNƏ BILƏR. |
| | QOHUM-ƏQRABAYA (MÜTLƏQ) VƏQF EDILSƏ | CAMAATIN NƏZƏRINDƏ QOHUM-ƏQRƏBA SAYILAN HƏR BIR KƏSƏ ÇATIR. |
| | YAXIN QOHUMLARA (الا قرب فا لا قرب) VƏQF EDILSƏ | IRSIN BÖLÜNMƏ QAYDASINDAKI ARDICILLIĞA ƏMƏL OLUNMALIDIR. |
| | ÜMUMIYYƏTLƏ ÖVLADLARA VƏQF EDILSƏ | HƏM QIZ, HƏM DƏ OĞLAN ÖVLADINA BƏRABƏR SURƏTDƏ ÇATIR |
| | ÜLƏMALARA VƏQF EDILSƏ | ANCAQ DINI ALIMLƏRƏ ÇATIR, BAŞQA SAHƏNIN ALIMLƏRINƏ AID DEYIL. |
| | QEYD-ŞƏRTSIZ MƏSCIDƏ VƏQF EDILSƏ | MƏSCIDIN IŞIĞINA, XALÇASINA, TƏMIRINƏ, XIDMƏTÇILƏRINƏ VƏ BAŞQA XƏRCLƏRINƏ SƏRF OLUNUR. |
| | SEYYIDÜL-ŞÜHƏDAYA VƏQF EDILSƏ | SIRF O HƏZRƏTIN ƏZADARLIQ MƏCLISLƏRINƏ SƏRF OLUNUR. |

## *VƏSIYYƏT*

Vəsiyyət insanın ölümündən sonra onun üçün müəyyən işlər görülməsini, yaxud malından bir şeyi başqasının mülkünə keçirilməsini tapşırmasıdır. Yaxud da öz övladı və ya ixtiyarında olan şəxslər üçün qəyyum və himayəçi təyin etməsidir.2

Necə vəsiyyət etmək olar? 3

❋ Sözlə: yəni öz vəsiyyətini dil ilə deməklə;

❋ Yazmaqla: yəni öz vəsiyyətini yazılı surətdə bildirməklə;

❋ Işarə ilə: yəni məqsədini çatdıran işarə ilə.

Vəsiyyət edilən şəxsə "vəsi" deyilir. Vəsi aqil və etimad edilməli şəxs olmalıdır. 4

---

[1] Imam Xomeyni "Təhrirul vəsilə", c.2, "kitabul vəqf və əxavətu", səh.71-74, məs.40-46 və 53, 56, 58

[2] Sistani. T.m, məs.2703; Lənkərani. T.m, məs.2771

[3] Sistani. T.m, məs.2704; Lənkərani. T.m, məs.2772

[4] Sistani. T.m, məs.2713; Lənkərani. T.m, məs.2781

Ölüm əlamətini özündə görən bir kəs aşağıdakı işləri vəsiyyət etməlidir:

1– Oruc və namaz qəzası varsa, öz malından onun üçün əcir tutulmasını vəsiyyət etməlidir. Hətta əgər malı olmasa, amma bir kəsin onları pulsuz yerinə yetirəcəyini ehtimal versə, yenə də vəsiyyət etməsi vacibdir. Amma onun oruc-namaz qəzaları böyük oğluna vacib olsa, ona xəbər verməlidir.1

2– Xums və zəkat borcu olsa, dərhal verməlidir. Verə bilməsə, bu halda özünün malı varsa, yaxud bir kəsin onu qaytaracağına ehtimal verirsə, yaxud başqa yollarla boynundan götürüləcəyi məlum olsa, vəsiyyət etməlidir. Həmçinin boynunda vacibi həcci olsa da bu cürdür.2

3– Əgər kiçik yaşlı uşaqlarının qəyyuma ehtiyacı olarsa və qəyyum təyin edilməsə onların malları tələf olarsa, yaxud özlərinə zərər dəyərsə, onlar üçün əmanətdar, etibarlı bir qəyyum təyin etməlidir.3

4– Ölüm əlamətlərini özündə görən bir kəs dərhal camaatın əmanətlərini sahiblərinə qaytarmalı, onlara borcludursa və borclarının qaytarılması vaxtı çatıbsa, verməlidir. Əgər özü verə bilməsə,yaxud borcun qaytarılması vaxtı çatmayıbsa, vəsiyyət etməli və vəsiyyətinə şahid tutmalıdır. Amma əgər onun borcu məlum olsa və vərəsələrinin verəcəyinə xatircəm olsa, vəsiyyət etməsi vacib deyil.4

### *MALIN VƏSIYYƏTI*

Insanın öz malı barədə etdiyi vəsiyyət, yəni həmin malın müəyyən işlər üçün xərclənməsini, yaxud bir kəsə verilməsini vəsiyyət etdiyi təqdirdə əgər bu həmin şəxsin bütün mal-dövlətinin 1/3-indən çox olmazsa, vəsiyyətə əməl olunmalıdır. Amma onun malının 1/3-indən çox olsa, yalnız vərəsələrin razı olduğu halda səhihdir. Belə ki, vərəsələr vəsiyyətə icazə verdiklərini hər hansı bir söz və ya əməllə bildirsələr, kifayətdir. Onun ölümündən bir müddət sonra da icazə versələr səhihdir.5

Bir neçə şəri suala cavab:

Sual: Məscidə bağışlanmış qədim bir əlyazma Quran baxımsızlıq üzündən cırılıb aradan getmə üzrədir. Bu müqəddəs və dəyərli kitabı cildləmək və qorumaq üçün şəri izn lazımdırmı?

Cavab: Qurani-kərimi cildləmək, cildini və vərəqlərini bərpa edərək həmin məsciddə saxlamaq üçün şəri hakimdən xüsusi izn almağa ehtiyac yoxdur. 6

Sual: Mirasda payı olan bəzi varislərin həmin mülkü bütünlüklə vəqf etməsi caizdirmi? Və vəqf əqdini yalnız onların adına yazmaq səhihdirmi?

---

[1] Sistani. T.m, məs.2711; Lənkərani. T.m, məs.2779
[2] Sistani. T.m, məs.2710; Lənkərani. T.m, məs.2778
[3] Sistani. T.m, məs.2712; Lənkərani. T.m, məs.2780
[4] Sistani. T.m, məs.2709; Lənkərani. T.m, məs.2777
[5] Sistani. T.m, məs.2730; Lənkərani. T.m, məs.2798
[6] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 950

Cavab: Mirasdan yalnız onların paylarına düşənləri vəqf etmələri səhihdir. Başqa varislərin payları ilə bağlı vəqf düzgün deyil və onun səhihliyi varislərin razılığına bağlıdır. 1

Sual: Bir yerin müəyyən bir müddətə (məsələn 10 il müddətinə) məscid üçün vəqf edilməsi və bu müddət bitdikdən sonra yenidən vəqf etmiş şəxsin özünün və ya varislərinin ixtiyarına keçməsi caizdirmi?

Cavab: Bu iş müvəqqəti olaraq səhih deyildir və bu şəkildə həmin yer məscidə çevrilə bilməz. Yalnız həmin məkanın müəyyən bir müddətə namaz qılanların ixtiyarına verilməsinin işkalı yoxdur. 2

Sual: Vəsiyyət etmək vacibdirmi? Əgər insan vəsiyyət etməsə, günah etmiş olur?

Cavab: Əgər onda başqasının əmanəti varsa və ya üzərində "həqqün-nas" (camaatın haqqı), yaxud Allahın haqqı varsa və həyatda ikən onları yerinə yetirməyə imkan tapmayıbsa, bu halda onların barəsində vəsiyyət etməsi vacibdir. Əks halda vəsiyyət vacib deyil. 3

Sual: Bir şəxsin ölümündən sonra onun üçün xeyir işlərə xərclənsin deyə, malının 1/3-ni ayırıb başqasının yanında əmanət qoyması caizdirmi?

Cavab: Öldüyü zaman malının iki bərabəri qədəri varislərə qalmaq şərtilə caizdir. 4

[?] Suallar

1- Vəqfin hər bir növü üçün iki misal deyin və onları izah edin.

2- Vəqf edən şəxs hansı şərtlərə malik olmalıdır?

3- Vəqfin hibə ilə fərqi nədir?

4- Necə vəsiyyət etmək olar və hansı işlər barəsində vəsiyyət edilməlidir?

---

[1] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 974
[2] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 941
[3] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 738
[4] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 744

# 59-CU DƏRS

## *MEYYIT HÖKMLƏRI (1)*

### *MÜSƏLMAN ŞƏXS CAN VERƏRKƏN:*

Vacibdir:

*Elə yatırdılsın ki, ayaqlarının altı qiblə tərəfə olsun.1

Müstəhəbdir:

❋ Kəlmeyi-şəhadətin, on iki Imamın (ə) adının və s. haqq əqidələrin (onun başa düşəcəyi tərzdə) ona təlqin olunması;2

❋ Yuxarıda deyilənlərin öldüyü ana qədər təkrar edilməsi;2

❋ Ağır can verən insanın (narahat olmadığı halda) namaz qıldığı yerə aparılması;3

❋ Can verənin rahat olması üçün başının üstündə mübarək "Yasin", "Saffat", "Əhzab" surələrinin,"Ayətəl-kürsü"nün, həmçinin "Əraf" surəsinin 54-cü ayəsinin və "Bəqərə" surəsinin axırıncı üç ayəsinin oxunması; Ümumiyyətlə, Qurandan mümkün olan qədər oxunmalıdır.4

Məkruhdur: 5

❋ Onu tək qoymaq;

❋ Onun qarnının üstünə ağır bir şey qoymaq;

❋ Cənabətli, heyzli şəxslərin onun yanında olması;

❋ Həmçinin onun yanında çox danışmaq, ağlamaq;

❋ Qadınları can verənin yanında tək qoymaq.

Müsəlman şəxsin ölümündən sonra:

Hər bir mükəlləf şəxsə* vacibdir:6

❋ Ona qüsl versin;

❋ Hənut vursun;

❋ Kəfənə büksün;

❋ Onun üçün meyyit namazı qılsın;

❋ Onu dəfn etsin.

Müstəhəbdir.7

❋ Meyyitin ağzını bağlasınlar;

❋ Gözlərini və çənəsini bağlasınlar;

❋ Əllərini və ayaqlarını uzatsınlar;

---

*Sistani: Ehtiyata əsasən ... T.m, məs.539

1 Lənkərani. T.m, məs.533

2 Sistani. T.m, məs.542; Lənkərani. T.m, məs.536

3 Sistani. T.m, məs.544; Lənkərani. T.m, məs.538

4 Sistani. T.m, məs.545; Lənkərani. T.m, məs.539

5 Sistani. T.m, məs.546; Lənkərani. T.m, məs.540

*Sistani: ... onun vəlisinə vacibdir. Əgər vəlisi olmasa, yaxud vəlisi bu işləri görməkdən imtina etsə, başqa mükəlləflərə yuxarıda deyilənləri yerinə yetirmək vacibdir. Amma onlardan biri bu işləri görərsə, digərlərinin boynundan götürülər. T.m, məs.548

6 Lənkərani. T.m, məs.542

7 Sistani. T.m, məs.547; Lənkərani. T.m, məs.541

❋ Onun üstünə parça çəksinlər;

❋ Əgər gecə ölübsə, öldüyü yerdə çıraq yandırsınlar;

❋ Onu dəfn etmək üçün möminlərə xəbər versinlər;

❋ Onu dəfn etməkdə tələssinlər. Amma onun ölümünə yəqinlikləri olmasa, dəqiq məlum olana qədər gözləməlidirlər.

Əgər meyyit hamilədirsə və bətnindəki uşaq diridirsə, onun sol tərəfindən qarnını yarıb, uşağı çıxararaq yenidən onu tikincəyə qədər dəfn işini yubandırmalıdırlar.2

### *MEYYIT QÜSULU*

Meyyitə aşağıdakı üç qüsulu vermək vacibdir: 1

1– Sidr qatılmış su ilə;

2– Kafur qatılmış su ilə;

3– Xalis su ilə.

1– Meyyit qüsulunun digər qüsullardan heç bir fərqi yoxdur, təkcə fərqi niyyətdədir. Ehtiyati-vacibə əsasən meyyitə tərtibi qüsl vermək mümkündürsə, irtimasi qüsl verilməməlidir.2

2– Sidr və kafur həddindən artıq çox olmamalıdır ki, suyu muzafa döndərsin; habelə, həddindən artıq az da olmamalıdır ki, suya sidr və kafur qatılmamış kimi nəzərə çarpsın.3

3– Əgər sidr və kafur, yaxud bunlardan biri tapılmasa, yaxud istifadəsi caiz olmasa (məsələn, qəsbi olsa),* hər birinin yerinə meyyitə xalis su ilə qüsl verilməlidir.4

4– Aşağıdakı şəxslərə meyyit qüsulu vermək vacibdir:

❋ Müsəlman qadın və kişiyə; 5

❋ Müsəlman uşağa, hətta zinadan olsa da;6

❋ Uşaqlıqda dəli olub elə bu halda da həddi-büluğa çatıb ölən bir kəsin ata-anası, yaxud onlardan biri müsəlman olsa;5

❋ Siqt olmuş (ana bətnindən düşmüş) uşaq dörd aylıq, yaxud daha çox olarsa, qüsl verilməlidir.7

5– Kafiri və onun övladını qüsl, kəfən və dəfn etmək caiz deyil.8

6– Meyyitin qüsl, kəfən, namaz və dəfni üçün vəlisindən icazə almaq lazımdır.9

7– Qadının qüsl, kəfən, namaz və dəfn işlərindəki vəlisi onun əridir. 10

8– Meyyitə qüsl verən şəxs aşağıdakı şərtlərə malik olmalıdır:

---

[1] Sistani. T.m, məs.556; Lənkərani. T.m, məs.550

[2] Sistani. T.m, məs.571; Lənkərani. T.m, məs.565

[3] Sistani. T.m, məs.557; Lənkərani. T.m, məs.551

*Sistani: ... ehtiyata əsasən hər birinin yerinə meyyitə xalis su ilə qüsl verilməlidir və təyəmmüm də edilməlidir. T.m, məs.560.

[4] Lənkərani. T.m, məs.554;

[5] Sistani. T.m, məs.548; Lənkərani. T.m, məs.542

[6] Sistani. T.m, məs.563; Lənkərani. T.m, məs.557

[7] Sistani. T.m, məs.564; Lənkərani. T.m, məs.558

[8] Sistani. T.m, məs.563; Lənkərani. T.m, məs.557

[9] Sistani. T.m, məs.548; Lənkərani. T.m, məs.546

[10] Sistani. T.m, məs.552; Lənkərani. T.m, məs.547

❋ Müsəlman; 1

❋ Aqil;1

❋**On iki imam şiəsi;1

❋ Qüsl məsələlərini bilən;1

❋***Həddi-büluğa çatmış;1

❋ Meyyit kişidirsə ona kişi qüsl verməlidir, qadındırsa ona qadın qüsl verməlidir. 2

9– Amma arvad öz ərinə, ər də arvadına qüsl verə bilər. Amma ehtiyati-müstəhəb budur ki, arvad öz ərinə, ər də öz arvadına qüsl verməsin.3

10– Kişi ***yaşı üçdən keçməmiş ölü qız uşağına, qadın da ****yaşı üçdən keçməyən oğlan uşağına qüsl verə bilər. 4

11– Meyyitin övrətinə baxmaq haramdır. Ona qüsl verən kəs onun övrətinə baxsa, günah etmişdir, amma verdiyi qüsl batil olmaz.5

12– Meyyitə qüsl vermək üçün muzd almaq***** caiz deyil. Amma qüsulun müqəddimati işləri üçün muzd almaq haram deyil.6

13– Əgər su tapılmasa və yaxud suyun istifadə olmasında müəyyən maneələr olsa, hər qüsulun əvəzinə meyyitə bir təyəmmüm verilməlidir.*11*

14– Qüsuldan sonra meyyitə hənut vurmaq vacibdir, yəni alnına, əllərinin içinə, dizlərinin gözünə, ayaqlarının iki baş barmaqlarının ucuna kafur sürtülməlidir.**2*****8

15– Meyyitin burnunun ucuna kafur sürtülməsi müstəhəb- dir.2

16– Kafur təzə və əzilmiş olmalıdır. Əgər köhnə olduğuna görə ətri getsə, kifayət deyildir.2

17– Daha yaxşı olar ki, kəfənə bükməmişdən əvvəl meyyitə hənut vursunlar. Amma kəfənə bükmə əsnasında və ondan sonra da hənut vurmağın maneəsi yoxdur.9

---

[1] Lənkərani. T.m, məs.555

[*] Sistani: Məşhur nəzərə əsasən on iki Imam şiəsi olmalıdır. T.m, məs.561

[**]Sistani: Müməyyiz (yaxşı-pisi başa düşən) uşaq meyyitə düzgün qüsl verə bilərsə, kifayət edər.

[2] Sistani. T.m, məs.565; Lənkərani. T.m, məs.559

[3] Sistani. T.m, məs.565; Lənkərani. T.m, məs.559

[***]Sistani: ... müməyyiz olmayan qız uşağına ...

[****]Sistani: ... müməyyiz olmayan oğlan uşağına ... T.m, məs.566

[4] Lənkərani. T.m, məs.560

[5] Sistani. T.m, məs.569; Lənkərani. T.m, məs.563

[*****] Sistani: ... ehtiyata əsasən haramdır. T.m, məs.573

[6] Lənkərani. T.m, məs.567

[*]Sistani: ... Amma üç təyəmmüm vermələri ehtiyati-müstəhəbdir. Bu üç təyəmmümlərin birində mafiz-zimmə qəsdi edilməli, yəni təyəmmüm verən şəxs bu təyəmmümü "əməl etməli olduğum təklif üçün yerinə yetirirəm" deyə, etməlidir. T.m, məs.574

[1]Lənkərani. T.m, məs.568

[**]Sistani: ... belə ki, həmin üzvlərdə bir qədər kafur qalsın, hətta sürtülməsə də olar.

[8] Sistani. T.m, məs.591; Lənkərani. T.m, məs.584

[9] Sistani. T.m, məs.593; Lənkərani. T.m, məs.586

Müsəlman meyyiti long, köynək və sərtasər adlanan üç parça ilə kəfənə bükülməlidir:1

1– Long*** - göbəkdən dizlərə qədər yerin hər tərəfini örtməlidir. Yaxşı olar ki, sinəsindən ayağının üstünə qədər çatsın.2

2– Köynək – ehtiyati-vacibə əsasən çiyindən baldırın yarısına (dizlə topuğun arasına) qədər örtməlidir. Daha yaxşı olar ki, ayağın üstünə də çatsın.5

3– Sərtasər –*uzunluğu o qədər olmalıdır ki, iki tərəfdən başını bağlamaq mümkün olsun. Eni də o qədər olmalıdır ki, (meyyiti onunla) bükdükdə parçanın bir tərəfi o biri tərəfin üstünə gəlsin.3

## *MEYYITIN KƏFƏNININ ŞƏRTLƏRI*

❋ Ehtiyati-vacibə görə kəfənin hər üç parçası o qədər nazik olmamalıdır ki, meyyitin bədəni görünsün.4

❋ Kəfən qəsbi olmamalıdır. Əgər başqa bir şey tapılmasa da, meyyiti qəsbi kəfənə bükmək caiz deyildir.5

❋Kəfən***murdar olmuş heyvanın dərisindən olmamalıdır.6

❋ Kəfən nəcis şeydən olmamalıdır.7

❋ Kəfən xalis ipəkdən olmamalıdır. 5

❋ Meyyiti****qızıldan toxunmuş parça ilə kəfənə bükmək olmaz.5

Yuxarıda qeyd olunan bütün hallar çarəsizlik üzündən olsa, eybi yoxdur. Yalnız kəfənin qəsbi olma məsələsində başqa çarə olmasa belə meyyiti kəfənə bükmək olmaz.

Bir neçə şəri suala cavab:

Sual: İnsan öz ata-anasını, yaxud başqa qohumlarını özü üçün aldığı kəfənə bükə bilərmi?

Cavab Bunun heç bir eybi yoxdur.8

Sual: Bir nəfər maşın qəzasında ölmüşdür. Ona qüsl verib kəfənə bükəndən sonra qəbristanlığa gətirdilər. Qəbirə qoyub dəfn etmək istədikdə tabut və kəfənin meyyitin başından axan qanla bulaşdığını gördülər. Bu halda kəfəni dəyişdirmək vacibdirmi?

Cavab: Əgər kəfənin qana batmış yerini yumaq, yaxud kəsmək, yaxud da kəfəni dəyişmək mümkün olsa, bu işləri görmək vacibdir. Amma əgər mümkün olmasa, belə də dəfn etmək olar. 1

---

[1] Sistani. T.m, məs.576; Lənkərani. T.m, məs.570

* **Sistani: Long – ehtiyati-vacibə əsasən ...

[2] Sistani. T.m, məs.577; Lənkərani. T.m, məs.571

*Sistani: Bütün bədəni örtə biləcək ölçüdə olmalıdır. Ehtiyati-vacibə əsasən

[3] Sistani. T.m, məs.577; Lənkərani. T.m, məs.571

[4] Sistani. T.m, məs.574; Lənkərani. T.m, məs.577

[5] Sistani. T.m, məs.575; Lənkərani. T.m, məs.578

**Sistani: ... ehtiyati-vacibə əsasən ...

[6] Sistani. T.m, məs.587; Lənkərani. T.m, məs.578

[7] Sistani. T.m, məs.576; Lənkərani. T.m, məs.579

***Sistani: ... ehtiyati-vacibə əsasən ...

[8] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 242

Sual: Qeyd olunan şəxs qana bulaşmış halda dəfn olunmuşsa, onun hökmü nədir?

Cavab: Eybi yoxdur, (ona qüsl vermək, yaxud kəfənini dəyişdirmək üçün qəbrini açıb çıxartmaq) vacib də deyildir. Hətta kəfəni dəyişmək, yaxud yumaq üçün qəbri açmaq, meyyiti çıxartmaq caiz deyildir. 2

[?] Suallar

1- Can verən və dünyasını dəyişən şəxslərin qarşısında vəzifəmiz nədir?

2- Meyyitə necə qüsl verildiyini izah edin.

3- Kimlərə meyyit qüsulu vermək vacibdir?

4- Meyyitə qüsl verən şəxs hansı şərtlərə malik olmalıdır?

5- Meyyit necə kəfənlənməlidir?

6-. Meyyitin kəfəninin şərtlərini deyin.

[1] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 249
[2] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 250

# 60-CI DƏRS

## *MEYYIT HÖKMLƏRI (2)*

### *MEYYIT NAMAZI*

1– *Müsəlman meyyitə – hətta uşaq da olsa belə – namaz qılmaq vacibdir, amma uşağın altı yaşı tamam olmalı və ata-anası, yaxud onlardan biri müsəlman olmalıdır.[1]

2– Meyyit namazının beş təkbiri vardır və əgər onlar aşağıdakı tərtiblə deyilsə, kifayətdir: Niyyət və birinci təkbirdən sonra deyilməlidir:[2]

اَشهَدُ اَنلا اِلَهَ الاَّالله وَ اَنَّ مُحَمَّدًا رَسُلُالله

Ikinci təkbirdən sonra deyilməlidir:

اَللهُمَّ صَلِّ عَلي مُحَمَّد وَ اَل مُحَمَّد

Üçüncü təkbirdən sonra deyilməlidir:

اَللهُمَّ اغْفِرْلِلْمُؤْمنينَ وَالْمُؤْمنات

Dördüncü təkbirdən sonra əgər meyyit kişidirsə, deyilməlidir:

اَللهُمَّ اغْفِرْلِهَذَا المَيِّت

Əgər qadın olarsa, deyilməlidir:

اَللهُمَّ اغْفِرْلِهَذِه المَيِّت

Və sonra beşinci təkbir deyilməlidir.

Yaxşı olar ki, meyyit namazı "Tovzihul məsail" kitablarında deyilən qayda ilə qılınsın. Amma yuxarıda göstərilən qədər də kifayət edər.

### *MEYYIT NAMAZININ ŞƏRTLƏRI*

❋ Meyyit namazı qürbətən iləllah ilə qılınmalıdır.[3]

❋ Niyyət edərkən meyyit müəyyənləşdirilməlidir. Məsələn "bu meyyitə namaz qılıram, qürbətən iləllah" – deyə niyyət edilməlidir.[1]

❋ Meyyitə namaz qılan şəxs üzü qibləyə durmalıdır. [4]

❋ Meyyitə namaz qılan şəxs ayaq üstə dayanmalıdır. (Namazı oturan yerdə qılmamalıdır). Əgər meyyitə ayaq üstə namaz qıla bilən bir kəs tapılmazsa, oturan halda namaz qılan şəxs ona namaz qıla bilər. [5]

❋ Meyyiti namaz qılanın qarşısında arxası üstə elə uzatmaq lazımdır ki, başı namaz qılanın sağ tərəfində, ayağı isə sol tərəfində olsun.[2]

---

*Sistani: Müsəlman və ya Islam hökmünə tabe olan altı yaşlı uşağın meyyitinə namaz qılmaq vacibdir. T.m, məs.600

[1] Lənkərani. T.m, məs.600

[2] Sistani. T.m, məs.615; Lənkərani. T.m, məs.607

[3] Sistani. T.m, məs.610; Lənkərani. T.m, məs.602

[4] Sistani. T.m, məs.604; Lənkərani. T.m, məs.596

[5] Sistani. T.m, məs.610 və 611; Lənkərani. T.m, məs.602 və 603

❋ Meyyitə namaz qılan şəxsin arasında pərdə, divar və s. kimi şeylər olmamalıdır. Amma əgər meyyit tabut və bu kimi şeylərin içində olsa, eybi yoxdur. 1

❋ Namaz qılan şəxs meyyitdən uzaq olmamalıdır. Amma əgər meyyit namazını camaatla qılan şəxs meyyitdən uzaq olsa və camaat namazının cərgələri bir-birinə bağlansa, eybi yoxdur.2

❋ Namaz qılanın məkanı meyyitin qoyulduğu yerdən alçaq və ya uca olmamalıdır. Amma azacıq alçaq və ya uca olsa, eybi yoxdur.3

❋ Meyyit namazı qüsl, kəfən və hənut işlərindən sonra qılınmalıdır.4

❋ Meyyit namazı qılınan vaxt meyyitin övrəti örtülməlidir.5

### *MEYYIT NAMAZININ HÖKMLƏRI*

1– Meyyit namazının təkbirləri və duaları elə ardıcıl oxunmalıdır ki, namazın forma və şəkli pozulmasın. 6

2– Meyyit namazını camaatla birlikdə qılan şəxs təkbirləri və duaları oxumalıdır.7

3– Meyyit namazı qılmaq istəyən şəxsin dəstəmaz, qüsl, yaxud təyəmmüm alması, bədəninin, yaxud paltarının pak olması lazım deyil. Hətta onun paltarı qəsbi olsa, eybi yoxdur. Amma* ehtiyati-müstəhəbə görə sair namazlarda riayət olunmalı məsələlər bunda da riayət olunsun. 8

### *MEYYIT NAMAZININ MÜSTƏHƏBLƏRI9*

❋ Meyyit namazını qılan şəxs təharətli (dəstəmaz, qüsl və...) olsun;

❋ Əgər meyyit kişidirsə, camaata imamlıq edən, yaxud namazı təklikdə qılan şəxs, cənazənin orta hissəsinin; əgər meyyit qadındırsa, sinəsinin müqabilində dursun;

❋ Ayaqyalın namaz qılsın;

❋ Hər təkbiri deyəndə iki əlini qaldırsın;

❋ Onunla meyyitin arasındakı fasilə çox az olsun, belə ki, əgər külək onun paltarını tərpətsə, cənazəyə toxunsun;

❋ Meyyit namazı camaatla qılınsın;

❋ Meyyit namazına imamət edən şəxs, təkbiri və duaları ucadan, onunla birlikdə namaz qılanlar isə astadan desinlər;

❋ Meyyit namazı camaatla qılınanda, hətta iqtida edən (məmum) bir nəfər olsa da imamın arxasında dayansın;

❋ Namaz qılan şəxs meyyitə və möminlərə çoxlu dua etsin;

❋ Namazdan qabaq üç dəfə "əssəlat" desin;

❋ Namazı elə yerdə qılsın ki, camaat meyyit namazı qılmaq üçün əksərən oraya gedirlər;

---

[1] Sistani. T.m, məs.608; Lənkərani. T.m, məs.600
[2] Sistani. T.m, məs.606; Lənkərani. T.m, məs.598
[3] Sistani. T.m, məs.605; Lənkərani. T.m, məs.597
[4] Sistani. T.m, məs.602; Lənkərani. T.m, məs.594
[5] Sistani. T.m, məs.609; Lənkərani. T.m, məs.601
[6] Sistani. T.m, məs.616; Lənkərani. T.m, məs.608
[7] Sistani. T.m, məs.617; Lənkərani. T.m, məs.609
*Sistani: ... yaxşı olar ki, ...
[8] Sistani. T.m, məs.603; Lənkərani. T.m, məs.595
[9] Sistani. T.m, məs.618; Lənkərani. T.m, məs.610

❋ Haiz qadın camaat namazına dayansa, bir cərgədə tək dayansın.

Meyyit namazını məscidlərdə qılmaq məkruhdur, amma Məscidül-Həramda məkruh deyildir.1

### *DƏFNIN HÖKMLƏRI*

1– Meyyit elə dəfn edilməlidir ki, iyi çölə gəlməsin, vəhşi heyvanlar onun bədənini çölə çıxarda bilməsin.2

2– Meyyiti qəbirdə sağ çiyni üstə elə uzatmalıdırlar ki, bədəninin qabağı üzü qibləyə olsun.3

3– Əgər meyyiti torpaqda dəfn etmək mümkün olmazsa, dəfn etmək yerinə, onu binada və ya tabutda qoymaq olar.4

4– Əgər bir kəs gəmidə ölsə, bu halda cəsədi çürüməzsə və gəmidə qalmasının maneəsi olmazsa, gözləməlidirlər ki, gəmi quruya çatsın və onu torpaqda dəfn etsinlər. Əks halda, gəmidə qüsl verib, hənut-kəfən etməli, namaz qıldıqdan sonra ayağına ağır bir şey bağlayıb dənizə buraxmalı, yaxud onu böyük bir xuma qoyub ağzını bağlamalı, sonra dənizə atmalıdırlar. Mümkün olsa, elə yerdə atsınlar ki, dərhal heyvanlara yem olmasın.5

5– Əgər bir kəs quyuya düşüb ölsə və onu çıxarmaq mümkün olmasa, quyunun ağzını bağlayıb oranı onun üçün qəbir etmək lazımdır.6

Hansı yerlərdə dəfn etmək olmaz

❋ Müsəlmanın kafir, kafirin də müsəlman qəbiristanlığında dəfn edilməsi caiz deyildir.7

❋ Müsəlmanı ehtiramsızlıq olacağı yerlərdə (məsələn, toz-torpaq və zibil tökülən yerlərdə) dəfn etmək caiz deyildir.8

❋ Meyyit qəsbi yerdə dəfn olunmamalıdır.9

❋ Meyyiti başqa işlər üçün vəqf olunan yerlərdə (məsələn, məsciddə və s.) dəfn etmək caiz deyildir.6

❋ Başqa meyyitin qəbrini açıb meyyiti orada dəfn etmək caiz deyildir.10

### *DƏFN VƏ ONUN QAYDALARI*

Dəfn mərasimində iştirak etməyin çoxlu savab və fəziləti vardır. Hədisdə deyilir ki, "Dəfn mərasimində iştirak edən şəxs dəfndən qayıdarkən, onun hər bir addımına bir milyon savab yazılar, bir milyon günahı bağışlanar, onun məqam və dərəcəsi bir milyon dərəcə artar."

Cənazəni dəfn etməyin qayda-qanunları vardır, onlardan bəzilərini burada qeyd edirik:

Müstəhəblər1

---

1 Sistani. T.m, məs.619; Lənkərani. T.m, məs.611
2 Sistani. T.m, məs.620; Lənkərani. T.m, məs.612
3 Sistani. T.m, məs.622; Lənkərani. T.m, məs.614
4 Sistani. T.m, məs.621; Lənkərani. T.m, məs.613
5 Sistani. T.m, məs.623; Lənkərani. T.m, məs.615
6 Sistani. T.m, məs.632; Lənkərani. T.m, məs.624
7 Sistani. T.m, məs.627; Lənkərani. T.m, məs.619
8 Sistani. T.m, məs.628; Lənkərani. T.m, məs.620
9 Sistani. T.m, məs.629; Lənkərani. T.m, məs.621
10 Sistani. T.m, məs.630; Lənkərani. T.m, məs.622

1. Cənazəni apararkən:

"بسم الله و بالله و صلّى الله على محمد وآل محمد. اللّهمّ اغفر للمؤ منين و المؤ منات."

"Bismilləhi və billəhi və səlləllahu ələ Muhəmmədin. Allahumməğfir lil-muminină vəl-muminat" – deyilməsi;

2. Cənazənin maşınla, heyvanla deyil, çiyində aparılması;

3. Iştirak edənlərin xuşu və düşüncəli halda olması;

4. Iştirak edənlərin piyada getməsi;

Heç bir üzürlü səbəb olmadan nəyəsə minmək məkruhdur. Amma qayıdarkən minmək məkruh deyil.

5. Cənazənin kənarı ilə, yaxud arxasıyca getmək; Arxasıyca getmək daha yaxşıdır.

Məkruh olan işlər1

1. Gülmək, oynamaq, boş-boş danışmaq;

2. Sürətlə getmək, xüsusilə də qaçmaq; Yaxşı olar ki, orta səviyyədə nə çox bərk, nə də çox asta yol gedilsin.

Matəm sahibinin vəzifələri

1. Müstəhəbdir ki, insan qohumlarının, xüsusilə də övladının ölümündə səbirli olsun.2

2. Hər vaxt meyyiti yad edəndə,

انّا للّه و إنّا اليه راجعون

"Inna lillahi və inna iləyhi raciun" desin.1

3. Meyyit üçün Quran oxusun, ata-ananın qəbrinin yanında Allahdan hacətlərini istəsin.1

4– Meyyitin vəlisi, yaxud valisinin tərəfindən icazəsi olan bir kəs göstərilmiş duaları meyyitə təlqin etsin.3

5– *Ehtiyati-vacib budur ki, meyyitə ağlayarkən səsi çox ucaltmasınlar.4

6–Insanın bir kəsin ölümündə üzünü, yaxud bədənini cırması,**özünə xəsarət vurması caiz deyildir.5

7– Ata və qardaş ölümü istisna olmaqla, sair şəxslərin ölümündə paltarın yaxasını cırmaq*** caiz deyildir. 6

8– Əgər kişi arvadının, yaxud övladının ölümündə paltarının yaxasını cırsa, yaxud qadın meyyitin matəmində üzünü cırsa və qan gəlsə, yaxud

---

1 Lənkərani. "Haşiyə ələl urvətul vusqa", "müstəhəbbati dəfn" Sistani. "Minhacus salehin", səh.111

2 Sistani. T.m, məs.640; Lənkərani. T.m, məs.632;

3 Sistani. T.m, məs.640; Lənkərani. T.m, məs.630

*Sistani: Ehtiyati-müstəhəb ...

4 Sistani. T.m, məs.644; Lənkərani. T.m, məs.636;

**Sistani: ... saçını yolması ehtiyata əsasən caiz deyil. Amma üzünə, başına vurması caizdir. T.m, məs.641

5 Lənkərani. T.m, məs.633

***Sistani: ... ehtiyati-vacibə əsasən caiz deyil. Ehtiyati-müstəhəbə əsasən ata və qardaşın da ölümündə paltarın yaxasını cırmasın. T.m, məs.642

6 Lənkərani. T.m, məs.634

öz saçlarını yolsa, gərək bir qul azad etsin, yaxud on fəqirə təam versin, yaxud da onları geyimlə təmin etsin. Bu işləri edə bilməsə, üç gün oruc tutmalıdır. Hətta əgər cırdığı yerdən qan gəlməsə də, ehtiyati-vacibə əsasən* buna (kəffarə hökmünə) əməl etsin. 1

Bir neçə şəri suala cavab:

Sual: Bir kənddə müəyyən şəxsin mülkü olmayan və vəqf olmayan bir qəbristan var. Bu kənd camaatı üçün şəhərli ölülərin, yaxud başqa bir kəndin ölülərinin, yaxud da o qəbristanlıqda dəfn olunmasını vəsiyyət edən şəxsin dəfn olunmasına maneçilik törətmələri caizdirmi?

Cavab: Kənddə olan ümumi qəbristanlıq bir kəsin şəxsi mülkü olmazsa, yaxud həmin kənd əhalisi üçün vəqf olunmazsa, o kənd əhalisi başqalarının öz ölülərini orada dəfn etmələrinin qarşısını ala bilməzlər. Hətta əgər bir nəfər orada dəfn olunmasını vəsiyyət etsə, onun vəsiyyətinə əməl etmək vacibdir. 2

Sual: Nə üçün ölünü gecə dəfn etmirlər? Ölünü gecə dəfn etmək haramdırmı?

Cavab: Ölünün gecə dəfn olunmasının heç bir eybi yoxdur. 3

Sual: Bir uşaq quyuya düşüb ölmüşdür. Quyuda olan su da uşağı çıxartmağa mane olur. Onun hökmü nədir?

Cavab: Bu halda meyyit orada qalmalı və quyu onun qəbri olmalıdır. Əgər quyu başqasının mülkü olmasa, yaxud (qeyrisinin mülkü olan halda) onun sahibi quyunun doldurulmasına razı olsa, bu halda quyunu doldurmaq vacibdir.4

[?] Suallar

1- Meyyit namazının necə qılındığını bəyan edin.
2- Meyyit namazının şərtlərini deyin.
3- Meyyit namazının müstəhəblərini deyin.
4- Meyyiti hansı yerlərdə dəfn etmək olmaz?
5- Matəm sahibinin vəzifələrini bəyan edin.

---

* Sistani:... ehtiyati müstəhəbə əsasən... T.m, məs.643

[1] Lənkərani. T.m, məs.635

[2] Xamenei. "Əcvibətül istiftaat", sual 246

[3] Xamenei. "Əcvibətül istiftaat", sual 248

[4] Xamenei. "Əcvibətül istiftaat", sual 254

# 61-CI DƏRS

## *MEYYIT HÖKMLƏRI (3)*

### *DƏFNIN MÜSTƏHƏBLƏRI*

### *QƏBRIN QAZILMASINDA VƏ DƏFN YERININ MÜSTƏHƏBLƏRI:*

1– Qəbrin normal insan boyunda qazılması;1

2– Torpağın bərk yerində qəbr üçün "ləhəd" düzəldilsin, yəni meyyitin eni qədər qəbrin divarından üzü qiblə tərəfə meyyiti qoymaq üçün qazılsın. 2

3– Qəbr dördbucaq şəklində düzəldilsin.3

4– Qəbrin dörd barmaq qədər yerdən hündür edilməsi.3

5– Qəbrin üstünə müəyyən əlamət qoyulsun ki, səhv düşməsin.3

6– Qəbrin tez xarab olmaması üçün onu möhkəm düzəltsinlər.2

7– Meyyitin adı bir daşa,yaxud lövhəyə yazılıb baş tərəfdən qəbrin üzərinə yerləşdirilsin.2

8– Meyyiti ən yaxın qəbristanlıqda dəfn etsinlər. Amma uzaqda olan qəbristan müəyyən cəhətlərə görə yaxşı olsa (məsələn, yaxşı insanlar o qəbristanlıqda dəfn edilirlərsə, yaxud camaat qəbristan əhlinə Fatihə oxumaq üçün oraya daha çox gəlirlərsə) onda oraya aparsınlar. 4

### *DƏFN EDƏRKƏN MÜSTƏHƏB OLAN IŞLƏR*

Müstəhəbdir ki:1

1– Meyyiti qəbrin bir neçə metrliyində yerə qoyub üç dəfəyə, yavaş-yavaş qəbrə yaxınlaşdırsınlar.

2– Meyyit kişidirsə, üçüncü dəfə elə yerə qoysunlar ki, onun başı qəbrin axır tərəfinə düşsün və dördüncü dəfədə başı tərəfindən qəbrə daxil etsinlər; və əgər qadındırsa, üçüncü dəfə qəbrin qiblə tərəfinə qoyub, eninə qəbrə daxil etsinlər. Qəbrə daxil edəndə, qəbrin üstünə bir parça tutsunlar.

3– Cənazəni aramlıqla tabutdan götürüb, qəbrə qoysunlar. Dəfndən qabaq və dəfn zamanı lazım olan duaları oxusunlar. 1

4– Meyyiti ləhədə qoyandan sonra kəfənin düyünlərini açıb üzünü torpağa qoysunlar, başının altında torpaqdan balış kimi düzəltsinlər, arxasına xam kərpic, yaxud kəsək qoysunlar ki, arxaya aşmasın.5

5– Meyyitin qohumlarından başqa orada olan şəxslər əllərinin arxası ilə torpağı qəbrə töküb "Innə lilləhi və innə iləyhi raciun" desinlər.1

---

1 Sistani. T.m, məs.635; Lənkərani. T.m, məs.627

2 Sistani. "Minhacus salehin", c.1, məs.321; Lənkərani. "Haşiyə ələl urvətul vusqa"

3 Sistani. T.m, məs.637; Lənkərani. T.m, məs.629;

4 Sistani. T.m, məs.635; Lənkərani. T.m, məs.627;

5 Sistani. T.m, məs.635; Lənkərani. T.m, məs.627

Iki məsələ:

1– Dəfndən sonra müstəhəbdir ki, matəm sahiblərinə başsağlığı verilsin. Amma əgər müəyyən müddət keçsə və başsağlığı verilməsi səbəbilə baş verən müsibət yadlarına düşərsə, bunu etməmək daha yaxşıdır.2

2– Müstəhəbdir ki, meyyitin ev əhlinə yemək göndərilsin. Onların yanında və mənzillərində yemək yemək məkruhdur. 3

### *MEYYITI QƏBRƏ QOYAN ŞƏXSƏ MÜSTƏHƏB OLAN IŞLƏR3*

❋ Müstəhəbdir ki, meyyiti qəbrə qoyan şəxs təharətli, başı açıq, ayaqyalın olsun.

❋ Meyyitin ayaq tərəfindən qəbirdən çıxsın.

❋ Əgər meyyit qadın olsa, onu məhrəm olanlardan biri qəbrə qoysun. Əgər məhrəmi olmazsa, sair qohumları onu qəbrə qoysun.

Qəbrin açılması

1– Müsəlman qəbrini açmaq – hətta uşaq və ya dəli olsa belə, haramdır.4

Yalnız aşağıdakı hallarda bu haram deyil: 5

❋ Meyyit qüsulsuz dəfn olunsa, yaxud qüslü batil olmuş olsa;

❋ Meyyit kəfənsiz dəfn olunsa, yaxud kəfən düzgün bükülməsə;

❋ Meyyiti qəbirdə üzü qibləyə qoymamış olsalar;

❋ Meyyit qəsbi torpaqda dəfn olunsa və yerin sahibi də onun orada qalmasına razı olmasa;

❋ Meyyitin dəfn olunduğu kəfən, yaxud onunla birlikdə dəfn olunan başqa şeylər qəsbi olsa, sahibi də qəbirdə qalmasına razı olmasa;

❋ Meyyitin varəsələrinə çatacaq bir şey onunla birlikdə dəfn olunsa, varəsələr də o şeyin qəbirdə qalmasına razı olmasalar;

❋ Müəyyən bir haqqı sübut etmək üçün meyyitin bədənini görmək istəsələr;

❋ Meyyiti ehtiramsızlıq olan bir yerdə (məsələn kafirlərin qəbristanlığında, yaxud toz-torpaq, zibil tökülən yerlərdə) dəfn etmiş olsalar;

❋ Əhəmiyyəti qəbrin açılmasından daha çox olan şəri bir mətləb üçün qəbri açsalar (məsələn, diri uşağı ölmüş anasının bətnindən çıxartmaq istəsələr);

❋ Vəhşi heyvanların meyyitin bədənini parçalamısından, sel aparmasından, düşmənlərin çıxartmasından qorxsalar;

❋ Meyyitin bədəni çürüyüb aradan getdikdə və torpağa çevrildikdə.6

Bir neçə şəri suala cavab:

Sual: Bir şəxs bir ərazini ölülərin dəfn edilməsi üçün vəqf etmişdir və oranı müsəlmanların ümumi qəbristanlığına çevirmişdir. Qəbristanlığın

---

[1] Sistani. T.m, məs.636; Lənkərani. T.m, məs.628
[2] Sistani. T.m, məs.639; Lənkərani. T.m, məs.631
[3] Sistani. T.m, məs.636; Lənkərani. T.m, məs.628
[4] Sistani. T.m, məs.648; Lənkərani. T.m, məs.640
[5] Sistani. T.m, məs.650; Lənkərani. T.m, məs.642
[6] Sistani. T.m, məs.648; Lənkərani. T.m, məs.640

müdiriyyətinin ölüləri orada dəfn etmək üçün başqalarından yer pulu alması caizdirmi?

Cavab: Vəqf edilmiş ümumi qəbristanlıqda ölülərin dəfn edilməsi müqabilində heç bir şey tələb edə bilməz. Amma əgər qəbristanlıqda və ölü sahiblərinin ölülərini dəfn etmək üçün başqa xidmətlər göstərilirsə, bunun müqabilində zəhmət haqqı olaraq bir məbləğ istəməyin maneəsi yoxdur. 1

Sual: Insanın həyatda ikən öz mülkiyyətinə keçirməklə qəbr yeri alması caizdirmi?

Cavab: Əgər qəbristanlıq bir başqasının şəri mülkiyyətinə daxildirsə, onu satın almağın heç bir eybi yoxdur. Amma əgər həmin qəbristanlıq möminlərin ölülərinin dəfn edilməsi üçün vəqf edilmiş yerin bir hissəsidirsə, bu halda onu satın almaq və zəbt etmək istər-istəməz başqalarının öz ölülərini orada dəfn etməsinin qarşısını aldığı üçün səhih deyildir. 2

[?] Suallar

1- Dəfn edilmədə müstəhəb işləri bəyan edin.
2- Meyyiti qəbrə qoyan şəxsə müstəhəb olan işlər hansılardır?
3- Hansı hallarda müsəlman qəbrini açmaq olar?
4- Dəfndən sonra müstəhəb olan işlər hansılardır?

[1] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 1011
[2] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 1018

# 62-CI DƏRS

## IRS

لِّلرِّجَالِ نَصيِبٌ مِّمَّا تَرَكَ الْوَالِدَانِ وَالأَقْرَبُونَ وَلِلنِّسَاء نَصِيبٌ مِّمَّا تَرَكَ الْوَالِدَانِ
وَالأَقْرَبُونَ مِمَّا قَلَّ مِنْهُ أَوْ كَثُرَ نَصِيبًا مَّفْرُوضًا

"Ata-anaların və (yaxın) qohumların qoyub getdiyi maldan, kişilərin payı vardır və (habelə) ata-anaların, (yaxın) qohumların qoyub getdiyi maldan qadınların da payı vardır. O mal istər az, istərsə də çox olsun, hər kəsin payı müəyyən edilmişdir."

(Nisa surəsi, ayə 7)

Insanın ölümü ilə onun mal-dövləti başqalarının ixtiyarına keçir. Islam ayrı-ayrılıqda fərdlərin, bütünlükdə isə ictimaiyyətin mənafeyini nəzərə alaraq dünyadan getmiş şəxsin yaxınlarının hər birinin payını təyin etmişdir. Bunun la onlar arasındakı çəkişməyə son qoymuşdur.

### *IRS ÇATAN ŞƏXSLƏR*

Qohumluğa görə irs çatan şəxslər üç dəstədən ibarətdir: [1]

- ***Birinci dəstə***
  - 1- Ata və ana
  - 2- Övladlar
- ***İkinci dəstə***
  - 1- Baba və nənə
  - 2- Bacı və qardaş
- ***Üçüncü dəstə***
  - 1- Əmi və bibi
  - 2- Dayı və xala

Birinci dəstənin varisləri və onların irs məsələləri

| | VARIS | IRS PAYI |
|---|---|---|
| | ƏGƏR MEYYITIN VARISI TƏKCƏ BIR NƏFƏR OLSA (MƏSƏLƏN ATASI, YAXUD ANASI, YAXUD BIR QIZI VƏ YA BIR OĞLU OLSA) | MALIN HAMISI HƏMIN BIR NƏFƏRƏ ÇATIR.[2] |
| | ƏGƏR BIR NEÇƏ OĞLU OLSA | MALIN HAMISI ONLARIN ARASINDA BƏRABƏR ŞƏKILDƏ BÖLÜNÜR.[1] |
| | ƏGƏR YALNIZ BIR NEÇƏ QIZI OLSA | MALIN HAMISI ONLARIN ARASINDA BƏRABƏR ŞƏKILDƏ BÖLÜNÜR.[1] |
| | YALNIZ BIR OĞLU VƏ | MAL ÜÇ YERƏ |

[1] Sistani. T.m, məs.2737; Lənkərani. T.m, məs.2804;
[2] Sistani. T.m, məs.2740; Lənkərani. T.m, məs.2807;

| | VARIS | IRS PAYI |
|---|---|---|
| | BIR QIZI OLSA | BÖLÜNMƏLIDIR, IKI HISSƏSI OĞLANA, BIR HISSƏSI QIZA VERILMƏLIDIR.1 |
| | BIR NEÇƏ OĞLU VƏ BIR NEÇƏ QIZI OLSA | MAL ELƏ BÖLÜNMƏLIDIR KI, OĞLANIN HƏR BIRINƏ QIZDAN IKI QAT ARTIQ IRS ÇATSIN.1 |
| | ƏGƏR VARISIN TƏKCƏ ATASI VƏ ANASI OLSA | MAL ÜÇ YERƏ BÖLÜNMƏLIDIR, IKI HISSƏSI ATASINA, BIR HISSƏSI ANASINA VERILMƏLIDIR.1 |
| | ƏGƏR DÜNYADAN GEDƏN ŞƏXSIN IKI QARDAŞI, YAXUD DÖRD BACISI, YAXUD BIR QARDAŞI VƏ IKI BACISI OLSA VƏ BUNLARIN HAMISI DÜNYADAN GEDƏN ŞƏXSLƏ ATA TƏRƏFDƏN DOĞMA OLSALAR* | DÜNYADAN GEDƏN ŞƏXSIN ATA-ANASI SAĞ OLAN VAXT ONLARA IRS ÇATMAZ. ONLARIN MÖVCUDLUĞU ILƏ ANAYA MALIN YALNIZ 1/6 HISSƏSI, ATAYA YERDƏ QALANI ÇATAR.2 |
| | ƏGƏR MEYYITIN VARISI TƏKCƏ ATASI, ANASI VƏ BIR QIZI OLSA, BU HALDA DÜNYADAN GETMIŞ ŞƏXSIN DÖRD BACISI, YAXUD IKI QARDAŞI, YAXUD BIR QARDAŞI VƏ IKI BACISI OLMAZSA | MALI BEŞ YERƏ BÖLMƏLIDIRLƏR, ATA VƏ ANANIN HƏR BIRINƏ BIR PAY, QIZA ISƏ ÜÇ PAY ÇATIR.2 |
| | ƏGƏR MEYYITIN VARISI ATASI, ANASI, BIR QIZI VƏ BUNDAN ƏLAVƏ ATA TƏRƏFDƏN IKI QARDAŞ, YAXUD DÖRD BACI VƏ YA BIR QARDAŞ VƏ IKI BACISI OLSA** | MALI ALTI YERƏ BÖLMƏLIDIRLƏR: ATA VƏ ANA HƏR BIRI BIR PAY, QIZA ISƏ ÜÇ PAY ÇATIR.***YERDƏ QALAN BIR PAY ISƏ DÖRD YERƏ BÖLÜNMƏLIDIR VƏ BIR HISSƏ ATAYA, ÜÇ HISSƏ QIZA VERILMƏLIDIR.3 |

[1] Sistani. T.m, məs.2741; Lənkərani. T.m, məs.2808

*Sistani: ... müsəlman və azad olsalar ...

[2] Sistani. T.m, məs.2742; Lənkərani. T.m, məs.2809;

*Sistani: ... onların hamısı müsəlman, azad və bir atadan olsalar, yəni onların atası meyyitin atası ilə bir olsa, istər onların anası meyyitin anası ilə bir olsun, ya olmasın, gərək hər biri dünyaya gəlmiş olsun. T.m, məs.2741

**Sistani: ... malın yerdə qalan 1/30-nin ananın payı olduğu ehtimal edilir. Eyni zamanda həmin payın 3/4-ü qızın, 1/4-i atanın payı olduğu ehtimal edilir. Ehtiyati-vacibə əsasən öz aralarında razılaşsınlar. T.m, məs.2742

[1] Sistani. T.m, məs.2742; Lənkərani. T.m, məs.2809

| | VARIS | IRS PAYI |
|---|---|---|
| 0 | ƏGƏR MEYYITIN VARISI ATA-ANASI VƏ BIR OĞLU OL-SA | MALI ALTI YERƏ BÖLMƏLIDIRLƏR: ATA VƏ ANANIN HƏR BIRINƏ BIR PAY, OĞLANA ISƏ DÖRD PAY ÇATIR.1 |
| 1 | ƏGƏR MEYYITIN VARISI ATA-ANASI VƏ ÖVLADLARI OLSA; ÖVLADLARIN DA HAMISI OĞLAN, YAXUD HAMISI QIZ OLARSA | ATA VƏ ANANIN HƏR BIRINƏ BIR PAY ÇATIR, YERDƏ QALAN DÖRD PAY ÖVLADLAR ARASINDA BƏRABƏR ŞƏKILDƏ BÖLÜNÜR.2 |
| 2 | MEYYITIN VARISI ATA-ANASI, QIZI VƏ OĞLU OLSA | ATA-ANANIN HƏR BIRINƏ BIR PAY ÇATIR, YERDƏ QALAN DÖRD PAY ELƏ BÖLÜNMƏLIDIR KI, OĞLANA QIZDAN IKI QAT ARTIQ IRS ÇATSIN.2 |
| 3 | ƏGƏR DÜNYADAN GEDƏN ŞƏXSIN TƏKCƏ ATASI VƏ BIR QIZI, YAXUD ANASI VƏ BIR QIZI OLSA | MIRAS DÖRD YERƏ BÖLÜNMƏLIDIR, BIR HISSƏ ATA VƏ ANAYA, YERDƏ QALANI ISƏ QIZA ÇATIR.2 |
| 4 | ƏGƏR DÜNYADAN GEDƏN ŞƏXSIN TƏKCƏ ATASI VƏ BIR NEÇƏ QIZI, YAXUD ANASI VƏ BIR NEÇƏ QIZI OLSA | MIRAS BEŞ YERƏ BÖLÜNMƏLIDIR,BIR HISSƏ ATA VƏ ANAYA ÇATIR, DÖRD HISSƏSI ISƏ QIZLARI ARASINDA BƏRABƏR ŞƏKILDƏ BÖLÜNMƏLIDIR.3 |
| 5 | ƏGƏR DÜNYADAN GEDƏN ŞƏXSIN ÖVLADLARI ÖLMÜŞ OLSA | OĞLUNA ÇATAN PAY OĞLUNUN ÖVLADLARINA, QIZINA ÇATAN PAY QIZININ ÖVLADLARINA DÜŞÜR.4 |

### *IRSIN MÜXTƏLIF MƏSƏLƏLƏRI*

1– Meyyitin Quranı, üzüyü, qılıncı və geydiyi, yaxud geymək üçün alıb tikdiyi paltarı – hətta geyməsə də böyük oğlunundur.5

2– Əgər meyyit borclu olsa və borcu malı qədərində, yaxud ondan çox olsa, əvvəlki məsələdə deyilən böyük oğula məxsus olan dörd şeyi onun borcuna verməlidirlər. Əgər borcu malından az olsa, ehtiyati-vacibə görə böyük oğula çatmalı olan dörd şeydən, onlara uyğun olaraq borcu verməlidir. Məsələn, əgər meyyitin bütün malının dəyəri altmış manat, böyük oğula çatmalı olan şeylərin dəyəri iyirmi manat, borcu isə otuz manat olsa, ehtiyati-vacibə görə böyük oğul o dörd şeydən on manat dəyərində meyyitin borcuna verməlidir.6

---

[1] Sistani. T.m, məs.2743; Lənkərani. T.m, məs.2810
[2] Sistani. T.m, məs.2746; Lənkərani. T.m, məs.2813
[3] Sistani. T.m, məs.2747; Lənkərani. T.m, məs.2814
[4] Sistani. T.m, məs.2748; Lənkərani. T.m, məs.2815
[5] Sistani. T.m, məs.2783; Lənkərani. T.m, məs.2855
[6] Sistani. T.m, məs.2785; Lənkərani. T.m, məs.2858

3– Əgər bir kəs öz qohumlarından birini qəsdən və nahaq yerə qətlə yetirsə, ondan irs aparmaz.[1]

***ƏR VƏ ARVADIN IRSI*** [2] [3]

***Əri ölsə***[4]
- 1- ***Dünyadan gedənin övladı olmasa*** ⇨ 1/4-i arvadına, 3/4-ü başqa varislərə çatır.
- 2- ***Dünyadan gedənin övladı olsa*** ⇨ 1/8-i arvadına, 7/8-si başqa varislərə çatır.

***Arvadı ölsə***[5]
- 1- ***Övladı olmasa*** ⇨ 1/2-i ərinə, 1/2-i isə başqa varislərə çatar.
- 2- ***Övladı olsa*** ⇨ 1/4-i ərinə, 3/4-ü isə başqa varislərə çatar.

[?] Suallar

1- Irs çatan şəxslər neçə hissəyə bölünür və kimlərdir?

2- Əgər meyyitin varisi ata-anası və bir oğlu olsa, onların payı necə bölünməlidir?

3- Əgər meyyitin borcu olarsa, o borc necə ödənməlidir?

4- Əgər ər dünyadan gedərsə, qadına nə qədər irs çatar?

5- Əgər arvad dünyadan gedərsə, kişiyə nə qədər irs çatar?

[1] Sistani. T.m, məs.2787; Lənkərani. T.m, məs.2859

[2] Sistani. T.m, məs.2774; Lənkərani. T.m, məs.2846

[3] Sistani. T.m, məs.2773; Lənkərani. T.m, məs.2845

# 63-CÜ DƏRS

## BƏZI GÜNAHLARIN HÖKMLƏRI

### Qəsb

Qəsb – insanın nahaqdan və zülm üzündən başqasının malını, yaxud hüququnu mənimsəməsinə deyilir.

Qəsb böyük günahlardandır. Qəsbkar qiyamət günü ağır əzabla üzləşəcək.[1] [2]

**Qəsbin hökmləri**

- malın qəsbi
  - *şəxsi*; evdən, yaxud mağazadan nəisə oğurlamaq kimi
  - *ümumi*; idarədən nəisə oğurlamaq, yaxud xums və zəkat ödəməmək kimi
- hüququn qəsbi[2]
  - *şəxsi*; məsciddə başqasının yerini tutub orada namaz qılmaq kimi
  - *ümumi*; camaatın məsciddən, körpüdən, yaxud küçədən keçməsinin qarşısını almaq kimi

### Qəsbin hökmləri

1– Qəsbin bütün növləri haramdır və böyük günahlardan sayılır.[3]

2– Əgər insan bir şeyi qəsb etsə, haram iş görməkdən əlavə, onu sahibinə qaytarması da vacibdir. Əgər həmin mal tələf olsa, onun əvəzini verməlidir.[4]

3– Əgər qəsb olunmuş malı dəyişib əvvəlkindən daha yaxşı bir şəklə salsa, (məsələn, qəsb olunmuş qızıldan sırğa düzəltsə) mal sahibi də malını həmin şəkildə istəsə, malını ona qaytarmalıdır. Çəkdiyi zəhmət üçün mal sahibindən muzd ala bilməz. Eyni zamanda həmin malı sahibinin icazəsi olmadan əvvəlki vəziyyətə qaytarmağa da haqqı yoxdur.[5]

### Yalan

1– Yalan danışmaq haram işlərdən və böyük günahlardan sayılır.

2– Çox mühüm bir iş üçün məsələn, bir nəfərin öldürülməsinin, yaxud ailənin dağılmasının qarşısını almaq üçün yalan danışmağın eybi yoxdur.

---

[1] Sistani. T.m, "Qəsbin hökmləri"; Lənkərani. T.m, "Qəsbin hökmləri";
[2] Sistani. T.m, məs.2554; Lənkərani. T.m, məs.2612;
[3] Sistani. T.m, "Qəsbin hökmləri"; Lənkərani. T.m, "Qəsbin hökmləri"
[4] Sistani. T.m, məs.2557; Lənkərani. T.m, məs.2615
[5] Sistani. T.m, məs.2563; Lənkərani. T.m, məs.2621

### *QEYBƏT*

Bir nəfərin xoşagəlməz bir işini, ya xüsusiyyətini, başqalarının bilməsini istəmədiyi halda, onun arxasıyca danışmaq qeybətdir.

1–Qeybət həm danışana, həm də eşidənə haramdır.

2– Əgər bir nəfər başqa birisinin qeybətini etdikdən sonra peşman olub tövbə etsə, haqqında qeybət etdiyi şəxsin özünə bu haqda deməsi lazım deyil.

### *ĞINA*

*Ğina boğazda qaynadılan (camaat arasında "cəh-cəhə" adlandırılan), eyş-işrət məclislərində işlədilən və mütrib• olan səsə deyilir.1

1– Qadınların qadınlar arasında ğina şəklində oxuması caiz deyil. Yalnız toy gecəsində qadınların qadınlar arasında ğina ilə oxuması istisnadır. Bu şərtlə ki, naməhrəm onların səsini eşitməsin. Ehtiyati-müstəhəb bu işi görməməkdir.2

### *MUSIQI*

1– Eyş-işrət məclislərinə münasib mütrib musiqi çalmaq və ona qulaq asmaq həm qadınlar, həm də kişilər üçün caiz deyil.3

Mütrib musiqi nədir?

Mütrib musiqi eyş-işrət məclislərinə uyğun olan musiqiyə deyilir.4

Sual: Əgər musiqi insana heç cür təsir qoymazsa, belə musiqiyə qulaq asmağın hökmü nədir?

Cavab: Musiqinin haram olub-olmamağında meyyar onun ürf (camaatın nəzərində) mütrib olub-olmamağıdır, istər bir şəxsə təsir etsin, istər etməsin.5

---

*Sistani: Ğina eyş-işrət məclislərində işlədilən və mütrib olan səsdən ibarətdir. "Minhacus-salehin", c.2, "məkasibul-muhərrəmə", məs.20

•Mütrib – insanı adi vəziyyətdən çıxardan səsə deyilir.

[1] Lənkərani. "Cameul məsail", c.1, sual 978, 1007

[2] Lənkərani. "Cameul məsail", c.1, sual 997
Sistani. "Minhacus salehin", "məkasibul-muhərrəmə", məs.20

[3] Lənkərani. "Cameul məsail", c.1, sual 978-988;
Sistani. "Minhacus salehin", c.2, "məkasibul muhərrəmə", məs.20

[4](Lənkərani, Sistani) – Seyyid Məsud Məsumi "Əhkame rəvabete zəno mərd", sual 297

[5] (Lənkərani, Sistani) – Seyyid Məsud Məsumi "Əhkame rəvabete zəno mərd", sual 303

[5] Lənkərani. "Cameul məsail", sual 998, 999; Sistani. "Minhacus salehin", məs.20

| | | |
|---|---|---|
| **Musiqi və ya səs**[5] | 1-**Mütrib olması məlum olsa** ⇨ | **haramdır** |
| | 2-**Mütrib olmaması məlumdursa** ⇨ | **caizdir** |
| | 3-**Mütrib olmaması məlum deyilsə** ⇨ | **caizdir** |

1– Hərbi marşları və əzadarlıq musiqilərini və ümumiyyətlə mütrib olmayan hər növ musiqini çalmağın və ona qulaq asmağın işkalı yoxdur.[1]

### *Rəqs*

Ehtiyati-vacib mütləq surətdə rəqsi tərk etməkdir. Yalnız qadının əri üçün rəqs etməsi istisnadır, bu şərtlə ki, rəqs etmə başqa bir haramla birlikdə olmasın.*2

### *Üzü qırxmaq*

Sual: Üzü ülgüclə qırxmağın hökmü nədir?

Cavab: Üzü qırxmaq ehtiyati-vacibə görə haramdır.**3

### *Qumar*

Sual: Kart, nərd və başqa qumar alətləri ilə udub-uduzmaq niyyəti olmadan, yalnız oyun məqsədilə oynamağın hökmü nədir?

Cavab: ***Caiz deyil.4

---

[1] (Lənkərani, Sistani) – Seyyid Məsud Məsumi "Əhkame rəvabete zəno mərd", sual 302

*Qeyd olunmalıdır ki, rəqs barədə Ayətullahul-Üzma Lənkəraninin hökmü dəyişilmişdir. Yuxarıda qeyd olunan rəqs barədə yeni hökmüdür. (Seyyid Məsud Məsumi) "Əhkame rəvabete zəno mərd", səh.214

[2] (Lənkərani) - Seyyid Məsud Məsumi "Əhkame rəvabete zəno mərd", sual 284

** Sistani: ... əgər üzü qırxmamaq şəxs üçün dözülməz olsa (məsələn onun məsxərəyə qoyulmasına, yaxud pis istehza olmasına səbəb olarsa), işkalı yoxdur. "Minhacus-salehin", "məkasibul muhərrəmə", məs.26

[3] Lənkərani. "Istiftaat", sual 955

***Sistani: Nərd, şahmat haramdır. Yerdə qalan qumar alətləri ilə oynamaq ehtiyati-vacibə əsasən caiz deyil. "Minhacus-salehin", c.2, "Məkasibul muhərrəmə", məs.22

[4] (Lənkərani), Seyyid Məsud Məsumi. "Əhkame rəvabete zəno mərd", məs.342

**Oyun**[1]

- 1- ***Qumar aləti ilə olarsa****[*] ⇨ İstər udub-uduzmaq olsun, istər olmasın ⇨ **haramdır**
- 2-***Qumar aləti sayılmayan bir şeylə olarsa***
  - Udub-uduzmaq olmasa ⇨ caizdir
  - Udub-uduzmaq olsa ⇨ haramdır

***1

### *HAMILƏLIYIN QARŞISINI ALMAQ*

Qadın və kişinin razılığı ilə** hamiləliyin qarşısını almaq caizdir. Amma bu iş qadının övrətinə baxmağa səbəb olarsa caiz deyil,*** hətta bu işi qadın həkimi görsə belə.22

### *UŞAQ SALMAQ*

1– Ruh daxil olduqdan sonra uşaq salmaq heç bir halda heç cür caiz deyildir. Bu iş ruh daxil olmamışdan əvvəl də caiz deyil. **** Yalnız əgər onun qalmağı ilə ananın həyatı təhlükədə olarsa və yaxud hamiləliyin davam etməsi ana üçün dözülməz xəstəliyə səbəb olarsa və seçim qarşısında (ana və ya uşağın həyatını xilas etmək) qaldıqda ruh daxil olmamışdan əvvəl uşaq salmağın maneəsi yoxdur.3

2– Əgər qadın özü uşağı salmaq üçün hər hansı bir işi görsə və uşaq düşsə, günah etmişdir və dərhal tövbə etməlidir.4 Və deyiləcək miqdara uyğun olaraq diyəni uşağın atasına** ödəməsi vacibdir. 5

3– Əgər uşağın düşməsinə ata bais olsa, onda ona vacibdir ki, anaya diyə ödəsin.3

---

*Sistani: Ehtiyata əsasən udub-uduzmaq olmasa belə, haramdır.

[1]Lənkərani. "Istiftaat", sual 952 və 953, Sistani "Minahcus salehin", c 2, məs. 22.

**Sistani: Qadının hamiləliyinin qarşısını alan dərmanlardan istifadə etməsi, istər ərinin razılığı olsun, istər olmasın, caizdir. Bu şərtlə ki, ona mühüm zərər yetirməsin. T.m, "mulhəqat", məs.70

***Sistani: ... bu işi ərindən başqasının etməsi caiz deyil. Amma naçarlıq haləti (məsələn, uşağın olmasının qadına zərəri olsa) istisnadır. Bu yalnız o haldadır ki, nütfə birləşdikdən sonra hamiləliyin qarşısını alan alətin onu məhv etdiyi məlum olmasın. Əks halda bu iş tərk olunmalıdır. T.m, "mulhə-qat", məs.71

[2] Lənkərani "Cameul məsail", sual 1748

*** *Sistani: ... hamiləliyin davam etməsinin ananın canına zərər vurma qorxusu varsa, ruh daxil olmamışdan əvvəl uşağı salmaq caizdir. T.m, "Mulhəqat", məs.73

[3] Lənkərani "Cameul məsail", sual 1752

[4] Lənkərani "Cameul məsail", məs.1952 və 1947

*Sistani... atasına və ya başqa varislərə ödəməlidir. T.m, "mulhəqat", məs.73

[5] Sistani. T.m, "mulhəqat", məs.73; Lənkərani "Cameul məsail", məs.1973

4– Əgər həkim uşağı salmağa vasitə olsa, onda həkim diyə ödəməlidir.3

5– Varislər diyəni bağışlaya da bilərlər.3

*UŞAQ SALMAĞIN DIYƏSI*[1]

- ***Nütfə olduğu müddətdə diyəsi*** ⇒ 20 şəri misqal sikkəli qızıl (hər misqal 18 noxud)
- ***Ələqə (qan laxtası) olduğu müddətdə diyəsi*** ⇒ 40 şəri misqal
- ***Muzğə (ət parçası) olduğu müddətdə diyəsi*** ⇒ 60 şəri misqal
- ***Sümük olduğu müddətdə*** ⇒ 80 şəri misqal
- ***Sümüyə ət gəldikdən sonra*** ⇒ 100 şəri misqal
- ***Ruh daxil olduqdan sonra***
  - Oğlan olsa ⇒ 1000 şəri misqal
  - Qız olsa ⇒ 500 şəri misqal

Bir neçə şəri suala cavab:

Sual: Qadınların qadınlar arasında, həmçinin naməhrəm kişilər arasında cəm halında oxumasının hökmü nədir?

Cavab: Əgər ğina şəklində olmasa və fəsad törədən olmasa, işkalı yoxdur. 2

Sual: Rəqs etmək caizdirmi?

Cavab: Əgər rəqs şəhvət gətirici və ya hər hansı bir başqa günaha səbəb olarsa, haramdır. 3

Sual: Saqqalın son həddi nə qədər olmalıdır?

Cavab: Ürfən (camaat arasında) saqqal deyiləcək həddə olsa, kifayətdir.4

Sual: Üzü qırxmağın müqabilində zəhmət haqqı almağın hökmü nədir?

Cavab: Üzü qırxmağın müqabilində zəhmət haqqı almaq ehtiyati-vacibə əsasən haramdır. 5

---

[1] Lənkərani "Cameul məsail", məs.1946;

[2] (Xamenei) – Seyyid Məsud Məsumi "Əhkame rəvabete zəno mərd", sual 322

[3] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 78

[4] (Xamenei) – Seyyid Məsud Məsumi "Əhkame rəvabete zəno mərd", sual 336

[5] Xamenei. "Əcvibətül istiftaat", c.2, sual 330

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR


١–قرآن كريم

٢–تحرير الوسيلة، امام الخميني

٣–العروة الوثقي، سيّد محمدّ كاظم يزدي

٤–توضيح المسائل مراجع، سيّد محمد حسن بني هاشمي خميني، دفتر انتشارات اسلامي، ١٣٧٦

٥–اجوبة الاستفتاءات، آية الله العظمي سيّد علي الحسيني الخميني، دار الحقّ، ١٩٩٦ م

٦–توضيح المسائل، حضرت آية الله العظمي، آقاي حاج شيخ محمد فاضل لنكراني، هاتف، ١٣٧٦

٧–توضيح المسائل، حضرت آية الله العظمي آقاي حاج سيّد علي حسيني سيستاني، قم، سرور، ١٤١٨–ه.ق

٨–آموزش فقه، محمد حسين فلاح زاده، الهادي، ١٣٨١– ه.ش

٩–رساله آموزشي، رضا قربانيان،دفتر انتشارات اسلامي، ١٣٧٦–ه.ش

١٠–جامع المسائل، حضرت آية الله العظمي آقاي حاج شيخ محمد فاضل لنكراني، مهر، ١٣٧٥

١١–منهاج الصّالحين، السّيد علي الحسيني سيستاني، مهر–١٤١٧–ه

١٢–مناسك حج مطابق با فتواي امام خميني با حواشي مراجع، مشعر، ١٣٨٠

١٣–احكام خانواده، عبد الرّحيم موگهي، دفتر تبليغات اسلامي،قم، ١٣٧٧ روابط زن و مرد

## *MÜNDƏRICAT*


**MÜQƏDDIMƏ** .......... **5**
**1-CI DƏRS** .......... **13**
*Hökmləri əldə etməyin yolları* .......... *14*
*Möhtat* .......... *15*
*Təqlid* .......... *15*
**2-CI DƏRS** .......... **17**
ICTIHAD VƏ TƏQLID .......... 17
*Ələm müctəhidi tanımağın yolları* .......... *17*
*Müctəhidin fətvasını əldə etməyin yolları:* .......... *17*
*Mükəlləf* .......... *19*
**3-CÜ DƏRS** .......... **21**
TƏHARƏT (1) .......... 21
*Qanın hökmləri* .......... *22*
*Murdar* .......... *23*
*Dərilərdən hazırlanmış əşyaların hökmü* .......... *24*
**4-CÜ DƏRS** .......... **27**
TƏHARƏT (2) .......... 27
*Şərab* .......... *27*
*Kafir* .......... *27*
*Kafirin hökmləri* .......... *28*
*Pivə* .......... *28*
**5-CI DƏRS** .......... **31**
MÜTTƏHIRAT (PAKLAYICILAR) .......... 31
*Paklayıcılar 10-dur:* .......... *31*
*Sular* .......... *31*
*Muzaf su* .......... *32*
*Mütləq su* .......... *32*
*Rakid su* .......... *32*
*Kürr suyun miqdarı* .......... *32*
*Yağış suyunun bəzi xüsusiyyətləri* .......... *33*
*Qəlil (az) su* .......... *34*
**6-CI DƏRS** .......... **36**
TƏXƏLLININ HÖKMLƏRI .......... 36
(AYAQ YOLUNA GETMƏYIN HÖKMLƏRI) .......... 36
*Bövl və ğaitin məxrəcinin paklanması:* .......... *37*
*Nəcis şeyin paklanması:* .......... *38*
*Nəcis qabın paklanması* .......... *40*
**7-CI DƏRS** .......... **41**
NƏCIS YERIN PAKLANMASI .......... 41
*Nəcis suyun paklanması* .......... *42*
*Yer* .......... *42*
*Günəş* .......... *43*
*Istihalə* .......... *43*
**8-CI DƏRS** .......... **45**
INTIQAL .......... 45
*Islam* .......... *45*
*Təbəiyyət* .......... *45*

*Eyni – nəcasətin aradan qalxması* ........ *46*
*Nəcasət yeyən heyvanın istibrası.* ........ *46*
*Müsəlmanın qaib olması* ........ *46*
**9-CU DƏRS** ........ **48**
DƏSTƏMAZ ........ 48
*Dəstəmazın işlərinin izahı* ........ *49*
Yumaq ........ 49
Başın məshi. ........ 50
Ayağın məshi ........ 50
*Irtimasi dəstəmaz.* ........ *51*
**10-CU DƏRS** ........ **53**
DƏSTƏMAZIN ŞƏRTLƏRI ........ 53
*Dəstəmaz suyunun və qabının şərtləri:* ........ *53*
*Dəstəmaz üzvlərinin şərtləri.* ........ *54*
*Dəstəmaz almağın şərtləri* ........ *54*
Tərtib ........ 54
Muvalat ........ 55
Başqalarından kömək almamaq ........ 55
Dəstəmaz alanın şərtləri ........ 56
Dəstəmaz qürbət-qəsdi ilə alınmalıdır. ........ 56
**11-CI DƏRS** ........ **58**
CƏBIRƏ DƏSTƏMAZI ........ 58
*Cəbirə dəstəmazının hökmləril* ........ *58*
*Dəstəmazda şəkk1* ........ *61*
**12-CI DƏRS** ........ **64**
DƏSTƏMAZIN HÖKMLƏRI ........ 64
QÜSL ........ 65
*Cənabət qüsulu* ........ *65*
**13-CÜ DƏRS** ........ **68**
QÜSL ETMƏYIN QAYDASI ........ 68
**14-CÜ DƏRS** ........ **73**
QADINLARA MƏXSUS QÜSLLƏR ........ 73
*Heyz qüsulu. (Adət)* ........ *73*
*Heyz qanının şərtləri* ........ *73*
**15-CI DƏRS** ........ **78**
HAIZ QADINLARIN NÖVLƏRI ........ 78
*Vəqtiyyə və ədədiyyə adət sahibi olan qadın* ........ *79*
*Ədədiyyə adəti olan qadın* ........ *81*
*Mübtədiə olan qadın* ........ *83*
*Nasiyə** ........ *84*
**16-CI DƏRS** ........ **85**
HAIZ QADINA HARAM OLAN IŞLƏR ........ 85
NIFAS ........ 87
**17-CI DƏRS** ........ **90**
ISTIHAZƏ ........ 90
*Istihazənin hökmləri* ........ *91*
**18-CI DƏRS** ........ **94**
TƏYƏMMÜM (1) ........ 94
**19-CU DƏRS** ........ **96**
TƏYƏMMÜM (2) ........ 96
**20-CI DƏRS** ........ **99**
NAMAZIN VAXTI ........ 99
*Namaz vaxtının hökmləri* ........ *102*
*Gündəlik namazların fəzilət vaxtı.* ........ *102*
**21-CI DƏRS** ........ **105**

QIBLƏ ..... 105
*Qibləni təyin etməyin yolları* ..... *106*
*Qibləni bilməyən şəxsin vəzifəsi.* ..... *106*
*Namaz qılanın paltarı* ..... *106*
*Namaz qılanın paltarının şərtləri* ..... *107*
*Namaz qılanın paltarının hökmləri* ..... *107*
*Bədən və paltarın pak olmasının hökmləri* ..... *108*
*Ümumi qanun* ..... *109*
**22-CI DƏRS ..... 111**
NAMAZ QILANIN MƏKANI ..... 111
*Namaz qılanın məkanının hökmləri:* ..... *111*
*Məscidin hökmləri* ..... *112*
*Namaz qılmağın məkruh olduğu yerlər* ..... *113*
*Məscidin hökmləri* ..... *113*
*Məsciddə aşağıdakı işlər müstəhəbdir* ..... *114*
**23-CÜ DƏRS ..... 116**
AZAN, IQAMƏ VƏ NAMAZIN VACIBATI ..... 116
*Ümumi qanun* ..... *116*
*Namazın vacibatı.* ..... *116*
*Rükn və qeyri rüknün fərqi.* ..... *117*
*Namazın vacibatının əhkamı* ..... *118*
NIYYƏT ..... 118
TƏKBIRƏTÜL – EHRAM ..... 119
QIYAM ..... 119
**24-CÜ DƏRS ..... 122**
QIRAƏT ..... 122
*Həmd və Surə ilə təsbihati-ərbəənin yerini dəyişmək* ..... *123*
*Rüku* ..... *124*
*Rükunun zikri* ..... *124*
*Bədənin rükuda aram olması* ..... *124*
*Rükudan sonra qalxıb dayanmaq və bədənin aram olması* ..... *125*
*Rükunu unutmaq* ..... *125*
*Bədənin aramlığı* ..... *125*
*Başı səcdədən qaldırmaq* ..... *126*
*Səcdə yerlərinin bərabər olmağı* ..... *126*
**25-CI DƏRS ..... 129**
SƏCDƏ ETMƏYIN SƏHIH OLDUĞU ŞEYLƏR ..... 129
*Səcdənin hökmləri* ..... *131*
*Quranın vacib səcdəsi* ..... *132*
*Təşəhhüd* ..... *132*
*Namazın salamı* ..... *133*
*Tərtib* ..... *133*
*Muvalat* ..... *134*
*Qunut* ..... *134*
**26-CI DƏRS ..... 136**
NAMAZIN TƏRCÜMƏSI ..... 136
NAMAZIN TƏQIBATI ..... 138
MUBTILATI NAMAZ ..... 138
*Namazı batil edənlər bunlardır:* ..... *138*
**27-CI DƏRS ..... 141**
NAMAZIN ŞƏKKIYATI (1) ..... 141
*1- Namazı batil edən şəkklər* ..... *141*
*2- Etina olunmayan şəkklər* ..... *141*
*1. Yeri keçən əməllərdə şəkk* ..... *142*

*2. Salamdan sonrakı şəkk* ..... *142*
*4. Kəsirüş-şəkk* ..... *143*
*5. Imam və məmumun şəkki* ..... *143*
*6. Müstəhəb namazda şəkk* ..... *144*
**28-CI DƏRS** ..... **146**
NAMAZIN ŞƏKKIYATI (2) ..... 146
*3. Səhih olan şəkklər.* ..... *146*
EHTIYAT NAMAZI ..... 147
SƏCDEYI-SƏHV ..... 148
*Səcdeyi-səhvin qaydası* ..... *148*
*Unudulmuş səcdə və təşəhhüdün qəzası* ..... *149*
**29-CU DƏRS** ..... **151**
MÜSAFIR NAMAZI ..... 151
**30-CU DƏRS** ..... **156**
MÜSAFIR VƏ QƏZA NAMAZI ..... 156
*On gün qalmaq niyyəti* ..... *156*
*Səfər edən şəxs namazı bütöv qılsa:* ..... *157*
*Qəza namazı* ..... *157*
*Ata-ananın böyük oğula vacib olan qəza namazı* ..... *158*
**31-CI DƏRS** ..... **161**
CAMAAT NAMAZI (1) ..... 161
*Camaat namazının əhəmiyyəti* ..... *161*
*Camaat namazının şərtləri* ..... *161*
**32-CI DƏRS** ..... **165**
CAMAAT NAMAZI (2) ..... 165
*Camaat namazına qoşulmağın(iqtida etməyin) müxtəlif halətləri* ..... *165*
*Camaat namazında məmumun vəzifəsi* ..... *166*
**33-CÜ DƏRS** ..... **169**
CÜMƏ NAMAZI, AYƏT NAMAZI ..... 169
*Cümə namazının qılınma qaydası* ..... *169*
*Cümə namazının şərtləri* ..... *169*
*Imam cümənin xütbələri oxuyarkən vəzifəsi:* ..... *170*
*Cümə namazı qılan şəxslərin vəzifəsi* ..... *170*
AYƏT NAMAZI ..... 170
*Ayət namazının qaydaları* ..... *171*
*Ayət namazının hökmləri* ..... *171*
**34-CÜ DƏRS** ..... **174**
MÜSTƏHƏB NAMAZLAR ..... 174
*Ğufeylə namazı* ..... *174*
*Ğufeylə namazının qaydası* ..... *174*
*Gecə namazı* ..... *176*
*Gecə namazının vaxtı* ..... *176*
*Müstəhəb namazlara aid ümumi qanun* ..... *177*
**35-CI DƏRS** ..... **180**
ORUC ..... 180
*Vacib oruclar* ..... *180*
*Haram oruclar* ..... *180*
*Müstəhəb oruclar* ..... *180*
*Niyyət* ..... *181*
**36-CI DƏRS** ..... **184**
ORUCU BATIL EDƏN ŞEYLƏR ..... 184
**37-CI DƏRS** ..... **187**
**38-CI DƏRS** ..... **193**
ORUCUN QƏZASI VƏ KƏFFARƏSI VACIB OLAN YERLƏR ..... 193

*Orucun kəffarəsi* ... 194
*Kimlərə oruc vacib deyil?* ... 195
*Səfər edən şəxsin orucu*** ... 196
**39-CÜ DƏRS** ... **198**
AYIN ƏVVƏLININ SÜBUT OLUNMASI YOLLARI ... 198
*Etikaf* ... 198
*Etikafın əhkamı* ... 199
*Etikafda haram olan işlər* ... 200
**40-CI DƏRS** ... **201**
ZƏKAT ... 201
*Nisab həddi* ... 201
*Buğda, arpa, xurma və kişmişin nisabı* ... 202
*Qızılın nisabı* ... 202
*Gümüşün nisabı* ... 203
*Inəyin nisabı* ... 204
*Qoyunun nisabı* ... 204
**41-CI DƏRS** ... **205**
ZƏKATIN ISTIFADƏ YERLƏRI ... 205
*Zəkatın istifadə olunan yerləri* ... 205
*Zəkatın niyyəti* ... 205
*Zəkatın ödənmə vaxtı* ... 206
*Fitrə zəkatı* ... 206
*Fitrə zəkatının hökmləri* ... 207
**42-CI DƏRS** ... **208**
XUMS (1) ... 208
*Nələrə xums düşməz* ... 209
*Xumsun hökmləri* ... 210
*2. Mədən* ... 210
**43-CÜ DƏRS** ... **213**
XUMS (2) ... 213
*3. Xəzinə* ... 213
*4. Harama qatışmış halal mal* ... 213
*5. Suyun dibinə girməklə əldə edilən cəvahir* ... 214
*6. Qənimət* ... 214
*7. Zimmi kafirin müsəlmandan aldığı torpaq* ... 214
*Xums verməməyin nəticəsi* ... 215
*Xumsun istifadə yerləri* ... 215
**44-CÜ DƏRS** ... **218**
HƏCC (1) ... 218
*Həccin vacib olma şərtləri1* ... 218
*Təməttu həcci* ... 219
*Təməttu ümrəsinin əməlləri* ... 219
*Ehram* ... 220
*Təvaf* ... 220
*Təvaf namazı* ... 220
*Səy* ... 221
*Təqsir* ... 221
**45-CI DƏRS** ... **222**
HƏCC (2) ... 222
*Təməttu Həccinin əməlləri* ... 222
*Məkkədə ehram bağlamaq* ... 222
*Ərəfatda dayanmaq* ... 222
*Məşərül-Həramda dayanmaq* ... 222
*Qurban gününün əməlləri* ... 223

*Böyük şeytana daş atmaq* ..... *223*
*Qurbanlıq* ..... *223*
*Təqsir etmək* ..... *223*
*Minada beytutə* ..... *223*
*Üç cəmərəyə daş atmaq* ..... *223*
*Təvafi-nisa* ..... *224*
*Ehramın haramları* ..... *224*
*Həm kişi, həm də qadınlara aid olan haramlar:* ..... *224*
*Yalnız kişilərə haram olan işlər:* ..... *225*
**46-CI DƏRS** ..... **226**
ƏMR BE MƏRUF VƏ NƏHY ƏZ MUNKƏR ..... 226
*Əmr be məruf və nəhy əz munkərin vacib olma şərtləri* ..... *226*
**47-CI DƏRS** ..... **229**
ALQI-SATQI (1) ..... 229
*Vacib alqı-satqı* ..... *229*
*Müstəhəb alqı-satqıl* ..... *229*
*Alqı-satqıda müstəhəb olan işlər:* ..... *230*
*Satıcı və alıcının şərtləri:* ..... *230*
*Məkruh alqı-satqı* ..... *230*
*Alqı-satqının növləri* ..... *231*
*Sələf müamiləsinin şərtləri* ..... *231*
*Sələf müamiləsinin hökmləri* ..... *232*
*Riba müamiləsi* ..... *232*
**48-CI DƏRS** ..... **234**
ALQI-SATQI (2) ..... 234
*Xiyarat* ..... *234*
*1. Xiyare məclis* ..... *234*
*2. Xiyare ğəbn* ..... *234*
*3. Xiyare şərt* ..... *234*
*4. Xiyare tədlis* ..... *234*
*5. Xiyare təxəllofe şərt* ..... *234*
*6. Xiyare eyb* ..... *235*
*7. Xiyare şirkət* ..... *235*
*8. Xiyare röyət* ..... *235*
*9. Xiyare təxir* ..... *235*
*10. Xiyare heyvan* ..... *235*
*11. Xiyare təəzzürü təslim* ..... *235*
*Xiyaratın hökmləri* ..... *235*
**49-CU DƏRS** ..... **238**
ICARƏ, CÜALƏ, BORC, RƏHN, HƏVALƏ, ZƏMANƏT ..... 238
*Icarəyə verilən malın şərtləri:* ..... *238*
*Icarənin müxtəlif məsələləri* ..... *238*
*Cüalə* ..... *239*
*Borc* ..... *239*
*Borcun hökmləri* ..... *239*
*Rəhn (girov)* ..... *240*
*Həvalə* ..... *240*
*Zəmanət* ..... *240*
*Zəmanətin hökmləri* ..... *241*
**50-CI DƏRS** ..... **243**
VƏKALƏT, VƏDIƏ, ARIYƏ ..... 243
*Vəkalət* ..... *243*
*Vəkalətin hökmləri* ..... *243*
*Vədiə (əmanət)* ..... *243*

*Əmanətin hökmləri* ........ 244
*Ariyə* ........ 244
**51-CI DƏRS** ........ **246**
ŞIRKƏT (ŞƏRIK OLMAQ), MÜZARIBƏ ........ 246
*Şirkət* ........ 246
*Müzaribə* ........ 246
*Müzaribənin şərtləri* ........ 247
*Müzaribənin hökmləri* ........ 247
*Amilin zamin olma məsələsi* ........ 249
**52-CI DƏRS** ........ **251**
NƏZIR VƏ AND ........ 251
*Nəzirin kəffarəsi* ........ 252
**53-CÜ DƏRS** ........ **254**
SƏDƏQƏ, HIBƏ, SÜLH VƏ TAPILAN MALIN HÖKMLƏRI ........ 254
*Sədəqə* ........ 254
*Sədəqənin hökmləri* ........ 254
*Hibə* ........ 254
*Sülh (razılaşma)* ........ 255
*Tapılan malın hökmləri* ........ 256
**54-CÜ DƏRS** ........ **258**
YEMƏK VƏ IÇMƏK (1) ........ 258
*Yemək və içməyin hökmləri* ........ 258
*Heyvan mənşəli yeməklər:* ........ 258
*Yemək yeyəndə müstəhəb olan işlər* ........ 258
*Yemək yeyəndə məkruh olan işlər* ........ 259
*Su içməyin müstəhəbbatı* ........ 259
*Su içməyin məkruhatı* ........ 260
*Quşlar* ........ 260
*Su heyvanları* ........ 260
*Ümumi qanun* ........ 262
**55-CI DƏRS** ........ **263**
YEMƏK VƏ IÇMƏK (2) ........ 263
*Heyvanın başının kəsilməsi və heyvan ovu* ........ 263
*Heyvanın başının kəsilmə qaydası* ........ 263
*Heyvanın başının kəsilməsindəki şərtlər* ........ 263
*Silah ilə ov etmənin hökmləri* ........ 263
*Ov iti ilə ov etmək* ........ 264
*Balıq ovu* ........ 264
**56-CI DƏRS** ........ **266**
BAXMAĞIN HÖKMLƏRI ........ 266
MƏHRƏM VƏ NAMƏHRƏM ........ 266
*Məhrəm olmanın səbəbləri:* ........ 266
*Nəsəbi məhrəmlər* ........ 266
*Səbəbi məhrəmlər* ........ 267
*Rizai məhrəmlər* ........ 267
*Süd vermənin şərtləri* ........ 268
*Baxmağın hökmləri* ........ 269
*Örtünmə* ........ 270
**57-CI DƏRS** ........ **271**
EVLƏNMƏ ........ 271
*Ləyaqətli həyat yoldaşı* ........ 271
*Ailə qurmaq üçün kişinin layiqli xüsusiyyətləri* ........ 271
*Əqdin hökmləri* ........ 272
*Ümumi qanun* ........ 272

*Əqiqə* ... 272
*Təlaq* ... 272
*Təlağın şərtləri.* ... 272
*Təlaq siğəsi* ... 273
*Təlağın növləri* ... 273
*Rici təlağı* ... 273
*Bain təlağı* ... 273
*Xül təlağı* ... 274
*Mübarat təlağı* ... 274
*Təlaq iddəsi* ... 274
*Iddə müddəti* ... 274
*Əri ölən qadının iddəsi* ... 275
**58-CI DƏRS** ... **276**
VƏQF, VƏSIYYƏT ... 276
*Vəqf* ... 276
*Vəqfin şərtləri* ... 276
*Vəqfin hökmləri* ... 276
*Vəqfin bəzi nümunələri və onların hökmləri* ... 277
*Vəsiyyət* ... 277
*Vəsiyyət olunan işlər* ... 278
*Malın vəsiyyəti* ... 278
**59-CU DƏRS** ... **280**
MEYYIT HÖKMLƏRI (1) ... 280
*Müsəlman şəxs can verərkən:* ... 280
*Meyyit qüsulu* ... 281
*Meyyitin kəfəni* ... 283
*Meyyitin kəfəninin şərtləri* ... 283
**60-CI DƏRS** ... **285**
MEYYIT HÖKMLƏRI (2) ... 285
*Meyyit namazı* ... 285
*Meyyit namazının şərtləri* ... 285
*Meyyit namazının hökmləri* ... 286
*Meyyit namazının müstəhəbləri* ... 286
*Dəfnin hökmləri* ... 287
*Dəfn və onun qaydaları* ... 287
**61-CI DƏRS** ... **290**
MEYYIT HÖKMLƏRI (3) ... 290
*Dəfnin müstəhəbləri* ... 290
*Qəbrin qazılmasında və dəfn yerinin müstəhəbləri:* ... 290
*Dəfn edərkən müstəhəb olan işlər* ... 290
*Meyyiti qəbrə qoyan şəxsə müstəhəb olan işlər* ... 291
**62-CI DƏRS** ... **293**
IRS ... 293
*Irs çatan şəxslər* ... 293
*Irsin müxtəlif məsələləri* ... 295
*Ər və arvadın irsi* ... 296
**63-CÜ DƏRS** ... **297**
BƏZI GÜNAHLARIN HÖKMLƏRI ... 297
*Qəsb* ... 297
*Qəsbin hökmləri* ... 297
*Yalan* ... 297
*Qeybət* ... 298
*Gina* ... 298
*Musiqi* ... 298

*Ümumi qanun* ........ 299
*Rəqs* ........ 299
*Üzü qırxmaq* ........ 299
*Qumar* ........ 299
*Hamiləliyin qarşısını almaq* ........ 300
*Uşaq salmaq* ........ 300
*Uşaq salmağın diyəsi* ........ 301
İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR ........ 302
*Mündəricat* ........ 303